AMEA FƏLSƏFƏ, SOSİOLOGİYA VƏ HÜQUQ İNSTİTUTU
"POLİTOLOGİYA VƏ SİYASİ SOSİOLOGİYA" ŞÖBƏSİ

# AZƏRBAYCANDA POLİTOLOGİYA VƏ SİYASİ SOSİOLOGİYANIN AKTUAL PROBLEMLƏRİ

## I HİSSƏ

- 12940 -

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

Bakı - "Təknur" - 2013

66.4(5Az)...
A 95

**Elmi məsləhətçi:** **İlham Məmmədzadə**

**Müəlliflər kollektivi:** İ.Məmmədzadə, R.Mirzəzadə, L.Mövsümova, Z.Ağayeva, Ə.Tağıyev, H.Həmidov, M.Sərdarov, D.Həşimov, Z.Əliyev, Ş.Bağırov, L.Mirzəzadə, Ə.İbrahimov, E.Əsədov, K.Məmmədov, S.Həsənov, R.Rüşanzadə, M.Kərimov

**Redaktor məsləhətçi:** f.e.d. T.Allahyarova
f.e.d. Y.Türkel (Babayev)

**Köməkçi heyət:** T.Quliyev, K.Qasımova, N.Əlicanova, S.Quliyeva, R.Məmmədyarova

**Texniki köməkçilər:** M.Qarayeva, S.Əliyeva, Ü.Xankişiyeva

**Məsul katib: Telman Quliyev**

*Kitabın hazırlanmasında böyük köməyi olmuş f.ü.f.d. Səidə Əliyevaya xüsusi təşəkkürümüzü bildiririk.*

**Azərbaycanda Politologiya və siyasi sosiologiyanın aktual problemləri. I hissə. Bakı - "Təknur" - 2013. 192 səh.**

Kitabda politologiya və siyasi sosiologiyanın müasir aktual problemləri tədqiqata cəlb olunmuşdur. Burada siyasi elmin və sosiologiyanın nisbəti, müasir Azərbaycan cəmiyyətinin siyasi sosiallaşması, milli təhlükəsizlik, daxili siyasət, dövlətlərarası münasibətlər və s. mövzulara həsr olunmuş vacib məsələlər araşdırılmışdır.

**ISBN: 978-9952-445-09-4**

**© AMEA FSHİ, 2013**

## MÜNDƏRİCAT

Giriş ........ 4
Siyasi elmlərin və sosiologiyanın nisbəti məsələləri ........ 8
Siyasi sosiologiya elm kimi ........ 25
Müasir Azərbaycan cəmiyyətinin siyasi sosiallaşması problemləri ........ 33
Azərbaycanda Dövlət Ailə sıyasəti və müasir şəxsiyyətin formalaşması ........ 54
Azərbaycan Respublikasının enerji təhlükəsizliyi siyasəti ........ 72
Ekoloji siyasət Azərbaycanın daxili siyasətinin tərkib hissəsi kimi ........ 92
Miqrasiya prosesləri Dövlət Milli Təhlükəsizlik siyasətinin tərkib hissəsidir ........ 111
Azərbaycan - Türkiyə münasibətləri iki dövlətin xarici siyasət kontekstində ........ 132
Azərbaycanın Rusiya ilə sosial-siyasi və iqtisadi münasibətlərində yeni mərhələ ........ 144
Müasir Azərbaycan-İran münasibətləri ........ 163
Amea fəlsəfə, sosiologiya və hüquq institutu "Politologiya və siyasi sosiologiya" şöbəsi ........ 185

## GİRİŞ

Cəmiyyətin inkişafının müxtəlif dövrlərində elmin inkişaf səviyyəsi elm nümayəndələrini, tədqiqatçıları eyni zamanda narahat edən əsas məsələlərdən biri olsa da, bu baxımdan müasir elm bir sıra xüsusiyyətləri ilə fərqlənir. Bu fərqləri ilk növbədə yaşadığımız qlobal, postindustrial və ya informasiya cəmiyyətinin tələb və çağırışları ilə əlaqələndirmək daha məqsədəuyğun olardı. Əgər bir vaxtlar elm sahələri haqqında " problemlərin tükəndiyi elm sahəsi məhvə məhkumdur " fikri hakim idisə, müasir dövrdə bu hökmün aktuallığı elə də yüksək deyildir. Çünki dünyanın aparıcı inkişaf strategiyasının əsasını təşkil edən qloballaşma prosesləri elm sahələrinin qarşısında elə mürəkkəb tələb və çağırışlarla çıxış edir ki, hər hansı bir elm sahəsində problemin tükənməsini düşünmək çox çətindir. Ona görə də, elmin inkişaf səviyyəsi və dayanıqlığı elm sahələrinin müasir dövrün tələb və çağırışlarına nə dərəcədə cavab verməsi, cəmiyyətin inkişaf sürətilə nə dərəcədə uzlaşması ilə ölçülür.

Respublikamızda elm və elmşünaslığın inkişafının müasir dövrün tələb və çağırışları baxımından istiqamətləndirilməsi dövlət siyasətinin prioritet məqsədidir. Bu baxımdan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2011-ci il 29 noyabrda imzaladığı "Azərbaycan 2020: Gələcəyə baxış" inkişaf strategiyasının hazırlanması haqqında sərəncamı Azərbaycan Respublikasında elmin inkişafını təşkil və təmin edən, elim və elmi-texniki siyasəti həyata keçirən ali dövlət orqanı kimi Azərbaycan Milli Elmlər Akademiyasının qarşısında çox mühüm vəzifələr qoyur.

Bu konsepsiyanın hazırlanmasında Azərbaycan Respublikasında elmin inkişafının təşkil və təmin edilməsinin, müasir elmin inkişaf tələblərinə uyğunlaşdırılması və inteqrasiyası prioritet istiqamət kimi müəyyən edilmişdir.



Yaşadığımız qloballaşma dövrü eyni zamanda sürət əsri adlandırılır. Ona görə də, istənilən elm sahəsinin cəmiyyətin inkişaf tempi ilə uyğunlaşması müasir elmi inkişafın çox vacib şərti sayılır. Müasir elmin mövcud problemləri həll etmək və gələcək problemlərdən xəbər vermək qabiliyyəti ona cəmiyyətdə olan münasibəti müəyyən edir. Qoyulan tələblərə cavab vermək üçün hər bir elm sahəsi yenilənməyi, mövcud elmi nəzəri baxışları yeni dövrün dəyərləri baxımından araşdırmağı və öz dövrünü qabaqlamaqla yanaşı, həm də proqnozlar verməyi bacarmalıdır. Bu baxımdan "Politologiya və siyasi sosiologiya" şöbəsinin müasir dövrdə siyasi proseslərin cəmiyyətə və eyni zamanda əks əlaqəni əks etdirən siyasət elminin müasir vəziyyətini tədqiq edən " Politologiya və siyasi sosiologiyanın aktual problemləri" adlı elmi araşdırmalar toplusu çox mühüm əhəmiyyət kəsb edir. Bu topluda müasir politologiya və siyasi sosiologiyanın müxtəlif məzmunlu mövzuları yer alsa da, bu mövzuları əlaqələndirən və ümumiləşdirən ümumi bir xətt mövcuddur. Bu xətt hər bir mövzunun müasir Azərbaycan reallıqları baxımından təhlil edilməsi ilə bağlıdır. Onu da qeyd etmək lazımdır ki, bu topludakı araşdırmalarda siyasi sosioloji istiqamətə daha geniş yer verilmişdir ki, bunun da səbəbi siyasi sosiologiyanın respublikamızda politologiya ilə müqayisədə nisbətən yeni sahə olması və az işlənilməsidir. Ona görə də Azərbaycanda siyasi sosiologiyanın bir elm kimi öyrənilməsi, onun yaranma tarixi, predmeti və funksiyaları topluda xüsusi olaraq tədqiq və təhlil edilmişdir. Bu topluda politologiya və siyasi sosiologiyanın qarşılıqlı əlaqələri və nisbəti məsələləri də təhlil olunmuşdur.

Siyasətdən danışarkən hakimiyyət mövzusuna toxunmamaq qeyri mümkündür. Siyasətin əsasını təşkil edən hakimiyyət dövlət və onun təsisat və resursları ilə təqdim olunaraq, ümumi , xüsusi və qrup maraqları effektiv şəkildə təmin edir və beləliklə, hər hansı bir qrup, partiya, hərəkat və ya

dövlətin rəqabət obyektinə çevrilir.

Şəxsiyyətlər dövlətin vətəndaşı olmaqla hakimiyyətlə qarşılıqlı fəaliyyət göstərir, dövlət idarəetməsində iştirak edir. Bu proseslərdə şəxsiyyətin siyasi sosiallaşması çox mühüm əhəmiyyət kəsb edir. Topluda siyasi sosiallaşmanın xüsusiyyətləri, növləri, mərhələləri, konkret olaraq şəxsiyyətin və xalqın həyatında oynadığı rol təhlil edilir. Müstəqillik əldə etmiş Azərbaycan xalqının siyasi sosiallığı onun bugünkü real həyatı ilə konkret nümunələrlə əsaslandırılır.

Sosial institutların siyasi sistemə və siyasi proseslərə təsiri Azərbaycanda dövlət ailə siyasəti və müasir şəxsiyyətin formalaşması fonunda öyrənilir. Dövlət ailə siyasəti sosial siyasətin müstəqil istiqaməti kimi təhlil edilir, dövlət sosial institut kimi ailə siyasətinin mühüm obyekti kimi çıxış edir, ailə siyasətinin əsasında duran ümumbəşəri və milli dəyərlər geniş araşdırılır.

Topluda fərdi resurslar hesabına ödənilməsi mümkün olmayan tələblərin meydana gəlməsilə yaranan siyasi institutlar siyasi sistemin vacib elementləri kimi tədqiq edilir. Əsas diqqət siyasi sistemin vacib institutu sayılan dövlət və onun təhlükəsizliyi məsələlərinə yönəldilmişdir. İlk növbədə, dövlətin siyasi institut kimi təyinatı müəyyən edilir, onun mövcudluğunu təmin edən milli təhlükəsizlik və milli maraqlar öyrənilir. Milli təhlükəsizlik siyasətinin əsas məqsəd və prinsipləri milli təhlükəsizlik konsepsiyası əsasında araşdırılır.

Dövlətin daxili siyasətinin tərkib hissəsi kimi ekoloji siyasət tədqiqata cəlb edilmiş, Azərbaycan Respublikasının ekoloji siyasəti təhlil edilərək bir sıra təkliflər irəli sürülmüşdür.

Milli təhlükəsizlik siyasətinin əsasını təşkil edən və vacib elementi sayılan enerji təhlükəsizliyi müstəqil mövzu kimi tədqiq olunmuşdur. Enerji təhlükəsizliyi məsələsi geosiyasətin çox vacib elementi kimi təhlil olunur və beynəlxalq münasibətlərin inkişafının mühüm amili kimi qiymətləndirilir.

Siyasi proseslərdə daxili amillərlə yanaşı, xarici amillər



də çox mühüm əhəmiyyət kəsb edir. Müasir dövrdə müxtəlif dövlətlərin qarşılıqlı əlaqə və qarşılıqlı asılılıq səviyyəsi o qədər güclüdür ki, daxili siyasətdə xarici faktorların yerini və rolunu nəzərə almadan effektivliyi təmin etmək mümkün deyildir. Bu proseslərdə qonşu dövlətlərlə münasibətlərin düzgün qurulması çox mühüm şərtdir. Bunu nəzərə alaraq topluda Azərbaycan Respublikasının xarici siyasət strategiyası əsasında Qafqaz regionu, Türkiyə, Rusiya, İran kimi qonşu dövlətlərlə strateji münasibətlərin təhlili tədqiqata cəlb edilmişdir.

Əziz oxucular, ilk təcrübə kimi bu toplunun hazırlanmasında və sizlərə təqdim olunmasında əsas məqsəd siyasi elmin aktual problemləri ilə məşğul olan tədqiqatçıları müasir politologiya və siyasi sosiologiyanın əsasları və yeni siyasi tədqiqat istiqamətləri ilə tanış etməkdir. Bu toplunun respublikamızda vətəndaşların siyasi baxımdan maariflənməsinə və yetkinləşməsinə xidmət edəcəyinə inanan müəlliflər oxucuların və araşdırıcıların toplu ilə bağlı hər hansı irad və təkliflərini də qəbul etməyə böyük məmnuniyyətlə hazırdır.

## SİYASİ ELMLƏRİN VƏ SOSİOLOGİYANIN NİSBƏTİ MƏSƏLƏLƏRİ

Azərbaycanda siyasi elmlərin inkişaf tarixi nisbətən yenidir. Düzdür, bu sahədə bir çox ciddi konseptual əsərlər yazılsa da, zəif işlərə də rast gəlmək olar. Buna görə də bu gün biz politologiyanın sosiologiya, fəlsəfə ilə münasibətləri, siyasi mətnin elmi mətnə necə çevrildiyi barədə danışacağıq. Burada bir şeyi də dəqiqləşdirmək lazımdır ki, bu qarşılıqlı əlaqələrin başa düşülməsi bizə demokratiyanın, modernləşmə proseslərində, siyasi proqnozlaşdırmanın inkişafında və s. nə dərəcədə kömək edə bilər.

İlk baxışda siyasətin özü həqiqətdən uzaqdır, o maraqların, qüvvələrin, niyyətlərin toqquşması deməkdir. Amma yaddan çıxarmaq lazım deyil ki, o insana müharibələrdən, zorakılıqdan, yoxsulluqdan uzaq olmaq imkanı da yaradır. Buna görə də çalışıb bunu izah edək ki, siyasi nəzəriyyə, təhlil bizə nəyə görə lazımdır. Bu anlayışları da ona görə işlədirik ki, siyasi elm analitik və narrativ, bəhsedici, təsiredici ola bilsə də, sübutedici ola bilməz. Düzdür, narrativlik analitikaya tam laqeydliyi şərtləndirə bilməz, çünki o özü də nüfuz axtarır. Eyni zamanda o kütləvi istəklərə, ictimai illüziyalara və təsəvvürlərə də laqeyd ola bilməz. Buna müvafiq olaraq da siyasi elm öncə metodologiyaya, metodologiya ikinci plana keçdiyində isə təsirə əsaslanır. Məsələn, siyasətdə iqtisadi metodologiyanın ilkinliyini K.Marks, F.Brodel, siyasi-mədəni metodologiyanın ilkinliyini Q.Almond, S.Verba və R.Payps iddia edirdilər. Bu və ya digər şəkildə onların hamısı ona əsaslanırdılar ki, metodologiya liderlərin, partiyaların və kütlələrin siyasət üçün zahiri olan niyyətlərinin, əməllərinin və davranışlarının dərinliyinə nüfuz etməyə imkan verir.

Metodologiya haqqında düşünərkən, biz ilk olaraq siyasətə sistematik-çoxtərəfli nəzəri yanaşma göstərməyə çalışan N.Makiavellini yada salmaya bilmərik. (Bax: Hans Frayer, "Makiavelli", S-P. 2011). Qeyd etmək istərdik ki, bizim siyasət elminə marağımız da elə Makiavellidən başlamış və bu da bizim siyasi tədqiqatların metodologiyasına və ciddi siyasi analitikanın sosiologiya, tarix, statistik məlumatlar və s. arasında əlaqələrin təhlilinə göstərdiyimiz diqqəti izah edir. Burada bu əlaqələri ayrılıqda deyil, eyni vaxtda, məcmu şəklində araşdırmaq vacibdir. Siyasi məlumatlar, nəticələr sosiologiyaya, tarixə və əksinə, zidd ola bilməz. Yeri gəlmişkən bu məqamı K.Marks, Brodel və başqaları da vurğulayırdılar. Düzdür, etiraf etmək lazımdır ki, onlar ziddiyyət təşkil edə bilməz və etməməlidirlər də. Tezislərin ziddiyyətsizliyi, məntiqliliyi prinsipi kimi yüksək tələbə nail olmaq bir o qədər də asan deyil. Bir çox müasir tədqiqatçılara elə gəlir ki, elə Makiavelli özü müstəsna dərəcədə ziddiyyətli müəllif olub, tez-tez «Məqsəd vasitələrə haqq qazandırır» prinsipini onun adına çıxırlar.Lakin bu prinsip özü də müstəsna dərəcədə ziddiyyətli idi. Belə ki, mənəviyyatın insan üçün nə anlam daşıdığı qədimdən məlumdur: əgər yaxşı məqsədlər yaramaz vasitələrə haqq qazandırırsa, onda onlar yaramaz məqsədlərə çevrilirlər. Lakin Makiavelli onu da düşünürdü ki, hökmdar necə olmalıdır; o, onun obrazını, nüfuz və qüvvəsini, eləcə də iradəsini, müvəffəqiyyəti və zərurəti konkret siyasi davranış, siyasi praktika ilə əlaqələndirirdi. Ümumiyyətlə, o, siyasətdə məqsədlər haqqında mənəvi tezisi «hökmdar» və hakimiyyət tipi ilə əlaqələndirmişdi, yəni onu strategiya və taktika, müvəffəqiyyətlilik və s. haqqında texnoloji tezisə çevirmişdi. O, Monten kimi moralist deyildi, onu mənəviyyat narahat etmirdi, lakin o, siyasi şüurun (təfəkkürün), siyasi hərəkətin, iradə və nəticənin hökmdar üçün mürəkkəb hörgüsünü, ziddiyyətdən xali olmayan dialektik vəhdətini görən ilk şəxs olmuşdur. (Bu barədə bax: И.Мамед-заде: «Политика и мораль», Баку, 1988; «Введение в этику», «Муаллим», стр. 59-60). Təbii ki, fikirlərin ziddiyyətliliyi və alimlərin araşdır-

dığı siyasi praktikanın ziddiyyətliliyi arasında prinsipial fərq vardır.

Fikirlərin ziddiyyətliliyi məsələsi metodologiyanın istifadəsi, onun necə tətbiq olunduğundan asılıdır. Prinsipcə, bütün siyasi problematika tədqiqat metodologiyasının (siyasi iqtisad və siyasi fəlsəfə), siyasi təhlilin (elə siyasi nəzəriyyənin özü) və siyasi moralistikanın köməyi ilə açıla bilər. Metodologiya, siyasətçilər üçün bir o qədər də əhəmiyyətli olmayan, praktik siyasətçilər üçün isə anlaşılmaz olan həqiqətin axtarılması və aşkarlanması üçün alimlərin köməyi ilə yaradılır. Lakin o məlumatlarla ciddi yoxlanan elmin, analitikanın əsaslarını qoyur. Sonra isə, onların çox vaxt publisistika və moralistika tərəfindən preparat halına salınmış, KİV tərəfindən tirajlaşdırılmış, siyasi aktivistlərin özlərinin öz maraqlarını anlaması prizmasından təqdim edilən ayrı-ayrı tərkib hissələri cəmiyyətdə şüurun formalaşmasına və siyasətdə iştirakına təsir göstərirlər. Əlbəttə, politologiyanın və sosiologiyanın baza anlayışları fəlsəfədə formalaşmışlar. Buna görə də metodologiyaya aktual anlayışların məzmunu və onların qarşılıqlı hərəkətinin məntiqinin açılması daxildir. Lakin moralistika ilə əlaqəsiz bu bilik kütləvi şüurda yayılmır, qapalı qalır.

Gəlin lap elə politologiya və sosiologiyada etnopolitologiya və etnopsixologiya ilə bağlı hər bir şeyə olan trendi nəzərə alaraq, etnos anlayışını götürək. Elə o dəqiqə də deyək ki, ingilis elmi dilində bu anlayışın birbaşa analoqu yoxdur. Orada «etnikliyin və siyasətin tədqiqi» anlayışı işlədilir. ABŞ-da isə «tətbiqi siyasi elmlər» anlayışını işlədirlər. Lakin bütün politoloqlar və sosioloqlar, o cümlədən bizimkilər də, onunla qarşılaşdıqları, birinci çətinlik odur ki, onlar «millət», «etnos», «siyasi mədəniyyət» anlayışının məzmununu müəyyən etməyiblər, ikincisi isə budur ki, sanki buna görə onları nəzərə almamaq olar. Fikrimizcə, bir şeyi fərqləndirmək lazımdır ki, bu anlayışlar həm fəlsəfi, ontoloji (siyasi-fəlsəfi) diskursa, həm də söhbət konkretika, bu və ya digər cəmiyyətdə tarixi diskursun da daxil olduğu bu və ya digər anlayış haqqında təsəvvürlərdən gedəndə siyasi-sosioloji diskursa da malik olurlar. Özü də bu anlayışların məzmununda nəyin həm fəlsəfi, həm də siyasi-sosioloji və tarixi tədqiqatın tərkib elementi olduğunu fərqləndirmək lazımdır. Məsələn, əgər etnos və millət anlayışlarının fərqli olduğu vurğulanmasa, onda fəlsəfi kontekstdə aydın olur ki, biz mordialçı yanaşma, Lev Qumilyov və s. ilə üzləşmişik. Lakin siyasi-politoloji kontekstdə digər kontekstlər də meydana çıxır, yəni əgər etnos və millət anlayışı fərqləndirilmirsə, millət, xalq, vətəndaşlıq, əhali anlayışlarını necə fərqləndirmək olar, müxtəlif ölkələrin tarixini necə araşdırmaq olar? Və ən əsası Qumilyova görə sosiumdan yox, təbiətdən asılı olan (təbiət reduksionizmi) gələcəyi neyləyək? Və əksinə əgər biz millətin layihələşdirilməsi, onun etnosdan fərqlənməsi haqqında Y.Habermasın modern ideyasını götürsək, onda aydın olmur ki, insanların konkret təsəvvürlərini, onların tarix anlayışını neyləmək lazımdır? (Bu barədə ətraflı bax: И.Р.Мамед-заде, «О философии», Баку, 2011).

Beləliklə, metodologiyanın rolu ondan ibarətdir ki, o anlayışların məzmununu və məntiqini açaraq «mətni», inkişaf konsepsiyasını izah edir ki, bu da sosioloqlara, tarixçilərə, kulturoloqlara onları öz mühakimələrində, sorğularda və s. tətbiq etməyə imkan verir. Misal üçün, bu gün bir çox sosioloqlar siyasi publisistikada «detsil koeffisenti» anlayışından istifadə edirlər, bu da o deməkdir ki, əgər bu gün ən varlı əhalinin gəlirlərinin 10%-i ilə və ən kasıb əhalinin gəlirlərinin 10%-nin nisbəti 10:1-dən yuxarıdırsa, onda bu ölkənin taleyi üçün katastrofik ola bilər. Əslində isə bu, qədim Yunanıstandan olan Platonun dahi bir öngörməsi, gümanıdır. O, müəyyən etmişdir ki, bu nisbət 1:10-dan çox olmamalıdır, zira əks-təqdirdə cəmiyyət dağılır. Aydındır ki, detsil koeffisentinin pozulmasından meydana çıxan kəsərli-

lik və ya dağılma təhlükəsi ilə bağlı bir çox şey həm ənənələrdən, mədəniyyətdən, iqtisadiyyatın növündən və bir çox başqa şeylərdən asılıdır. Belə ki, SSRİ-də uyğunsuzluq 1:4 idi və ölkə dağıldı. Bu günkü Rusiyada bu nisbət 1:15-dir, bəzi alimlər isə bunu 1:40 hesablayırlar, ölkə isə dəyişdirilməyə və modernizasiyaya ümid edir. Belə çıxır ki, nəyəsə, hətta çox vacib bir şeyə diqqətsizlik, hələ möhkəm siyasi düşüncə və nəticəyə əsas vermir.

Misal üçün, Epikür, belə hesab edirdi ki, ədalət hamı üçün eynidir, o qarşılıqlı ziyan vurmağa qoymur. Lakin bu o demək deyil ki, o hamı üçün eynidir, o, qeyd edirdi ki, çox şey ölkədən, dövrdən, şəraitdən asılıdır. Platonun özü üçün isə bu bilik belə bir şeyi anlamaq zərurətində gizlənirdi ki, məqsəd nədir: dövlət, yoxsa ədalət, ictimai, yoxsa fərdi ədalət? (Bax: Д.Бугай, «Город свиней» - «Государство» Платона, (368-373)// «Вопросы философии» №7, 2012, с.146-147). Buna görə də aydındır ki, nəyə görə detsil koeffisentinin vacibliyindən çıxış edənlər də, ona etinasız olmağı mümkün hesab edənlər də, metodologiyalarsız, nəzəriyyələrsiz, daha dolğun sosioloji məlumatlarsız öz ideyalarını əsaslandıra bilmirlər. Əslində isə gəlirlərdəki uyğunsuzluq təhlükəsi əlbəttə ki, mövcuddur, lakin o özünü müxtəlif mədəniyyətlərdə, dövrlərdə, müxtəlif iqtisadi situasiyalarda və s. müxtəlif cür göstərir, bəzi hallarda isə o inkişafa səbəb olur.

İndi isə götürək Çinin islahatlar tarixini. Bir çoxları üçün o «case study»dir. Onlar 1990-cı illərin axırlarından belə hesab edirdilər ki, ölkəni Çindəki kimi dəyişdirmək lazımdır. Lakin ölkə haqqında məlumatlar, orada nə baş verdiyi haqqında biliklər stereotip səviyyəsində idi. Fərz edək ki, bu ölkədə nə baş verdiyi haqqında informasiyanı rusdilli və ya ingilisdilli ədəbiyyatdan götürmək olar. Onda bəs, Azərbaycan, bizim Azərbaycandakı vəziyyəti açmaq üçün fəlsəfədən istifadə etdiyimiz konkret anlayışlarla ümumi anlayışlar arasındakı qarşılıqlı əlaqə haqqındakı biliklər nə olsun? ABŞ-



dan olan transformasiya layihəsi (Şərqi Avropa layihəsi) 90-cı illərdə Şərqi Avropada yaxşı nəticələr verdi, Rusiyada isə iflasa uğradı. Bunu bir çox amerikan alimləri, siyasətçiləri də etiraf edirlər. Azərbaycanda da onların bir çox tövsiyələri də nəticə vermədi. Yaxud, indi başqa bir nümunəyə baxaq, bu dəfə isə geosiyasətdən. Bütün politoloqlar iki hissəyə ayrıldı, biri Azərbaycanın «Qərb»ə, o birisi isə «Şərq»ə orientasiyasına tərəfdar çıxdı. Bu zaman bizə seçimimizin biliklərimizdən, hərəkətlərmizdən, geosiyasi situasiyadan nə qədər asılı olduğunu izah edə biləcək mətnlərə ehtiyac yaranır. Bu barədə N.Məmmədov özünün «Geosiyasətə giriş» əsərində (Bakı,»Azərbaycan», 2011) ətraflı yazır.

Aydındır ki, siyasətdə geosiyasi faktor əhəmiyyətlidir, lakin o da aydındır ki, hər şeyi ona calamaq olmaz, zira geosiyasətin də öz geofəlsəfəsi, geoiqtisadiyyatı, hətta, öz etikası var. Beləliklə, metodologiya və analitikasız elm vətəndaşların şüuruna öz təsirini itirir, alimlərin məşğul olduqları şeyi yox, çox vaxt özlərinin «yüngül çəkili» mənimsəmələrini tirajlayan siyasi moralistlərin, publisistlərin təsəvvürləri ilə formalaşır. Əlbəttə, bu gün digər ölkələrdə olduğu kimi, Azərbaycanda da siyasi publisistika var. Sadəcə onun təhlükəsi ondadır ki, o bir çox səbəblərə görə elmi, fəlsəfəni və sosiologiyanı sıxışdırır, onlarsız isə gerçəklik bəsitləşir, vətəndaşların şüuru, təhsil sistemi birtərəfli olur və s. Onun sadəliyi ondadır ki, yazan adam gerçəkliyi öz dəyərlər sisteminə görə korrektə edir. Ondan çıxış edir ki, əgər nəsə mənim xoşuma gəlirsə, mən buna bəraət qazandırıram, xoşuma gəlmirsə mühakimə edirəm. Bu cürə «xoşuma gəlir-gəlmir» meyarlı moralistika da insanlara təsir edən konstruksiya düzəldir. Və o da yeri gəlmişkən, bir çox ictimai elmlərə də daxil olmuşdur.

Öz metodundan istifadəyə və ya metodlar sisteminə görə məsuliyyət ancaq alimlərə xasdır. O da maraqlıdır ki, belə bir elmin olması siyasi moralistikanı öz yerinə qoyur, o öz məka-

nına qayıdır. Həm də metodologiyadan istifadə edən, öz metodundan istifadəyə görə məsuliyyət daşıyan alim, ümumiləşdirmələr üçün əldə olan bütün məlumatları, materialları işləyib hazırlamalıdır, çox vaxt olduğu kimi «ona uyğun olmayanları» qüsurlu hesab edib atmamalıdır. Yeri gəlmişkən, kimsə, inanmaya bilər ki, fəaliyyətdə olan siyasətçilərə metodun tətbiqində, bütün materialların, məlumatların və s. istifadəsində bu məsuliyyət gərəkli və faydalı ola bilər. Ancaq əslində, məlumatların dolğunluğu, düşünmək məharəti və bütün ziddiyyətli materialı ümumiləşdirmək bacarığı gerçəklik haqqında məlumat verir ki, bu da öz növbəsində praktik siyasətçiyə artıq perspektivləri hesablamaq və risklərə reaksiya göstərmək imkanı yaradır. Bundan başqa, burada artıq çoxlarının xatırlamadığı «şüurlu dövlət» ideyasını yada salmamaq mümkün deyil, hər bir modernizasiya onun aktuallığını qaytarır. Dəqiqlik xatirinə deyək ki, 50-60-cı illərdə yeni demokratik Qərbi Almaniyanın formalaşması bu əgidə altında gedib. Bu informasiyanın kütlələrə gərəkliliyi isə artıq başqa söhbətdir. Elə bax burada sosioloqlar, moralistlər və başqaları öz sözlərini deməlidirlər. Bu fikrin daha aydın olması üçün Dağlıq Qarabağ münaqişəsini misal götürək. Danışıqlar prosesinin konkretikasındakı bir çox şey kadr arxasında qalır, bu məlum məsələdir. O da aydınıdır ki, burada prosesə sistem baxışa malik bacarıqlı peşəkarlar iştirak edir. Lakin bir vaxt elə bir situasiya yaranır ki, burada çoxluğun rəyini, belə deyilən ictimai rəyi «döndərmək» lazım gəlir, amma o dönmür. Və heç də bütün situasiyalarda onu məcbur etmək olmaz, zamanla o, yəni, rəy hamını tabe edir, lakin o elə ona görə rəydir ki, o səhv edə bilər.

Qeyd etmək lazımdır ki, metodolgiyanın problemləri hər bir elmin inkişafı üçün maraq kəsb edir. Və elmin bir çox inkişaf etmiş sahələrində də bu heç mübahisə də doğurmur (metodologiya hər yerdə lazımdır). Lakin Azərbaycanda politologiya elmi hələ təzəcə inkişaf etdiyinə görə çox vaxt bu məsələnin vacibliyi tədqiqatçılar tərəfindən dərk olunmur. Görkəmli politoloq C.Sartori hələ 70-ci illərdə özünün «Müqayisəli politologiyada konseptlərin təhrifi» adlı məqaləsində politologiyanı da tutmuş metodoloji cəhalət haqqında yazırdı. Metodoloji təhriflər zamanla nəzərə çarpır. Məsələn, bu gün belə naqisliklərə hətta E.Tofflerin, F.Fukuyamanın və ya S.Hantingtonun əsərlərində də rast gəlmək olar. Elə götürək demokratiyaya münasibətdə «dalğa» anlayışını. Bu anlayış bütün müasir dünyanın demokratikləşməsinin mahiyyətini bir o qədər də dəqiq açmır. Yəqin əsl demokratiyanı bu və ya digər ölkəni bürüyən dalğa ilə müqayisə eləmək olmaz, bu çox vaxt xaricdən olan dalğanın əksinə gedən, dalğanın risklərinə cavab verə biləcək həmin ölkənin özündə olan dəyişikliklər prosesidir. Bunun üçün həm daxildən, həm də xaricdən daxil olan informasiya və s. idarə etmək lazımdır. Aydındır ki, bu alimlərin əsərlərinə şöhrəti onların situasiyanı, həqiqət anını izah etmələri gətirdi. Eyni zamanda, onların əsərləri zamanında ictimai rəyi nəinki Avropada, hətta, bütün dünyada idarə etməyə imkan verdi. Özlərinin ictimai rəyə təsirinin köməyi ilə onlar Sovet İttifaqının dağılmasına yardımçı oldular, postsovet məkanında islahatları müəyyən məcraya yönəltdilər və s. Lakin tezliklə aydın oldu ki, onlar dalğanın ancaq Qərbdən və Qərbin maraqlarına uyğun gəlməsini təmin ediblər, həm də onlar dalğanın örtdüyü kəslərin maraqlarını nəzərə almırlar. Özü də iş ancaq maraqların zorla qəbul etdirilməsindən getmir, heç başqa cür ola da bilməzdi, söhbət ondan gedir ki, hər bir ölkə öz maraqlarını başa düşə bilməlidir. Heç də təsadüfi deyil ki, ingilis dilində «şüurlu dövlət» anlayışı çox vaxt təkcə «reason state» yox, həm də «national interest»dir. Bu iş ümumi anlayışların fərqləndirilməsindən, siyasi-sosioloji və konkret məlumatların seçilib ayırd edilməsindən başlayır.

S.Hantinqtonun «Sivilizasiyaların toqquşması» əsəri ABŞ-ın qeyri-qərb ölkələrindəki nüfuzuna xələl gətirdi, çünki orada o Qərbin digər sivilizasiyalara qarşı müharibəsinə bə-

raət kimi başa düşüldü. Əslində, o həm də qloballaşma prosesində iştirak edən hər bir tərəfin maraqlarını dərk etməyə can atır, tədqiqatçını mədəni identikliyin formalaşması və inkişafı proseslərini öyrənməyə, riskləri nəzərə almağa sövq edirdi. Belə ki, o bunu vurğulayırdı: «... Qərbin universalist iddiaları çox vaxt başqa sivilizasiyalarla, onlardan ən ciddiləri olan islam və Çinlə konfliktə gətirib çıxarır... «qohum» ölkələrin birləşməsinə, münaqişənin sonrakı eskalasiyasına və bunun nəticəsi olaraq da, əsas ölkələrin bu müharibələri dayandırmaq səylərinə gətirib çıxarır»[1]. Qərbin yaşayıb sağ qalmasını da o Qərb sakinlərinin öz sivilizasiyalarının universal yox, unikal kimi qəbul edib-etməyəcəklərinə bağlayır.

Metodologiyalar arasında ən çox işlədiləni müqayisəli metodologiyadır. Vaxtilə Makiavelli ondan istifadə etmişdi. Belə ki, onun ilk adı «Knyazlıqlar haqqında» olan «Hökmdarı», «Florensiya tarixi» və «Mühakimələr» əsərləri özlərində fəlsəfəni sosiologiya, tarix və politologiya ilə birləşdirirdilər. Onların hamısı müqayisəli tədqiqatlara əsaslanır. Onlar həm də bir-birilərinin arasında müqayisə olunan mətnlərdən ibarətdir. «Mühakimələr»də qədim Roma və «Florensiya tarixi»ndə Florensiya və s. Əlbəttə, belə bir sual ortaya çıxır ki, nəyə görə bu mətnlər tarix prizmasından verilib.

Tarix - nəzəriyyə kimi həmişə fəlsəfədir, ancaq o həm də sosiologiyadır, politologiyadır və s. Maraqlıdır ki, Makiavellinin özü Florensiya respublikasının qızğın tərəfdarı idi, lakin dövrünün ən müvəffəqiyyətli ölkələrinin müqayisəli təhlili onu monarxiya tərəfdarına çevrilməyə məcbur etdi, onun fikrincə, bu İtaliyanın birləşməsi üçün zəruri idi. Biliklərin bütün kompleksi tarixin köməyi və vasitəsilə çevrilir, ona görə ki, o, «...Vətəni öz ruhundan çox sevir». Bu formulu o, «Florensiya tarixi»ndə xülasə etmişdir. (Макиавелли Н., История Флоренции», М., «Наука», 1987, с.112). Görünür tarix onun üçün nəzəriyyəni, təcrübəni və tədqiqat me-

1 Хантингтон С.Столкновение цивилизаций, с.13-14



12940

todunu birləşdirən anlayışdır. Oxşar yanaşma A.Toynbinin «Tarixin dərki»ndə görülmüşdür, orada o, tarixi zamanların əlaqəsi (ötürücüsü) kimi nəzərdən keçirir və hesab edir ki, məkan və zaman kateqoriyaları «çağırış-cavab» bağlayıcısını müəyyən edirlər.

Lakin tarix və Vətənə məhəbbət nəzəri axtarışı istisna etməməlidirlər. Kimsə hesab edir ki, müqayisəli metodologiya sadədir. Bir neçə məlumat əldə edən tədqiqatçı düşünmək üçün müəyyən qida alır. Ancaq bu metod haqqında yalnız birinci təsəvvürdür. Təəssüf ki, bizdə bu metodologiyanın tətbiqi üzrə ciddi əsərlər yoxdur, ona görə də, müqayisələrin istifadəsi ilkin mərhələdədir. Yəqin ki, elə ona görə də müqayisəli metodologiyanın istifadəsi yazılmış əsərlər də azdır. Bəziləri belə hesab edirlər ki, əgər onlar nə vaxtsa, Şərq-Qərb problemlərinin tədqiqinə girişiblərsə, onlar artıq müqayisəli metodologiyanı mənimsəyiblər. Əslində isə, çoxdan mövcud olan metodologiyanı mənimsəmək ona dəlalət edir ki, müəllif onu necə istifadə etmək lazım olduğuna şüurlu yanaşır və bu metodun zəifliyi, bu metoddan istifadə edən konkret müəllifin zəifliyi nədədir, müqayisələri necə aparmaq və əsaslandırmaq lazımdır.

Müqayisəli metodologiya bütün metodologiyaların əsasında durur. Belə ki, məsələn, iqtisadi metodologiyada siyasi tədqiqatlar üçün əsas kimi keyfiyyət və kəmiyyət iqtisadi göstəriciləri götürülür. Məlumdur ki, K.Marks inkişaf etmiş Avropa ölkələrinin iqtisadiyyatlarının müqayisə metodundan istifadə etmişdir, V.Lenin də ondan istifadə etmişdir. Lakin başı hakimiyyət uğrunda mübarizəyə qarışdığından, o, daha metodologiya ilə maraqlanmadı. Bəlkə də marksizmin Sovet İttifaqında ehkamlaşdırılmasının səbəbləri elə bunda gizlənir. «Anlayan» metodologiyada hakimiyyət və siyasəti təsvir edən şüur tipləri, anlayışların məna və izahı müqayisə olunur. Q.Almond və S.Verba vaxtilə siyasi mədəniyyətləri, vətəndaş siyasi mədəniyyətlərini o cəhətdən izah edirdilər

PREZIDENT KITABXANASI

ki, hər bir qrup müxtəlif qruplardan və ya bu qruplar haqqında yalnızca ümumi təsəvvür yaradan təsəvvürlərdən ibarətdir.

Əgər nümunə kimi fransız politoloqları L.Payanın, M.Doqanın və D.Pelassinin rus dilinə çevrilmiş müqayisəli tədqiqatlarını götürsək, onda biz görərik ki, müqayisə etmək üçün ən azı bilmək lazımdır ki, hansı dövlətlər, hansı siyasi mədəniyyətlər müqayisə olunur, mədəniyyətlərin fərqliliyi dövlətlərin fərqliliyini, hakim düşüncələrin tiplərini nə qədər müəyyən edir. Bu kontekstdə qeyd edək ki, müqayisəli politologiya həm metodologiya, həm də metodika ola bilər. Tədqiqatların müqayisəli metodologiyası fərqli mədəniyyətləri, fərqli hakimiyyət quruluşu və hakim düşüncəsi olan ölkələri, müqayisələr metodikası isə oxşar mədəniyyətləri olan ölkələri müqayisə etməyə imkan verir. Metodikanın əsasında postsovet məkanındakı ölkələrin aralarındakı fərqlər yalnız kəmiyyətcə olan hakimiyyət təşkilatlarını müqayisə etmək olar. Lakin Sovet İttifaqının dağılmasından daha çox zaman keçdikcə, ora daxil olan dövlətlərin aralarındakı fərqlər də bir o qədər artır, ona görə bu məsələlərdə metodologiya daha da zəruri olur. Bu zaman metodologiya məsələlərinə etinasızlıq təkcə daxili yox, eləcə də xarici siyasətin xüsusiyyətlərinin dərki məsələlərinə aid olur. Azərbaycanda beynəlxalq münasibətlərin, beynəlxalq münasibətlərin tarixinə aid nəşr olunan kitablarda beynəlxalq münasibətlər sisteminin problemlərini müasir tarix, siyasət elmi, siyasi metodologiya kontekstində yazmaq cəhdləri yoxdur. Zənnimizcə, hansısa mənada bu laqeydlik nəzəriyyə ilə ideologiyanı qarışdıraraq dövlətlərin siyasətini özününkü və yadlarınkına ayırmağa imkan verir. Ona da diqqət yetirək ki, dövlətlərin xarici siyasətini modelləşdirmək, riskləri hesablamaq, hadisələri proqnozlaşdırmaq ancaq o zaman olar ki, siyasətə obyekt, mürəkkəb, çoxfənli bir sahə və s. kimi yanaşma metodologiyası olsun. Nəzəri tarixsiz, sosiologiyasız, kulturologiyasız,



fəlsəfəsiz - bu fənlərin siyahısını uzatmaq da olar – siyasi nəzəriyyə yoxdur. Bundan başqa bir çox azərbaycanlı tədqiqatçılar xarici siyasət sferasını ancaq güzlü və zəif dövlətlər arasında münasibətlər sferası kimi müəyyənləşdirirlər, onlar bir şeyə etinasız qalır və ya onu nəzərə almırlar ki, beynəlxalq nizam (xüsusən də qloballaşma dövründə) müəyyən dəyərlərə, anlayışların özünəməxsus dərki və izahına əsaslanır. Məsələn, mənəviyyat və siyasi mənəviyyat anlayışları, etika, beynəlxalq münasibətlərdə humanitar məsələlər çox vaxt bizim tədqiqatlarda olduğundan fərqli izah olunur.

Demək mümkündür ki, siyasət elmində metodoloji məsələlərə etinasızlıq siyasəti ancaq hakimiyyət və hegemonluq məsələləri ilə əlaqələndirərək «birtərəfli», konkret olaraq xarici siyasəti isə gücə müncər edir. Əlbəttə bu faktorların siyasətdəki məlum və hətta, böyük əhəmiyyətini inkar etməz olmaz. Ancaq nəzəriyyədə bütün bu sahələri bütövlükdə ancaq göstərilən kateqoriyalarla məhdudlaşdırmaq və təhlilə başlamaq lazım olan yerdə dayanmaq qeyri-məhsuldar olardı. Axı, əgər siyasətdə güc vacibdirsə, onda bilmək lazımdır ki, gücü təhdid edən nədir (risklər hansıdır), təhdidlər isə daxildə də ola bilər, xaricdə də. Özü də bunları da, onları da indiki konkret şəraitdə məhv etmək mümkün deyil, onları zərərsizləşdirməyə çalışaraq onlarla yanaşı yaşamaq lazımdır. Yəni, əgər siyasət elmi hakimiyyət mövzusuna müraciət edirsə, o cəmiyyətin quruluşu, hakimiyyətin konkret cəmiyyətdə rolu, hakimiyyətin dünya siyasəti və iqtisadiyyatında, mənəviyyatda təzahürü və əksinə, bütün bu fenomenlərin hakimiyyətə təsiri və s. barədə suala cavab verməlidir.

Qərb siyasi elmində hakimiyyəti çox vaxt cəmiyyəti, dünyanı idarə edən «dəyərlər, inanclar və rəmzlər» (E.Şilz) və ya inteqrasiya mexanizmi və s. kimi izah edirlər. Belə olan təqdirdə bu cür konsept yaranır ki, hakimiyyəti onun cəmiyyəti və ya onun ətraflarını inteqrasiya üzrə bacarıqları və hərəkətləri olmadan başa düşmək olmaz. Buradan da cə-

miyyətdə bu və ya digər dəyərlərin müxtəlifliyini və səbəblərini açmağa kömək edən müxtəlif sosioloji, müqayisəli tədqiqatların zərurliyi meydana çıxır.

Bizim politoloqların tədqiqatlarında metod, texnologiya, metodika və s. anlayışlar qarışdırılır. Düşünürük ki, metod və ya metodologiya siyasi proseslərə xüsusi baxış bucağı altında baxmaqdan, anlayışların ierarxiyasını seçməkdən, materialın seçilib verilməsindən asılıdır. Özü də yanaşmanın metodologiyası haqqında məlumatların olması tədqiqatçıya mövqeyini bildirməyə imkan verir ki, oxucu da bunu bilərək onun həddini nəzərə alsın. Tədqiqatda metodologiya haqqında informasiya alim və müəllim, müəllim və tələbə arasında məlumatlar və nəticələr haqqında yox, işdə «eksperimentin təmizliyi» və ya metodologiyanı tətbiq etmək bacarığı haqqında diskussiyaya dəvət edir. Bu halda oxucunu siyasi maraqlar, motivlər daha az cəlb edir, diskussiya isə başlıca kateqoriyaların, anlayışların, materialların və s. tətbiqi barədə gedir. Tədqiqatçının fərdi şəkildə, lakin öz həmkarları, həmfikirləri ilə müəyyən dialoq çərçivəsində özünün siyasi fəlsəfəsinin köməyi ilə işləyib hazırladığı və oxucuların mühakiməsinə çıxardığı metodologiyadan fərqli olaraq, metodikaları öyrənirlər və onların keyfiyyəti çox vaxt təcrübə və yoxlama ilə bağlıdır. Azərbaycanda keçirilmiş bütün parlament və prezident seçkilərində müxtəlif metodika və s. istifadə edən seçkilərin monitorinqi üzrə xarici qeyri-hökumət təşkilatları iştirak etmişlər. Lakin sorğu keçirənlərin bu və ya digər anlayışların cəmiyyətin müxtəlif qrupları tərəfindən necə qavranıldığını başa düşmədən yalnız sorğu keçirmək metodikalarını, texnologiyalarını bilməsi siyasi elmlərin metodoloji problemlərinin işlənib hazırlanmasına ehtiyac doğurur. Və hər şeydən də öncə sorğularda istifadə olunan bu və ya digər anlayışların mənasının açılmasını. Çünki, onlarsız cəmiyyətdən «çıxarılmış» hər hansı bir informasiya dəqiq olmayacaq. Misal üçün, «demokratiya», «vətəndaş cəmiyyəti», «suverenlik» anlayışlarının sorğuları tərtib edənlər və suallara cavab verənlər tərəfindən necə başa düşüldüyünü müqayisə etmək maraqlı olardı.



Rus tədqiqatçısı K.Sulimov özünün «Müasir siyasi biliyin təzadlılığına dair» (Полис, 2006) məqaləsində qeyd edir ki, metodun (metodologiyanın) məkanı o yerdir ki, orada nəzəriyyəni özünü dağıtmadan aradan qaldırılması mümkün olmayan təzad var. Və əksinə, o yerdəki nəzəriyyə çərçivəsində aradan qaldırıla bilən səhv var, orada söhbət həmişə metodik və texnoloji çətinliklərdən gedir. Burada qeyd etmək istərdik ki, öz metodunda təzadı açmaq bacarığı təkcə metodologiyalar probleminə ciddi marağa yox, eləcə də tədqiqatçının təfəkkürünün xüsusi keyfiyyətinə, müxtəlif «maraqlar»a ehkamçı heyrətinin olmamasına dəlalət edir.

Postsovet politologiyasında marksizmin ehkamçılığını, siyasi iqtisad metodologiyasının müxtəlif modifikasiyalarını aşmaq cəhdləri gözlənilirdi. Lakin bu görünmür: birincisi, ona görə ki, o tədqiqatlarda heç cürə göstərilməmişdir. İqtisadi göstəricilər müqayisəli tədqiqatlarda verilsə də, onlar yalnız kəmiyyət ölçüsünü əks etdirirlər (ÜDM, büdcə göstəriciləri, neftin miqdarı və s.); ikincisi, belə ehtimal etmək olar ki, hər cürə ehkamçılıq tədqiqatçı tərəfindən çətinliklə yenidən qurulmaya məruz qalır; üçüncüsü, əgər ayrı-ayrı tədqiqatçılar siyasi iqtisad metodologiyasını tətbiq etməyə cəhd edirlərsə də, onlar hakim təfəkkürün xüsusiyyətlərini yalnız iqtisadi anlayışlarla izah edə bilmirlər. Xatırlayaq ki, M.Doqanın və D.Pelassinin «Müqayisəli siyasi sosiologiya» kitabında marksist paradiqmasının azad kapitalist sahibkarlığının standart modeli şəraitində, bir sosial kontekst şəraitində işlədiyini vurğulayan Ossovskinin ideyasından iqtibas var. Bizdə kontekstlərin bolluğu iqtisadi metodologiyaların tətbiqini çətinləşdirir, ancaq o da vacibdir ki, onlara olan tələbatı istisna da etmir.[1]

---

1 Доган М., Пеласси Д. Сравнительная политическая социология. М., 1994

Modernləşməyə can atan qeyri-qərb dövlətində siyasi tədqiqatların metodologiyasından baş çıxarmaq üçün belə cəmiyyətin (onun bütün kontekstlərinin) anlaşılmasına açar tapmaq lazımdır. Yeri gəlmişkən, 90-cı illərdə postsovet məkanında belə bir fikir bərqərar olmuşdu ki, demokratiyanın inkişafı üçün birkontekstli ölkə daha yaxşıdır, nəinki çoxkontekstli, qeyri-homogen, multikultural, hüquqi institutların formalaşdırılmasında və bazar istiqamətində ciddi problemləri olan ölkələr. Əslində isə, hər şey belə birmənalı deyil. İqtisadi böhran, son dövrlərdə qərb ölkələrinin siyasi problemləri ondan xəbər verir ki, homogen qərb dünyası bu cür olması başa çatır, onun demokratiya ilə ciddi problemləri meydana çıxıb, belə ki, cəmiyyət multikultural olmağa başlayır, sabitliyin itirilməsi qanun-qaydaya nəzarətin gücləndirilməsi meyli yaradır, sistemxarici müxalifətin sıraları genişlənir və s. Və ya, misal üçün, ərəb dünyası çoxları tərəfindən vahid müsəlman konteksti dünyası kimi qəbul olunur, lakin onlar çətin ki, demokratik adlana bilərlər. Diqqət yetirin, Qətər Liviyadakı stabil rejimi yıxmağa kömək etdi və s. Eyni vaxtda ABŞ da birkontekstli cəmiyyət deyil («əritmə tiyanı» ideyasını xatırlayaq). Hipotez səviyyəsində belə bir ehtimal var ki, cəmiyyətin çoxkontekstlilik (multikulturalizm) daha çox geosiyasi yerləşmədən asıldır. Bəzi alimlər belə hesab edirlər ki, «limes» adlanan elə məkanlar var ki, orada müxtəlif kontekstlərin toqquşması qaçılmazdır. Balkanlar və bizim Qafqaz və s. bura daxildir. Elə qloballaşmanın özü də ona aparır ki, çoxkontekslilik zamanın xüsusiyyətinə çevrilir. Kontekst və ya mədəniyyət haqqında danışmaq olar, lakin aydındır ki, bütün bu sualları başa düşüb onlara cavab tapmaq üçün ciddi metodoloji, müqayisəli və sosioloji tədqiqatlar lazımdır.

Başqa sözlə desək, hər hansı bir metodologiyadan istifadə edərkən alimin öz baxış bucağını üzə çıxarması, onun öz metoduna, zamanına, yaşadığı cəmiyyətə sual verə bilməsini



aydınlaşdırması vacibdir. Və onun tədqiqatı nə qədər ciddi olsa, o, özünün kontekst haqqındakı biliklərini ətrafa daha az təlqin edəcək, lakin o, diskussiyalarda iştirak etməyə, öz ideya və mülahizələrini konkretləşdirməyə, yoxlamağa və yenidən yoxlamağa hazır olacaq. Əgər siyasi iqtisada qayıdılırsa, onda «hakimiyyət və mədəniyyətin mülkiyyətdən vacib olduğu ictimai şüurun üstünlüyünə olan tələbatın səbəbləri nədir?» sualına cavab tapmaq lazımdır. Publisistika və o qədər də ciddi olmayan publisistikanın verdiyi cavablar ki, hər şey xalqın mentallığından, harizmasından, iqtisadi münasibətlərindən (iqtisadiyyatda qeyri-iqtisadi məcburetmənin istifadə olunmasından), və ya hər şeydən birlikdə asılıdır. Bizim fikrimizcə, bunlar qeyri-qənaətbəxşdir və onlar çox güman yalnız axtarışın istiqamətlərindən xəbər verir.

Bundan çıxış edərək vurğulayaq ki, əgər hakimiyyət mülkiyyətdən vacibdirsə, onda cəmiyyətin belə hakimiyyətə ehtiyacı var. Belə olan təqdirdə bu cür şüurun cəmiyyətdə «möhkəmlənməsi»ni izah edən hipoteza lazımdır. Aydındır ki, sosio-mədəni modernləşmə kursu cəmiyyətdə rolların bir qədər yenidən dəyərləndirilməsini və dəyişməsini, orta təbəqənin, şəhər sakinlərinin, informasiya texnologiyalarının inkişafına oriyentasiyanı və s. nəzərdə tutur. Yəni, cəmiyyətin o qruplarının ki, siyasətdə məsuliyyətlə iştirak etməyə hazırdırlar. Bu çox da sadə olmayan proseslərdə intellektual elitanın zəif olması və ya formalaşdırılmaması, islam təfəkkürünün patriarxallığı, ölkədə hələ də sovet vaxtından şaquli səfərbərliyin dayağının axıracan açılmaması da öz rolunu oynayır. Belə bir dönüşdə cəmiyyətdəki səmərəli gərginlik hakimiyyət və müxalifət sxemi üzrə yox, hakimiyyət və «düşünən bürokratlar», alimlər, biznesmenlər və s. sxemi ilə düzülür. Müxalifət partiyalarının olması, müxalifət publisistikasının olması vəziyyəti dəyişmir, çünki onlar özləri də çox vaxt destruktiv davranış və populizmə məhkumdurlar. Onlarda «hər şeyi ancaq bir qara rəngə boyamaq» və öz tərəfdarları

ilə hakimiyyət dəhlizlərini doldurmaq arzusu böyükdür. Çox vaxt müxalifət partiyasının liderinin ətrafına onun ailə üzvləri yığılır və ya onlar nemətlər qazanmaq üzrə «ittifaqa» çevrilərək sanki süni bir ailə təşkil edirlər.

Bu tezislərin başa düşülməsi, eləcə də siyasi elm və modernləşmə yolları arasında əlaqələrin tapılması üçün ən əhəmiyyətlisi yenə də N.Makiavellinin konsepsiyasıdır. O, özünün «Hökmdar» əsərində onların münasibətlərini üç səviyyəyə ayırır: hökmdarın məsuliyyəti, elm və hakimiyyət, hökmdar və kütlənin vərdişləri. Çox vaxt çox şey vərdişlərdən asılı olur, lakin o modernləşmə məsuliyyətini öz üzərinə götürdüyü zaman hökmdardan asılı olmalıdır. Başqa sözlə desək, öz tərəfdarlarının maraqlarını millətin (dövlətin) maraqlarına tabe etdirmək, intellektual və iqtisadi elitaların yaradılması, onlara əvvəldə, bəlkə də, məhdud özünütənzimləmə hüququnun verilməsi. Belə bir proqram bizdə var. Lakin onun bəhrə verməsi üçün edilən iqtisadi və siyasi dəyişikliklərdən başqa müvafiq mədəniyyəti və ictimai elmləri inkişaf etdirmək lazımdır.



## SİYASİ SOSİOLOGİYA ELM KİMİ

Siyasi sosiologiya politologiyanın ən mühüm sahələrindən biridir. Siyasi sosiologiyanı çox zaman siyasətin sosiologiyası da adlandırırlar. Müasir dövrdə siyasi sosiologiya mühüm əhəmiyyət kəsb etməyə başlamışdır. Bu, ilk növbədə, həmin elm sahəsinin özündə bir sıra problematikalı mövzuları əks etdirməsidir. Əlbəttə ki, adından bəlli olduğu kimi, siyasi sosiologiya sosiologiyanın sferasına da nüfuz edir, onun müqqədəm mövzularından da bəhrələnir.

Siyasi sosilogiyanın predmetini bir sıra tədqiqatçılar aşağıdakı kimi müəyyənləşdirmişlər:

1. Hakimiyyətin bölüşdürülməsi və funksiyalaşması prosesində siyasi və sosial sistemlərin qarşılıqlı təsiri;
2. Şəxsiyyətin, cəmiyyətin və dövlətin qarşılıqlı təsiri;
3. Siyasi normaların, dəyərlərin, istiqamətlərin funksiyalaşması və müvafiq müxtəlif sosial qruplara meyllilik.

Siyasi sosiologiyanın dörd tədqiqat səviyyəsi qeyd edilir:

1. Beynəlxalq münasibətlər səviyyəsində (siyasi konfliktlər və beynəlxalq siyasi proses);
2. Dövlət səviyyəsində (cəmiyyətdə dövlətin xarakteri və rolu);
3. İctimai münasibətlər səviyyəsində (siyasi partiya və hərəkatların təbiəti və təşkili);
4. Fərd səviyyəsində (siyasətdə individin iştirakı).

Siyasi sosiologiya ixtisaslaşmış bir elm sahəsi kimi XX əsrin 30-50-ci illərində Qərbdə təşəkkül tapmışdır. Qeyd etmək lazımdır ki, siyasi həyatın hadisələrinə və proseslərinə sosioloji yanaşmanın elementləri öz əksini artıq Qədim Şərq, antik Yunanıstan və Romanın elmi – nəzəri fikrində, xüsusən Platonun və Aristotelin, daha sonralar isə N. Ma-kiavellinin, J. Bodenin, T. Hobbsun, Ş. L. Monteskyönün, A. Tokvilin və başqalarının əsərlərində tapmışdı. Bir sıra Qərb alimləri-

nin fikrinə görə, (R. Benediks, S. Lipset və başqaları) siyasi sosiologiyanın bir elm kimi baniləri K. Marks və M. Veber sayılırlar. Siyasi sosiologiya elminin əhəmiyyətli dərəcədə formalaşmasında V. Pareto, Q. Moska, P. Sorokin, P. Mihels, T. Parsons, H. Lasuell, S. Lipset, M. Düverje, elmi fikrin marksist istiqamətində isə Q. Plexanov, V. Lenin, A. Qramşi, K. Kautski və başqaları rol oynamışlar.(3,78)

XX əsrdə siyasi sosiologiyanın inkişafı siyasi proseslərin öyrənilməsi üçün istifadə edilən bir çox yanaşmaların tədqiqi ilə xarakterizə olunur. Bunlara institusional (C.Brays, A.Bentli), biheviorist (Ç.Merriam, K.Döyç, Q.Almond), dəyərlər (H.Lasuell, L.Hoffman, F.Bro) və digər yanaşmaları aid etmək olar. Siyasi sosiologiyanın xarakterik xüsusiyyətinə onun milli spesifikliyi də aiddir. Əgər ABŞ-da tədqiqatlar empirik xarakter daşıyırsa və siyasi hakimiyyətin və konfliktlərin müxtəlif aspektlərinə toxunursa, onda AFR-də onlar dövlətşünaslıq və siyasi fəlsəfə, Böyük Britaniyada isə siyasi tarix və siyasi iqtisad ilə sıx bağlıdır. II Dünya Müharibəsindən sonra, xüsusilə 60-cı illərdə və ondan sonra bir sıra Qərb ölkələrinin universitetlərində siyasi sosiologiya, siyasətin sosiologiyası üzrə kafedraları açılmağa başlandı və tədris proqramları yazıldı.

Azərbaycan Respublikasının bir sıra universitetlərində siyasi sosiologiya bir fənn kimi tədris edilir. Azərbaycan MEA-nın Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutunda «Politologiya və siyasi sosiologiya» adlı şöbə fəaliyyət göstərir. Burada siyasi sosiologiyanın müxtəlif sahələrinə aid tədqiqatlar aparılır.

«Siyasi sosiologiya» terminini bəzi hallarda siyasətin sosiologiyası ilə sinonim kimi işlədirlər. Avropanın bir sıra tədqiqatçıları, məs., Moris Düverje yazırdı ki, ümumiyyətlə, bu iki anlayış (siyasi sosiologiya və siyasi elm) sinonimdir. (4,134)

Sosiologiyanın və siyasi elmin sərhədlərini müəyyən



edərkən Bendiks və Lipset yazırdı ki, siyasi elm dövlətdən başlayır və onun cəmiyyətə necə təsir etdiyini tədqiq edir. Siyasi sosiologiya isə cəmiyyətdən başlayır və onun dövlətə necə təsir etdiyini öyrənir. Beləliklə, siyasi sosiologiya sosiologiya ilə siyasi elm arasında aralıq elmlərdən biridir.

Siyasi sosiologiyanın predmeti haqqında xeyli sayda fikirlər mövcuddur:

1. XX əsrin məşhur politoloqlarından biri sayılan Seymur Martin Lipset həmin mövzuya toxunaraq qeyd edirdi ki, siyasi sosiologiya dövlətlə cəmiyyət, sosial quruluş ilə siyasi institutlar arasında qarşılıqlı münasibətləri öyrənən elmdir;
2. Siyasi sosiologiya cəmiyyətin bütün institutsionallaşmış sektorlarında hakimiyyətin ictimai əsaslarını tədqiq edən elmdir;
3. Siyasi sosiologiya hakimiyyətin təzahürünün sosioloji izahını müəyyən edən elmdir.

Beləliklə, siyasi sosiologiya elminin predmetinə müxtəlif yanaşmaların olmasına baxmayaraq, onu deyə bilərik ki, siyasi sosiologiya sosial münasibətlərin siyasi münasibətlərə və siyasi münasibətlərin sosial sahələrə təsirini öyrənən elmdir.

1957-ci ildə R. Bendiks və S.Lipset siyasi sosiologiyaya aşağıdakı problemləri daxil etməyi təklif etmişdir:(3, 45)

1. Seçki kampaniyalarında elektoriatın davranışı, ictimai rəyin təhlili;
2. Siyasi qərarların qəbulu prosesi;
3. Siyasi hərəkatların və təzyiq qruplarının ideologiyası;
4. Siyasi partiyaların, qruplaşmaların problemləri;
5. Dövlət administrasiyası və idarəçilik.

Siyasi sosiologiya dövlət hakimiyyəti və siyasəti sahəsində insanların sosial fəaliyyətini tədqiq edir. Belə ki, siyasi sosiologiya siyasi institutları və prsesləri onların sosial kontekstində öyrənir.

Siyasi sosiologiya çərçivəsində aşağıdakılar tədqiq edilir:

A) Böyük və kiçik sosial qrupların siyasi davranışı;

B) Onların siyasi dəyər və istiqamətlərini;

V) Siyasətdə ictimai rəyin rolunu;

D) Siyasi rejimlərin və siyasi partiyaların sosial bazasını və digər problemləri.

Siyasi sosiologiya ümumiləşdirilmiş bilik verir. Siyasi sosiologiya siyasi sistemin, onun ayrı-ayrı elementlərinin fəaliyyətinə sosial dəyişiklərin təsirini öyrənir.

Müasir dövrdə siyasi sosiologiyada daha çox aşağıdakı mövzular öyrənilir:(6)

1. Təşkil olunmuş davranış;
2. Siyasi elitalar;
3. Hakimiyyət və siyasi hökmranlıq;
4. İctimai rəy;
5. Siyasi münaqişələrin sosial və qrup əsasları;
6. Elektoral davranış və siyasi iştirak ilə bağlı olan sosial xarakteristikalar.

Siyasi sosiologiya da digər elmlər kimi müəyyən funksiyaları həyata keçirir. Bunlara aiddir:

A) İdraki;

B) Proqnoztik;

S) Sosial proyektləşdirmə;

D) Sosial-texnoloji.

İdraki funksiya öz əksini siyasi fəaliyyətin nəzəri cəhətdən dərk edilməsində, onun səbəb-nəticə əlaqələrinin aşkara çıxarılmasında öz əksini tapır.

Proqnoztik funksiyaya siyasi inkişafın qanunauyğunluqlarının üzə çıxarılması, siyasi münaqişələrdə, siyasət və idarəetmə sahəsində qısamüddətli, ortamüddətli və uzunmüddətli proqnozların verilməsi aiddir.

Sosial proyektləşdirmə funksiyası siyasi fəaliyyətə sosiologiyanın praktik münasibətini bildirir. Sosial proyektləşdirmənin vəzifələrinə siyasi partiyalar, hərəkatlar, sosial institutlar, birliklər üçün optimal modellərin hazırlanması aiddir.



Siyasi sosiologiyanın sosial-texnoloji funksiyasına siyasi reallıqlara əsaslanaraq siyasi proseslərin idarəçiliyini həyata keçirmək, seçki kampaniyalarının və ya siyasi konfliktlərin idarəçiliyində fəal iştirak aiddir.

Siyasi sosiologiyanın digər elmlər kimi strukturu var. Bu strukturu tarixi, ümumi-nəzəri və ixtisaslaşmış fəsillərə bölmək olar.(6)

Tarixi fəsilə bu elmin özünün yaranması prosesi, onun mərhələlərinin inkişafı, əsas nəzəriyyə və konsepsiyaların meydana gəlməsi haqqında biliklərin sistemləşdirilməsi daxildir.

Ümumi-nəzəri hissəyə hakimiyyətin sosial əsaslarının öyrənilməsinə yönəlmiş yanaşmaların əsaslandırılması aiddir. Bu hissə siyasi institutların və siyasi fəaliyyətin ayrı-ayrı sahələrinin təhlili ilə məşğul olan xüsusi fəsillərin metodoloji funksiyasını həyata keçirir. Bunlara siyasi proseslər, siyasi partiyalar və hərəkatlar, siyasi davranış, siyasi şüur, siyasi mədəniyyət, siyasi münaqişələr, xarici siyasət fəaliyyəti, sosial-siyasi proqnozlaşdırma və s. aiddir.

Bundan başqa, siyasi sosiologiyada sosioloji tədqiqatlar metodu 3 qrupa bölünür:

1. Nəzəri metodlar;
2. Məlumatların toplanması metodu;
3. Məlumatların analizi və işlənməsi metodu.

Nəzəri metodlar arasında daha çox aşağıdakılar geniş yayılıb(6)

1) Tarixi (retrospektiv) analiz siyasi proseslərin və hadisələrin bu və ya digər səbəblərini aşkara çıxarmaq, hadisələrin ardıcıllığını yenidən bərpa etmək məqsədi qoyub. Belə ki, siyasi davranışa müxtəlif iqtisadi, siyasi, sosial, mədəni faktorlar təsir etdiyindən tarixi metod geniş tarixi materialların mövcudluğunu vurğulayır;

2) Müqayisəli metod eyni növlü siyasi hadisələrin oxşar və müxtəlif tərəflərini ayırd edir;

3) Struktur-funksional analiz tədqiq olunan obyektin

elementlərini bölərək onların rolunu və əhəmiyyətini ayrılıqda öyrənir. Siyasi sosiologiyada o da məlumdur ki, ilk görünüşdə oxşar olan siyasi hadisələrin, proseslərin mənbəyi müxtəlif sosial qüvvələr ola bilər;

4) Sistemli analiz siyasi hadisələri onunla qarşılıqlı münasibətdə olan sosial hadisələri və prosesləri əlaqəli şəkildə öyrənir. Struktur- funksional yanaşmadan fərqli olaraq sistemli analiz siyasi hadisələri vahid şəkildə nəzərdən keçirir və müvafiq sosial faktorların mövcud hadisələr ilə qarşılıqlı təsirini öyrənir;

5) Modelləşdirmə müəyyən şəraitlərdə sosial törəmələrin (məs., cəmiyyəti) həyat fəaliyyətinin mücərrəd modellərinin qurulmasını bildirir. Siyasi sosiologiyada daha çox hakimiyyətə bu və ya digər siyasi qüvvələrin gəlməsinin modelləşdirilməsi qeyd olunur.

Məlumatların toplanması metodu sosioloji elmlərin empirik hissəsini təşkil edir. Siyasi sosiologiyada daha çox aşağıdakı metodlar istifadə olunur:

1. Müşahidə;
2. Sorğu. Sorğunun 3 növü var:
   A) Şifahi (intervyu);
   B) Yazılı;
   V) Anket
3. Sənədlərin öyrənilməsi;
4. Ekspremenț;
5. Statistik materialların analizi.

Yuxarıda qeyd edilən metodlar tərəfindən toplanılan informasiyalar aşağıdakı metodların köməkliyi ilə təhlil edilir:(5, 78)

A) Korrelyasion analiz. Bu analizin köməkliyi ilə sosial dəyişikliyin digər sosial dəyişikliyə əsasən göstəricilərinin əhəmiyyətini qeyd etmək, tədqiqat zamanı mümkün olan səhvlərin böyüklyünü müəyyən etmək, sosial dəyişikliklərin asılılıq əmsallarını göstərmək olar.



B) Dispersion analizin köməkliyi ilə tədqiqat zamanı yayınmaların səviyyələrini ayırd etmək olar;

V) Faktor analiz əvvəllər ayırd edilməmiş və tədqiqat əsnasında meydana çıxmış müxtəlif amillərin üzə çıxarılmasıdır.

Siyasi sosiologiya bir çox elmlərlə sıx bağlıdır. Bu elmlərə politologiya, sosiologiya, tarix, psixologiya, hüquq, etnologiya və digər elmlər daxildir. Ümumiyyətlə, siyasi sosiologiyanın anlayışlar aparatına «sosial-siyasi proseslər», «hakimiyyətin sosial mexanizmi», «sosial-siyasi stabillik», «siyasi razılıq», «sosial nizamın saxlanılması», «sosial-siyasi münaqişələr», «sosial-siyasi böhran», «siyasi şüur», «siyasi davranış», «siyasi hərəkat», «siyasi mövqe», «liderlik», «maraq qrupları», «siyasi maraq», «siyasi risk», «siyasi mədəniyyət», «siyasi ideologiya», «elektorial davranış» və digər kateqoriyalar daxildir. Qeyd etmək lazımdır ki, siyasi sosiologiya özünün təkamülü nəticəsində konseptual və kateqorial apparatını yaratmışdır ki, bu da onun daxili differensiyasına gətirib çıxarmışdır. Məs., belə kateqoriyalara elektorat, elektoral davranış, siyasi sistem, siyasi mədəniyyət, siyasi məkan və s. aiddir. Siyasi sosiologiyanın mərkəzi kateqoriyaları kimi siyasət, hakimiyyət, hökmranlıq, dövlət, siyasi iştirak və s. aid etmək olar.

Müasir dövrdə siyasi sosiologiya elminin əhəmiyyəti getdikcə artmaqdadır. Bu, ilk növbədə siyasi sosiologiyanın tədqiq etdiyi problemlərlə bağlıdır. Bir sıra tədqiqatçılar həmin mövzulara aşağıdakıları aid edirlər:

1. Hakimiyyətin legitimliyi, ictimai həyatın demokratikləşməsinin sosial aspektləri;
2. Siyasi sabitlik;
3. Çoxpartiyalılıq şəraitində siyasi institutların fəaliyyətinin metodları;
4. Hakimiyyət və əhalinin müxtəlif qruplarının siyasi iştirakı;
5. Seçkilər və kütlələrin siyasi davranışı;

6. Siyasi mədəniyyət;
7. Siyasi liderlərin tipologiyası və onların populyarlığının reytinqi;
8. Siyasi partiyalar;
9. Siyasi münaqişələr;
10. Siyasi plüralizm və s.

Beləliklə, siyasi sosiologiya siyasi elm və sosiologiyanın qovşağında yaranmışdır. Onun təkamülü, inkişafı uzun bir tarixi yol keçmişdir. Müasir mərhələdə, istər respublikamızda, istərsə də xaricdə siyasi sosiologiya sahəsində müxtəlif elmi araşdırmalar aparılır, universitetlərdə tədris olunur.

## Ədəbiyyat


1. Şirəliyev H., Əhmədov Ə. Politologiya. Bakı, 1997.
2. Əfəndiyev M., Şirinov A. Sosiologiyanın nəzəri problemləri. Bakı, 2001.
3. Мухаев Р. Политология. М.,2011.
4. Мухаев Р. Теория политики. М.,2006.
5. Пугачев В. П., Соловьев А И. Введение в политологию. М., 1999.
6. www. google.ru




## MÜASİR AZƏRBAYCAN CƏMİYYƏTİNİN SİYASİ SOSİALLAŞMASI PROBLEMLƏRİ

Siyasi sistemin yaşaması faktorlarından birini də fərdlərin sosiallaşması prosesi təşkil edir. Cəmiyyət üzvlərinin sosiallaşması dedikdə, onların «sivilləşməsi», mədəniləşməsi, cəmiyyətdə qəbul olunmuş norma və prinsiplərlə uyğunlaşması və onlara riayət etməsi nəzərdə tutulur.

XX əsrin 50—60-cı illərindən başlayaraq «sosiallaşma» termini fəlsəfi-politoloji ədəbiyyata daxil olmuş və özünə möhkəm yer tutmuşdur. Qərb alimlərindən Q.Almondun, S.Verbanın, R.Zigelin, D.İstonun, R.Hessin, P.Şaranın, Q.Haymenin və b-nın əsərlərində «sosiallaşma», 1959-cu ildən etibarən isə «siyasi sosiallaşma» termini işlədilməyə başlanmışdır. 1969-cu ildə E.Dauson və K.Priuntt «siyasi sosiallaşma» kitabını yazırlar (1).

60-70-ci illərdən başlayaraq o vaxtkı SSRİ-də də bu sahədə xeyli iş görülmüşdür. Belə ki, 1971-ci ildə Leninqrad universiteti «İnsan və cəmiyyət fərdin sosiallaşması problemləri» kitabını nəşr etmişdir. Bu kitabın yazılmasında görkəmli alimlərdən B.Q.Anaiyev, A.V.Dimitriev, A.A.Fedoseev və b. iştirak etmişlər.

Şəxsiyyətin sosiallaşması problemi hazırkı Qərb ictimai-siyasi fikrinin diqqət mərkəzində dayanan problemlərdən biridir. Bu, filosofların, sosioloqların, politoloqların, psixoloqların və pedaqoqların öyrəndiyi kompleks məsələlər sırasına daxildir. Vaxtilə K.Marks qeyd edirdi ki, «xüsusi şəxsiyyətin» mahiyətini onun saqqalı, qanı, mücərrəd fiziki təbiəti müəyyən etmir, əksinə onun sosial keyfiyyəti müəyyən edir.

Şəxsiyyətin sosial-psixi aspektinin öyrənilməsi hər şeydən əvvəl şəxsiyyətin sosiallaşması məsələsilə əlaqədardır. Buraya insanın insanı başa düşməsi (şəxsiyyətin qnesooloji

xüsusiyyəti), kommuniksiyası, orientasiyası, insanın səfərbəredici motivləşmiş qüvvəsi, şəxsiyyət və qrup normaları, etalonları, dəyərləri və s. daxildir.

Xarici sosial psixologiyada (Qumploviç, Rotsenqofer, Tarda) insanın sosiallaşması hələ 20-30-cu illərdə öyrənilməyə başlanmışdır. Sosiallaşdırma nəzəriyyəsinin tərəfdarları (L.Çayld, J.Klozen, V.Krendol, D.Braun) insanın öyrənilməsi üçün bütün elm sahələri tərəfindən yığılmış faktların səfərbər edilməsini tövsiyə edirdilər. Bu məqsədlə də iri miqyaslı sosioloji tədqiqatlar aparılır, sosiallaşdırma prosesinin fərdə təsir mexanizmi aşkara çıxarılırdı.

Bu materialların əldə olunması yolları müxtəlifdir: testlər, anketlər, müxtəlif sorğular. İnsanın öyrənilməsi sahəsində hazırda freydizm, biheyvierizm və neofreydizm xüsusi yer tutur. Freydizm insanın sosial təlabatlarını bioloji amillərlə bağlayır, insanlararası münaqişələri psixoanaliz vasitəsilə müəyyən etməyə çalışır. Neofreydizmin nümayəndələri Adler, Yunq, Xorni və b. bioloji məsələləri ön sıraya keçirməkdən vaz keçməyə çalışır, şəxsiyyəti sosial amillərlə izah etməyə səy göstərirlər. Lakin onlar bunu çox məhdud bir səviyyədə həyata keçirir, insanın inkişafına əsasən daxili psixi amillərinköməkliyilə izah etməyə üstünlük verirlər. Bu daxili psixi amillər müxtəlif psixoanalitiklərdə müxtəlif səviyyələrdə həll olunur. Məsələn, Xorni çıxış nöqtəsi kimi qorxunu, Silliven interppersonal (şəxsiyyətlərarası) münasibətləri, Fromm "azadlıqdan qaçma" cəhdlərini əsas götürür. Onu da deyək ki, freydizmin bu tədqiqatları sovet alimləri tərəfindən birtərəfli qiymətləndirilmiş və ancaq tənqidi münasibətlə üzləşməli olmuşdur. Məsələn, E.V.Şorokova, M.S.Mansurov, E.S.Kuzmin, L.İ.Bojsoviç, İ.S.Kon və b-nın tədqiqatları buna misal ola bilər.

Bu alimlər sosiallaşmada bioloji amilləri nəzərə almadan üstünlüyü sosial amillərə vermişlər. Onlara görə:

1) insanın heyvanlardan fərqləndirilməsi;



2) insan — qəbilə tayfa münasibətlərinin daşıyıcısıdır;

3) insan — ailənini üzvüdür;

4)insan müəyyən professional qrupun, cəmiyyətin və yaxud sinfin nümayəndəsidir;

5) insan — millətin üzvüdür (2, s.259.).

60-cı illərdə Qərb alimlərindən Q.Tard, E.Dürgheym, Van Jeneva və b. insanın sosiallaşması anlayışını fərd və cəmiyyət münasibətlərinə aid edirdilər. Sovet alimlərindən Q.E.Qleyzerman, Y.İ.Qalinskiy, L.M.Arxanqelsk, M.N.Rutkeviç, N.N.Andreenko, N.N.Petuxov, A.K.Uledov və b. insanın sosial mahiyyət kəsb etməsində dövrün, sosial amillərin, ictimai-iqtisadi quruluşun, ailə və xarici mühitin, tərbiyənin və kollektivin çoxsahəli təsirlərini və onların müxtəlif aspektlərini işləmişlər.

Sosiallaşma — insanın sosial inkişafının xüsusi bir mərhələsi olub insanın empirik və rasional biliklərə yiyələnməsi, müəyyən mədəni səviyyə kəsb etməsi, cəmiyyət və dövlət qayda-qanunlarını mənimsəməsi və ona tabe olması deməkdir. Sosiallaşma deyərkən insanın inkişafı və formalaşması nəzərdə tutulur. Bu, iki yolla həyata keçirilir; a) sosial nəzarət yolu ilə; b) stixiyalı yolla. Başqa sözlə desək, bilavasitə və bilvasitə yollarla. Marksist nöqteyi-nəzərdən çıxış etmiş olsaq sosiallaşmanı həm filogenetik (konkret şəxsiyyətin formalaşması), həm də ontoloji, yəni, ontonogenetik (fərdiyyətin formalaşması – Spinoza) baxımından öyrənmək tələb olunur. Fərdiyyət sosiallaşmanın maddi mü-qəddəm şərtləri deyil, onun nəticəsidir. Sosiallaşmanın məzmunu, mərhələləri və konkret mexanizmi tarixi xarakter daşı-yır, yəni bir cəmiyyətdən digərinə keçir və bu cəmiyyətlərin sosial-iqtisadi quruluşları ilə müəyyən olunur.

Sosiallaşma — əxz etmə, tərbiyələnmə və formalaşma prosesidir. Daha aydın desək, insanın mövcud quruluşa, şəraitə, cəmiyyətə və insanlara uyğunlaşması prosesidir. İnsanın sosiallaşması problemi sahəsində müxtəlif nəzəriyyələr

mövcuddur.

Məsələn, Q.Qumilyev insanın sosiallaşmasını cə-miyyətin hərəkətverici qüvvəsi olan etnogenezlə bağlayır: 1) coğrafi mühitin dəyişməsi; 2) ictimai inkişafda təkamül proseslərinin inkişafı; 3) tarixi peripetit; 4) mədəniyyətin yüksəlməsi və süqutu. L.Qumilyova görə etenogenez insanın in-kişaf "sterjn"lərinin funksiyalarını öz üzərinə götürərək cəmiyyətdə inqilabi və təkamül dəyişikliklərini həyata keçirir (3,s.122). Istər cəmiyyətin hərəkətverici qüvvəsini "insan—mən" hesab edənlər (məsələn, İ.Fixte və E.Qusserel), istərsə də onu iqtisadi əsaslarla izah edənlər (məsələn, Karl Marks) insanın sosiallaşmasını sosial-iqtisadi və kulturoloji amillərlə izah edirdilər. Z.Freyd insanın sosiallaşmasını ondakı psixi proseslərin inkişafı nəticəsi hesab edirdi (4,s.412-413).

İnsanın sosial mahiyyət kəsb etməsi prosesi bütün hallarda cəmiyyətin irəliyə doğru inkişafını sürətləndirir və keçid dövrünü yaşayan ölkələrdə keçid dövrü vəzifələrinin uğurla həyata keçirilməsinə müsbət təsir göstərir. Formasion nəzəriyyədən fərqli olaraq sivilizasion kulturoloji nəzəriyyələr insanın sosiallaşması prosesində mənəvi mədəniyyət amillərini ön sıraya keçiririər.

L.Qumilyeva görə sosial qanunauyğunluqlar heç də bioloji qanunauyğunluqları, xüsusən mutatsiyanı inkar etmir. Bununla belə, L.Qumilyov yazır ki, etnogenezin xarakteri bəşəriyyətin sosial tarixinin inkişaf ritmindən fərqli bir yol keçir. Etnik dəyərlər cəmiyyət inkişafında xüsusi bir yer tutur. Etnosun və cəmiyyətin bir üzvü kimi insanın payına bəşəriyyəti həm bioloji, həm də sosial amillərlə zənginləşdirmək düşür. Y.V.Bromley yazır ki, bizim zamanlarda insanların etnik milli şüur səviyyəsi durmadan yüksəlir. Bu, müasir dövrün etnik paradoksudur. Digər tərəfdən bütün dünya xalqlarının mədəniyyətlərinin beynəlmilləşməsi prosesi gedir. Bu da insanları öz milli dəyərlərini daha yüksək qiymətləndirməyi və ona daha çox diqqət vermələrini tələb edir. Bu



da Y.V.Bromleyə görə mütərəqqi hadisədir, çünki o, insanları yekcins mədəniyyət monotonluğundan xilas edir (5, s.25) Belə ki, müəllif çoxmillətli ölkələrdə milli olanın inkişafının beynəlmilləşməyə mane olmayacağı qənaətinə gəlir, beynəlmilləşmə prosesində milli olanın rolu müsbət mənada durmadan artır.

Yuxarıda qeyd etdiyimiz kimi, insanın sosiallaşması iki yolla: filogenetik və ontogenetik yolla baş verir. İnsan öz bioloji və tarixi inkişafında özünü sosial bir fenomen kimi büruzə verir. İnsanın sosial bir varlıq olması onun azad inkişafı ilə qırılmaz surətdə əlaqədardır. Marksizm insan azad-lığına ictimai münasibətlərin tərkib hissəsi kimi baxır. Amerikalılarda azad insana azad cəmiyyətin bir üzvü kimi baxmaq xasdır. Mövcud cəmiyyətin özü insan azadlığının keşiyində duran əsas amil sayılır. Eləcə də cəmiyyətin hər bir üzvü onlar tərəfindən yaradılmış azad cəmiyyətin qarantı sayılırlar. Ona görə də insan cəmiyyətinin və insan münasibətlərinin hərəkətverici qüvvəsi azadlığa canatmadan ibarətdir - həm insan, həm də cəmiyyət miqyasında.

Elmi tədqiqat problemi kimi sosiallaşmaya dair iki yanaşma növü məlumdur: birincisi, Emil Dürgheym və fransız sosiologiya məktəbəninin nümayəndələri tərəfindən irəli sürülən model. Bu modelin əsasında avtoritar tərbiyə sistemi durur. Daha aydın desək sosiallaşmanın kökündə kollektiv fikirlər, dəyərlər, standart davranış normaları, sosial qrupların fəaliyyəti dayanır. Belə sosiallaşmanın məqsədi cəmiyyətin yekcinsliyinə nail olmaqdan və cəmiyyət üzvlərinin bu şəkildə təkrar istehsalını əldə etməkdən ibarətdir (6, s.88).

Sosiallaşmanın bu modelində şəxsiyyətin müstəqilliyi və aktivliyi nəzərə alınmır, şəxsiyyət kollektivin bir üzvü kimi onun maraq və mənafelərini ifadə edir.

İkinci yanaşma. J.J.Rüsso tərəfindən irəli sürülmüşdür. Maarifçilik epoxasının ən görkəmli nümayəndələrindən biri olan Rüsso maariflənmənin insan əxlaqına pozucu təsirini

göstərərək "təbiətə doğru geriyə" şüarını irəli sürdü. Bununla Rüsso insan şəxsiyyətini sosial təsirbrdən qorumaq adı altında onun təbii vəziyyətinə doğru geri qayıtmalı olduğunu əsaslandırdı.

Sosiallaşmanın bir növü də siyasi sosiallaşmadır. Siyasi sosiallaşma deyərkən insanın öz hüquq və azadlığını dərk etməsi, cəmiyyətdə baş verən proseslər içərisində özünün yerinin və rolunun nədən ibarət olmasının dərki, siyasi sistemə və quruluşa münasibəti, siyasi tolerantlıq səviyyəsi və s. kimi məsələlər başa düşülür. Siyasi sosiallaşma prosesi fasiləsizdir və şəxsiyyətin bütün şüurlu həyatı boyu davam edir. Siyasi sosiallaşmanın səmərəliliyi quruluşdan, şəxsiyyətin cəmiyyətdəki mövqeyindən, müxtəlif sosio-kultur və tarixi şəraitdən asılıdır. Siyasi sosiallaşmanın kriteriyası şəxsiyyətin müstəqilliyi, statusu, hüquq və azadlıqlarının təminatı, idarə edənlərlə idarə olunanlar arasında mövcud olan humanist münasitbətlər və s. bir sıra amillərlə ölçülür.

Siyasi sosiallaşmanın xarakterik xüsusiyyəti ondan ibarətdir ki, onda çoxlu sayda sosial qruplar, müxtəlif mövqelər və baxışlar fəaliyyət göstərir. Siyasi sosiallaşma sosial təcrübənin ötürülməsi prosesini sürətləndirir. KİV vasitəsilə simvolik sosiallaşmanı həyata keçirir.

"Siyasi sosiallaşma" termini elmi ədəbiyyatda ilk dəfə ABŞ alimləri D.İston və Q.Q.Faymon tərəfindən işlənilmişdir. Bu terminlə onlar insanın siyasət aləminə daxil olmasını nəzərdə tuturdular. İlk dəfə olaraq bu prosesi nəzərdə tutan Aristotel insanı "siyasi heyvan" adlandırmışdır (zoopolitican).

Onu da deyək ki, "sosiallaşma" terminini də ilk dəfə nəzəri elmə ABŞ alimi F.Qurdinqs gətirmişdir, sonralar isə fransız alimləri tərəfindən "insanın sosial təbiətinin inkişaf prosesi" məvhumu ilə daha da inkişaf etdirilmişdir.

50—60-cı illərdə bu terminlər ətrafında elmi tədqiqatlar genişlənmiş və onlar ABŞ-da elmi status əldə etmişlər. İnsanın siyasi proseslərə, siyasi hakimiyyətə münasibəti və onda



iştirakı, sosial-siyasi mühit, siyasi şüur və siyasi davranış, nəhayət siyasi mədəniyyət sistemində insanın yeri və rolu məsələləri "siyasi sosiallaşma məsələlərilə" məşğul olan alimlərin tədqiqat mövzularına çevrilmişdir. 60-cı illərdən başlayaraq alimlər sosiallaşma problemlərinə dair bir neçə model irəli sürmüşlər. Bu modellərdən birini antropoloji model təşkil edir. Onu ABŞ alimləri F.Boas və B.Malinovski irəli sürmüşlər. Onlar sosiallaşmanı mədəni irsi ötürmə, mədəniyyətə yiyələnmə prosesi kimi nəzərdən keçirirdilər. Onlara görə sosiallaşma elə bir avtomatik prosesdir ki, bu zaman uşaq "təmiz kağız" kimi mədəniyyəti özünün fərdi inkişafının gedişində passiv islahatçı kimi mənimsəyir. Mədəniyyətin özü isə ekrana iri planda həkk edilmiş fərdin nəhəng ölçülərə və uzun müddətli mövcudluğa malik psixologiyası kimi şərh olunur. Ekrandakı həmin təsvir hər şeydən əvvəl fərdin psixologiyasında milli xarakterdir. Antropoloqların bu fikirləri qərb rasional gerçəkliyində tezliklə siyasətçilərin və politoloqların siyasi şərhlərinə məruz qaldı. Problem tez bir zamanda siyasiləşdi. Müxtəlif xalqların milli xarakterinin öyrənilməsi və bunun nəticələrindən istifadə etməklə onlara təsir göstərmək istiqamətində geniş təbliğat aparmaq siyasətin mühüm və ayrılmaz hissəsinə çevrildi (7, s.59). Siyasi sosiallaşma nəzəriyyəsinin sonrakı inkişafında klassik psixoanaliz modeli də müəyyən rol oynadı.

Bu modelə görə insanlar qeyri-sosial meyllərlə dünyaya gəlirlər. Sosiallaşma nəzəriyyəsi dağıdıcı instinktləri öyrənmədən onlar üzərində nəzarəti həyata keçirir. İnsanların, sosial qrupların, xalqların psixi analizini verməklə onlara müəyyən təsirlər göstərmək sahəsində bir sıra məktəblər, cərəyanlar, elmi tədqiqat laboratoriyaları fəaliyyətə başladılar. Siyasi sosiallaşma sahəsində digər bir elmi cərəyan — konformizm şəxsiyyətə sosial təsir mexanizminin aşkarlanmasında mühüm rol oynayır. Bu cərəyanın tərəfdarlarına görə fərdin mövcud siyasi sistemlə maksimum səviyyədə konfor-

mizminə nail olması onun sosiallaşmasının ölçüsüdür. Siyasi sosiallaşmada şəxsiyyət, lider, siyasi sistem, şəxsiyyətlə siyasi hakimiyyətin münasibəti məsələsi və s. ilə məşğul olan digər bir model — struktur fuknsionalizm ABŞ sosioloqu T.Parsonsun ideyalarından bəhrələnərək fərdi sosial sistemə daxil edən mexanizmin tədqiqinə xüsusi yer verir. Onlar idarəetmədə rəhbərlik rolunu mənimsəmək, siyasi liderlər seçmək üçün tövsiyələr vermək və s. ilə məşğul olurlar.

"Sosial mühəndislik" modeli adını almış başqa bir istiqamətin nümayəndələri təkmil cəmiyyətin insan modifikasiyasının köməkliyi ilə əldə olunacağına əmindirlər.

Başqa bir model koqnitiv model adını almışdır. Onun üzvləri kollektiv və cəmiyyət üzvünü öyrətməyi, siyasi vərdişlərin aşılanmasını əsas tuturlar. Digər bir model siyasi təhlil modelidir. Bu modelin tərəfdarları mövcud siyasi durumun "oyun qaydalarını" əxs etməyi qarşısına məqsəd qoyur. "Siyasi təhsil" modelinə yaxın bir model də "siyasi aləm" modelidir. Bu model hələ çox az öyrənilmişdir. Bu anlayışı AFR alimi Qreman Qizeka özünün 1965-ci ildə yazdığı "Siyasi təhsilin didaktikası" adlı əsərində elmə gətirmişdir. Onun fikrincə bu modelin vəzifəsi cəmiyyətdə qrupun və şəxsiyyətin fəaliyyətində siyasi aləmin nə dərəcədə tam və adekvat əks etdirilməsini aşkar etməkdir. Bütün digər modellər kimi bu modelin də son məqsədi "homo politic$"in formalaşmasına nail olmaqdır. Siyasi sosiallaşmaya tərif verən N.Semefzer "Sosiologiya" kitabında yazır: "Sosiallaşma fərdlərin öz sosial rollarına uyğun gələn bacarıqlarının və sosial məqsədlərinin formalaşması üsullarıdır. Siyasi sosiallaşma isə uşaqların və yeniyetmələrin mövcud ümumilik üçün tipik olan ideyaları, siyasi mövqeləri və davranışları əxs etməsindən ibarət olan inkişaf prosesidir".

Siyasi sosiallaşma müasir Qərb ictimai elmində artıq özünə vətəndaşlıq hüququ qazanmış və onunla bağlı xeyli anlayışlar yaranmışdır. Məsələn, sosializant yaxud sosiallaşma subyekti,



sosiallaşma agenturaları — sosiallaşmaya kömək edən institutlar —sosiolizatorlar. Buraya institutlardan başqa sosiallaşmaya kömək edən insanları və qrupları da aid edirlər.

Bütün bu yuxarıda deyilənlərdən göründüyü kimi siyasi sosiallaşma müasir Qərb ölkələrində artıq nəzəri bir cərəyana çevrilmiş olsa da onun haqqında vahid, formalaşmış bir fikir, ideya hələ ki, yoxdur. Amma mövcud siyasi sosiallaşma nəzəriyyələrinin hamısı insanın və şəxsiyyətin siyasi mahiyyət kəsb etməsini, onun "ictimailəşməsini", sosial bir varlıq olmasını öyrənməyi qarşıya məqsəd qoymuşlar.

Siyasi mədəniyyətin reallaşdırılması siyasi sosiallaşma körpüsündən keçir. Burada mühüm rolu siyasi biliklər oynayır. Siyasi biliklər siyasi mədəniyyətin mühüm tərkib hissəsi olmaqla özünü bir neçə formada göstərə bilər:

— siyasi hadisələr haqqında obyektiv biliklər;

— siyasi hadisələrin gerçəkliklə nə dərəcədə əlaqədar olduğunu göstərən siyasi bilklər;

— təkzibolunmaz siyasi hadisələrə əsaslanan siyasi biliklər;

— siyasi reallıqların təhlili əsasında gələcək siyasi hadisələrin meyllərini və istiqamətini müəyyən edən siyasi biliklər və s.

Siyasət elmində sosiallaşma əsasən iki aspektdə nəzərdən keçirilir. Birincisi, siyasi sosiallaşma nöqteyi-nəzərindən, daha doğrusu, fərdlərin siyasi sahədə sosiallaşması necə gedir; ikincisi, siyasi nəzəriyyə baxımından siyasi mühitin sosiallaşmaya təsir mexanizmi araşdırılır.

Siyasi sosiallaşma iki formada həyata keçirilir: 1) bilavasitə; 2) bilvasitə. Hər iki amil sosiallaşmada fəal iştirak edir, insanın həyat fəaliyyətində mühüm rol oynayır. Yuxarıda deyilənləri ümumiləşdirərək aşağıdakı nəticələrə gəlmək olar:

İnsan öz mahiyyəti etibarilə biososial bir varlıqdır. Deməli, onun şəxsiyyət kimi formalaşmasında həm tibbi bioloji, həm də siyasi-sosioloji amillər mühüm rol oynayırlar. Daha

aydın desək, insanın mövcudluğu həm bioloji fiziki, həm də sosial-siyasi tərəfləri vardır.

İnsan şəxsiyyətinin sosiallaşması prosesi iki mühüm mərhələdən keçir: birincisi, insanın öz ətrafına, kollektivə, nəhayət, cəmiyyətə uyğunlaşması və onda olan sosial-mədəni norma və dəyərləri mənimsəməsi; ikncisi, insanın siyasi cəhətdən sosiallaşması, onun siyasi həyata qovuşması, siyasi davranış, norma və dəyərlərin mənimsəməsi, siyasi şüur və siyasi mədəniyyətin yüksəlməsi, siyasi həyat yolunun və dünya görüşünün formalaşması.

Şəxsiyyətin siyasi sosiallaşmasına təsir edən amillər çoxdur. Konkret olaraq onları iki qrupda birləşdirmək olar: 1. Obyektiv amillər: cəmiyyətin sosial-iqtisadi münasibətləri, "vətəndaş—cəmiyyət—dövlət" oxunuun təsiri; 2. subyektiv amillər: siyasi fəaliyyətin daxilən dərk edilmiş tələbata çevrilməsi.

Sosial bir varlıq olmaq etibarilə insan siyasətin subyekti rolunda da çıxış edir, siyasi həyatda onun maraq və mənafeyi formalaşır, özünün fəal və ya passiv iştirakilə, mühafizəkarlığı, islahatçılığı, ekstremizmi və s. ilə seçilir.

İnsan düşdüyü konkret sosial-iqtisadi, siyasi-mənəvi təsiri altında "təqlidçi" rolunda çıxış edə bilər, siyasətdən uzaqlaşıb siyasi laqeydlik və ya siyasi özgələşmə yolunu da tuta bilər. Şəxsiyyətin siyasi sosiallaşmasının əsas vasitələri ailə, məktəb, kollektiv, mühit və s-dir. Şəxsiyyət siyasi həyatdakı iştirakçılığı ilə müəyyən bir fəaliyyət üçün başqaları tərəfindən məqsədli şəkildə təhrik edilə, yönəldilə yaxud manipulyasiya edilə bilər.

Siyasi sosiallaşma mövcud siyasi sistemlə qırılmaz şəkildə əlaqədardır və onlar həm də qarşılıqlı asılılıq şəraitindədirlər. Bu proses özünü iki şəkildə göstərə bilər: 1. mütərəqqi; 2. Mürtəce. Bu, mövcud siyasi sistemin özünün necəliyindən asılıdır.

İnsana siyasi sistemə uyğunlaşmağa və orada müəyyən rol oynamağa imkan verən keyfiyyət və xüsusiyyətləri onun öz sta-



tus və rolunun, həmçinin mədəni dəyərlərin və meyarların nəticəsində formalaşır ki, buna siyasi sosiallaşma deyilir.

Göründüyü kimi şəxsiyyətin siyasi sosiallaşması siyasi sistemlə əlaqədardır. Siyasi sistemin dəyişməsi şəxsiyyətə özünü bu sistemə uyğunlaşdırmaq problemi yaradır. Əgər nəzərə alsaq ki, bu gün cəmiyyətimizdə yaşayan insanların xeyli bir qismi Sovet dövründə yaşayıb, fəaliyyət göstərib və formalaşıb onda mövzunun aktuallığı aydın olur. Siyasi sosiallaşmayan insan siyasətə qoşularkən, çox zaman onun tələblərinə uyğunlaşa, özünü kəskin siyasi münasibətlərdən qoruya və effektiv şəkildə öz maraqlarını müdafiə edə bilmir.

Beləliklə, siyasi sosiallaşma bu mədəni dəyərlərin, siyasi oriyentasiyaların mənimsənilməsi prosesi olub, müəyyən cəmiyyət üçün məqbul olan siyasi davranış formalarının əxz olunmasıdır. Siyasi sosiallaşma prosesi nəticəsində fərdlər və qruplar müəyyən siyasi mədəniyyətə yiyələnir ki, bu da öz növbəsində siyasi sisteminin sabitliyinin təminatına kömək etmiş olur. İnsanın siyasi sistemin müəyyən norma və ənənələrinə uyğunlaşdırılması, siyasi iştirak vərdişlərinin formalaşdırılması, aparılan siyasətin məqsəd və metodları haqqında informasiyaya malik olmaq siyasi sosiallaşmanın məzmununu təşkil edir.

İnsanın sosial və siyasi adaptasiyası, onun ənənənə və dəyərləri qavraması problemlərinə hələ keçən əsrin 20-ci illərində yüksək diqqət yetirməyə başlanılmışdır. O dövrdə xüsusən etnik qrupların böyük şəhərlərə adaptasiyası məsələsi daha çox diqqət mərkəzində olmuşdur. Ancaq siyasi sosiallaşma prosesinə vahid yanaşma işləyib hazırlamaq mümkün olmamışdır.

ABŞ alimi D.İstonun rəhbərliyi altında fəaliyyət göstərən alimlər siyasi sosiallaşma nəzəriyyəsini insana siyasi sahədə öz xüsusi rolunu yerinə yetirməyə imkan verən təhsil prosesi kimi izah edirdilər. Bu nəzəriyyəni müdafiə edən Z.Koln, R.Lipton, T.Parsons və b. diqqəti siyasi sistem və onun insti-

tutları ilə insanın qarşılıqlı münasibətlərinə yönəldirdilər.

M.Xabermas, Kohen kimi alimlərin rəhbərlik etdiyi digər bir yanaşmaya görə siyasi sosiallaşmaya insanın özü üçün yeni olan dəyərləri əks etməsi prosesi kimi baxmaq lazımdır. Bununla da onlar insanın siyasi şüur və davranışının formalaşmasını şəxsiyyətdaxili və psixoloji mexanizmlərin təsirini önə çəkmiş oldular.

Psixoanaliz sahəsində fəaliyyət göstərən C.Erikson, E. Fromm kimi alimlər isə siyasi sosiallaşmaya insanın hiss və təsəvvürlərinin gizli siyasiləşməsi prosesi kimi baxırlar.

Yanaşmalarındakı fərqə baxmayaraq, alimlərin əksəriyyəti bir məsələdə vahid mövqedən çıxış edirlər. Bu da ondan ibarətdir ki, siyasi sosiallaşmanın əsas funksiyası şəxsiyyətin siyasi məkanda oriyentasiya qabiliyyətinə malik olması və orada müəyyən hakimiyyət funksiyasını həyata keçirə bilməsidir. Bu mənada siyasi sosiallaşma özlüyündə ikili prosesin birləşməsidir. Bir tərəfdən o siyasi sistemin tələb etdiyi müəyyən norma və dəyərlərin şəxsiyyət tərəfindən mənimsənilməsini qeydə alır, digər tərəfdən isə şəxsiyyətin bu ənənə və təsəvvürləri necə qavradığını nümayiş etdirərək, onları siyasi davranışın bu və ya digər formasında möhkəmləndirir. Buradan belə bir nəticəyə gəlmək olar ki, cəmiyyətin şəxsiyyətin siyasi keyfiyyətinə təsiri, həmçinin siyasi sosiallaşma prosesinin gedişinə nəzarət əhəmiyyətli dərəcədə insanın daxili inamı və inancı ilə məhdudlaşır.

Siyasi mədəniyyətin siyasi dəyərlər, ənənələr, davranış nümunələri və bu kimi digər elementləri insan tərəfindən fasiləsiz olaraq əxz edilir. Bu proses yalnız insan həyatının müddəti ilə məhdudlaşa bilər. Bir sıra ideya və vərdişləri qəbul edən insan, eyni zamanda dəyərləri ilə xudahafizləşə və hakimiyyətlə dil tapmağın yeni üsullarını seçə bilər. Deməli, siyasi sosiallaşma, bu, insan tərəfindən siyasi xüsusiyyətlərin eyni zamanda həm qəbulu, həm də itirilməsi, siyasi subyektin sosiallaşması və əks sosiallaşmasının simbi-



ozudur. Buradan belə bir nəticəyə gəlmək olar ki, insanın siyasi sosiallaşma səviyyəsi dəyişilməz olaraq qalmır. Xüsusən də siyasi sistemdə keyfiyyət dəyişikliyi baş verdikdə, onun dəyərləri müəyyən təkamülə uğradıqda və subyektlərin siyasi davranışına tələblər dəyişildikdə siyasi sosiallaşma səviyyəsi də dəyişilir.

İnsanın siyasi bilik, qabiliyyət və vərdişləri onun subyektiv vəziyyətindən və siyasətdə oynadığı rolundan (belə ki, lider və sıravi seçici eyni davranış nümunələrini rəhbər tuta bilməzlər), həmçinin siyasi sosiallaşmanın əsas agentlərindən: ailədən, təhsil sistemidən, siyasi institutlardan, dini və ictimai birliklərdən, kütləvi informasiya vasitələrindən asılıdır. Siyasi prosesin bu üç, dəyişəni siyasi sosiallaşmanın ilkin və ikinci mərhələlərindən fərqi müəyyən edir.

İlkin siyasi sosiallaşma (adətən üç-beş yaşlarında) insan tərəfindən sadə siyasi kateqoriyaların qavranılması ilə xarakterizə olunur. Bu isə ondan tədricən siyasi həyatın təzahürlərinə qarşı fərdi münasibət formalaşdırır. Amerika alimləri D.İston və İ.Denisə görə burada sosiallaşmanın prosesinin dörd aspektini bir-birindən ayırmaq zəruridir. 1) Uşaq tərəfindən informasiya valideyinlərinin qiymətləndirilməsindən, onların münasibətindən, reaksiya və hislərindən alınır. 2) Siyasətin personallaşdırılmasıdır. Bu zaman siyasi sferaya mənsub olan bu və ya digər fiqur, məsələn, prezident, televizordan, yaxud, evinin yanında gördüyü polis, onun üçün siyasi sistemlə təmasın nümunələrinə çevrilir. 3) Bu siyasi obrazların ideallaşdırılması, başqa sözlə onların əsasında siyasətə dayanıqlı emosional münasibətlərin meydana gəlməsi. 4) Mənimsənilmiş xüsusiyyətlərin institutsionallaşmasıdır. Bu, uşağın siyasi dünyasının mənzərəsinin mürəkkəbləşdiyini və onun müstəqil siyasi baxışlar mərhələsinə keçdiyini göstərir.

Siyasi sosiallaşmanın ilkin mərhələsinin xüsusiyyəti ondan ibarətdir ki, insana siyasi sistemə və mədəni nor-

malara, hələ heç onların mahiyyətini və əhəmiyyətini başa düşməzdən belə, adaptasiya olunması lazım gəlir. Odur ki, gələcəkdə insanda davranışın anomal və antisosial formalarını istisna etmək üçün, uşağa siyasi norma və keçmiş təcrübənin ötürülməsi mexanizmində müəyyən ardıcıllığı gözləmək lazımdır. Burada uşağın siyasi dünyaya qoşulmasının təbii xarakterini qorumaq üçün sosial formalara üstünlük verilməlidir. Yalnız bu əsasda inkişaf edən uşaq şüurunda imperativ mühakimə və qiymətləndirməni gələcəkdə isə aksioloji norma və təsəvvürləri (dəyərlər, ideallar, prinsiplər) möhkəmləndirmək olar.

İkinci siyasi sosiallaşma insan fəaliyyətinin o mərhələsini xarakterizə edir ki, bu zaman o, həyata saf çürük edilməsi və rolların həyata keçirilməsi üsullarına yiyələnmişdir, qrup təzyiqinə davam gətirmək imkanına və özünün fərdi şəkildə ideoloji mövqeləri, mədəni norma və ənənələri yenidən qiymətləndirmək qabiliyyətinə malikdir. Beləliklə, bir zaman əsas rolu əks sosiallaşma tutur. Bu onunla xarakterizə olunur ki, insan özü biliklərin seçilməsi və mənimsənilməsini və hakimiyyətlə münasibətlərini hansı norm və üsullarla tənzimlənməsini müəyyən edir. Bundan irəli gələrək deyə bilərik ki, ikinci sosiallaşma insanın özünün dəyərlər haqqında təsəvvürlərinin, habelə, siyasi davranış üsullarının və ideoloji mövqelərin fasiləsiz olaraq korrektə edilməsidir.

Siyasi sosiallaşmanın müxtəlif tipini ayırmaq mümkündür: birbaşa və dolayısı. Birbaşa sosiallaşma bu siyasi bilik və qaydaların bilavasitə mənimsənilməsidir. Dolayısı sosiallaşma isə, xarakterin xüsusiyyətlərinin, erkən uşaq təcrübəsinin, şəxsiyyətin birbaşa əhatəsinin formalaşdırılan siyasi qaydalara "proyeksiyasıdır". Belə ki, hələ həyatın erkən dövründə formalaşan uşağın ataya münasibətdəki qəbul olunan qaydalar sonradan siyasi obyektlərə (prezidentə, məhkəməyə, parlamentə, partiyaya və b.) transformasiya oluna bilər.



Şəxsiyyətin siyasi sosiallaşması bir neçə mərhələdən keçir.

Birnci mərhələ - Siyasiləşmə mərhələsi adlanır. Bu zaman hələ erkən yaşlarında uşaqlarda valideyinlərinin təsiri, onların münasibəti, qiymətləndirilməsi nəticəsində uşaqların onların siyasi dünya haqqında ilkin təsəvvürləri formalaşır.

İkinci mərhələ - personallaşma adlanır. Bu mərhələdə hakimiyyətin qavranılması personallaşdırılır. Hakimiyyət nümunəsi kimi prezidentin, baş nazirin, yaxud polisin obrazı qəbul edilir.

Üçüncü mərhələ - ideallaşma adlanır. Bu mərhələdə siyasi fiqurlara müəyyən keyfiyyətlər aid edilir və bu əsasda siyasi sistemə möhkəm emosional münasibətlər yaranır.

Dördüncü mərhələ - institutusional adlanır. Siyasətin personallaşdırılması mərhələsindən onun daha abstrakt qavranılması mərhələsinə keçilməsi ilə xarakterizə olunur. Bu mərhələ hakimiyyət institutları haqqında təsəvvürlərin əsası qoyulur.

Uşaqlarda siyasi təfəkkürün xüsusiyyətlərinin öyrənilməsi şəxsiyyətin siyasi inkişafının qeyri-bərabərliyini müəyyən etməyə kömək edir. Belə ki, 11-13 yaş dövründə siyasi təsəvvürlər sürətlə inkişaf edir. Ancaq 16-18 yaşlarında bu proses xeyli zəifləyir. 15 yaşındakı yeniyetmənin şüuru 11 yaşlı uşaqdan fərli olaraq daha çox abstraklaşma imkanına malikdir. Bu zaman hakimiyyət, "azadlıq", "insan hüquqları" kimi anlayışlardan istifadə olunur. Məhz yeniyetməlik dövründə ayrı-ayrı siyasi institutların kollektiv məqsədləri barəsində təsəvvürlər yaranır.

Uşaqlıq və gənclik dövründə formalaşan siyasi qaydalar daha mömkəm olur. İnsanın bütün həyatı boyu davam edən sosiallaşma prosesi həyatın gənclik dövründə formalaşan dəyərlərə elə bir ciddi təsir etmir. (Burada məktəb dövründə gənclərlə aparılan işin xüsisi əhəmiyyəti ortaya çıxır. Formalaşmış siyasi mədəniyyətin dəyərlərinin radikal dəyişməsi

prosesi (buna yenidən resosiallaşma prosesi deyilir.) çox ağrılı olub, kəskin şəxsiyyətdaxili münaqişələrlə müşayiət oluna və hətta şəxsiyyətin strukturunun dağılmasına gətirib çıxara bilər.

Sosiallaşma prosesində bir neçə subyekt iştirak edir və qarşılıqlı təsirdə olur. Bunlardan biri sosializantdır, başqa sözlə sosiallaşmanın yönəltdiyi tərəf. O biri bu sosiallaşmanı həyata keçirən institutlardır. Bura təhsil ocaqları, partiyalar, ictimai təşkilatlar, kütləvi informasiya vasitələri və s . daxildir. Nəhayət, üçüncü tərəf, sosiallaşma agentləri, yaxud sosalizatorlar adlanır. Bunlar sosiallaşmanı bilavasitə həyata keçirən şəxslərdir. Bura müəllimlər, ictimai hərəkatın fəalları, ictimai xadimlər, jurnalistlər və s. daxildir.

Siyasi sosiallaşmanın bir neçə modeli mövcuddur. Amerikalı politoloq R.M.Merelman belə modeli qeyd edir.

Birinci, <u>sistemli model</u> – onunla xarakterizə olunur ki, hakimiyyətə, hüquqi qaydalara, ənənəvi institutlara pozitiv münasibət formalaşdırır. Bu zaman sosiallaşmanın agentləri kimi ailə və məktəb, şəxsiyyətin ətrafı, onun yaşıdları çıxış edir.

İkinci, hegemonçu model - gəncləri "özününkün"dən başqa istənilən sosial və siyasi sistemə qarşı düşmənçilik əhvalında formalaşdırır.

Üçüncü, plüralist modelində sosiallaşmanın məqsədi, vətəndaşlarda özlərinin siyasi maraqları haqqında təsəvvürləri formalaşdırmaq, bu maraqları reallaşdırmaq üçün istək yaratmaq, yüksək vətəndaş aktivliyinə nail olmaqdır.

Nəticədə, insanlar müəyyən siyasi qruplara bağlı olurlar. Və aparılan siyasətdən və özlərinin maraqlarının təmin olunması dərəcəsindən asılı olaraq azad şəkildə bu qrupları dəyişə bilərlər. Bu zaman sosiallaşmanı həyata keçirən institutlar ictimai ailə, məktəb, kütləvi informasiya vasitələri, partiya və maraq qrupları çıxış edir.

Dördüncü konfliktli model adlanır. Bu modelə insanlar müəyyən qrupa qarşı loyal davranacaq, həmin qrupu digər-



lərinə qarşı mübarizədə müdafiə edirlər. Ayrı-ayrı partiyaların təəssübçülərinin sosial şəbəkələrində apardıqları mübarizə buna sübut ola bilər. Burada sosiallaşma institutları kimi həmin qrupun maraqlarını müdafiə edən təbliğat, vətəndaş orqanları çıxış edir. Sosiallaşmanın birinci modeli xeyli dərəcədə ingilis-amerikan mədəniyyətinə xasdır. İkinci qeyri-qərb sivilizasiyasına uyğun gəlir. Üçüncü model kontinental Avropa mədə-niyyətinə xasdır. Nəhayət, dördüncü model avtoritar siyasi sistemlərə aid edilir.

Hər bir siyasi sistemdə sosiallaşma prosesinin öz xüsusiyyətləri vardır. Məsələn, ABŞ-da siyasi sosiallaşmanın çoxsahəli sistemi yaradılmışdır. Burada sosiallaşma prosesi çox kiçik yaşlardan başlanır.

Bu dövrdə uşağın təsəvvürlərinin formalaşmasına ailə təsir göstərir. Məhz ailə uşağı əxlaqi, sosial, dini və siyasi dəyərlərlə tanış edir. Ailədə ilkin siyasi biliklər formalaşdırılır ki, sonradan bu onun bütün həyatı boyu dünyagörüşünə hissolunan təsiri göstərmiş olur. Onu da qeyd etmək lazımdır ki, tədqiqatlar göstərir ki, fərdin siyasi sosiallaşmasında ailənin rolu ABŞ-da, Qərbi Avropada olduğundan qat-qat çoxdur. Buradaca onu da deyək ki, ailədə ataların uşaqların siyasi baxışlarının formalaşmasına təsiri analardakından daha çoxdur. Ancaq əgər valideyinlərin siyasi baxışları fərqlənirsə, uşaqlar çox zaman anaların mövqelərini tutur.

Amerikanlıların məqsədyönlü sosiallaşması tədrisin ilk illərindən başlayır və uzun illər boyu davam edir. İbtidai təhsil dövründən uşaqlar hakimiyyəti təmsil edən sadə anlayışlarla – "polis", "prezident", "general", "rəis" və s. ilə tanış olurlar. Uşaqlar ilkin dövlət simvolları ilə - gerblə, bayraqla, himnlə, tanış olur. İctimai davranış normaları haqqında təsəvvürlərə malik olurlar (Başqalarının fikrinə hörmətlə yanaşmaq, özünün idarəetmə orqanlarına sinif yoldaşlarının seçilməsi və s.) Təhsilin səviyyəsi artdıqca, sosiallaşma prosesi də mürəkkəbləşdirilir. Artıq onda məktəbdə şagir-

dlər ABŞ konstitusiyası, insan hüquq azadlıqları görkəmli siyasi liderlər və tarixi şəxsiyyətlər haqqında təsəvvürlərə sahib olur. Sosiallaşma prosesi universitet və kolleclərdə davam edir. Burada tədris olunan fənlər arasında politologiya fənni önəmli yer tutur. Bu mərhələdə sosiallaşma siyasi şüurdan hüquqi nihilizm və ekstrimizmi aradan qaldırmaq vəzifəsini yerinə yetirir. Tələbələrin sonrakı mərhələdə müqayisəli politologiya, fəlsəfə, sosiologiya, tarix kimi elmlərdən aldıqları biliklər onların siyasi seçimlərinə təsir göstərir. Belə bir sosiallaşmanın nəticəsi kimi Amerikanın vətənpərvərlik ruhunda köklənmiş, öz tarixi və siyasi sistemi ilə fəxr edən vətəndaşlar meydana gəlir.

Biz buraya vətənpərvərlik ruhunda çəkilmiş filmləri də əlavə edirik. Beləliklə, göründüyü kimi siyasi sosiallaşma uzun bir proses olub, məqsədyönlü və gərgin bir işdir. Ancaq ölkənin və dövlətin gələcəyi baxımından həm də aparılması zəruri olan bir prosesdir.

Qərbi Avropada siyasi sosiallaşma prosesi totalitarizmdən və avtoritarizmə, demokratiyaya keçən ölkələrdə özünün bütün kəskinliyi ilə meydana çıxdı. Məsələn, II dünya müharibəsindən sonra Almaniyada meydana gələn demokratiya kütləvi şüurda demokratik dəyərlərin dərin kök sala bilməməsi səbəbindən hələ uzun müddət qeyri-sabit olaraq qalırdı. Bu halda işğal zonasındakı Amerikan hakimiyyəti almanların dəyərlər sisteminin modernizasiyası üçün indiyə qədər görünməmiş bir eksperimentə başladılar. Bu məqsədlə xüsusi proqram işlənib hazırlandı. Bu proqram orta və ali təhsil sisteminin islahatını nəzərdə tuturdu. İslahat nəticəsində köhnə müəllimlərin böyük bir hissəsi işdən azad olundu, qalanların isə yenidən hazırlanması işi həyata keçirildi, yeni dərs vəsaitləri nəşr olundu, həmçinin demokratik dəyərləri təbliğ edən ədəbiyyatın kütləvi çapı baş verdi. Buna baxmayaraq bir neçə il sonra aparılan sosioloji sorğular göstərdi ki, alman siyasi mədəniyyətindəki demokratik



dəyərlərə doğru dəyişikliklərin səviyyəsi heç də arzuolunan səviyyədə deyil. Qərbi Almaniyanın siyasi mədəniyyətdə demokratik dəyərlərə doğru müsbət dəyişikliklər keçən əsrin 60-cı illərinin sonu 70-ci illərin əvvəllərində baş verdi. 70-ci illərin ortalarında baş verən iqtisadi böhran AFR tarixində ən ağır böhran olmasına rəğmən onun sosial və siyasi sisteminin legitimliyini sarsıda bilməzdi. Bu isə qərbi almanların siyasi mədəniyyətində demokratik təsəvvürlərin kifayət qədər möhkəmləndiyinə bir sübut idi. Müasir Almaniyada bu gün də kifayət qədər effektli və qüdrətli bir siyasi sosiallaşma sistemi fəaliyyət göstərməkdədir.

İspaniyada sosiallaşma böhranı franko rejiminin süqutundan sonra meydana gəldi. İspanların böyük əksəriyyəti siyasətə yadlaşdırıldığına görə dövlətin idarəedilməsi haqqında dumanlı təsəvvürə malik idilər. Onlar siyasətlə maraqlanmır, hətta siyasi hadisələri belə müzakirə etmirdilər. Adi qəzet oxumaq mədəniyyəti yox idi. İstər ailə, istərsə də həmyaşıdlar özlərinin siyasətdən uzaq olması səbəbindən sosiallaşmanı həyata keçirə bilmirdilər. Belə bir irsdən yaxa qurtarmaq Almaniyada olduğu kimi mürəkkəb və uzun bir proses oldu.

Müasir Azərbaycanda müstəqillik əldə edildikdən, sonra siyasi rejimin dəyişilməsindən sonra siyasi sosiallaşmanın əvvəlki sistemi ləğv olundu. Əvvəlki dəyərlər sisteminin gözdən düşdüyü, yeni dəyərlərin isə kütləvi surətdə dominant olmadığı bir şəraitdə cəmiyyət qarşısında bir sıra mürəkkəb suallar dayanır: siyasi sosiallaşma hansı məqsədlərə xidmət etməlidir? Hansı dəyərlər müxtəlif sosial qrupların konsensus obyektinə çevrilə bilər? Onlardan hansıları gözdən düşmüş olunmuş əvvəlki dəyərləri əvəzləyə bilər?

Ölkəmizdə siyasi sosiallaşmanın digər problemi siyasi iştirak və davranış təcrübəsinin yaşlı nəsil tərəfindən nəsildən-nəsilə ötürülə bilməməsidir. Belə ki, siyasi iştirak və davranış təcrübəsi, yeni siyasi reallığa uyğun gəlmir. Yeni

modellər isə tədricən formalaşır və mənimsənilir. Məhz bu səbəbdən siyasi təhsil problemi aktuallıq kəsb edir. Buna digər ölkələrin siyasi təcrübəsi ilə yanaşı, siyasi sistemlərin fəaliyyət xüsusiyyətlərinin öyrənilməsi, onlara təsir üsulları, fərdi və qrup maraqlarının reallaşdırılması, xarici təcrübənin Azərbaycan reallığına uyğunlaşdırılması daxildir. Ancaq yeni siyasi sosiallaşmanı təkcə humanitar və siyasi təhsillə məhdudlaşdırmaq olmaz. Dağılmış və yox olmuş köhnə sosiallaşma sisteminin yerinə yeni sosiallaşma institutlarının formalaşdırılması zərurəti yaranmışdır.

Beləliklə, siyasi sosiallaşma elə bir adətdir ki, onun köməyi ilə rejimin legitimliyinin müəyyən olunmuş səviyyəsi qorunub saxlanır. Bu mürəkkəb bir proses olub, insana bir sıra faktların təsiri altında formalaşır. Bunlar həm məqsədyönlü, həm də ətraf mühitin kortəbii təsiri altında, habelə insanın daxili mexanizmlərinin bu stimullara reaksiyası sayəsində baş verir.

Bütün bunların təhlili əsasında aşağıdakı nəticələrə gələ bilərik:

1) Siyasi sosiallaşma institutu şəxsiyyətin siyasətlə təmasında vasitəçi rolu oynayır. Şəxsiyyətin yaş dəyişiklikləri siyasi sosiallaşma prosesinin mərhələlərini müəyyən edir. Şəxsiyyətin inkişafının hər bir mərhələsində bu və ya digər prioritet əhəmiyyətə malik olur.

2) Siyasi sosiallaşmanın bütün institutlarını siyasi və qeyri-siyasi olmaqla 2 yerə ayırmaq olar. Siyasi institutlara dövlət quruluşunun xarakter və tipi, siyasi institutlar, partiya və hərəkatlar, qeyri siyasilərə isə ailə, təhsil sistemi, ordu, dini institutlar, kütləvi informasiya vasitələri daxildir.

3) Mülki cəmiyyətin strukturları – sahibkarlar assosiasiyası, hüquq müdafiəçiləri, ekoloji təşkilatlar, etnik qruplar və s. insanın siyasi sistemə inteqrasiyasında əhəmiyyətlli rol oynamağa başlayıblar.

Siyasi sosiallaşma modelinin müxtəlif ölkələrdəki təhlili iki əsas problemi müəyyən etməyə imkan verir. Birinci, şəxsiyyətin siyasətə qoşulması siyasi sistem səviyyəsində, başqa sözlə makro səviyyədə baş verir. İkinci problem onunla əlaqədardır ki, siyasi sosiallaşma həm də, kiçik qruplar və şəxsiyyət səviyyəsində də baş verir.

Beləliklə, nəzərə almaq lazımdır ki, əgər müxtəlif sosiallaşma vasitələrinin təsiri üst-üstə düşürsə, onda sosiallaşma prosesi harmonik şəkildə baş verir. Bu zaman cəmiyyətdə sabitlik hökm sürür. Və əksinə, əgər vətəndaşlar ziddiyyətli informasiyanı sosiallaşmanın müxtəlif agentlərindən alırlarsa, bu halda siyasi təlatümlər, münaqişələr və böhranlar baş verə bilər.



## Ədəbiyyat

1.Человек и общество. Проблемы социализации индивида, ЛГУ, 1971, Ученые записки, вып. IX

2.Философски энциклопедический словарь, М, 1983, с 259

3. Гумилев.Л.Н. Этногенез и биосфера земли, Л, 1979, с 122

4.Фрейд.З. Введение в психоанализ. М, наука, 1989, с, 412-413

5.Бромлей Ю.В. Человек в этническо системе, -«Журн. Вопросы философии, 1988 №7, с.25

6.Durkheim E. Education moral, Paris. 1968. p- 88

7.Naxçıvanlı A.N. Siyasətin fəlsəfi poblemləri, B. Elm, 1999, s 59

## AZƏRBAYCANDA DÖVLƏT AILƏ SIYASƏTI VƏ MÜASIR ŞƏXSIYYƏTIN FORMALAŞMASI

Dövlət ailə siyasəti – dövlətin bir sosial institut kimi ailənin möhkəmləndirilməsinə, inkişafına, müstəqilliyinə, hüquq və maraqlarınnın müdafiəsinə istiqamətlənmiş fəaliyyətinin kompleks sistemidir. Bu siyasət təşkilati, iqtisadi, hüquqi, elmi, informasiya, təbliğat və kadr xarakterli ölçü və qiymətləndirmələrin bütöv sistemi olub, ailə həyatının şərtlərinin və keyfiyyətinin yaxşılaşdırılmasına yönəldilmişdir.

Dövlət ailə siyasəti sosial siyasətin müstəqil istiqaməti olub, ailənin yalnız spesifik problemlərini həll edir; ailəni və dövləti münasibətlərin yeni səviyyəsinə qaldırır. İlk dəfə olaraq ailə bütöv bir tam kimi, yeni sosial status qazanır, öz fəaliyyəti üçün real hüquqları və dövlət zəmanəti olan sosial institut kimi dövlət ailə siyasətinin, eyni zamanda, dövlət qayğısının və dəstəyinin obyektinə çevrilir.

Müasir dövlət ailə siyasəti XX yüzilliyin 90-cı illərindən başlayaraq, yəni cəmiyyət və ailəyə münasibətdə dövlətin məqsədyönlü proqramına ehtiyac duyulğunu dərk etdikdən sonra formalaşmağa başlamışdır.

Dövlət sosial siyasətinin məqsədi və əsas prinsipləri Azərbaycan Respublikasının Konstitusiyasında təsbit olunduğu və zəmanət verildiyi kimi ümumbəşəri dəyərlərin üstünlüyünə, demokratik əsaslara söykənən sosial hüquqi dövlətin quruculuğuna əsaslanır. Burada, Azərbaycan sosial siyasətə önəm verən bir dövlət kimi dəqiq müəyyənləşdirilmiş və "siyasəti insanın ləyaqətli həyatını və azad inkişafını təmin edən şəraitin yaradılmasına", "ailəyə dövlət dəstəyi"nə yönəldilmişdir.

Ailə siyasəti varisliyə və uzunmüddətliyə əsaslanır; dövlət sosial siyasətinin prinsipləri müxtəlif səviyyələrdə dəyişməzdir. Lakin müntəzəm olaraq sistematik elmi və metodoloji təkmilləşdirmələr, onların həyata tətbiq edilməsi və reallaşdırılması üçün maliyyə vəsaitləri tələb edir.



Yuxarıda qeyd edildiyi kimi, ailə problemləri ənənəviliyin və modernləşmənin qarşılıqlı təsirindən kənar nəzərdən keçirilə bilməz. Bir tərəfdən, ən mühafizəkar sosial institutlardan biri kimi ailə modernləşməyə qarşı yüksək dərəcədə «müqavimət qabiliyyəti» nümayiş etdirir. Digər tərəfdən, əgər modernləşmə ailə institutunu da əhatə edirsə, onda böyük əminliklə demək olar ki, o kifayət qədər dərinə nüfuz etmişdir. Yəni, ailənin bütövlüyü və strukturu Respublikanın sosiomədəni reallığında ənənəviliyin və müasirliyin qarşılıqlı təsirində təbii indikator kimi xidmət edə bilər.

Hazırda ailə institutu fəal şəkildə modernləşmə proseslərinə (və ya modernləşməyə müqavimət prosesinə) cəlb edilmişdir. Bu səbəbdən modernləşmənin bir çox çətinlikləri, onun çoxmərhələliyi, ilk növbədə ailənin "modernləşmə" dinamikasında daha yaxşı və daha qabarıq şəkildə üzə çıxır; ikincisi, daha dəqiq ailənin dinamikası, bilavasitə ənənəviliyin və müasirliyin qarşılıqlı təsir dinamikasını özündə birləşdirir.

Müasir şəraitdə Azərbaycan cəmiyyətində cinslərin rollarındakı standartlar istər mədəni məcrada, istərsə də tarixi məcradakı xüsusiyyətlərinə görə qədim köklərə malik olsa da, ailə institutu yeni reallıqlara yüksək uyğunlaşma qabiliyyətinə malik olan olduqca funksional sistem kimi təzahür etməyə başlamışdır.

Azərbaycan tədqiqatçısı Z. Qulu-zadə qeyd edir ki, "hazırda, şərti olaraq, Azərbaycan xalqının milli mentalitetində üç istiqamətindən danışmaq olar: sovet meylli, qərb meylli, şərq meylli. Əksər hallarda biz hər üç meylin özünəməxsus şəkildə birləşməsinə rast gəlirik. Lakin bütün bu müxtəlif təsirlərin rəngarəngliyi ilə yanaşı, milli mentalitetdə elə bir mehvər mövcuddur ki, o, müasir Azərbaycan ailsinin təməl və sabitliyini qoruyur». (1, s.72). Biz tədqiqatçının fikirləri

ilə tamamilə razıyıq, çünki, hesab edirik ki, əgər azərbaycanlı ailəsinin dayanıqlı mənəvi dəyərləri olmasaydı, ona müasir şəraitdə duruş gətirmək çətin olardı.

Əgər Qərbin postindustrial cəmiyyətlərində qadınların əmək bazarına fəal çıxışı, peşəkar fəaliyyətlərini intensivləşdirməsi, peşə hazırlığının durmadan artırılmasının vacibliyi, əmək müqavilələrinin müvəqqətiliyi və s. (başqa mədəni səbəblər sırasında) ailə institutunun böhranı, bir çox qadınların və kişilərin nikahdan və uşaq həyata gətirmə prosesindən imtinası ilə nəticələnirsə, Azərbaycanda bu tamamilə fərqlidir, əsas səciyyəvi cəhət ondan ibarətdir ki, artıq keçən əsrin sənaye dövründə evdən kənarda işləyən qadınlar, öz ailə və peşəkar fəaliyyətlərini uyğunlaşdırmağa müvəffəq olurdular. Buna görə də Azərbaycan qadınlarının yeni nəslinin (öz analarının nümunəsində tərbiyə edilmiş) dövlətin güclü dəstəyi şəraitində postindustrial cəmiyyətə daxil olması, peşə fəaliyyətinin, ər-arvad və valideyn rollarının uyğunlaşdırılması aspektində kiçik çatışmamazlıqlarla mümkün olacaqdır.

Baxmayaraq ki, müasir Azərbaycan cəmiyyətində böhranla və ya ailə institutunun tənəzzülü ilə bağlı açıq tendensiyalar müşahidə olunmur, lakin bununla belə, ailədaxili münasibətlərin, xüsusilə bu gün kişi və qadın arasında qarşılıqlı münasibətlərin yenidən təşkil edilməsi tendensiyaları kifayət qədər aydın görünür.

Ənənəvi təsəvvürlərdə istisnasız olaraq kişinin ailəni dolandırmaq və saxlamaq borcu milli mentalitetdə kifayət qədər dərin kök salmışdır. Ailənin hər bir üzvünün öz istəklərini təmin etmək cəhdində ifadə olunan individuallaşmanın dinamikası, ənənəvi ailələrdə dəqiq şəkildə müəyyənləşdirilsə də, və bu, gender sərhədlərinin fiksasiya olunduğu şəraitdə, müasir kişi və qadınların «cinsin normativ tələblərinə» riayət etməsini çətinləşdirir.

Müasir Azərbaycan ailəsində, kişinin ailə başçılığı və



onun ailəyə iqtisadi töhfəsi və qadının qiymətləndirilməyən ev əməyi, ailə təsərrüfatının aparılması və uşaqların tərbiyəsi ilə əlaqədar qadının öhdəlikləri arasında olan ənənəvi gender sərhədləri getdikcə öz sərtliyini daha çox itirir və dəyişikliklərə məruz qalır. Bunun nəticəsində qadınların rolu daha da çevikləşir, dəyişikliklərə qabil olur, insanların şüurunda qadınlıq getdikcə zəifliklə, passivliklə, asılılıqla daha az, kişiliklə, güclə, dominantlığa cəhdlə, yüksək sosial nailiyyətlərlə daha çox eyniləşdirilir. Qadınların müasir ictimai vəziyyəti, eləcə də onların iqtisadi asılılığının olmaması ailəyə başçılıq münasibətlərinin bərabərləşdirilməsinə imkan yaradır. Ər-arvad qarşılıqlı münasibətləri (xüsusilə gənc ailələrdə) əsas ailə qərarlarının verilməsinə və gündəlik problemlərin həllinə münasibətdə daha çox müqavilə əsasında qurulmağa başlayır.

Azərbaycanda kişinin dominant vəziyyətini qanunilaşdirən patriarxal münasibətlər üstünlük təşkil etsə də, lakin bununla yanaşı ailədə qadının Ana kimi tarixən formalaşmış statusunu cəmiyyətimizdə bir nüfuz sahibi kimi, şəxsiyyətinə olan hörmət və ehtiramı inkar etmək olmaz. Şübhəsiz, bütün bunlar milli mədəni ənənələrimizin tərkib hissəsi olub, nəsillərdən nəsillərə ötürülmüşdür.

Bizim, müasir Azərbaycan ailəsi üçün fikrimizcə, daha çox xarakterik olan cəhət, ər-arvad qarşılıqlı münasibətlərinin ənənəvi model forması ilə simmetrik və ya eqalitar ailə modellərinə uyğun olan formaların sintezləşdirilməsidir. Bu gün biz əminliklə iddia edə bilmərik ki, Azərbaycan cəmiyyətində tam şəkildə gender stereotipləri aradan götürülmüş və ənənəvi ailə tipindən eqalitar ailə tipinə keçid həyata keçirilmişdir. Lakin buna baxmayaraq, biz eqalitarizasiya istiqamətində müəyyən irəliləyişlərin olduğunu müşahidə edə bilərik. Bunu BMTİP-in 2007-ci ilə görə «Azərbaycan Respublikasında İnsan inkişafı haqqında» hesabatında əks olunmuş tədqiqatın nəticələri təsdiq edir. Hesabatda göstərilir ki,

cinsi mənsubiyyətindən asılı olmayaraq, sorğularda iştirak etmiş respondentlərin əksəriyyəti hesab edirlər ki, hər iki tərəf, «bir-birinə münasibətdə daha çox dözümlü olmalı», «güzəştə getməyi bacarmalı», « bir birinə qayğı göstərməli», «bir-birinin fikrinə hörmətlə yanaşmalıdırlar». (2, s. 56). Bu fikirlər müasir Azərbaycan ailəsində əməkdaşlığın müəyyən tipinə meylliliyin mövcudluğunu əks etdirir. Bütün bunlar bizim fikrimizcə, gələcəkdə ailədə cinslər arasında kəskin differensasiyanın aradan qaldırılmasına, eləcə də, ər-arvad rollarının inteqrasiyasına kömək edə biləcək.

Hal-hazırda qadınların peşəkar fəaliyyətlə durmadan artan məşğulluğu, onların kişilərlə bərabər müasir Azərbaycan cəmiyyətinin həyatında iştirakına şahidlik edir. Lakin, praktiki olaraq ictimai həyatın bütün sahələrində qadınların hüquq və imkanlarının artması ilə yanaşı, ev işləri ilə bağlı "hüquq" istinasız olaraq qadınların üzərinə düşür. «İkiqat məşğulluq», «ikiqat iş günü» bütün dünya qadınlarının əksəriyyəti üçün olduğu kimi, Azərbaycan qadınlarının da əsas problemlərindən biri kimi qalır. Nə qədər paradoksal olsa da, qadınların sosial azadlığı kimi belə proqressiv hadisə, qadınların özləri üçün bir sıra ciddi problemlərin yaranmasına səbəb olmuşdur. Əsas ziddiyyət ondan ibarətdir ki, bir tərəfdən əgər qadınların ictimai istehsalata kütləvi şəkildə cəlb edilməsi onların müstəqilliyinin genişləndirilməsinə səbəb olmuşdursa, digər tərəfdən, ailədə qadın öhdəlikləri spektrinin genişlənilməsinə səbəbi olmuşdur. Nəticədə, müasir qadın, ailə-məişət və peşəkar rolları birləşdirməklə, hədsiz dərəcə yüklənmiş, və bir çox psixoloqların qeyd etdikləri kimi, belə vəziyyət onları daimi stress vəziyyətinə salmışdır. Nəticədə, güzəştlər paketindən istifadə edilməsinin zəruriliyinə, ailə və peşəkar funksiyaları yüngülləşdirən, qadın əməyinə münasibətdə əməyin təşkilinin çevik formalarının istifadəsinə ehtiyac yaranmışdır. Həmçinin qeyd etmək lazımdır ki, Dövlət strategiyasının bu sahədə 2006-2015 illərə



dair ayrıca bölməsi qadın əməyinin təşkilinin çevik formalarının geniş tətbiqi məsələsinə həsr edilmişdir. Bu isə artıq yaxın gələcəkdə problemin həll edilməsi haqqında düşünməyə imkan verir.

Cəmiyyətdə hər şey inkişaf edib dəyişdiyi kimi, kiçik dövlət hesab etdiyimiz ailə də daim dəyişir və təkmilləşir. Hər bir ölkədə olduğu kimi, Azərbaycanda da ailənin formalaşması, onun inkişafı cəmiyyətdə gedən proseslərlə bağlıdır. Ona görə də, sözsüz ki, bütün bunlar ailə münasibətlərinə ciddi təsir göstərir.

Burada Prezident İ.Əliyevin müasir Azərbaycanda ailə dəyərlərinə verdiyi yüksək qiyməti göstərmək istərdik: "Ailə dəyərləri xalqımız üçün həmişə çox doğma olub, çox əziz olub və deyə bilərəm ki, ailə dəyərləri, əslində, bizim milli dəyərlərimizdir. Azərbaycan dünya birliyinə inteqrasiya edir. Əlbəttə ki, dünyada gedən qloballaşma prosesləri bizdən də yan keçmir. Biz ümumbəşəri dəyərləri bölüşürük, ancaq bizim əsas dəyərlər Azərbaycan milli dəyərlərimizdir. Bu baximdan, əgər tarixə də nəzər salsaq görərik ki, xalqımızın yaşaması üçün, öz mənliyini, qürurunu qoruması üçün ailə dəyərləri, milli dəyərlər əvəzolunmaz rol oynamışdır. Ölkəmizin inkişafı, müstəqilliyimizin daha da möhkəmləndirilməsi üçün və milli dəyərlərin tam şəkildə bərqərar edilməsi üçün ailə dəyərləri daim yüksəklərdə olmalıdır" (3).

Hazırki dövrdə ailələr həm iqtisadi, həm də sosial dəyişikliklərlə üzləşir. Buna görə də müasir ailə hər cür müdafiə və dəstəyə ehtiyac duyur. Başqa sözlə desək, cəmiyyətin inkişafı ailənin formalaşmasına, qadının və kişinin ailədə yerinə, uşaqların doğulmasına, tərbiyəsinə, ailə planlaşmasına öz təsirini qöstərir.

Bu il Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının 20-ci ildönümü başa çatdı. Ölkəmizin real surətdə müstəqilliyə qovuşması Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Onun rəhbərliyi altında qurulmuş müstəqil Azər-

baycan Respublikasında sosial sahədə dövlət siyasətinin prioritet istiqamətlərdən birini məhz ailə siyasəti təşkil edir.

Tarixən ailə Azərbaycan milli mentalitetində mühüm yer tutmuş, sosial strukturun ayrılmaz elementi, cəmiyyətin özəyini təşkil etmişdir. Milli-mənəvi dəyərlər məhz ailə müstəvisində qorunub saxlanaraq nəsildən-nəsilə ötürülmüşdür. Müxtəlif mərhələlərdə ailə institutu tarixi inkişafın təsirinə məruz qalsa da, bu sahədə mövcud olan fundamental dəyərlər dəyişməz qalmış və müasir dövrə qədər gəlib çatmışdır.

Milli-mənəvi dəyərlərin qorunmasının və ümümbəşəri ideallarla uzlaşdırılmasının vacibliyini vurğulayan H.Əliyev deyirdi: "Biz müasir dünyada yaşayırıq. Azərbaycan azad, sərbəst və açıq ölkədir, dünyanın bütün ölkələri ilə hərtərəfli əlaqələr qurur və bundan sonra da quracaqdır... Ölkəmizi, xalqımızı dünyaya olduğu kimi göstərmək və xalqımızın mənəvi dəyərlərini, nailiyyətlərini dünyada təbliğ etmək bizim ən əsas vəzifəmizdən biridir. Eyni zamanda ümümbəşəri, dünyəvi dəyərlərdən səmərəli istifadə etmək, onları öz mənəvi dəyərlərimizlə birləşdirmək və xalqımızın mənəviyyatını zənginləşdirmək bizim əsas vəzifələrimizdən biridir... Bizim milli, mənəvi dəyərlərimizin ümumbəşəri dəyərlərlə sintezi, birləşdirilməsi xalqımızın mənəviyyatını zənginləşdirib və bundan sonra da zənginləşdirəcəkdir"(4; s. 202-203).

Bu mənada Azərbaycanın milli-mənəvi dəyərlər sistemində ailə institutu möhkəm yer tutur. Müstəqil Azərbaycanda ailə siyasətinin formalaşması məsələsinə böyük diqqət göstərmiş H.Əliyev, bu sahədə mövcud olan problemlərin həlli istiqamətində ardıcıl və məqsədyönlü fəaliyyət göstərmişdir. O, müstəqil Azərbaycan Respublikasına rəhbərlik etdiyi 1993-2003-cü illərdə ailə siyasəti ilə bağlı məsələlərin normativ-hüquqi tənzimlənməsini və əməli həllini prioritet vəzifələrdən biri kimi qarşiya qoymuş və bu vəzifələrin həlli istiqamətində bir sıra addımlar atılmışdır.

Bu sırada Azərbaycan Respublikası Konstitusiyasının



17-ci maddəsini önə çəkmək istərdik:

"I. Cəmiyyətin əsas özəyi kimi ailə dövlətin xüsusi himayəsindədir;

II. Uşaqların qayğısına qalmaq və onları tərbiyə etmək valideynlərin borcudur və bu borcun yerinə yetirilməsinə dövlət nəzarət edir;

III. Valideynləri və ya qəyyumları olmayan, valideyn qayğısından məhrum olan uşaqlar dövlətin himayəsindədirlər;

IV. Uşaqları onların həyatına, sağlamlığına və ya mənəviyyatına təhlükə törədə bilən fəaliyyətə cəlb etmək qadağandır;

V. 15 yaşına çatmamış uşaqlar işə götürülə bilməzlər;

VI. Uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarət edir"(5).

Konstitusiyanın 34-cü maddəsi hər kəsin təbii hüququ olan nikah hüququnu təsbit edir. Həmin maddəyə görə hər kəsin qanunla nəzərdə tutulmuş yaşa çatdıqda ailə qurmaq hüququ vardır. Nikah könüllü razılıq əsasında bağlanır. Göründüyü kimi, Azərbaycan Respublikasında ailənin cəmiyyətin əsas özəyini təşkil etməsi və dövlətin xüsusi himayəsində olması, hər kəsin ailə qurmaq hüququndan istifadə etməsi özünün konstitusion təsbitini tapmışdır.

Bu təməl prinsiplər Azərbaycan Respublikasında dövlət ailə siyasətinin əsas istiqamətlərini müəyyən edən Ailə Məcəlləsində (Azərbaycan Respublikasının 28 dekabr 1999-cu il tarixli, 781 IQ saylı Qanun ilə qəbul edilmişdir) daha da inkişaf etdirilmişdir (6). Bu Məcəllə Azərbaycan Respublikasının Konstitusiyasında nəzərdə tutulmuş əsas insan və vətəndaş hüquqlarına və azadlıqlarına uyğun olaraq ailə münasibətlərinin iştirakçılarının hüquq və vəzifələrini, dövlət orqanlarının bu sahədəki səlahiyyətlərini, habelə vətəndaşlıq vəziyyəti aktlarının qeydə alınması qaydalarını tənzimləyən normaları müəyyən edir. Belə ki, Azərbaycan Respublikasının Ailə Məcəlləsində ailənin dövlətin himayə-

sində olması, analıq, atalıq və uşaqlığın qanunla mühafizəsi təsbitini tapmışdır. Məcəllə həmçinin Konstitusiyaya uyğun olaraq ailədə kişi və qadının hüquq bərabərliyini müəyyən etməklə, valideynlərin hüquq və vəzifələrini tənzimləyir.

Məcəlləyə dəyişiklər və əlavələrdə öz yerini sənədlərdə və Məcəllənin özündə tapmışdır. Belə ki,

- 22 oktyabr 2002-ci il tarixli 374-IIQD nömrəli Qanun – "Azərbaycan" qəzeti (11 dekabr 2002-ci il, № 284) ; 9.5; 158.3; 165; 176.2
- 30 aprel 2004-cü il tarixli, 643-IIQD nömrəli Qanun – "Azərbaycan" qəzeti (23 iyul 2004-cü il, № 169)
- 23 dekabr 2005-ci il tarixli, 34-IIIQD nömrəli Qanun – "Azərbaycan" qəzeti (16 fevral 2006-cı il, № 34)
- 10 oktyabr 2006-cı il tarixli, 155-IIIQD nömrəli Qanun – "Azərbaycan" qəzeti (1 dekabr 2006-cı il, № 269); 31.3
- 20 oktyabr 2006-cı il tarixli, 168-IIIQD nömrəli Qanun – "Azərbaycan"qəzeti (29 dekabr 2006-cı il, № 293); 17.4; 44.6; 46.1; 114.3; 115.7; 117.7; 118.8; 122.4; 131.4; 134.13; 155.5; 159.2; 168.2; 179; 180.2; 182.2; 186; 195
- 20 oktyabr 2006-cı il tarixli, 167-IIIQD nömrəli Qanun – "Azərbaycan" qəzeti (30 dekabr 2006-cı il, № 294); 158.3
- 29 dekabr 2006-cı il tarixli, 220-IIIQD nömrəli Qanun – "Azərbaycan" qəzeti (25 yanvar 2007-cı il, № 15); 156.4
- 17 aprel 2007-ci il tarixli, 315-IIIQD nömrəli Qanun – "Azərbaycan" qəzeti (19 avqust 2007-cı il; № 184); 33.4; 40.6; 96.2
- 9 oktyabr 2007-ci il tarixli, 430-IIIQD nömrəli Qanun – "Respublika" qəzeti (27 noyabr 2007-ci il, № 267) (Bu Qanun Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsi ilə eyni gündə qevvəyə minir); 9.5; 161.2
- 7 dekabr 2007-ci il tarixli, 509-IIIQD nömrəli Qanun – "Azərbaycan" qəzeti (30 dekabr 2007-ci il, № 294); 87.0.3
- 13 iyul 2008-ci il tarixli, 648-IIIQD nömrəli Qanun – "Respublika" qəzeti (10 iyul 2008-ci il, № 149); 84.2.4; 85.2



- 4 dekabr 2009-cu il tarixli, 924-IIIQD nömrəli Qanun – "Azərbaycan" qəzeti (13 fevral 2010-cu il, № 34); 51.7
- 1 fevral 2010-cu il tarixli, 951-IIIQD nömrəli Qanun – "Azərbaycan"qəzeti (19 mart 2010-cu il, № 62); 13.3; 104.3
- 20 aprel 2010-cu il tarixli, 992-IIIQD nömrəli Qanun – "Respublika" qəzeti (27 may 2010-cu il, № 113); 166.5; 167
- 31 may 2010-cu tarixli, 1016-IIIQD nömr.li Qanun – "Azərbaycan" qəzeti (18 iyul 2010-cu il, № 153); 53.5
- 17 may 2011-ci il tarixli, 114-IYQD nömrəli Qanun – "Azərbaycan" qəzeti (5 iyul 2011-ci il, № 143); 104.3; 106.5
- 24 iyun 2011-ci il tarixli, 181-IYQD nömrəli Qanun – "Azərbaycan" qəzeti (2 avqust 2011-ci il, № 167); 64.0.7
- 15 noyabr 2011-ci il tarixli, 255-IYQD nömrəli Qanun – "Respublika" qəzeti (24 dekabr 2011-ci il, № 279), 10.2 (6).

Gördüyümüz kimi ailə naminə mütəmadi olaraq Məcəlləyə dəyişiklər, əlavələr müntəzəm olaraq edilir. Azərbaycan dövlətinin ailənin inkişafı, cəmiyyətdə onun yerinin möhkəmləndirilməsi məqsədi ilə həyata keçirdiyi ardıcıl tədbirlər ailənin müdafiəsini və ailəyə dövlət qayğısını təmin edir. Tarixən formalaşmış ailə münasibətlərini qoruyub saxlamaq və dünyanın qabaqcıl ölkələrinin təcrübəsinə istinad etməklə ailə institutunu daha da inkişaf etdirmək bu sahədə reallaşdırılan siyasətin ana xəttini təşkil edir. Buna görə də ailə dəyərlərinin təbliği, sağlam ailə mühitinin formalaşdırılması milli-mənəvi və dünyəvi dəyərlərin birləşməsi prosesində həyata keçirilməlidir. Bu gün cəmiyyətimiz öz layiqli, sosial-mənəvi inkişafını təmin edən, həyat strategiyasını gerçəkləşdirə bilən, fəal, güclü ailələrin formalaşmasında maraqlıdır. Hazırda ölkəmizdə ailələrin rifahının daha da yaxşılaşdırılması istiqamətində olduqca mühüm tədbirlər həyata keçirilir.

Ailə problemləri sahəsində dövlət siyasətinin əsas istiqamətləri bunlardır:

- ailə institutunun möhkəmləndirilməsi;

- cəmiyyətin əsas özəyi kimi ailə dövlətin himayəsindədir;
- ailə hüquqlarının reallaşdırılmasının müdafiəsi ilə bağlı qanunla müəyyən edilmiş qaydada dövlət nəzarətinin həyata keçirilməsi;
- milli-mənəvi dəyərlər sisteminin mühüm hissəsi olan ənənəvi ailə dəyərlərinin qorunub saxlanılması;
- ailələrin sosial rifahının və etibarlı sosial müdafiəsinin təmin edilməsi;
- aztəminatlı, çoxuşaqlı və digər kateqoriyalara aid olan ailələrə dövlət qayğısının qöstərilməsi, onların sosial müdafiəsinin gücləndirilməsi;
- yoxsulluğun və işsizliyin aradan qaldırılması;
- ailə sahibkarlığının inkişaf etdirilməsi;
- ailənin sağlamlığının qorunması;
- əhaliyə keyfiyyətli təhsil almaq imkanlarının yaradılması;
- ailələrin inkişafı üçün hərtərəfli şəraitin yaradılması;
- zəruri hallarda qəyyumluğun və himayənin həyata keçirilməsi;
- narkoloji xəstəliklərin, erkən nikahların, ailədə zorakılığın və ailənin inkişafına mane olan digər halların qarşısının alınması;
- ətraf mühitin qorunması, insanların sağlamlığına mənfi təsir göstərən halların aradan qaldırılması.(7; s.7)

Bütövlükdə Azərbaycan Respublikasının ailə qanunvericiliyi ailənin möhkəmləndirilməsi zərurətini, ailə münasibətlərinin qarşılıqlı məhəbbət və hörmət hissləri əsasında qurulmasını, ailənin işlərinə kənar şəxslərin müdaxiləsinin yolverilməzliyini, ailə üzvlərinin ailə qarşısında məsuliyyətini, onların hüquqlarının maneəsiz surətdə həyata keçirilməsini müəyyən edir.

Müstəqil Azərbaycanda ailə siyasətinin əsas prinsipləri uğurla həyata keçirilir. Belə ki, ailə dəyərlərinin əhəmiyyətini yüksək qiymətləndirən Prezident İ.Əliyevin Sərəncamı



ilə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin yaradılması isə müstəqil Respublikamızın ailə siyasətinin həyata keçirilməsində yeni mərhələnin başlanğıcını qoymuşdur. Bu gün Respublika üzrə ailələrin sayı 1 milyon 800 minə yaxındır. Ailə problemlərinin həlli dövlətin daimi diqqət mərkəzindədir. Belə ki, dövlətin ailə siyasətinin əsas istiqamətləri aşağıdakılardan ibarətdir:
- Gənclərin uşaqlıqdan başlayaraq ailə həyatına hazırlanması;
- Gənc ailənin reproduktiv sağlamlığının qorunması;
- Ailə mənəviyyatının möhkəmləndirilməsi, sosial-psixoloji inkişafı, uşaqlarin tərbiyəsi;
- Ailənin sosial müdafiəsi.

Bu istiqamətlər üzrə məqsədyönlü tədbirlərin həyata keçirilməsi bir sıra aktlarda nəzərdə tutulmuşdur.

"Azərbaycan Respublikasının Demoqrafik İnkişaf Konsepsiyası" bu sahədə dövlət siyasətinin aşağıdakı prioritetlərini müəyyən edir:
- aztəminatlı uşaqlı ailələrə, əlillərə, qacqın və məcburi köçkünlərə ünvanlı sosial yardım göstərilməsi;
- əhalinin bütün sosial-demoqrafik qurumları və təbəqələri üçün sağlam həyat tərzinin təmin edilməsi;
- ana və uşaqların sosial müdafiəsi və mühafizəsinin gücləndirilməsi;
- əhalinin sağlamlığının və həyat şəraitinin yaxşılaşdırılması;
- əhalinin reproduktiv sağlamlığının yaxşılaşdırılmasına yönəldilmiş tədbirlərin həyata keçirilməsi;
- təhsil və məşğulluq sisteminin inkişaf etdirilməsi;
- aztəminatlı əhaliyə, o cümlədən coxuşaqlı ailələrə, əlillərə və s. pulsuz səhiyyə xidmətinin göstərilməsi.

Bu Konsepsiyanın əsas müddəalarını, dövlətin ailə siyasətini özündə əks etdirən bir sıra qərarlar və Dövlət Proqramları qəbul olunmuşdur. O cümlədən, səhiyyə sahəsində

əhalinin reproduktiv sağlamlığının qorunmasını təmin etmək məqsədilə 15 sentyabr 2006-cı ildə "Ana və uşaqların sağlamlığının qorunması üzrə Tədbirlər Proqramı" təsdiq edilib. Proqramın əsas məqsədi ana və uşaqların sağlamlığının möhkəmləndirilməsi, əhalinin reproduktiv sağlamlığının qorunması, sağlam və arzuolunan uşaqların doğulması üçün zəruri şəraitin yaradılması, ana və uşaqlar arasında xəstələnmə və ölüm hallarının azaldılmasıdır.

Sosial sahədə Prezident İlham Əliyev 29 mart 2006-cı il tarixli Sərəncamı ilə "Azərbaycan Respublikasinda dövlət uşaq müəssisələrindən uşaqların ailələrə verilməsi (Deinstitusionalizasiya) və alternativ qayğı" Dövlət Proqramı (2006-2015-ci illər) təsdiq edilmişdir. Proqramın əsas məqsədi BMT-nin "Uşaq hüquqlarına dair" Konvensiyasında təsbit olunmuş uşağın şəxsiyyətinin tam və ahəngdar inkişafı üçün onun ailə mühitində xoşbəxtlik, məhəbbət və anlaşma şəraitində böyüməsinin zəruriliyi nəzərə alınaraq, dövlət uşaq müəssisələrində olan uşaqların ailələrə verilməsi və alternativ qayğının təşkili mexanizmlərinin yaradılması və səmərəli işləməsinin təmin edilməsidir.

11 noyabr 2004-cü ildə "Azərbaycan Respublikasında demoqrafiya və əhali sakinliyinin inkişafı sahəsində Dövlət Proqramı" təsdiq olunmuşdur. Onun əsas məqsədi əhalinin optimal təkrar istehsalına nail olmaq, ölüm səviyyəsini azaltmaq, orta ömür uzunluğunu artırmaq, ana və uşaqların müdafiəsini gücləndirmək, ailələrin inkişafı üçün əlverişli sosial-iqtisadi zəmin yaratmaq və miqrasiya proseslərinin tənzimlənməsi yollarını müəyyən etməkdən ibarətdir.

25 yanvar 2007-ci il tarixli, 17 saylı qərarı ilə "Demoqrafik cəmiyyətdə gündəlik zorakılıqla mübarizə üzrə Respublika Kompleks proqramı" təsdiq edilmişdir. Proqramın məqsədi Azərbaycan Respublikasında əhalinin şəxsi və ictimai həyatının müxtəlif sahələrində xüsusi tədbirlər vasitəsilə məişət zorakılığı hallarının azaldırılması və zorakı davranış formalarının qarşısının alınmasıdır.



Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə əhalinin bir sıra sosial qrupları (şəhid, qacqın və məcburi köçkün ailələri, əlillər, müharibə və əmək veteranları və s.) üçün təqaüdlər və imtiyazlar müəyyən edilmişdir. Bu sırada "Qaçqınların və məcburi köçkünlərin problemlərinin həlli üzrə" Dövlət Proqramının adını çəkmək olar (17 sentyabr 1998-ci tarixli, 895 saylı Sərəncanmı). Burda qaçqınların və məcburi köçkünlərin mövcud olan vəziyyətini nəzərə alaraq onların təhsil, səhiyyə, işə cəlbolma, mənzil-məişət, müavinət və digər problemlərinin həllinə yaxşılaşdırılmaq, sosial müdafiəsini ardıcıl olaraq təmin etmək və bu sahənin idarə olunmasını təkmilləşdirmək məqsədi ilə qəbul olunmuşdur. "Qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğun artırılması üzrə" (Dövlət Proqramı Azərbaycan Respublikası Prezideninin 1 iyul 2004-cü il tarixli, 298 saylı Sərəncam). Bu Sərəncam ilə Azərbaycanın işğal altında olan torpaqları azad edilənə və didərgin düşmüş vətəndaşlar öz doğma yurdlarına qayıdana qədər qaçqın və məcbyri köçkünlərimiz çadır düşərgələrində, dəmir yolu üzərindəki yük vaqonlarında və Azərbaycanın işğal altında olan yaşayış üçün yararsız yerlərində məskunlaşmışlar. Dövlət Proqramı soydaşlarımızın məmzil-məişət şəraitinin yaxşılaşdırılmasını, onlar üçün iş yerlərinin yaradılmasını və digər sosial problemlərin həllini təmin etmək məqsədilə qəbul olunmuşdur.

"Ünvanlı dövlət sosial yardımı haqqında" Azərbaycan Respublikasının Qanunu (14 iyun 2005-ci il tarixli, 1039-IIQ saylı) aztəminatlı ailələrə ünvanlı dövlət sosial yardımının verilmesini nəzərdə tutur. "Sosial müavinətlər haqqında" Azərbaycan Respublikasının Qanun da (7 fevral 2006-cı il tarixli, 55-IIIQ saylı) Azərbaycan Respublikasında sosial müavinətlərin təyin olunması və verilməsinin hüquqi əsaslarını müəyyən edir və bu sahədə yaranan digər münasibətləri

tənzimləyir.

2009-cu ilin "Uşaq ili" elan edilməsi haqqinda Azərbaycan Respublikası Prezidentinin 22 dekabr 2008-ci il tarixli 103 saylı Sərəncamı.

1 iyul 2006-cı ildən Respublika Prezidentının Sərəncamı ilə aztəminatlı ailələrin maddi vəziyyətinin yaxşılaşdırılması üçün əhaliyə ünvanlı sosial yardım verilməsinə başlanılmışdır. Ailədə adambaşına düşən gəlir nəzərə alınmaqla 35 manat həcmində müəyyən edilmişdir. Ailədə bir yaşa qədər körpə uşaq olduqda köstərilən yardımdan əlavə 10 manat əlavə yardım verilir.

Hamiləliklə əlaqədar işləyən analara ödənişli 126 günlük məzuniyyət verilir. Ümumiyyətlə 3 il ərzində körpəyə qulluq məqsədilə ödənişsiz analıq məzuniyyəti verilir. Uşağın doğumuna görə birdəfəlik 30 manat həcmində muavinət ödənilir.

22 noyabr 2005-cı il tarixli "Ailə kəndli təsərrüfatı haqqında" Azərbaycan Respublikasının Qanunu Azərbaycan Respublikasında ailə təsərrüfatı fəaliyyətinin hüquqi və təşkilati əsaslarını müəyyən edir. Bu qanunun məqsədi kənd yerlərində ailə əməyinə əsaslanan təsərrüfatların inkişafının dəstəklənməsi, özünüməşğulluğun stimullaşdırılması və səmərəliliyinin yüksəldilməsi, alternativ gəlir mənbələrinin genişləndirilməsi və kənd yerlərinin inkişafının sürətləndirilməsidir.

"Azərbaycan Gəncliyi Dövlət proqramı" (2005-2009-cu illər) Azərbaycan Respublikası Prezidentinin 2005-ci il avqust tarixli, 982 saylı Sərəncamı ilə təsdiq edilmişdir. Proqramın vazifələrindən biri də sosial müdafiəyə ehtiyacı olan gənclərin, o cümlədən gənc ailələrin problemlərinin həllinə kömək göstərməkdir.

23 yanvar 2007-ci il tarixli "İpoteka haqqında" Azərbaycan Respublikası Qanunu artıq uğurla həyata keçirilir. Bu istiqamətdə uzunmüddətli ipoteka kreditləşməsi vasitəsilə



vətəndaşların yaşayış sahəsi ilə təmin edilməsi mexanizmlərinin təkmilləşdirilməsi, gənc ailələrə və Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularına dövlət tərəfindən güzəştli ipoteka kreditlərinin verilməsi mexanizminin yaradılması təmin olunmuşdur.

Gördüyümüz kimi cəmiyyətimizdə ailə institutunun qorunub saxlanılması həmişə aktual məsələ olmuşdur. Böyüyə hörmət, ağsaqqala-ağbirçəyə ehtiram bizim nəsildən-nəslə ötürülən müqəddəs milli dəyərlərimizdəndir. Azərbaycan xalqının tarixi köklərinə, mənəvi dəyərlərinə bağlılığı boyük amildir. Qarşılıqlı hörmət və ehtiram, ümumi məqsədlər naminə birgə əməkdaşlıq kimi yüksək dəyərlər üzərində qurulan ailələrimizin təcrübəsi yetişməkdə olan gənc nəsil üçün gözəl nümunədir. Ailənin sağlam, xoşbəxt yaşaması üçün onun üzvləri arasında səmimi, mədəni münasibət olmalı, valideyn-övlad münasibətləri düzgün qurulmalıdır.

Azərbaycan ailələrində valideyn məsuliyyəti artıq bir institut kimi formalaşmışdır. Övlad körpə yaşlarından kamil həddə çatana kimi ata-ana onun üçün məsuliyyət daşlyır. Onun təhsili, işi, qurduğu ailə, ümumiyyətlə cəmiyyətdəki mövqeyinə görə də özünü cavabdeh hesab edir. Buna görə həmin ailənin övladı da cəmiyyət qarşısında məsuliyyət hiss edir. Bəzən valideynlərin məsuliyyətsizliyi üzündən 14-15 yaşlı qızlar təhsildən yayınaraq erkən nigaha cəlb olunurlar. Təəssüf ki, Azərbaycanda bu problem hələ də mövcuddur və bu sahədə təxirəsalınmaz tədbirlər görünməlıdir. Çünki erkən nikah əsa-sında qurulmuş ailələrdə ananın da, uşağın da həyatı təhlükə altına düşür, ailə uğursuz tale yaşamaq məcburiyyəti qarşısında qalır.

Müasir dövrdə ictimaiyyəti düşündürən digər olduqca vacib bir problem bəzi ailələrdə uşaqlara kifayət qədər diqqətin yetirilməməsidir. Adətən, belə hallarda uşaqlar zərərli vərdişlərə, xüsusən narkomaniyaya üz tuturlar ki, bu da çöx vaxt qanun pozuntuları ilə nəticılınir. İstər erkən nikah və təhsildən yayınma, istər zərərli vərdişlər Uşaq

Hüquqları Haqqında Konvensiyanın pozulması deməkdir. Bu isə uşaqların hüquq və azadlıqlarının müdafiəsi məsələlərinin zəifləməsinə gətirib çıxarır.

Sözsüz ki, bu gün bütün dünyada olduğu kimi Azərbaycanda da müəyyən problemlərlə yaşayan münaqişəli aililər vardır. Belə ailələrin mövcudluğu qadın hüquqlarının pozulması, ailədaxili münasidətlərin gərginliyi, mənzil şəraitinin dözümsüzlüyü, aliment problemləri və digər məsələlərlə bağlıdır. Belə ailələr reabilitasiya məqsədilə müxtəlif qurumlar tərəfindən nəzarətə götürülməli və lazımi köməklə təmin olunmalıdır. Əhali arasında, xüsusən gənc ailələrdə milli dəyərlərin qorunub saxlanılması, daha da möhkəmləndirilməsi, eyni zamanda gənclərin layiqli vətəndaş və əsl şəxsiyyət kimi yetişməsi istiqamətində maarifləndirmə işləri aparılmalıdır.

Ailə Dövlət Siyasətinin daha da təkmilləşdirməsi istiqamətində iş müvəffəqiyyətlə davam etdirilir. Bu barədə yuxarıda artıq qeyd edilmişdir. Bu proses davamlıdır, dinamik inkişafda olmaqla, müasir ailənin formalaşmağa başladığı dövrdən etibarən, onun yaranması, təşəkkülü və faliyyəti ilə bağlı bütün proseslərin müsbət və mənfi tərəflərinin dəqiq və hərtərəflı təhli-lini tələb edir.

Biz istərdik tədqiqatın yekününu Azərbaycanın Birinci xanımı, H. Əliyev Fondunun prezidenti, UNESCO-nun və İSESCO-nun Xöşməramlı Səfiri, Milli Məclisin deputatı Mehriban Əliyevanın ailə haqqında dediyi sözləri ilə yekünlaşdıraq:"Biz Azərbaycanlılar üçün əsrlər boyu ailə, uşaqlar müqəddəs olubdur"(8). Azərbaycan ailəsinin "müqəddəslik" statusuna qədər yüksəldirilməsi, özü özlüyündə bizim hər birimiz üçün ailənin nə dərəcədə önəmli oldugunu bir daha sübut edir. Ailənin statusu sarsılmazdır. Bunun dəstəklənməsi istiqamətində Azərbaycan dövləti bütün vacib məsələlərin həllində zəruri işlər görməkdədir.



## Ədəbiyyat

1. Феррее М.М. Феминизм и семейные исследования. Гендерные тетради, № 2, СПб, филиал Института социологии РАН. СПб, 1999
2. Штомпка П. Социология социальных изменений. М., 1996
3. Qulu-zadə Z. Azərbaycanda gender. Bakı, 2003
4. Azərbaycanda gender münasibətləri: meyllər və cəhətlər. Azərbaycan Respublikasında insan inkişafı haqqında hesabat. BMTİP, "Çevik Qrup Pablishinq Houze, 2007
5. İ.Əliyev. AR Nazirlər Kabinetinin iclasında çıxış. "Xalq" qəzeti, 23 aprel, 2009, 86 (26144)
6. Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Çıxışlar, nitqlər, bəyanatlar, məktublar və s. Azərbaycan Gəncləri Gününə həsr edilmiş bədii-ədman Bayramında nitq. Bakı İdmam Sarayı (2 fevral 1998-ci il). Azərnəşr, Kitab 14, Bakı, 2005
7. Azərbaycan Respublikası Konstitusiyası. Bakı, "Hüquq ədəbiyyatı" nəşriyyatı, 2009
8. Azərbaycan Respublikasının Ailə Məcəlləsi. Bakı, Qanun, 2003 VneshExpertService
9. Ailənin Əlifbası. Bakı, 2009
10. M. Əliyeva. Azərbaycan qadınlarının III Qurultayında çıxış. "Xalq" qəzeti, 27 sentyabr, 2008, № 217

## AZƏRBAYCAN RESPUBLİKASININ ENERJİ TƏHLÜKƏSİZLİYİ SİYASƏTİ

Ulu öndər Heydər Əliyevin respublika rəhbərliyinə yenidən qayıdışı əhalini və dövləti böyük faciələrdən xilas etdi və bu müstəqil Azərbaycanın tərəqqisinə səbəb oldu. C.M.Keyns yazırdı: «Dünyanı idarə edən ayrı- ayrı ölkələrin dövlət başçılarıdır.Onların buraxdığı cüzi səhvlər böyük fəlakətlərə səbəb olur»[14;3]. Azərbaycanın timsalında bu daha aydın görünür. Belə ki, müstəqilliyimizin ilk illərində idarəçilik bacarığının və təcrübəsinin yetərincə olmaması ölkəni müstəqil bir dövlət kimi yox olmaq təhlükəsi ilə üz-üzə qoymuşdur. Lakin böyük dövlətçilik təcrübəsinə malik olan Milli Lider Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışı və uzaqgörən siyasəti nəticəsində müstəqil Azərbaycan böyük faciələrdən xilas olaraq yeni tərəqqi yoluna qədəm qoydu. Yaxın tariximizə qısa ekskurs etməklə bu reallığı aydın şəkildə görmək olar. Bu danılmaz həqiqətdir ki, Ulu Öndər Heydər Əliyevin respublikamıza rəhbərlik etdiyi bütün dövrlər xalqımızın milli mənlik şüurunun oyanması, azadlığa və müstəqilliyə qovuşmaq arzularının çiçəklənməsi, ictimai həyatının, iqtisadiyyatının, beynəlxalq əlaqələrinin bütün sahələrində, elm, təhsil və mədəniyyətin inkişafında böyük nailiyyətlərin əldə edilməsi ilə əlamətdar olmuşdur. Deməli, ölkəmizin müstəqilliyinin və dünyaya dərin inteqrasiya prosesinin hazırki möhkəm təməli də Ümummilli Lider Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi həmin illərdə yaradılmış potensiala əsaslanır. Bütün bunlar, yəni Azərbaycanın hərtərəfli tərəqqi yoluna çıxması, ictimai – siyasi sabitlik, güclü iqtisadiyyat, möhkəm sosial təsisatlar, qüdrətli ordu, regionda lider mövqe, beynəlxalq aləmdə nüfuz, bütün bunlar günümüzün reallığıdır.

Danılmaz faktdır ki, Ulu Öndər Heydər Əliyevin milli neft



strategiyası Azərbaycana böyük siyasi və iqtisadi dividentlər gətirib və bu gün də həmin dividentlər sürətlə artmaqdadır. Daha doğrusu, həmin faktor ölkəmizin Qərbə inteqrasiyasına geniş yol açaraq, bu prosesi sürətləndirmişdir ki, nəticədə bu möhtəşəm strategiyanın real nəticələrini, bəhrələrini görürük. «Əsrin müqaviləsi» çərçivəsində Bakı – Tbilisi – Ceyhan neft-boru kəməri, Bakı-Tbilisi –Ərzurum qaz kəməri, Bakı-Tbilisi-Qars dəmir yolu xətti və s. beynəlxalq layihələrin reallaşdırılması Azərbaycanı demokratik Qərb dünyası ilə daha sıx birləşdirir və ölkəyə milyardlarla dollar həcmində mənfəət gətirir. Məxsusi olaraq qeyd etməliyik ki, Böyük İpək Yolunun bərpası, TRASEKA nəqliyyat dəhlizinin reallaşması da Ümummilli Liderimizin bəşəri xidmətlərindən biridir. Mühüm strateji əhəmiyyət daşıyan bu faktlar eyni zamanda Azərbaycan Respublikasının enerji təhlükəslzliyi siyasətini zərurətə çevirdi. Dünya təcrübəsi göstərir ki, geosiyasətin formalaşmasında mühüm əhəmiyyət kəsb edən amillərdən biri enerji təhlükəsizliyi məsələsidir. Bu problemin həlli hər bir dövlətdə strateji əhəmiyyət daşıyır. Lakin təbiət enerji resurslarını dünyanın bütün dövlətlərinə bərabər şəkildə bəxş etmədiyindən, karbohidrogen ehtiyatlarının çatışmazlığı planetin müxtəlif bölgələrində mövcud olan ölkələrin hamısında enerji təhlükəsizliyinin təmin edilməsini mümkünsüz edir. Ona görə də həmin strateji mahiyyət daşıyan problemi müsbət həll etmək imkanları bu məsələni istər – istəməz beynəlxalq münasibətlərin yaranmasının və inkişafının əsas amilinə çevirir. Bu isə hər bir dövləti təbii ehtiyatlarına uyğun enerji təhlükəsizliyi siyasəti yaratmağa sövq edir. Həmin siyasətin yaranması və həyata keçirilməsini tənzimləyən digər cəhətlər də mövcuddur. Reallıqlar göstərir ki, enerji resursları məhdud olan ölkələrin əksəriyyəti məqsədlərinə çatmaq üçün xarici siyasətlərində müxtəlif regional və beynəlxalq layihələrə qoşulmağa üstünlük verirlər. Hesab edirik ki, belə bir istiqamətin qəbul edilməsi bu tipli ölkələr üçün məqbul

sayıla bilər. Lakin digər qrup ölkələr də vardır ki, onların təbii ehtiyatları yetərincə olsa da, onların xarici siyasətlərinin prioritetini yaxın və uzaq regionda yerləşməsindən asılı olmayaraq enerji resursları zəngin olan dövlətləri beynəlxalq layihələrə cəlb edərək özünün strateji tərəfdaşına çevirmək təşkil edir. Həqiqətən bu dövlətlər uzun illərdən bəri həmin istiqamətdə xarici siyasətlərini uğurla həyata keçirirlər və çağdaş zəmanəmizdə də enerji təhlükəsizliyi kimi strateji mahiyyət daşıyan problemi beynəlxalq münasibətlər səviyyəsində həll edə bilirlər. Qeyd olunanları müstəqil dövlət kimi diqqətdə saxlayan, "Azərbaycan Respublikası daxili və xarici siyasət vasitələrindən istifadə edərək mövcud təhlükəsizlik mühitində təhdidlərin nəzarət altında saxlanılmasına və aradan qaldırılmasına, habelə ölkənin milli maraqlarının təmin edilməsinə yönəlmiş milli təhlükəsizlik siyasətini formalaşdırır və həyata keçirir. Azərbaycan Respublikasının milli təhlükəsizlik siyasəti xarici və daxili təhlükəsizlik arasında mövcud ayırıcı xətləri əhatə edən və adekvat çoxfunksiyalı tədbirlər tələb edən təhdidlərin müxtəlif ölçülü xarakterini nəzərə alır"[15]. Problemin mahiyyətindən göründüyü kimi belə bir fakt istər-istəməz özünün təsdiqini tapır ki, enerji təhlükəsizliyi də milli təhlükəsizliyinin tərkib hissəsidir. Bu mənada daha bir məqama diqqət yetirməyi zəruri hesab edirik. Məsələn, Avropa məkanına daha sıx inteqrasiyanın zəruriliyi mövqeyindən çıxış edən Azərbaycan Respublikası Avropa İttifaqı ilə çoxşaxəli, qarşılıqlı əlaqələr yaratmışdır. Azərbaycan Respublikasının Avropa İttifaqı ilə münasibətləri "MDB Ölkələrinə Texniki Dəstək" (TACIS), "Avropa-Qafqaz-Asiya Nəqliyyat Dəhlizi" (TRACECA) və digər proqramlar çərçivəsində inkişaf etdirilir. Azərbaycan Respublikası ilə Avropa İttifaqı arasında 1999-cu ildən qüvvəyə minmiş "Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi" siyasi dialoq, demokratiyanın inkişafına kömək, eləcə də iqtisadi əməkdaşlıq və sərmayə qoyuluşu üçün əlverişli şərait formalaşdırır.



Azərbaycan Respublikasının 2004-cü ildə Avropa İttifaqının «Yeni Qonşuluq Siyasəti»nə daxil edilməsi və bu siyasət çərçivəsində 2006-cı ildə qəbul edilmiş Azərbaycan-Avropa İttifaqı Fəaliyyət Planının həyata keçirilməsi siyasi dialoq və siyasi, iqtisadi və institusional islahatlar sahəsində əməkdaşlığı daha da inkişaf etdirərək keyfiyyətcə yeni mərhələyə keçid üçün möhkəm zəmin yaratmışdır. Problemlə birbaşa ilgili olduğu üçün hesab edirik ki, Azərbaycan Respublikası ilə Avropa İttifaqı arasında 2006-cı ildə imzalanmış «Enerji sahəsində Strateji Tərəfdaşlıq haqqında»[2] Anlaşma Memorandumunun əhəmiyyətini xüsusi olaraq dəyərləndirmək lazımdır. Çünki artıq Avropa İttifaqının üzvü olan ölkələrin enerji mənbələri və nəqli yollarının çoxşaxəliliyinin təmin edilməsi, Azərbaycan Respublikasında enerji infrastrukturunun inkişafı və müasirləşdirilməsi, enerji resurslarından səmərəli istifadə olunması və tükənməz enerji mənbələrindən yararlanmasına öz töhfəsini verir. Bu mənada enerji təhlükısizliyi siyasətinin zəruru vasitələrindən birinə diqqət yetirməklə, müqayisəli təhlil vasitəsilə enerji infrastrukturunun vacibliyinin və əvəzedilməzliyinin nə dərəcədə strateji mahiyyət daşıdığını görə bilərik. Məsələn, MDB-yə üzv olan Türkmənistan Respublikası elə bir qaz ehtiyatına malikdir ki, belə bir sərvət onu dünyanın lider dövlətləri sırasına çıxara bilər. Böyük Britaniy anın Glaffney, Chne and Assokiate audit şirkətinin hesabatına əsasən, Türkmənistanın Osman-Yolotan qaz yatağında təsdiq olunmuş qaz ehtiyatı 23 triliyon kubmetrdir[16]. Statistik müqayisəyə əsasən demək olar ki, bu rəqəm onu dünyanın dördüncüsü – Rusiya, İran İslam Respublikası və Qətər kimi dövlətlərdən sonra qazla ən zəngin olan ölkəyə çevirir. Lakin Türkmənistan lazım olan səviyyədə tranzit infrastrukturuna malik olmadığına görə gəlir əldə etmək üçün öz qazını Rusiyaya satmağa, Çin və İranla isə barter sazişi imzalamağa məcbur olmuşdur. Araşdırmalar göstərir ki, Türkmənistan bu qədər təbii sərvətlərə ma-

lik olmasına baxmayaraq lazımı şəffaflığı hələ də yetərincə təmin edə bilmədiyindən nəticədə əhalinin yüksək səviyyəli həyat tərzini və idarəçiliyi nəzərəçarpacaq dərəcədə faydalı istiqamətə yönəldə bilməmişdir.

Azərbaycan isə əksinə, daha düşünülmüş strategiya seçdiyindən nəticədə ölkəmiz lider dövlətlər səviyyəsinə yüksəldi. Yəni təbii sərvətlərimizin istifadə taktikasını müəyyən edərkən yalnız öz xalqının deyl, eyni zamanda digər xalqların da enerji təhlükəsizliyini düşünən Azərbaycan təbii ehtiyatların əldə olunması ilə yanaşı onun dünya bazarlarına çıxarılması üçün vasitələr axtarıb tapmağı da qarşısına məqsəd qoydu. Təbii olaraq həmin vasitələrdən ən mühüm əhəmiyyətə malik olanı nəqliyyat – kommunikasiya vasitələri infrastrukturlarının yaradılması idi. Burada nəqliyyat – kommunikasiya vasitələri bir tərəfdən karbohidrogen ehtiyatlarının xarici bazarlara çıxarılmasına xidmət edirsə, digər tərəfdən nəqliyyat təhlükəsizliyi amili yaranır ki, bu da istər – istəməz Azərbaycanın Milli Təhlükəsizliyinin zəruri amilinə çevrilir. Qeyd edildiyi kimi, nəqliyyat təhlükəsizliyi siyasəti Azərbaycan Respublikasında zəngin enerji ehtiyatlarının olması iqtisadiyyatın əsaslı və sürətli inkişaf etməsinə müsbət təsir göstərən, lakin müxtəlif dövlətlərin regiondakı maraqlarını şərtləndirən və münasibətlərin gərginləşməsinə səbəb olan əsas amillərdən biridir. Bəllidir ki, 1991-ci il 18 oktyabrda suverenlik əldə edildikdən sonra Azərbaycan Respublikası öz enerji sektorunu daha da inkişaf etdirmiş və müxtəlif növ nəqliyyat şəbəkələri yaratmışdır. Təbii olaraq bu nəqliyyat şəbəkələrinin təhlükəsizliyinin təmin edilməsi ölkə üçün əsas vəzifələrdən biridir və bu funksiyasının yaranması milli təhlükəsizliyin qarantlarından birinə çevrilir. Fikrimizi daha yaxşı əsaslandırmaqdan ötrü beynəlxalq nəqliyyat dəhlizlərinin və boru kəmərlərinin təhlükəsizliyini təmin etmək üçün Azərbaycan Respublikasının hansı vəzifələri yerinə yetirdiyinə diqqət yetirməyi zəruri hesab edirik:



- nəqliyyatın və nəqliyyatda təhlükəsizliyin təmin edilməsi; nəqliyyat sistemində səfərbərlik hazırlığının təmin edilməsi;
- Avropa-Qafqaz-Asiya və Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizlərinin fəaliyyətinin səmərəliliyinin və rəqabət qabiliyyətinin artırılması məqsədi ilə təhlükəsizlik tədbirlərinin gücləndirilməsi;
- nəqliyyat infrastrukturlarının mühafizə sisteminin etibarlılığının təmin edilməsi;
- nəqliyyat infrastrukturlarının təhlükəsizliyinə kənardan təhdid yarada biləcək amillərin aşkarlanması və qarşısının alınması;
- nəqliyyat vasitələri və infrastrukturlarında, o cümlədən boru kəmərlərində terror aktlarının törədilməsində istifadə oluna biləcək vasitələrin dövriyyəsinin qadağan olunması və ya bu dövriyyəyə ciddi nəzarətin həyata keçirilməsi;
- nəqliyyat obyektlərinin tikintisi və istismarı zamanı sosial və ekoloji mühitə ziyan vurulmasının qarşısının alınması. Sözügedən vəzifələr Azərbaycan Respublikasının Silahlı Qüvvələri və digər təhlükəsizlik strukturlarının, habelə aidiyyatı dövlət qurumlarının fəaliyyətində öz əksini tapmalı və onların həyata keçirilməsi üçün adekvat imkanlar yaradılmalıdır. Göründüyü kimi ilk baxışdan sadə görünən bir amil çoxsaylı strukturların koordinasiyalı fəaliyyətini zəruri edir. Məhz Azərbaycan dövlətinin uzaqgörən siyasəti nəticəsində bu sahədə gələcəkdə problemlərin yaranmaması üçün qabaqlayıcı tədbirlər görülmüşdür ki, bu da artıq öz bəhrəsini verir. Lakin həmin dövrə qədər gələn bir yol vardır ki, onun da ayrı – ayrı məqamlarına diqqət yetirməyi vacib hesab edirik. Bəllidir ki, sadalananların fövqündə strateji əhəmiyyət kəsb edən daha ciddi bir amil də durur ki, o da neft və qaz kəmərlərinin təhlükəsizliyinin təmin olunmasıdır. Qeyd olunmalıdır ki, bu amilin gələcəkdə problemə çevrilməməsi üçün region dövlətləri olan Azərbaycan-Gürcüstan-Türkiyə

neft–qaz kəmərlərinin təhlükəsizliyinin ölkələr üçün böyük iqtisadi, siyasi əhəmiyyətə malik olması ilə yanaşı, sabitliyə və sülhə də mühüm təminatçı olduğunu diqqətdən qaçırmamış, səmərəli tədbirlər həyata keçirmişlər. Dövlət başçıları bir çox işgüzar görüşlərində iqtisadi əlaqələrdən danışarkən TRASEKA proqramının həyata keçirilməsinin, Böyük İpək yolunun bərpasının, habelə Xəzərin zəngin karbohidrogen ehtiyatlarının dünya bazarlarına çıxarılmasının, bununla bağlı Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəmərinin və Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin reallaşdırılmasının xüsusi əhəmiyytindən danışmış, müzakirələr aparmış və onların müsbət həlli üçün məqbul variantlar müəyyənləşdirmişlər. Onların uzaqgörən siyasətlərinin nəticəsidir ki, bağlanmış saziş və müqavilələr artıq reallığa çevrilir. Məsələn, Ulu Öndər Heydər Əliyevin "Əsas ixrac neft və qaz kəmərlərinin təhlükəsizliyinin təmin edilməsinə dair 2000-ci il 15 aprel tarixli fərman"ı [17] bu reallığın daha bir təsdiqidir.

Proseslərin bu istiqamətdə yönəldilməsinin digər bir səbəbi də terrorizmin beynəlxal miqyasda genişlənməsidir. Odur ki, region dövlətlərin başçıları da həmin faktı təsdiqləyərək göstərirlər ki, işgüzar görüşlərin keçirilməsinin bir məqsədi də beynəlxalq terrorizmlə mübarizədə səylərimizi birləşdirmək, bölgədə və ümumiyyətlə ölkələrimizdə təhlükəsizliyi təmin etməkdir. Əvvəllər Azərbaycanda törədilən minlərlə insan məhvinə səbəb olan terror hadisələrinə biganə münasibət özü də etiraf edilməlidir. Bu məsələyə münasibət o vaxt dəyişdi ki, artıq həmin problem qlobal dünyəvi şəkil aldı. Yəni 11 sentyabr 2001-ci ildə ABŞ-da baş verən və bu gün də Rusiyada tez-tez törədilən terror hadisələri beynəlxalq terrorizmə qarşı ümumi koalisiyanın yaranmasını zəruri etdi ki, Azərbaycan da dərhal dünyanın demokratik dövlətlərindən biri kimi həmin mübarizə kompaniyasına qoşuldu. Deməli, Azərbaycan digər region dövlətləri ilə birlikdə İpək yolu TRASEKA dəhlizinin neft-qaz kəmərlərinin təh-



lükəsizliyinə əngəl törədə biləcək terror hadisələrinin baş verməməsi üçün qabaqcadan ehtiyat tədbirləri görmüşdür.

Əvvəldə qeyd etdiyimiz kimi ilkin vəzifələrdən biri ayrı-ayrı ölkələrin dövlət sərhədlərini keçəcək belə iri miqyaslı layihələrin həyata keçirilməsi həmin dövlətlərin siyasi cəhətdən də dəstəklənməsini təmin etsin. Bundan əlavə, Azərbaycan üçün Rusiya, ABŞ kimi dövlətlərin və Avropa ölkələrinin dəstəyi də vacibdir.

Bu araşdırmada məxsusi olaraq enerji təhlükəsizliyi siyasəti problemi digər vasitələrlə yanaşı əsasən BTC kontekstində təhlil olunur. Bakı –Tbilisi – Ceyhan neft boru kəmərinin tikilməsi zərurətini təsdiqləyən ekspertlərin rəyinə əsasən demək olar ki, Xəzər dənizinin Azərbaycana aid hissəsində neft hasilatının ildə 40 – 45 milyon tona çatdırılacağı, habelə Qazaxıstanın Tengiz yatağından ildə 40 milyon tona yaxın neft çıxarılacağı və hövzənin Türkmənistana məxsus hissəsində yerləşən yataqların məhsul verməyə başlayacağı nəzərə alınarsa, Xəzər regionunda həmin problemin reallaşdırılması məsələsi həmişə öz aktuallığını saxlamaqda davam etmişdir. Bununla əlaqədar olaraq mütəxəssislər xeyli vaxt gün ərzində 1,2 milyon barrel Azərbaycan neftinin beynəlxalq bazarlara çıxarılmasını təmin edən variantlar üzərində iş aparmışlar. Araşdırmalar, iqtisadi göstəricilərin təhlili onu göstərmişdir ki, seçilən müxtəlif marşrutlardan Bakı – Supsa və Bakı – Novorossiysk layihələri qiymət baxımından sərfəli olsa da, Bosfor boğazının ötürmə qabiliyyətinin məhdudluğu və digər amillər onların əsas variant olmaq ehtimalına mənfi təsir göstərir.

Lakin Bakı – Tbilisi - Ceyhan marşrutu alternativ variantlarla müqayisədə iqtisadi cəhətdən baha başa gəlsə də əlavə neft terminallarına ehtiyacın olmaması və limanın Avropa bazarlarına yaxın olması ona üstünlük verir. Problemin həmin nöqteyi-nəzərdən təhlili aparılan mənbədə deyilir: «İstanbulda imzalanan sənədlər dünyanın neft sənayesi ta-

rixində anoloqu olmayan mühüm bir layihənin əsasını qoymuşdur. Əsas ixrac boru kəmərinin uzunluğu 1700 kilometrdən çoxdur. Belə ki, kəmərin 468 kilometri Azərbaycanın, 225 kilometri Gürcüstanın, 1037 kilometri isə Türkiyənin ərazisindən keçir. Layihədə Səngəçal terminalının genişləndirilməsi, Ceyhan limanında yeni nəhəng terminalın inşası, 11 nasos stansiyasının tikilməsi nəticəsində diametri 1100 mm , dəyəri 2,4 milyon dollar, ötürmə qabiliyyəti ildə 50 milyon tondan aşağı olmayan boru kəmərinin çəkilməsi nəzərdə tutulurdu (Azərbaycan Respublikasının enerji təhlükəsizliyi siyasətinin mühüm vasitələrindən biri olduğundan BTC – nin reallaşdırılmasına qədər keçilən keşməkeşli yolun müəyyən məqamlarına nəzər yetirməklə Ulu Öndər Heydər Əliyev özünün şəxsi nüfuzundan, dövlətçilik təcrübəsindən, siyasi dünyagörüşündən necə məharətlə istifadə etdiyini daha aydın dərk etməkdən ötrü bəzi tarixi hadisələri xatırlamağı zəruri sayırıq – H.H.).Yuxarıda qeyd etdiyim kimi, neftin Bakıdan Ceyhana nəqlinin ümumi tarifi bir barrelə 2,58 dollar və ya bir tona 18 dollar təşkil edəcəkdir» [5]. Bu marşrutla neft boru kəməri ilə Gürcüstandan və Türkiyədən keçməklə Aralıq dənizi sahilində yerləşən Ceyhan terminalına çatdırılacaq və oradan tankerlərlə Avropa bazarlarına aparılacaq. Azərbaycan – ABŞ münasibətləri araşdırıldıqda da məlum olur ki, Amerika bu marşruta daha çox üstünlük verir və hesab edir ki, Azərbaycandan başlanacaq neft-qaz kəmərlərindən Bakı – Ceyhan daha perspektivlidir, digər tərəfdən isə Azad İpək yolunun möhkəmliyinin təminatçısının Türkiyə olması da inamımızı daha da artırdı. Ümummilli lider çıxışlarının birində bu amili etiraf edərək bildirir: «Ancaq onu da etiraf edirəm ki, əgər bu məsələləri həyata keçirmək üçün ABŞ-ın dəstəyi olmasaydı biz bunların heç birisini edə bilməyəcəkdik. "Əsrin müqaviləsi"nin imzalanmasından əvvəl müstəqil Azərbaycana qarşı bir il böyük təzyiqlər göstərildi. Bizim qarşımızı almaq istəyirdilər. Məhz ABŞ-ın, onun



prezidenti, hörmətli dostum cənab Billi Klintonun dəstəyi nəticəsində biz 1994-cü ilin sentyabrında "Əsrin müqaviləsi"ni imzaladıq. Amma ondan sonra da problemlərimiz çox oldu. Bakı-Ceyhanı başqa ölkələr qəbul etmirdilər. Ancaq hörmətli cənab Bill Klinton bu məsələ ilə ardıcıl surətdə məşğul olurdu, bizə dəstək, ruh verirdi və Türkiyəni, Azərbaycanı, Gürcüstanı, Xəzəryanı başqa ölkələri bu məsələyə cəlb edirdi, öz hörməti, öz nüfuzu ilə, bu barədə ardıcıl siyasəti ilə biz belə böyük "Əsrin müqaviləsi"nin imzalanmasına nail olduq»[3]. Məhz Türk dünyası dövlətlərinin tacı sayılan Türkiyə amili bu ideyanın gerçəkləşdirilməsi üçün mühüm faktor rolunu oynadı. Nəticədə Bakı – Ceyhan marşrutunun reallaşması üçün lazımi hüquqi və maliyyə sənədlərinin imzalanması başa çatdıqdan sonra onun tikintisinə müəyyən olunmuş vaxtda başlanması qərarlaşdırıldı.

Elə ilk müqayisəli təhlillərdən sonra nəqliyyat boru kəməri ilə neftin nəqlinin intensivliyi artdıqca Azərbaycanın tranzit ölkə kimi də gəlirlərinin ardıcıl surətdə çoxalacağı perspektivləri israrlı şəkildə bildirilirdi. Bakı-Tbilisi-Ceyhan nəqliyyat boru kəməri Azərbaycana, bəlkə, neft hasilatından da artıq çox gəlir gətirə bilər fikri BTC tikilib istifadəyə verilənə kimi gündəmdən düşmədi. Çünki respublika ərazisindən keçən tranzit yüklərinə görə normativ sənədlər əsasında müəyyən olunmuş müvafiq vəsait ödənilməsi real fktor idi. Respublika üçün bu marşrutun əhəmiyyəti bir də ona görə perspektivli sayılırdı ki, Türk dünyası dövlətləri və Avropa ölkələri ilə birbaşa əlaqələrin yaranması milli iqtisadiyyatımızın inkişafını sürətləndirəcək, onların həmin istiqamətə uyğun geosiyasətlərinin dəqiqləşdirilməsinin optimal variantını tapmaq mümkün olacaqdı. Proqnozlara görə bu layihənin həyata keçirilməsində marağı olan dövlətlər üçün, yüklərin Rusiya ərazisindən keçməsi isə artıq o qədər də əlverişli variant sayılmırdı.

Danılmaz faktdır ki, Azərbaycanın müstəqilliyinin ən çə-

tin mərhələsindən normal stabil vəziyyətə cəlməsi birbaşa Heydər Əliyevin məqsədyönlü fəaliyyəti ilə bağlıdır. Yəni, Azərbaycan dövlətinin qurucusu və memarı Heydər Əliyevin bəşəri və dünyəvi xarakter daşıyan daxili və xarici siyasəti nəinki Azərbaycan üçün, digər region və dünya dövlətləri üçün də örnək oldu» [7]. Siyasətin incə gedişlərini mükəmməl bilən Ulu Öndər beynəlxalq səviyyəli konfranslarda, rəsmi gö-rüşlərdə və zirvə toplantılarında məqamı yetişən kimi məşhur şahmatçılarsayağı jestlər və siyasi gedişlər edərək Azərbaycan dövlətinin xarici siyasətinin xoşməramlı olduğunu, qarşılıqlı faydalı əməkdaşlığa əsaslandığını iştirakçı dövlətlərə çox məharətlə çatdırır, onlarda bu həqiqətlərə tez bir zamanda reallıqlara söykənən inam yaradırdı. Bu mənada diqqəti çəkən bir məqama nəzər yetirək: «Dərin razılıq hissi ilə qeyd etmək istəyirəm ki, 1992-ci ildən başlayaraq, sıra ilə qardaş dövlətlərimizin paytaxtlarında keçirilən zirvə görüşləri nəticəsində keçən müddət ərzində türkdilli dövlətlərin ikitərəfli münasibətləri daha da inkişaf etmiş, aramızda yüksək səviyyəli çoxlu görüşlər keçirilmiş, danışıqlar aparılmış, dost ölkələrimizə qarşılıqlı səfərlər olmuş, bir sıra mühüm dövlətlərarası sazişlər imzalanmışdır. Bu sazişlər dövlətlərimizin müstəqilliyinin möhkəmlənməsinə, xalqlarımızın rifahının yüksəlməsinə xidmət edir [9]. Digər bir cəhət: «Türkdilli dövlətlərin başçıları arasında sıx şəxsi ünsiyyət, mehriban dostluq və qardaşlıq münasibətləri yaranmışdır. Bu isə bir çox çətin və mürəkkəb məsələlərin birgə səylərlə həll olunmasına kömək edir. Bunun nəticəsidir ki, ölkələrimiz bir sıra iri beynəlxalq layihələr çərçivəsində uğurla əməkdaşlıq edirlər»[9] fikri artıq regional əməkdaşlığın, tətbiq olunan geosiyasətin faydalılığına işarədir.

BTC-nin reallaşmasına qədərki dövrdə həyata keçirilən geosiyasət bu neft boru kəmərinin reallaşmasına kimi hərəkətverici qüvvə rolunu oynamışdır. İlk öncə 1993-cü ildə Brüsseldə Avropa İttifaqının TASİS proqramının TRASEKA layihəsinə



Mərkəzi Asiyanın Türk dövlətlərinin və Cənubi Qafqazın Azərbaycan başda olmaqla üç dövlətinin üzv olması məxsusi olaraq digər dövlətlərin siyasi, iqtisadi, enerji təhlükəsizliyi strategiyasını öyrənərək özlərinin geosiyasətlərinin istiqamətlərini müəyyənləşdirdilər. Bu BTC-yə gələn yolun birinci mərhələsi idi. İkinci mərhələdə, yəni 1994-cü ildən başlayaraq, Azərbaycanın ardıcıl surətdə həyata keçirdiyi enerji strategiyası nəticəsində dünyanın iri neft şirkətlərinin təmsil olunduğu konsorsium ilə məşhur «Əsrin müqaviləsi» imzalanmış və ölkə Xəzər hövzəsi enerji ehtiyatlarının işlənilməsi üzrə uzunmüddətli beynəlxalq əməkdaşlıq bölgələrindən birinə çevrilmişdir. Məhz bundan sonra karbohidrogen ehtiyatlarının aşkara çıxarılması üçün göstərilən səylər Türk dünyası dövlətləri kimi Qazaxıstanda və Türkmənistanda da zəngin yataqların olduğunu təsdiq etmişdir.

Beləliklə, Azərbaycanın bu siyasəti nəticəsində Xəzər hövzəsi bu gün bütün dünyanın diqqətini özünə cəlb edən ən cazibədar və perspektivli enerji mənbələrindən biri olan coğrafi-siyasi regiona çevrilmişdir.

Qeyd etmək lazımdır ki, Xəzəryanı dövlətlərin hər birinin enerji ehtiyatları ilə zəngin olan öz sektoru və buradan irəli gələn bütün hüquq və imkanları vardır. Biz bu imkanlardan istifadə edərək, birgə çoxtərəfli layihələrin həyata keçirilməsində fəal iştirak etməklə Xəzər hövzəsini iqtisadi tərəqqi zonasına çevirib, dünya iqtisadi sistemində öz layiqli yerimizi müəyyənləşdirmişik. Şübhə yoxdur ki, Türk dünyası dövlətlərinin malik olduğu zəngin təbii sərvətlər və əlverişli coğrafi mövqe iqtisadi fayda ilə yanaşı, ölkələrimizə həm də böyük siyasi üstünlüklər qazandırır.

Təcrübə göstərir ki, enerji resurslarının birgə hasilatı, dünya bazarlarına çıxmaq üçün neft və qaz kəmərlərinin çəkilişi Türk dünyası dövlətlərinin mənafeyini dünyanın inkişaf etmiş ölkələrinin mənafeyi ilə birləşdirəcək və regionun təhlükəsizliyinin, sabitliyinin və tərəqqisinin təminatçısına

çevirir.

Azərbaycan Respublikasının enerji təhlükəsizliyi siyasətinin muhüm vasitələrindən sayılan BTC-nin reallaşmasına təsir edən üçüncü mərhələ Bakıda keçirilən Böyük İpək Yolunun bərpasına və dirçəldilməsinə həsr olunmuş beynəlxalq konfransla əlaqəlidir. Vaxtilə Türkiyənin sabiq prezidenti Süleyman Dəmirəl vurğulayırdı ki, TRASEKA dəhlizi ilə Bakı-Tbilisi-Ceyhan boru kəməri paralel olaraq fəaliyyət göstərəcəkdir. Və bu fikir artıq öz təsdiqini tapmışdır.

Diqqətəlayiq haldır ki, növbəti mərhələ beynəlxalq əməkdaşlığın nümunəsi sayılan Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru-kəmərinin çəkilməsi ilə bağlı möhtəşəm layihənin reallaşdırılması 1998-ci il oktyabrın 29-da, Türkiyə Cümhuriyyətinin 75 illik yubileyi zamanı imzalanmış Ankara Bəyannaməsi ilə başlanmışdır. Yubiley tədbirlərində iştirak etmək üçün Türkiyəyə yola düşən Heydər Əliyevin jurnalistlərin suallarına cavablarında inam və nikbinlik aydın görünür: «Sual ? Siz nə üçün Bakı-Ceyhan marşrutunu üstün tutursunuz ? Cavab: Biz lap əvvəldən müəyyən etmişik ki, bu marşrut hər cəhətdən-təhlükəsizlik, Qərbə çıxış baxımından daha sərfəlidir. ... Görünür bizim görüşlərimiz zamanı,- mən Türkiyə, Gürcüstan, Azərbaycan, Özbəkistan, Türkmənistan, Qazaxıstan prezidentlərinin görüşünü nəzərdə tuturam,- yəqin ki, biz də müəyyən vahid fikrə gələcəyik. Çünki həmin marşrut ancaq bizim üçün faydalı deyil, ona mərkəzi Asiya ölkələri, ilk növbədə Qazaxıstan, Türkmənistan və hətta Özbəkistan da maraq göstərirlər» [2].

1999-cu ilin noyabrında, ATƏT-in sammiti zamanı Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri ilə əlaqədar imzalanmış tarixi "İstanbul sazişi" ölkələrimizin gələcək inkişafı, regionumuzun təhlükəsizliyi və çiçəklənməsi yolunda böyük uğur sayılmalıdır [1]. Həmin sammit barədə müxtəlif fikirlərin söylənməsi gəldiyimiz qənaətin təsdiqi kim qəbul edilə bilər. Məsələn, E.Süleymanova vurğulayır ki, «Sammit günlərində İstanbulda



baş vermiş daha bir hadisə- Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəməri haqqında sazişin imzalanması xüsusi diqqət və maraqla qarşılandı. İnanın ki, çoxlu xarici jurnalist bizə yaxınlaşıb soruşurdu ki, - doğrudanmı Bakı-Tbilisi-Ceyhan neft kəməri haqqında sazişə bu gün imza atılacaq ? Çoxları buna nədənsə inanmırdı və sanki imzalanmanın təxirə salınacağını gözləyirdilər» [8]. Lakin onların gözlədikləri baş vermədi. Yəni İstanbulun «Çırağan sarayın»da bu sazişin imzalanması tərəddüdlü fikirləri alt-üst etdi və bu sammitin iştirakçıları tərəfindən də əhəmiyyətli bir hadisə kimi qəbul olundu. Həmin məqamda qardaş Türkiyə əhalisi isə bu xəbəri, sözün əsl mənasında bir el bayramı kimi qarşıladı. Sadə insanlər bizim azərbaycanlı olduğumuzu biləndə «Sağ olsun Heydər Əliyev, o həm Azərbaycanın, həm də bütün türk dünyasının başını uca etdi»[3] söyləyirdilər. Yaxud da zəngin təbii ehtiyyatlara malik Türk dünyası dövlətlərindən sayılan Qazaxıstanın prezidenti N.Nazarbayev həmin sazişin imzalanmasını təqdir edərək vurğulayır ki, «Bu gün "İstanbul bəyannaməsi"nin, digər sənədlərin imzalanması Şərq-Qərb dəhlizinin marşrutlarından birinin –çoxdan gözlədiyimiz marşrutun texniki, hüquqi və kommersiya cəhətlərinə nəhayət, müəyyənlik gətirdi. Ümidvaram ki, bu, neft şirkətlərinə, potensial sərmayədarlara əlverişli şərait yaradacaq, Bakı-Tbilisi-Ceyhan boru kəmərinin iqtisadi cəhətlərinin cazibədarlığını yüksəldəcəkdir ki, bunda da bizim hamı-mızın böyük marağı var» [11]. Problemlə ilgili daha bir məlumatda bildirilir ki, «Türkiyə Böyük Millət Məclisinə gələn Türkiyə prezidenti Süleyman Dəmirəlin, Azərbaycan prezidenti Heydər Əliyevin, Gürcüstan prezidenti Eduard Şevardnadzenin, Qazaxıstan prezidenti Nursultan Nazarbayevin, Özbəkistan prezidenti İslam Kərimovun, habelə ABŞ-ın energetika naziri Bill Riçardsonun burada Xəzər regionunun enerji ehtiyatlarının, xüsusən Azərbaycan neftinin dünya bazarlarına çatdırılması üçün Bakı-Tbilisi-Ceyhan marşrutunun müəyyənləşdirilməsini nəzərdə tutan Ankara bəyannaməsini imzalamaları»[13] Türk dünyası dövlətlərinin geosi-

yasi maraqlarının qoyuluş nöqtəsinin mühüm amillərindən biri kimi dəyərləndirilə bilər. Göründüyü kimi xronoloji ardıcıllıqla, zərgər dəqiqliyi ilə səslənən fikirlər beynəlxalq münasibətlərin formalaşmasında təməl prinsipləri kimi necə də ustalıqla əsaslandırılır.

Azərbaycanın dünya ölkələri arasında yerini müəyyən edən ən mühüm amillərin biri tarixən neftin istehsalı ilə əlaqədar olaraq boru kəmər nəqliyyatının inkişafıdır. XX əsrin sonu, XXI əsrin əvvəllərində respublika daxilində istehsal olunan neftin boru kəmərləri vasitəsilə xaricə nəql edilməsinin coğrafiyası xeyli genişlənmiş və bu istiqamətdə indi də ciddi işlər görülməkdədir. Dünyanın strateji araşdırmalar üzrə mütəxəssisləri, tanınmış politoloqlar Heydər Əliyevin uzaqgörən siyasətinin nəticəsi kimi Bakı – Tbilisi - Ceyhan neft kəməri vasitəsilə neftin dünya bazarına birbaşa nəql edilməsi Azərbaycanın dünya iqtisadiyyatında yerini müəyyən edən mühüm faktor kimi qiymətləndirirlər. Məsələn, «keçmiş ABŞ adminstrasiyasının səhvləri» [12] adlı məqalədə «ABŞ – ın 90-ci illərdən başlayaraq Xəzərin enerji resursları prosesinə daha çox diqqət yetirdiyi» [18] qeyd olunur. Bu cür diqqətin 1996 – 2000- ci illərdə «B. Klintonun tərəfindən də güclü şəkildə artdığı, onun tərəfindən Bakı – Ceyhan marşrutuna dəstək verməsi titanik güc səviyyəsində olduğu» [20] bildirilir.

Burada bir məsələni də xüsusi vurğulamaq lazımdır ki, bu gün Azərbaycanda neft strategiyasının uğurla həyata keçməsində, bütün neft müqavilələrinin hazırlanmasında ARDNŞ-in keçmiş birinci vitse-prezidenti, hazırda Azərbaycan Respublikasının prezidenti cənab İlham Əliyevin də böyük əməyi vardır. Onun siyasi və ictimai məsələləri araşdırmaq qabiliyyəti, Azərbaycanın dövlətçiliyinin möhkəmlənməsi sahəsində aparmış olduğu işlər dünyanın böyük siyasətçilərinin və dövlət başçılarının diqqət mərkəzindədir.

Bu gün Azərbaycan Respublikasının enerji təhlükəsizliyi siyasətinin muhüm vasitələrindən sayılan neft strategiyasının uğurları bütün dünyanın diqqətini cəlb edir. Belə ki, hələ «Əsrin müqaviləsi»nin beşinci ildönümünün qeyd edilməsi zamanı ARDNŞ-nin o vaxtkı birinci vitse-prezidenti, millət vəkili İlham Əliyev öz məruzəsində müqavilənin gələcək perspektivləri haqqında məlumat vermişdir. Onun sözlərinə əsasən, 2000-ci ildən etibarən «Azəri», «Çıraq», «Günəşli» yataqlarından Azərbaycan mənfəət neftini almağa başlayacaqdır. Bu mənfəət neftinin satışından ölkənin xalis büdcə gəliri yaxın illərdə 300,500,700 mln.dollara qədər artacaqdır. 2005-ci ildən sonra isə ildə 1 mlrd.dollara qədər artacaqdır. 2005-ci ildən sonra isə ildə 1 mlrd.dolları ötəcəkdir.

Haqlı olaraq Azərbaycan Respublikasının prezidenti İlham Əliyev müsahibələrinin birində qeyd edir ki, cəmi 15 mln.ton, yəni bu qədər neft ətrafımızda qaldırılan hay-küyə, siyasi fona, əsla uyğun deyildir. Əlbəttə, perspektiivləri nəzərə aldıqda, bizdə ehtiyatlar işlənəcək, hasilat artacaq,- biz təqribən 50 mln.ton, bəlkə də, bundan çox neft çıxaracağıq. Lakin...hətta 50 mln.ton neft hasilatı o qədər də böyük və verilən siyasi rənglərə qətiyyən uyğun deyildir. Səslənən iradlar əbəs yerə deyildir. Çünki həmin dövrdə BTC- nin əleyhidarları həm ölkə daxilində, həm də xaricdə çox idi. Onlar əsassıs olaraq müəyyən arqumentlər gətirərək Azərbaycanı fikrindən daşındırmağa çalışırdılar. Bu barədə hələ Azərbaycanın dövlət rəsmiləri "Vaşinqton – Post" qəzeti redaksiya heyəti ilə də görüşdə məlumat vermişdilər. Bu açıqlamalarda həmin kəmərlərlə bağlı problemlər və müqayisələr də əksini tapmışdır. Məsələn, «Azərbaycan neftini dünya bazarına çıxaran Bakı – Novorossiysk – Bakı - Supsa neft boru kəmərlərinin hazırki vəziyyəti və gələcək perspektivləri barədə suala cavabında ... biz bu marşrutun çətinliklərini Rusiyaya bildirdik» [10] deyən respublika rəsmiləri Çeçenistan hadisələrini arqument kimi gətirərək həmin səbəbdən boru kəmərindən istifadə olunmadığını bildirirlər. Daha sonra vurğulanır ki, «... indi hasil edilən neftin bu kəmər vasitəsi

ilə ixrac olunması mümkündür. Amma gələcək üçün biz Bakı – Ceyhan əsas ixrac neft kəmərinin tikilməsi barədə saziş imzalamışıq» [4]. Hesab edirik ki, bu amil Azərbaycanın enerji resurslarının nəqlində balanslaşdırılmış siyasətini göstərir.

Yenə diqqətimizi statistikaya yonəldək. 2001-ci ilin sentyabrına olan məlumata görə həmin borularla 15,9 mln.tondan artıq neft ixrac olunmuşdur. Lakin bütün bunlara baxmayaraq ilbəil artan Azərbaycan neftinin Avropa və dünya bazarlarına daha çox ixracını reallaşdırmaq üçün adı çəkilən iki neft-boru kəmərinin potensial imkanları az olduğundan təbii olaraq, yeni layihələrin işlənib həyata keçirilməsinə çox ciddi ehtiyac yarandı ki, artıq bu sahədə də uğurlu addımlar atılmaqdadır. Yəni həmin layihələrdən biri Bakı-Tbilisi-Ceyhan əsas neft kəmərinin layihəsi həyata keçməkdədir. Onun illik neft ötürmə qabiliyyəti 50 mln. tondur (bu kəmərin neft ötürmə qabiliyyəti bundan da artıqdır).

Qeyd olunmalıdır ki, bu kəmərin məhz belə marşrut üzrə seçilmsinin bir neçə üstün cəhətləri vardır və bunları aşağıdakı kimi sadalamaq olar:

- birincisi, həmin əsas ixrac boru kəməri çox zaman TRASEKA dəhlizinə paralel olaraq Qara dənizin məhdud imkanlarından yan keçərək Aralıq dənizinə birbaşa çıxacaq;
- ikincisi, Aralıq dənizinin əhatəsində olan dövlətlərin neftə olan böyük miqdarda ehtiyacları ödəniləcək;
- üçüncüsü, Aralıq dənizində böyük tutumlu tankerlrin hərəkətetmə imkanları artacaq;
- dördüncüsü, yaranan əlverişli şərait dünyanın bütün istiqamətlərinə neftin daşınmasını iqtisadi cəhətdən sərfəli edəcəkdir ki, bu da həmin ölkələr arasında yeni siyasi-iqtisadi, mədəni və digər əlaqələrin yaxşı qurulmasına köməklik göstərəcəkdir və s.

Reallıq budur ki, Bakı-Tbilisi-Ceyhan neft boru kəməri fəaliyyət göstərir. Azərbaycan Respublikasının prezidenti cənab İlham Əliyevin təbirincə desək: «Bakı-Tbilisi-Ceyhan



neft kəmərinin işə düşməsi bizim tarixi qələbəmizdir və Heydər Əliyev neft strategiyasının təntənəsidir. Bu layihə həm Azərbaycan üçün, həm də dünya üçün böyük əhəmiyyətə malikdir» [6]. Həqiqətən də ulu öndər Heydər Əliyevin siyasi uzaqgörənliklə seçdiyi Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzrum iştiqaməti nəinki Azərbaycan neftinin, qazının dünya bazarına çıxmasını təmin edir, həm də Türk dünyası dövlətlərinin əsas magistral kəməri kimi region dövlətlərinin istehsal etdikləri nefti və qazı da nəql edərək ümumilikdə bu ölkələrin geosiyasi maraqlarının qoyuluş nöqtəsi funksiyasını da yerinə yetirir. Bu da təbii olaraq enerji təhlükəsizliyini təmin edən nəqliyyat-kommunikasiya siyasəti strategiyasının strateji mahiyyətini ehtiva edən konsepsiyanı uğurla həyata keçirməyə əlverişli şərait yaradır. Problemə ümumi nöqteyi – nəzərdən yanaşsaq belə bir nəticəyə gəlmək olar :

- Respublikamız Transmilli nəqliyyat layihələri çərçivəsində, o cümlədən TRASEKA və Şimal-Cənub beynəlxalq dəhlizlərinin Azərbaycan seqmentində avtomobil magistrallarının tikintisi və yenidənqurulması, regionlarda yol şəbəkələrinin bərpası və təkmilləşdirilməsi işləri reallaşdırılmışdır;
- ölkəmizdə hasil edilmiş karbohidrogen məhsullarının dünya bazarlarına nəql edilməsi üçün Bakı-Novorossiysk, Bakı-Supsa, Bakı-Tbilisi-Ceyhan neft, eləcə də Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri istismara verilmişdir ki, bunların da əvəzolunmaz nəticələri göz qarşısındadır.
- transmilli layihələrdən sayılan Bakı-Tbilisi-Qars dəmir yolunun inşası nəticəsində Avropa və Asiya arasında birbaşa dəmir yolu əlaqəsinin yaradılması və Qara dəniz və Xəzəryanı ölkələrinin Avropanın dəmir yolu şəbəkəsinə qoşulması mümkün olacaqdır ki, bu da mühüm siyasi – iqtisadi əhəmiyyətə malikdir.
- Azərbaycan Respublikasının enerji təhlükəsizliyi siyasətinin uğurlu nəticəsi kimi son dövrlərdə müasir tipli 9

yeni elektrik stansiyası tikilib istifadəyə verilmiş, həmçinin alternativ və bərpa olunan enerji mənbələrinin istifadəsinin genişləndirilməsi üçün zəruri tədbirlər həyata keçirilmişdir. Ümumilikdə, ölkənin enerji təhlükəsizliyi təmin edilmiş, respublika ərazisinin 85%-i qazlaşdırılmış, və Azərbaycan enerji idxalçısından, enerji ixracatçısına çevrilmişdir.

- artıq bu günümüzün reallıqlarındandır ki, respublika Avropanın enerji təhlükəsizliyinin fəal iştirakçısıdır. Yəni bu günlərdə Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan dövlətləri arasında imzalanmış AGRİ layihəsinə dair "Bakı bəyannaməsi" bu istiqamətdə növbəti əhəmiyyətli addımlardan sayıla bilər və s.

Bütün bunlar onu deməyə əsas verir ki, Azərbaycan Respublikasının enerji təhlükəsizliyi siyasəti uğurla həyata keçirilir. Deməli, bu gün müasir Azərbaycan dövləti özünəməxsus inkişaf yolu ilə gedir. Bu inkişafın təməl daşları ümummilli lider Heydər Əliyev tərəfindən qoyulub. Heydər Əliyev məktəbinin yetirməsi, onun siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyevin həyata keçirdiyi tədbirlər, imzaladığı fərman və sərəncamlar, xalqla birbaşa ünsiyyətdə olması, ümummilli lider tərəfindən başlanılmış işlərin məntiqi davamıdır.

## Ədəbiyyat


1. "Azərbaycan" qəzeti, 27.10.1998.
2. "Azərbaycan" qəzeti 29.10.1998.
3. "Azərbaycan" qəzeti,24.10.1999.
4. "Azərbaycan" qəzeti, 20.02.2000.
5.Əliyev N. ATƏT-in İstanbul Zirvə görüşünün yekunlarına həsr olunmuş toplantının materiallarından. "Azərbaycan" qəzeti, 28.11.1999.
6.Əliyev İ. Azərbaycan qəzeti, 4 fevral 2007-ci il.
7.Məmmədov R.L. Azərbaycanın Qərb dövlətləri ilə





beynəlxalq münasibətlərinin siyasi, iqtisadi aspektləri. Bakı,2006
8.Süleymanova E. ATƏT-in İstanbul Zirvə görüşünün yekunlarına həsr olunmuş toplantının materiallarından. "Azərbaycan" qəzeti, 28.11.1999.
9.Türkdilli dövlətlərin başçılarının VII zirvə görüşündə AR-ın prezidenti Heydər Əliyevin nitqi. «Dirçəliş XXI əsr» jurnalı, Bakı, 2001, № 39, s. 5.
10.Süleymanova E. ATƏT-in İstanbul Zirvə görüşünün yekunlarına həsr olunmuş toplantının materiallarından. "Azərbaycan" qəzeti, 28.11.1999.
11.Nazarbayev N. "Azərbaycan" qəzeti, 24.10.1999.
12.Mixail Q., Aleksandr M. Tranzit Kaspiyskiy gnerqoresursov na miravoy rınok: Vızqləd iz Ukrainı. Jur. Üentralğhaə Aziə i Kavkaz, №3, 2001,s. 7.
13.İbrahimov Ə., Rzayev T. Qardaş Türk xalqının bayramı. Azərbaycan, 30.10.1990.
14. Azərbaycan Respublikasının xarici iqtisadi siyasəti. Bakı, 2011
15. Azərbaycan Respublikasının milli təhlükəsizlik siyasətinin əsas istiqamətləri (Azərbaycan Respublikasının Milli Təhlükəsizlik siyasəti Konsepsiyası)
16. Böyük Britaniyanın "Glaffney, Chne and Assokiate audit" şirkətinin hesabatı. http//newscentralasia.net/2011/05/30/auditor-expected-to-certity-23-tcm-qas-reserves-in-turkmen-field/
17. "Əsas ixrac neft və qaz kəmərlərinin təhlükəsizliyinin təmin edilməsinə dair 2000-ci il 15 aprel tarixli fərman"
18. Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyinin hesabat və rəsmi məlumatları(02.01.2012).
19. Həsənov Ə. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. "Azərbaycan nəşriyyatı", Bakı,2005
20. Həsənov Ə. Azərbaycan Respublikasının milli inkişaf və təhlükəsizlik siyasəti. Letterpress, Bakı, 2011

## EKOLOJİ SİYASƏT AZƏRBAYCANIN DAXİLİ SİYASƏTİNİN TƏRKİB HİSSƏSİ KİMİ

XX əsrin 80-cı illərinin sonlarından başlayaraq dünyada siyasi sahədə köklü dəyişikliklərin təsiri altında ekoloji problematika ciddi sosial-humanitar və siyasi əhəmiyyət kəsb etməyə başlayır. Artıq 90-cı illərdən başlayaraq müasir anlamda beynəlxalq ekoloji siyasətin formalaşması prosesinin dinamikası, məsələnin vacibliyini bir daha sübut edir. Bu illər ərzində ekoloji siyasət sürətlə istər beynəlxalq, istərsə də dövlət daxili səviyyələrdə müstəqil sahəyə çevrilir.

Ekoloji problemlərin həlli sahəsində ayrı-ayrı dövlətlərin səylərinin koordinasiyasında əhəmiyyətli konstruktiv rol BMT-yə məxsusdur. Xüsusilə, BMT-nin 1992-ci ilin iyununda Rio-de-Janeyroda (Rio-92 Konfransı) keçirilmiş konfransında beynəlxalq birlik tərəfindən qəbul olunmuş "Dayanıqlı inkişaf konsepsiyasında" ətraf mühitin mühafizəsi sahəsində beynəlxalq əməkdaşlığın istiqamətləri, təbiətdən istifadənin rasionallığı, dayanıqlı inkişafın təminatı məsələləri aydın şəkildə müəyyənləşdirilmişdir. Bu konfransda 179 ölkənin nümayəndələri tərəfindən imzalanmış "XXI əsrin gündəliyi" adlı sənəd qəbul edilmişdi. Bu sənəd dayanıqlı sosial, iqtisadi, ekoloji inkişaf proqramı olmaqla, məhsuldar iqtisadiyyat və effektiv ekoloji siyasətin balanslaşdırılmış şəkildə uyğunlaşdırılması ilə gələcək nəsillərin rifahına yönəldilməli, yoxsulluqla və ətraf mühitin dağıdılmasına qarşı mübarizə üsulu kimi müəyyənləşdirilmişdi.(1)

Qlobal ekoloji problemlər bütün ciddiliyi ilə XX əsrin sonlarından diqqət mərkəzindədir. Bu gün XXI əsrin əvvəllərində də bu problemlərin aktuallığı nəinki azalmış, əksinə dəfələrlə artmışdır. Bir sıra qlobal ekoloji problemlərin kəskinləşməsi dünya ictimaiyyətini inkişafın müasir mərhələsində dünya dövlətlərinin səylərinin koordinasiyasını tələb edən bir sıra qlobal problemlərlə qarşı-qarşıya qoymuşdur. Ekoloji baxımdan dayanıqlı inkişaf bu illər ərzində, nüvə təhlükəsizliyi problemi ilə eyni səviyyəyə qalxaraq ümumbəşəri siyasi əhəmiyyət kəsb etmişdir. BMT-nın Baş katibi Kofi Annanın « Daha çox azadlıq şəraitində: hamı üçün təhlükəsizliyin və insan hüquqlarının inkişafı» 21 mart 2005-ci il məruzəsində qeyd edilir: «Ölkə səviyyəsində milli strategiyalar təbiətdən istifadənin keyfiyyətinin yüksəldilməsinə və ekoloji sabitliyin artımı üçün tələb edilən struktur dəyişikliklərinin həyata keçirilməsinə investisiyalar nəzərdə tutmalıdır» (2).

2008-ci ildə dərc olunmuş "Ensiklopedik ekoloji lüğət"də ekoloji siyasət- cəmiyyətin təbiətə təsiri ilə bağlı olan tədbirlər sistemi, dövlətin sosial-iqtisadi siyasətinin tərkib hissəsi kimi göstərilmişdir. (3; 74) Bizim fikirimizə görə, dövlət ekoloji siyasəti dedikdə, iqtisadiyyatın, cəmiyyətin və təbiətin harmonik, dinamik-balanslaşdırılmış inkişafını təmin etmək məqsədilə, dövlət tərəfindən ekoloji vəziyyətin idarə olunması və ölkə ərazisində təbii ehtiyatların rasional istifadəsinin təminatı məqsədi ilə spesifik siyasi, iqtisadi, hüquqi və digər ölçülər sistemi başa düşülməlidir. Müasir dövrdə dövlət ekoloji siyasəti sosial-ekoloji vəziyyətin idarə olunmasının ən vacib amillərindən birinə çevrilmişdir.

Ekoloji siyasətin ümumi dövlət siyasətinin (hərbi, mədəni, iqtisadi, sosial, elmi-texniki, informasiya və s. kimi) müstəqil sahəsinə çevrilməsi prosesi inkişaf etmiş ölkələrdə ekologiya sahəsində baş qaldıran böhranın ilk təzahürlərinin yaranması ilə bağlı XX əsrin 70-80- cı illərindən başlanmışdır. Ekoloji siyasətin əsasını, ekoloji problemlərin həllinə yönəldilmiş, rəsmi şəkildə qəbul edilən, dövlətin ümumi konsepsiyası təşkil edir. Bu sənəd bilavasitə dövlətin ekoloji siyasətinin məzmununu, eləcə də hakimiyyət orqanlarının ölkənin ictimai-iqtisadi inkişaf problemlərinin bütöv kompleksinin ekoloji aspektlərinə münasibətini müəyyənləşdirir.

Mahiyyət etibarı ilə ekoloji siyasət özündə iki vacib amili birləşdirir:

1. Konkret ölkə daxilində ekoloji siyasətin reallaşdırılmasının böyük məsuliyyəti;

2. Onun həyata keçirilməsinin yüksək effektivliyinin təmin olunması.

Bu amillər ekoloji siyasətin aktuallığına və müasir ictimai-siyasi şəraitdə onun əsas xüsusiyyətlərinin elmi dərkinin vacibliyinə diqqəti çəkir. Fikrimizə görə ekoloji siyasətin konseptual əsaslarının praktiki cəhətdən reallaşmasına təsir göstərən amillərə aşağıdakıları aid etmək olar: konkret dövlətin sərhədləri daxilində ekoloji problemlərin kəskinliyinin real vəziyyəti; ekoloji vəziyyətin kəskinliyindən yaranan sosial-ekoloji problemlərin xarakteri; ekosistemin fəaliyyətinə dair bir sıra vacib prinsipial məsələlərin həllində elmi qeyri-müəyyənlik; resurs, eyni zamanda maliyyə məhdudiyyətləri; təbiəti mühafizə texnologiyalarının, o cümlədən utilizasiya və tullantıların məhv edilməsi texnologiyalarının real inkişaf səviyyəsi; ekoloji cəhətdən təmiz məhsulların istehsalının iqtisadi səmərəliliyi və rəqabətə davamlılığı; əhalinin sosial reaksiyası; beynəlxalq öhdəliklər.

Təbiətin mühafizəsi və təbii ehtiyatların səmərəli istifadəsinin tarixi zərurət olduğu artıq heç kimdə şübhə doğurmur. Bu dövlətin ümumi siyasətinin strukturunda müstəqil istiqamətə çevrilərək cəmiyyətin ətraf mühütlə qarşılıqlı əlaqəsini əks etdirir. Həmin istiqamət artıq ekoloji siyasət adı ilə mövcudluq statusunu əldə edə bilmişdir. Ekoloji siyasət yarandığı andan spesifik "idarəçilik" fənni kimi formalaşmışdır. Burada dövlətin və onun müxtəlif orqanlarının, bütövlükdə siyasi sistemin və onun ayrı-ayrı komponentlərinin "təbiət-cəmiyyət" sistemində məqsədyönlü fəaliyyəti nəzərdə tutulur. Maraqlıdır ki, müəyyən sosial sistemin, eləcə də ayrıca götürülmüş dövlətin ekoloji siyasəti inkişafın konkret qanunauyğunluğu ilə şərtlənir.



Müasir siyasət problemləri içərisində qeyd etdiyimiz kimi, ekoloji siyasət mühüm yer tutur. Qeyd etmək lazımdır ki, ekoloji siyasət müxtəlif məqsədlərə əsaslanır və onların həyata keçırılməsinə imkan yaradır. Əslində ekoloji siyasətin əsas strateji məqsədi - cəmiyyətlə təbiət arasında harmoniyanı qoruyub saxlamaqdır. Bundan əlavə, ekoloji siyasətdə konkret məqsədlər seçilir. Həmin konkret məqsədlərdən biri – profilaktik məqsəd hesab olunur. Bu cəmiyyətin sosial-iqtisadi inkişaf prosesində təbiətə mənfi antropogen təsirlərin qarşısının alınması ilə əlaqədardır. Həmin sistem məhsuldar qüvvələrin yerləşdirilməsini layihələşdirən, təsərrüfatn - texniki, obyektlərdə tikinti və yenidənqurma işi aparan dövlət orqanlarına və şəxslərə qarşı tələblərin qoyulmasını da özünə daxil edir. Həmçinin ekoloji tələblərə nəzarət edən, dövlət və ictimai nəzarət, layihələrin geniş müzakirəsi və ekspertizası da bura daxildir. Ekoloji siyasətin ikinci məqsədi - praktiki məqsəd adlanır. Praktiki məqsəd təbiətə əsas neqativ təsirlərin aradan qaldırılması, əvvəllər təbiətə münasibətdə buraxılmış səhvlərin düzəldilməsi, həmçinin ətraf mühitin yaxşılaşdırılması ilə bağlıdır. Üçüncüsü, yaxud uzunmüddətli məqsədə gəldikdə isə bu ekoloji siyasətin mühüm elementini təşkil edir. Buraya imkan daxilində cəmiyyət üçün mühüm elmi və mədəni dəyərə malik olan bir sıra təbii obyekt və ekosistemlərin vəziyyətinin pozulmamasına istiqamətlənmiş tədbirlər daxildir.

Ekoloji siyasətin yuxarıda qeyd etdiyimiz məqsədləri çərçivəsində ehtiyatların qorunması xüsusi yer tutur. Burada təkcə ehtiyatların qorunması deyil, mütərəqqi ehtiyatqoruma, aztullantılı, yaxud tullantısız texnologiyanın tətbiqi, tullantılardan ikinci xammal və s. kimi istifadə edilməsi də mühüm yer tutur.

Keçən əsrdə ən əlamətdar hadisələrdən olan Sovetlər İttifaqının süqutu Azərbaycan Respublikasına azadlıq və müstəqillik gətirsə də, özüylə birlikdə onu siyasi katakliz-

maların və ekoloji-iqtisadi böhranın məngənəsinə saldı. On illər ərzində formalaşmış iqtisadi, siyasi, mədəni ekoloji və digər əlaqələr Azərbaycan üçün böyük itkilərlə nəticələndi. Bütün bunlara baxmayaraq Azərbaycan Respublikası bu çətinliklərə tab gətirdi və müstəqillik əldə etdikdən sonra 18 oktyabr 1991-ci il öz müstəqil siyasətinin hüquqi bazasını yaratmağa başladı. Ümumdövlət siyasətinin üzvi tərkib hissələrindən biri də məhz bu dövrdən başlayaraq ekoloji siyasət oldu.

Ekoloji siyasətin həyata keçirilməsinin təzahürü kimi respublikamızda Avropa standartlarına uyğun müvafiq qanunvericilik bazasının yaradılması, ətraf mühit üzrə dövlət idarəetmə sisteminin təkmilləşdirilməsi, beynəlxalq təşkilatlarla əlaqələrin genişləndirilməsi yolu ilə prioritet layihələrin tədricən realizə olunması məsələləri gündəmə gəldi.

Azərbaycan Respublikasında ekoloji siyasətin hüquqi əsası Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev tərəfindən qoyulmuşdur. Onun rəhbərliyi altında 12 noyabr 1995-ci ildə qəbul edilmiş Azərbaycan Respublikasının yeni Konstitusiyasında ilk dəfə olaraq "hər kəsin sağlam ətraf mühitdə yaşamaq hüququ" təsbit edildi. (39-cu maddə). (4) Bu maddənin müddəalarının həll olunmasının təmin edilməsi məqsədi ilə Azərbaycan Respublikasının Milli Məclisi çoxsaylı vacib qanunlar qəbul etdi.

Heydər Əliyevin 23 may 2001-ci il 485 nömrəli əmri ilə yeni Ekologiya və Təbii Sərvətlər Nazirliyi tyaradıldı. Bu əmrlə ekologiyanın mühafizəsi sahəsində bütün inzibati çətinliklər aradan götürülmüş oldu. 18 sentyabr 2001-ci il Heydər Əliyevin əmri ilə "Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Əsasnaməsi"nin təsdiqi isə ətraf mühitin sağlamlaşdırılmasına və ekoloji təhlükəsizliyin təmin edilməsinə yönəldilmiş Azərbaycanın vahid ekoloji siyasətini müəyyənləşdirdi. Bu məqsədlərə nail olmaq üçün respublikamız üçün üstün əhəmiyyətli ekoloji problemlər müəyyənləşdirilmiş və 1998-ci



ildə Azərbaycan Respublikasının hökuməti tərəfindən təsdiq olunmuş "Ətraf Mühiti Mühafizə üzrə Milli Fəaliyyət Planı"nda öz əksini tapmışdır.(5)

Həmin vaxtdan təbii ehtiyatlardan səmərəli istifadə və ekoloji tarazlığın qorunması dövlətin daimi diqqət mərkəzinə gətirilmiş və ölkəmiz ekologiya və ətraf mühitin mühafizəsi sahəsində böyük nailliyyətlər əldə etməyə başlamışdır. Azərbaycan Respublikası, beynəlxalq əlaqələrini xeyli genişləndirərək, bir çox dövlətlərlə hökumətlərarası birgə əməkdaşlıq sazişləri imzalamış, ölkənin strateji maraqları baxımından çox mühüm beynəlxalq konvensiyalara qoşulmuşdur. Ekoloji siyasətin həyata keçirilməsi istiqamətində müvafiq milli proqramlar hazırlanmış və bir sıra tədbirlər həyata keçirilmişdir. Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin 2003-cü il 18 fevral tarixli 1152 saylı Sərəncamı ilə Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən hazırlanmış «Ekoloji cəhətdən dayanıqlı sosial-iqtisadi inkişafa dair» Milli Proqram;" «Azərbaycan Respublikasında meşələrin bərpa edilməsi və artırılmasına dair Milli Proqram» təsdiq edilmişdir. (6)

Ölkənin ümumi inkişaf strategiyasının ayrılmaz hissəsi olan bu Milli Proqramın işlənməsi ətraf mühitin qorunması sahəsində fəaliyyətin koordinasiyasının gücləndirilməsi yolu ilə milli, regional və beynəlxalq səviyyələrdə təbii ehtiyatların mühafizəsi, elmə əsaslanan inkişaf prinsiplərinin tətbiqi, indiki və gələcək nəsillərin maraqlarını təmin edən iqtisadi və insan resurslarının istifadəsində davamlılığın təminatına yönəlmişdir. Ekoloji baxımdan dayanıqlı sosial-iqtisadi inkişaf üzrə milli proqramın həyata keçirilməsi üçün əlaqədar dövlət qurumlarının və qeyri-dövlət təşkilatlarının fəaliyyətinin koordinasiyasının gücləndirilməsi vacib şərtlərdən biridir. (5). Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 28 sentyabr 2006-cı il tarixli 1697 saylı sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında ekoloji

vəziyyətin yaxşılaşdırılmasına dair 2006-2010 –cu illər üçün Kompleks Tədbirlər planı"na (7) əsasən və Ekologiya və Təbii Sərvətlər Nazirliyinin yaxın beş il müddətinə ekoloji siyasəti müəyyənləşdirilmişdir.

Bu, iki mərhələdən ibarət çox böyük və konkret ekoloji proqramdır. Proqramda müəyyən olunan bütün tədbirlər (Bakı buxtasında,"Bibi Heybət" zonasında, Abşeron yarımadasında, Azərbaycan Respublikasının digər ərazilərində ekoloji vəziyyətin yaxşılaşdırılması) bütövlükdə, Azərbaycanda ətraf mühitin mühafizəsinə xidmət göstərir. Proqram qəbul olunduqdan dərhal sonra beynəlxalq maliyyə təşkilatları- Dünya bankının nümayəndələri, digər beynəlxalq təşkilatlar Azərbaycana gəlmişlər. Onlar proqramın qəbul olunmasını alqışlamış və bu işdə iştirak etmək arzusunda olduqlarını bildirmişlər. Bu onu göstərir ki, Azərbaycan Respublikası öz siyasətini, o cümlədən ekoloji siyasətini düzgün istiqamətdə aparır. Ekoloji məsələlərə diqqət, münasibət, eyni zamanda ölkənin ümumi siyasətinin, ümumi mədəniyyətinin təzahürüdür. Son nəticədə ən önəmli sahə budur. Çünki təbiət, ətraf mühit, daimi sərvətdir, onu gələcək nəsillər üçün qorumaq lazımdır.

Azərbaycan Respublikası Prezidentinin ekologiyaya ayırdığı böyük diqqət xarici təşkilatların da diqqətindən yan keçməmişdir. Almaniyanın böyük nümayəndə heyətinin, Zukkov fondunun rəhbərliyinin Azərbaycana gəlməsi və 15 noyabr 2006-ci ildə təbiəti mühafizə sahəsində həyata keçirdiyi uğurlu siyasətə görə Prezident İlham Əliyevə Almaniyanın dünyada çox böyük nüfuza malik olan Mixail Zukkov Fondunun ali mükafatını təqdim etməsi buna misaldır. (8)

Göründüyü kimi, mütəmadı olaraq ölkənin ekoloji strategiyasının əsasını təşkil edən proqramların qəbul edilməsi, müvafiq fərman və sərəncamların imzalanması (Azərbaycan Respublikasının Prezidenti tərəfindən imzalanmış 2007-ci il 20 iyun tarixli "Xəzər dənizinin çirklənmədən qorunması üzrə bəzi tədbirlər haqqında" Sərəncamı, Azərbaycan Res-



publikası Prezidentinin 2007-ci il 20 iyun tarixdə "Əhalinin ekoloji cəhətdən təmiz su ilə təminatının yaxşılaşdırılması ilə əlaqədar bəzi tədbirlər haqqında" imzaladığı sərəncamı və s.) yalnız bir məqsədə - Azərbaycanda mövcud olan ekoloji problemlərin aradan qaldırılmasına - xidmət edir.

Müasir dövrdə ətraf ətraf təbii mühitin mühafizəsinin mühüm aspektlərindən biri də enerji problemləri, ondan istifadənin ətraf mühitə təsiri, enerji böhranı və enerjidən davamlı istifadə problemləridir. Bu baxımdan Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev tərəfindən müəyyən edilmiş neft strategiyasının uğurlarında xüsusi xidmətləri olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2003-cü ildə Moskva şəhərində çapdan çıxmış "Azərbaycanın Xəzər nefti" *(«Каспийская нефть Азербайджана»)* (9) kitabı böyük diqqətə layiqdir. Kitabda qədim zamanlardan müasir dövrədək Xəzər regionunun siyasi və iqtisadi baxımdan xronologiyası verilmiş və tarixi inkişaf mərhələlərinin təhlili aparılmışdır. Zəngin arxiv materialları və çox geniş tarixi qaynaqlar əsasında Azərbaycanın Xəzəryanı ərazilərinin və Xəzər neftinin siyasi tarixini yüksək professionallıqla təqdim edən müəllif bu qənaətə gəlir ki, Azərbaycan əraziləri nəinki geostrateji, coğrafi, hərbi-siyasi şəraitin spesifik xüsusiyyətlərinə, həmçinin oroqrafik və təbii landşaft müxtəlifliyindən doğan bioloji sərvətlərin və təbii ehtiyatların zənginliyinə görə də bütün tarixi dövrlərdə hakim sivilizasiyaların, böyük etnosların maraqlarını cəlb etmiş, müasir dövrdə isə aparıcı dövlətlərin diqqət mərkəzinə çevrilmişdir. Əsərdə dövlətin ekoloji siyasətinin əsas tərkib hissələrindən olan ətraf təbii mühitin qorunması və gələcək nəsillərə çatdırılması, təbii sərvətlərdən davamlı istifadə, ətraf mühit və insan sağlamlığı, tətbiqi ekologiyanın hüquqi əsaslarının müasir problemləri kimi məsələlərə böyük diqqət yetirilmişdir.

Azərbaycan dünyanın ən qədim neft ölkəsi sayılır və burada neftin sənaye üsulu ilə çıxarılmasının 150 ilə yaxın tarixi

vardır. Neftin çıxarılması tarixi ilə yığılıb qalmış ekoloji problemlərin yaşı eynidir. Öz həcminə və kəskinliyinə görə bu problemlər dünyanın heç bir ölkəsi ilə müqayisə oluna bilməz. Odur ki, son illərdə Azərbaycan hökuməti uzun illərdən bəri yığılıb qalmış ekoloji problemlərin həllindən ötrü müvafiq qərarlar vermiş milli ekoloji proqramlar həyata keçirməkdədir. Bu problemlərin həlli üçün Azərbaycan Respublikası Dövlət Neft Şirkətindən daha çox böyük səylər tələb olunur və onun qarşısında konkret vəzifələr qoyulmuşdur. Bu vəzifələrin əməli icrası olaraq ARDNŞ 2006-cı ildən başlayaraq keçmişdən miras qalmış ekoloji problemlərin həlli istiqamətində praktiki işləri yerinə yetirməklə yanaşı, bu günkü və gələcək fəaliyyətini ətraf mühitə təsirləri minimal səviyyəyə endirmək şəraitində qurmağı planlaşdırır. Bundan ötrü ARDNŞ ətraf mühitin qorunması və ekoloji təhlükəsizliyin təmin olunması sahəsində fəaliyyətini sistemləşdirmək və müasir tələblərə uyğun qurmaq məqsədi ilə öz Ekoloji Siyasətini müəyyən etməyi və həyata keçirməyi qarşısına məqsəd qoymuşdur.

ARDNŞ-nin ekoloji siyasəti ARDNŞ Prezidentinin 12.05.2008-ci il tarixli 77 nömrəli Əmri ilə təsdiq edilmişdir. Ekoloji siyasət "Neft firavanlıqdırsa təbiət həyatın özüdür" devizi altında həyata keçirilir. Bu sənəddə ARDNŞ-nin ekoloji siyasətinin məqsəd və vəzifələri müəyyənləşdirilmişdir. Ekoloji siyasətin hüquqi əsasları, ətraf mühitin mühafizəsi sahəsində qanunvericilik və tənzimləyici qaydalar, ekoloji məsələlərin tənzimlənməsi, regional və milli ekoloji proqramlar, ekologiya səhəsində beynəlxalq hüquqi prinsiplər və onların ARDNŞ-nin ekoloji siyasətində yeri, ekologiya sahəsində beynəlxalq təcrübə, dövlət, özəl və beynəlxalq təşkilatlarla qarşılıqlı fəaliyyət istiqamətləri, ətraf mühitin idarəolunması sahəsində monitorinq və modernləşmə də daxil olmaqla ekoloji siyasətin strategiyası müəyyənləşdirilmişdir. Eyni zamanda kadr hazırlığı və ekoloji təhsil sahəsində, ətraf mühitin qorunması və təbii ehtiyatlardan səmərəli istifadə sahəsində informasiya siyasətinin həyata keçirilməsi ARDNŞ-nin ekoloji siyasətinin tərkib hissələri kimi vurğulanmışdır. (10)



Təbiət insan üçün sadəcə ətraf mühit, çöl, meşə və s.-dən ibarət deyil. Təbiət həm də Vətən,yurd yeri, insanın formalaşdığı məkandır. Sağlam ekoloji mühitdə yaşamaq hər bir insanın konstitusion hüququdur. Lakin təbiət ən müxtəlif təsir və amillərin nəticəsində dəyişir, təbiət-cəmiyyət münasibətləri ziddiyyətlərsiz ötüşmür. İnkişafa qarşı dayanmaq isə qeyri-mümkündür. Bu prosesdə optimal hədd və normaların gözlənilməsi, təbiətə təzyiqin minimuma endirilməsi Azərbaycan Respublikasının ekoloji siyasətinin əsas vəzifəsidir.

Azərbaycan dövlətinin həm ümumilikdə götürülən, həm də ekoloji sahədə yeritdiyi siyasətin ən ümumi istiqamətlərindən biri kimi – ekoloji təhsil, maarif və ekoloji mədəniyyət müəyyənləşdirilmişdir. Əsas məqsəd, dövlətin həyata keçirdiyi ekoloji siyasəti reallaşdıra biləcək gənc kadrların yetişdirilməsinə və əhalinin ekoloji maarifləndirilməsinə yönəldilmişdir. Hazırda bu məsələ ölkədə və beynəlxalq təcrübədə mövcud olan prinsiplərə uyğun həyata keçirilir.

Bu istiqamətdə Heydər Əliyev Fondunun nəinki Azərbaycanda, eləcə də beynəlxalq səviyyədə ekoloji vəziyyətin yaxşılaşdırılması istiqamətində gənclər arasında apardığı işlər xüsusilə diqqətəlayiqdir. Bu baxımdan 2011-ci il 25-26 noyabr tarixində Qəbələ rayonunda Ətraf mühitin mühafizəsi üzrə beynəlxalq dialoqun - İDEA-nın (International Dialogue on Environmental Action - Ətraf Mühitin Mühafizəsi üzrə Beynəlxalq Dialoq Təşəbbüsü) kampaniyası çərçivəsində görüş BMT və beynəlxalq gənclər təşkilatlarının dəstəyilə təşkil olunan gənc ekoloqların "Ekoloji idarəetmədə gənclərin rolu: bu gün və sabah" adlı beynəlxalq düşərgəsinin fəaliyyətini nümunə göstərmək olar. (11)

Düşərgənin yaradılmasının əsas məqsədi- əməkdaşlıq və təşkilati quruculuq vasitəsilə regionda və dünyada inkişaf

edən müxtəlif ekoloji qruplar və hərəkatlar arasında işgüzar əlaqələrin yaradılmasından , yaşadıqları regionun ictimai həyatında gənc ekoloqların fəal iştirakının təmin olunmasından, yaşadıqları yerlərdə onların fəaliyyətinin gücləndirilməsi və ekoloji maarifləndirmə prosesində fəal iştirakının stimullaşdırılmasından ibarət olmuşdur. Layihə "Bir torpaq, bir gələcək" şüarı altında keçirilmişdir. Tədbirdə dünyanın 40 ölkəsindən 100 gənc ekoloq iştirak etmişdir. Düşərgədə müxtəlif mövzularda seminarlar və tədris kursları keçirilmişdir. Düşərgənin əsas mövzuları: "Yeni və yaranmaqda olan qlobal ekoloji problemlərin həllində gənclərin rolu", "Ətraf mühit sahəsində əməkdaşlığın perspektivləri – şəbəkə layihələri və cəmiyyətə dəstək layihələri", " "Yaşıl" iqtisadiyyatın inkişafı" adlanırdı. İDEA bu kompaniyaya 2011-ci il 12 iyul tarixindən Leyla Əliyevanın təşəbbüsü ilə start götürmüşdü. Kompaniyanın əsas məqsədi: gəncləri ətraf mühitlə harmoniyada yaşamağa həvəsləndirmək və məlumatlandırmaq olmuşdur. Beynəlxalq düşərgənin seksiyalarının əsas mövzuları:"İqlim dəyişmələrinin gənclərə təsiri" və "Enerji ehtiyatlarının effektiv istifadəsi" olmuşdur.

Beynəlxalq düşərgənin sonunda gənc ekoloqların Qəbələ deklarasiyası qəbul olunmuşdur. Deklarasiya BMT-nin dayanıqlı inkişaf üzrə 2012-ci ildə keçdiyi "Rio+20" adlı qlobal konfransda təqdim olunmuşdur.

Göründüyü kimi beynəlxalq düşərgədə keçirilən diskussiyalarda qlobal iqlim dəyişmələri, enerji ehtiyatlarından səmərəli istifadə, ümumdünya dayanıqlı inkişaf konsepsiyasına dəstək üçün ekoloji təhsilin vacibliyi, biomüxtəlifliyin qorunması, ətraf mühitin mühafizəsi sahəsində innovasiya texnologiyalarının rolu, "yaşıl iqtisadiyyatın" inkişafı və sonuncu xüsusilə, ekoloji problemlərin həllində gənclərin rolununun vurğulanması və digər məsələlər xüsusilə böyük maraq doğurmuşdur.

Son dövrdə ölkəmizdə ətraf mühitin mühafizəsi sahə-



sində ekoloji siyasət yeni vüsət almışdır. Bu həm də ekoloji məsələlərin ümumbəşəri bir problem kimi qəbul edilməsi ilə də izah edilir. Ölkənin ekoloji strateqiyasının əsasını təşkil edən proqramların qəbul edilməsi, müvafiq fərman və sərəncamların imzalanması, ətraf mühitin mühafizəsi, insanların sağlam təbii şəraitdə yaşaması və təbii sərvətlərdən səmərəli istifadə sahəsində həyata keçirilən siyasət Azərbaycanda mövcud olan ekoloji problemlərin aradan qaldırılmasına xidmət edir.

Bu işdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rolu əvəzsizdir. Dövlətimizin başçısı ətraf mühitin mühafizəsini və sağlam ekoloji mühitin yaradılmasını prioritet məsələlərdən biri kimi qarşıya məqsəd qoyub. Təsadüfi deyil ki, Prezident İlham Əliyev 2010-cu ili Azərbaycanda «Ekologiya ili» elan edib. «Azərbaycan yaşıl dünya naminə» devizi altında keçirilən beynəlxalq ekologiya sərgisi də «Ekologiya ili» çərçivəsində reallaşan tədbirlərdən biri olmuşdur. (12) Bu həmçinin Cənubi Qafqaz regionunda yüksək iqtisadi inkişafa nail olmuş ölkəmizin, ekologiya sahəsində də həyata keçirdiyi layihələrin uğurlu nəticələrinin beynəlxalq qurumların diqqətinindən yayınmadığının bariz sübutudur.

Ölkə Prezidentinin ekologiya sahəsində apardığı məqsədyönlü siyasəti işıqlandırmaq məqsədilə Azərbaycanın Ekologiya və Təbii Sərvətlər Nazirliyi «İlham Əliyevin uğurlu ekoloji siyasəti» adlı 400 səhifəlik hesabat xarakterli kitab nəşr etdirib. Kitab Azərbaycanın ekoloji durumunun sağlamlaşdırılması və təbii sərvətlərdən səmərəli istifadə olunması sahəsində prezident İlham Əliyevin yürütdüyü ekoloji siyasətin reallaşdırılması üzrə görülmüş əsas işlərə həsr olunub (13).

Azərbaycan coğrafi, iqlim, milli, mədəni, geosiyasi xarakterli çoxsaylı xüsusiyyətlərə malik ölkədir. Bu xüsusiyyətlərdən hər biri ölkənin müasir vəziyyətinə və inkişafına, eləcə də ekoloji mövqeyinə öz təsirini göstərir. Bilavasitə və

ya dolayısı, qaçılmaz olaraq qlobal amillərin təsirinə məruz qalan respublika öz ekoloji mövqeyinin əsasına özünün prioritet saydığı məsələləri qoyur. Azərbaycanın ekoloji siyasəti bu sahədə onun milli maraqlarının müdafiəsinin təmin olunmasına xidmət edir. Azərbaycanın ekoloji siyasəti onun inkişaf tendensiyasına zidd olmayıb, onun milli maraqlarının etibarlı müdafiəsini təmin edir.

Hazırda ölkədə aydın və birmənalı ekoloji siyasətin formalaşdırılması və onun həyata keçirilməsi üçün müvafiq dövlət strukturları yaradılmışdır. Ölkədə Ekologiya və Təbii Sərvətlər Nazirliyindən başqa, Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Ekologiya İdarəsi (bu idarə Dövlət Neft Şirkətinin birbaşa tabeçiliyində olan dövlət müəssisəsi kimi Azərbaycan Respublikası Prezidentinin 14 sentyabr 2006-cı il tarixli Fərmanına uyğun olaraq ARDNŞ-in "Azneft" İstehsalat Birliyinin "Azərneftekologiyaservis" idarəsinin bazasında yaradılmışdır), "Ekol mühəndislik xidmətləri" Qapalı Səhmdar Cəmiyyəti (bu Cəmiyyət Azərbaycan Respublikası Neft Şirkətinin (51%) və xarici investor "Lancer Services S.A." Şirkətinin (49%) pay iştirakı ilə bağlanmış 1 mart 2006-cı il tarixli müqavilə əsasında təsis edilmiş, 17 aprel 2006-cı il tarixdə Qapalı Səhmdar Cəmiyyəti (bu Cəmiyyət Azərbaycan Respublikası Prezidentinin 6 avqust 2008-ci il tarixli sərəncamına əsasən təsis olunmuşdur və 12 mart 2009-cu ildə dövlət qeydiyyatına alınaraq fəaliyyətə başlamışdır) dövlətin ekoloji siyasətini həyata keçirən qurumlardır (5).

Qeyd etdiyimiz kimi Azərbaycan Respublikasında ekoloji siyasətə dair ilk sənəd kimi «Dayanıqlı inkişaf» prinsiplərinə əsaslanan «Azərbaycan Respublikasının ekoloji konsepsiyası» qəbul olunmuşdur. Bu konsepsiyada respublikamız üçün ətraf mühitin mühafizəsi baxımından prioritet problemlərin həlli üzrə əsas prinsiplər öz əksini tapmışdır. Bu konsepsiya respublikamızın ekoloji doktrinası olmaqla, dövlət ekoloji siyasətinin strateji məqsədi kimi Azərbaycan Respublikasında



təbii sistemlərin mühafizəsi, cəmiyyətin dayanıqlı inkişafı üçün həyat təminatlı funksiyaların qurulması, həyat səviyyəsinin artırılması, əhalinin və demoqrafik vəziyyətin sağlamlığının yaxşılaşdırılması, ölkənin ekoloji təhlükəsizliyinin təminatı baxımından əhəmiyyətli olan problemlərin həllini əks etdirir.

Müasir dövrdə ekoloji durumu və sosial-iqtisadi vəziyyəti nəzərə alan Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi respublikamızın ekoloji siyasətinin aşağıdakı üç əsas istiqamətini müəyyənləşdirmişdir:

- ekoloji təhlükəsizliyin təmin olunmasını əsas götürərək, ətraf mühitin çirklənməsinin minimuma endirilməsi və mühafizəsinin tənzimlənməsi məqsədilə davamlı inkişaf prinsipləri üzrə mütərəqqi üsulların tətbiq edilməsi;
- indiki və gələcək nəsillərin tələbatını ödəmək məqsədilə təbii sərvətlərdən səmərəli istifadə etmək, alternativ, qeyri-ənənəvi metodlar vasitəsilə tükənməyən enerji mənbələrindən yararlanmaq və enerji effektivliyinə nail olunması;
- qlobal ekoloji problemlər üzrə milli səviyyədə tələbatların qiymətləndirilməsi, həlli yollarının müəyyənləşdirilməsi, beynəlxalq təşkilatlarla əlaqələrin genişləndirilməsi, eləcə də milli potensial imkanlardan istifadə etməklə həyata keçirilməsinin təmin edilməsi. (5)

Göründüyü kimi Azərbaycan Respublikasının müasir ekoloji siyasətinin əsas istiqamətləri təsərrüfat, hərbi və digər fəaliyyət növlərinin ətraf mühitə təsirinin nizama salınmasının yeni hüquqi və iqtisadi mexanizminin formalaşmasını; təbiəti mühafizə qanunvericiliyinin təkmilləşdirilməsi və onun yeni ictimai-iqtisadi modelə uyğunlaşdırılması; Azərbaycan Respublikasının ekoloji təhlükəsizliyin beynəlxalq sisteminə qoşulmasına qoyulan tələbləri nəzərə alaraq ekologiya sahəsində standartlaşdırmanın, sertifikatlaşmanın və lisenziyalaşdırmanın inkişafı; dövlət ekoloji monitorinqinin vahid sisteminin yaradılması; ekoloji cəhətdən təmiz və təbii

ehtiyatlara qənaətedici texnologiyaların tətbiqinin stimullaşdırılması; ekoloji ekspertiza institutunun inkişafı; ekologiya sahəsində sahibkarlığın inkişafı; ekologiya sahəsində qərarların qəbul olunmasında vətəndaşların iştirakının genişləndirilməsi; təbiətin mühafizəsi sahəsində beynəlxalq əməkdaşlığın möhkəmləndirilməsi; fasiləsiz ekoloji təhsil sisteminin yaradılması və s. məsələləri əhatə edir.

Ekoloji siyasətin əsas istiqamətləri üzrə qarşıya qoyulmuş məqsədə çatmaq üçün ETSN müvafiq vəzifə və prinsipləri əsas götürmüşdür. Bunlar: Iqtisadi, sosial və ekoloji sahələrin hər birinə bərabər diqqət tələb edən dayanıqlı inkişaf və təbiətin deqradasayası şəraitində cəmiyyətin inkişafının qeyri-mümkünlüyünün etirafı; təbii ehtiyatlardan istifadəyə münasibətdə biosferin həyat təminatlı funksiyalarının cəmiyyət üçün prioritet təşkil etməsi; təbii ehtiyatların istifadəsindən gələn gəlirlərin ədalətli bölüşdürülməsi; təsərrüfat fəaliyyəti nəticəsində neqativ ekoloji halların qarşısının alınması; ətraf mühit üçün nəticəsi gözlənilməz olan, təbii sistemlərə təsirlə bağlı təsərrüfat və digər layihələrdən imtina; ödənişli əsasda tə-biətdən istifadə və ətraf mühitin mühafizəsi haqqında qanunvericiliyin pozulması nəticəsində ətraf mühitə və əhaliyə dəyən ziyanın ödənilməsi; ekoloji informasiyanın şəffaflığı; ətraf mühitin mühafizəsi və təbiətdən istifadədə rasionallığın təmin edil-məsi məqsədilə qərarların hazırlanmasında, müzakirəsində, qəbul edilməsində və reallaşdırılmasında vətəndaş cəmiyyətinin, özünüidarə orqanlarının və işgüzar dairələrin iştirakı.

Müasir dövrdə qlobal ekoloji problemlər bütün dünya ictimaiyyətini narahat edir. Getdikcə kəskinləşən iqlim dəyişmələri, ozon qatının zədələnməsi, turşulu yağışlar, torpaqların şoranlaşması və səhralaşma, bioloji müxtəlifliyin azalması, əhali artımının yüksək tempi, bərpa olunmayan təbii ehtiyatların getdikcə tükənməsi və s. qlobal ekoloji problemlər artıq bütün dünya ölkələrini təhdid etməkdədir.



Bu üzdən ekoloji siyasət, yalnız konkret dövlət çərçivəsində deyil, eləcə də bəşəri səviyyədə müasir dünyada ən aktual məsələyə çevrilmişdir. Konkret bir ölkənin gələcək inkişafı və bütövlükdə bütün dünyanın aqibəti ekoloji siyasətin həyata keçməsinin effektivliyindən birbaşa asılıdır desək, yəqin ki, yanılmarıq. Ətraf mühitin müasir vəziyyəti ekoloji təhlükəsizliyin və onun həlli yollarının axtarışı probleminə daim diqqət tələb edir. Bu səbəbdən ekoloji problemlərin bir dövlət çərçivəsində həlli qeyri-mümkündür.

Azərbaycan Respublikasının ekoloji siyasəti formalaşmağa başladığı dövrdən, artıq prosesin gedişində müasir dövrün milli və qlobal tərəflərinin bütün xüsusiyyətlərini özündə cəmləşdirmişdir. Bu cəhətdən onun məzmunu yalnız milli deyil, eləcə də planetar mahiyyətlidir. Onun nəzəri əsasını qlobal ekologizm ideyası, konkret tərəflərini isə Respublikanın maraqlarını, ümummilli təhlükəsizliyini təmin edə biləcək, prioritet sayılan məqsəd və vəzifələr təşkil edir. Bu səbəbdən Azərbaycan Respublikasının ekoloji siyasətində beynəlxalq əməkdaşlıq prioritet məsələlərdən biri kimi göstərilmişdir. Hal-hazırda ETSN bu sahədə aktiv fəaliyyət göstərir. Rəsmi milli ekoloji siyasətin mövcudluğu Azərbaycan Respublikasının beynəlxalq siyasi və iqtisadi proseslərə inteqrasiyasını daha da asanlaşdırır.Təsadüfi deyil ki, Azərbaycanın həyata keçirdiyi ekoloji siyasət beynəlxalq müstəvidə yüksək qiymətləndirilir.

Hazırda ətraf mühitin vəziyyəti, mühafizəsi və qorunması, təbii ehtiyatların səmərəli istifadəsi sahəsində Azərbaycanın iştirakı əsasən aşağıdakı istiqamətlərdə həyata keçirilir: bu sahədə dövlət təşəbbüslərinin irəli sürülməsi; beynəlxalq təşkilatlarda iş; beynəlxalq əməkdaşlığı daha da genişləndirmək məqsədilə ekoloji problemlərlə bağlı beynəlxalq layihələrin hazırlanması, Respublikada bu sahədə hazırlanan normativ sənədlərin beynəlxalq standartlara uyğunlaşdırılması, ikitərəfli əməkdaşlıq; Azərbaycan Respublikasının

qoşulduğu beynəlxalq konvensiyalar üzrə əlaqələrin yaradılması, beynəlxalq təşkilatlarla əməkdaşlığa dair əlaqələrin inkişaf etdirilməsi, beynəlxalq öhdəliklərin həyata keçirilməsi, beynəlxalq proqram və layihələrin hazırlanması işində iştiraka nail olmaq və s.

Azərbaycan ətraf mühitin mühafizəsi, ekoloji fəlakətlərin qarşısının alınması, biomüxtəlifliyin saxlanması və bəşəriyyətin dayanıqlı inkişafının təmin edilməsi sahəsində 30-dan çox müqavilə, razılaşma, konvensiya, protokol və digər beynəlxalq – hüquqi aktlara imza atmışdır. Bir sıra Avropa ölkələri ilə bu sahədə ikitərəfli hökumətlərarası sazişlər imzalanmış, həmçinin, müvafiq donor təşkilatları və ətraf mühitin mühafizəsi sahəsində fəaliyyət göstərən beynəlxalq qurumlarla əməkdaşlıq genişləndirilmişdir. "Avropa Landşaft Konvensiyası"nın mətni dövlət dilinə tərcümə edilmiş və rəsmi mətnlə uyğunluğunun təsdiq edilmiş variantının Azərbaycan Respublikası tərəfindən radifikasiya edilməsi üzrə prosedurlar həyata keçirilir. Eyni zamanda QEF, UNİDO, UNEP, USAİD, TASİS, NATO, Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı, Asiya İnkişaf Bankı kimi təşkilatlarla ətraf mühitin mühafizəsi sahəsində əməkdaşlıq həyata keçirilir. Hazırda Azərbaycan ekoloji problemlərin həlli ilə bağlı bir sıra beynəlxalq konvensiyalara qoşulmuş və bu istiqamətdə işlər davam etməkdədir.

2012-ci ilin yanvar ayında ABŞ-ın Yel və Kolumbiya Universitetləri tərəfindən hazırlanmış Beynəlxalq Ekoloji Fəaliyyətin Nəticələrinin İndeksində (Environmental Performance İndex) Azərbaycan yüksək yerdə qərarlaşmasını da görülən işlərin nəticəsi kimi dəyərləndirmək lazımdır.

Ekoloji siyasətin düzgün məcrada aparılmasının Azərbaycan üçün son dərəcə böyük əhəmiyyəti vardır. Bir tərəfdən, müasir Azərbaycan neft ölkəsi olduğundan ekoloji siyasət ən aktual və əhəmiyyətli məsələlərdən biridir, digər tərəfdən Azərbaycanın ümummilli təhlükəsizliyinin təmi-



natının əsas amili kimi ekoloji siyasətin effektivliyinin rolu danılmazdır. Bütövlükdə ölkə üçün onun daxili siyasətinin tərkib hissəsi kimi ekoloji siyasətin yerinin, bu problemin yüksək əhəmiyyətinin müəyyənləşdirilməsi olduqca vacib məsələdir.

Azərbaycan Respublikasının ekoloji siyasətinin ideya-siyasi mövqeyi Azərbaycan Respublikasının Konstitutsiyasında elan edilmiş və əsaslandırılmış, Respublikanın proqram sənədlərində, Milli proqramlarında, Azərbaycanın ekoloji doktrinasında, Azərbaycan Respublikasının qanunvericiliyində onun hüquqi prinsip və normaları təsdiq edilmişdir. Azərbaycanın ekoloji siyasətinin əsas məzmunu dövlət, cəmiyyət, vətəndaş - təbiət qarşılıqlı münasibətlərinin bütün tərəflərini əhatə edir. Bütün bunlar ekoloji siyasətə sistemli, müfahizəedici və perspektiv mahiyyətli xarakter verir. Ekoloji siyasətin həyata keçirilməsində ictimai ekoloji təşkilastların, qeyri-hökumət təşkilatlarının da müəyyən iştirakı vardır. ETSN ölkəmizdə həlli vacib olan ekoloji problemlərin aradan qaldırılması yollarının müzakirə olunması, birgə təkliflərin hazırlanması və bu istiqamətdə effektivliyin təmin olunması məqsədilə ekologiya sahəsində fəaliyyət göstərən QHT-lərlə işbirliyini vacib sayır. Nadir hallarda bu prosesə BMT-nin bəzi strukturları, beynəlxalq qeyri-hökumət təşkilatları, qlobal siyasətin və iqtisadiyyatın digər subyektləri də təsir göstərə bilir.

Azərbaycan Respublikasının ekoloji siyasəti ölkənin inkişafında taleyüklü mahiyyət daşıdığından siyasi və mənəvi aktuallıq kəsb edir.

## Ədəbiyyat

1.Конференция ООН по окружающей среде и развитию.(Рио-де–Жанейро, июнь 1992) Информационный обзор. Новосибирск: СО РАН, 1992. 62с.

2. Доклад Генерального Секретаря ООН Кофи Аннана «При большей свободе: к развитию, безопасности и правам человека для всех» от 21 марта 2005 года http://www.un.org/russian/largerfreedom/report.html с. 21.
3.Məmmədov Q.S., Xəlilov M.Y. Ensiklopedik ekoloji lüğət. Bakı, Elm, 2008, 728s.
4. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı: "Qanun", 2009, 99s.
5. http://www.eco.gov.az/b-gorulenishler.php
6. Azərbaycan qəzeti 19 fevral 2003-cü il, № 39
7. Azərbaycan qəzeti 29 sentyabr 2006-cı il, №220
8. Xalq qəzeti. 2006. 16 noyabr. №258. S.1.
9. Алиев И. Каспийская нефть Азербайджана. М.: Известия, 2003. 712 с., ил.
10. http://new.socar.az/
11. http: // 1news/ az / society/
12. www.azertag.com.
13. trend@trend.az



## MİQRASİYA PROSESLƏRİ DÖVLƏT MİLLİ TƏHLÜKƏSİZLİK SİYASƏTİNİN TƏRKİB HİSSƏSİDİR

Təhlükəsizlik insanın, cəmiyyətin, dövlətin mövcudluğunun, onun həyatı əhəmiyyətli maraqlarının etibarlı qorunması vəziyyətidir. Təhlükəsizlik probleminə əsas diqqət II Dünya müharibəsindən sonra yetirilməyə başlandı. Dünyada sülhün və təhlükəsizliyin təmin edilməsi məqsədilə 1945-ci ildə Birləşmiş Millətlər Təşkilatı (BMT) yaradıldı.

Təhlükəsizliyi miqyasına, təyinatına, vəzifələrinə görə iki yerə bölmək olar:

1. Beynəlxalq təhlükəsizlik: buraya xarici, qlobal, kosmik təhlükəsizlik növləri daxildir.

2. Milli, daxili təhlükəsizliyə isə siyasi, iqtisadi, hərbi, ekoloji, informasiya, mədəni növləri daxildir.

Müasir dövrdə təhlükəsizliyin texnoloji, tibbi, ərzaq, bank, maliyyə, hərəkət (yol, aviasiya, dəniz, boru-kəmər), demoqrafik, bələdiyyə, ailə, iş, xidmət və s. növlərini də ayırd edirlər.(5)

Azərbaycan Respublikasının təhlükəsizlik mühiti onun suverenliyi, ərazi bütövlüyü, sərhədlərinin toxunulmazlığı, milli maraqları, davamlı inkişafı, əhalisinin rifahı və dəyərlərinin qorunmasına təsir edən amillərin məcmusudur.

Milli təhlükəsizlik anlayışı hər bir fərdin, bütövlükdə cəmiyyətin və dövlətin təhlükəsizliyini ehtiva edir. Azərbaycan Respublikasının milli təhlükəsizliyi dedikdə millətin (bütün Azərbaycan vətəndaşlarının), eyni zamanda hər bir fərdin və dövlətin təhlükəsizliyi nəzərdə tutulur.

Milli maraqlar dedikdə hər bir fərdin, cəmiyyətin və dövlətin onilliklərlə ölçülən uzun müddətli, dayanıqlı təməl maraqları nəzərdə tutulur.

Milli maraqlar anlayışının əslər boyu istifadə olunması-

na baxmayaraq bu günə kimi onun ümumi qəbul olunmuş bir anlayışı yoxdur. Bu termin əsasən xarici siyasət və milli təhlükəsizlik siyasəti sahəsində işlədilir. Müasir dövrdə geniş təhlükəsizlik anlayışı (siyasi, iqtisadi, hərbi, enerji, informasiya, ekoloji təhlükəsizlik və s.) qəbul olunduğuna və xarici siyasətə də milli təhlükəsizliyin təmin olunmasında bir vasitə kimi baxıldı-ğına görə milli maraqlar anlayışı əsasən milli təhlükəsizlik sferasında istifadə olunur.

Azərbaycan Respublikası müstəqilliyini yeni bərpa etmiş, dövlətçilik ənənələri və təcrübəsi zəif olan bir dövlət olduğundan milli təhlükəsizlik sahəsində də ciddi problemlərlə üzləşir. Həmin problemləri operativ və peşəkar səviyyədə həll etmək məqsədilə Azərbaycan Respublikası Milli Təhlükəsizlik Na-zirliyinin Əsasnaməsi hazırlandı və ölkə Prezidenti İlham Əliyev tərəfindən 27 mart 2004-cü il tarixli fərmanla təsdiq edildi.Əsasnamənin 1-ci maddəsində deyilir: "Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi kəşfiyyat, əkskəşfiyyat fəaliyyəti, dövlət sirrinin mühafizəsi, cinayətlərin aşkarlanması, qabaqlanması, qarşısının alınması və açılması sahəsində Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş səlahiyyətləri həyata keçirən mərkəzi icra hakimiyyəti orqanıdır.(14)

Geopolitik və geostrateji baxımdan mürəkkəb bir məkanda, əlverişsiz beynəlxalq əhatədə yerləşən Azərbaycan Respublikasının milli təhlükəsizliyinin təmin olunması, ilk növbədə onun milli maraqlarının, bu maraqlara yönəlik xarici və daxili risk, təhdid və təhlükələrin düzgün müəyyən olunmasını, modern demokratiyaların təcrübəsinin nəzərə alınmasını tələb edir.

Bütün bu tələblər, beynəlxalq təcrübə nəzərə alınaraq, "Milli Təhlükəsizlik haqqında" Azərbaycan Respublikasının qanunu hazırlanmış və 29 iyun 2004-cü il tarixdə Prezident İlham Əliyev tərəfindən imzalanmışdır. Qanunun ilk maddəsinə əsasən Azərbaycan Respublikasının milli təhlükəsizliyi



– dövlətin müstəqilliyinin, suverenliyinin, ərazi bütövlüyünün, konstitusiya quruluşunun, xalqın və ölkənin milli maraqlarının, insanın, cəmiyyətin və dövlətin hüquq və mənafelərinin daxili və xarici təhdidlərdən qorunmasının təmin edilməsidir (15). Sonrakı üç il ərzində Azərbaycan Respublikasının Milli Təhlükəsizlik konsepsiyası hazırlandı və ölkə Prezidentinin 23 may 2007-ci il tarixli sərəncamı ilə təsdiq edildi.

Həmin milli təhlükəsizlik konsepsiyasına əsasən Azərbaycan Respublikasının milli maraqları Azərbaycan xalqının fundamental dəyər və məqsədlərini, habelə insan, cəmiyyət və dövlətin tərəqqisini təmin edən siyasi, iqtisadi, sosial və digər tələbatların məcmusundan ibarət olmaqla, aşağıdakılardır:

- dövlətin müstəqilliyinin və ərazi bütövlüyünün qorunması, onun beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığının təmin edilməsi;
- Azərbaycan xalqının vahidliyinin qorunub saxlanılması, azərbaycançılıq ideyasının təşviqi;
- vətəndaş cəmiyyətinin formalaşdırılması, insan hüquq və əsas azadlıqlarının təmin olunması;
- demokratik və vətəndaş cəmiyyəti təsisatlarının inkişafı, qanunun aliliyi, asayişin təmini yolu ilə dövlətin funksiyalarının yerinə yetirilməsinin gücləndirilməsi, əhalinin təhlükəsizliyinin qorunması;
- beynəlxalq öhdəlikləri yerinə yetirmək, qlobal və regional təhlükəsizlik və sabitliyə töhfə vermək üçün dəyərlərini bölüşdüyü beynəlxalq təşkilatlarla inteqrasiyaya yönəlmiş əməkdaşlığın inkişaf etdirilməsi;
- bazar iqtisadiyyatının inkişafı, onun hüquqi əsaslarının təkmilləşdirilməsi, iqtisadi sabitliyin təmin olunması məqsədilə daxili və xarici sərmayələr üçün əlverişli şəraitin yaradılması;
- təbii sərvətlərdən tam səmərəli istifadə edilməsi, da-

vamlı iqtisadi inkişaf, ətraf mühitin qorunması, tədris, elmi və texnoloji potensialın artırılması yolu ilə Azərbaycan xalqının gələcək inkişafının, əhalinin layiqli həyat səviyyəsinin və fiziki sağlamlığının təmin edilməsi;

- dünya azərbaycanlılarının bölüşdüyü dəyərlərə əsaslanan milli özünəməxsusluğun və həmrəyliyin möhkəmləndirilməsi;
- Azərbaycan xalqının mədəni – tarixi irsinin və mənəvi dəyərlərinin qorunması, eləcə də umumbəşəri dəyərlərlə zənginləşdirilməsi, dilinin, özünüdərk, vətənpərvərlik və milli iftixar hissinin, intellektual potensialının inkişaf etdirilməsi (10).

Bütün bu sadalanan maraqların hər biri böyük əhəmiyyət kəsb etməklə dövlət strukturları və ictimai-siyasi təşkilatlarla yanaşı hər bir Azərbaycan vətəndaşının diqqət mərkəzində olmalıdır.

İndi də milli təhlükəsizlik məsələləri ilə bağlı bir neçə tədqi-qatçı alimin fikirləri ilə tanış olaq. Rusiyalı tədqiqatçı Y.Alyoşin MDB üzvü olan dövlətlərin təhlükəsizliyi ilə bağlı belə yazır: " 1991-ci ildə yeni yaranmış müstəqil dövlətlərin qarşısında özlərinin dövlət quruculuğu sahəsində vəzifələri ilə yanaşı milli təhlükəsizliyin təmin edilməsi problemləri dayandı, hansı ki, keçimişdə ittifaq rəhbərləri tərəfindən həll olunurdu. Bu dövlətlər tezliklə dərk etdilər ki, özlərinin müstəqil milli təhlükəsizlik sistemlərini yaratmaq lazımdır"(3).

Qazaxıstan tədqiqatçısı K.Akanova məsələyə belə yanaşır: "Ölkənin dayanıqlı inkişafı onun iqtisadiyyatının tərəqqisi, təbii mühitin qorunması və bərpası, əhalinin güzəranının yaxşılaşdırılması üçün müvafiq şəraitin yaradılmasının əsasını təşkil edir, yəni dayanıqlı inkişaf milli təhlükəsizliyin təmin olunmasının başlıca şərtidir.Dayanıqlı inkişafın təhlükəsizliyi ölkənin stabil, artan inkişafının daxili və xarici təhlükələrdən müdafiə olunmasıdır. İnkişafın iqtisadi, ekoloji, sosial və siyasi amillərini ölkə əhalisinin həyat səviyyəsinin keyfiyyətcə yaxşılaşmasına yönəlmiş vahid proses kimi nəzərdən keçirmək lazımdır. (16)



Siyasətşünas-alim R.Mustafayevin fikrincə, dövlətin gücü iqtisadiyyatın hər şeydən əvvəl, uzun müddət üçün xalqın mənafeyini ifadə etməsindədir. Dövlət o zaman normal fəaliyyət göstərə bilir ki, onu təşkil edən bütün qurumlar ahəngdar, qarşılıqlı münasibətdədir. Həm də fəaliyyət üçün zəruri şərt ümümi məqsədə çatmaq üçün sistemin bütün hissələrinin , istər ideoloji, istər inzibati cəhətdən iştirakıdı. (4)

Yuxarıda deyilənləri ümumiləşdirərək qeyd etmək olar ki, milli təhlükəsizlik anlayışı beynəlxalq aləmdə müstəqil subyekt kimi çıxış etmək, suveren olaraq şəxsiyyətin, cəmiyyətin inkişafının bütün problemlərini həll etmək, dövlətçiliyi qoruyub saxlamaq kimi funksiyaları özündə ehtiva edir.

XXI əsrin başlanğıcında planetin siyasi mənzərəsinin geniş vüsət almış qloballaşma prosesləri nəzərə alınmaqla müəyyənləşməsi, dünya iqtisadiyyatının sürətlə transmilliləşməsi bəzi pozitiv cəhətləri ilə yanaşı, dövlətlərin milli maraq və təhlükəsizliyi məsələlərinə xüsusi diqqətlə yanaşılmasını gündəmə gətirmişdir. Dünya düzəninin diktə etdiyi bu qaçılmaz gerçəkliklər fonunda hər bir dövlətin milli təhlükəsizlik konsepsiyası onun iqtisadi və elmi-intellektual potensialından, dünya siyasətindəki yeri və rolundan asılı olaraq müxtəlif məqsədlər üzərində qurulur. Hər bir dövlət özünəməxsus xüsusiyyətləri ilə fərqlənən, müxtəlif istiqamətli daxili və xarici siyasət yeritməklə milli maraq və mənafeyinin, milli təhlükəsizliyinin etibarlı təminatı məqsədini ön plana çəkir.

Müstəqilliyin ilk dövründə daxili qeyri-sabitlik, iqtisadi böhran, keçid dövrünün çətinlikləri və digər ciddi problemlərlə üzləşən Azərbaycan yalnız ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra həmin maneələri dəf

edə bilmiş, həqiqi dövlət müstəqilliyinə qovuşmuş, düzgün strateji inkişaf yolunu müəyyən edə bilmişdir.

Məlum olduğu kimi, 1993-cü ilin ikinci yarısından etibarən yeni inkişaf dönəminə qədəm qoyan Azərbaycan siyasi, iqtisadi və digər sahələrdə mövqelərini əhəmiyyətli dərəcədə möhkəmləndirərək bölgədə lider dövlətə çevrilmişdir. Azərbaycan Xəzər - Qafqaz məkanında regional əməkdaşlıq üçün olduqca mühüm, bir çox hallarda isə həlledici ölkə olaraq enerji və nəqliyyat layihələrinin həyata keçirilməsində müstəsna rola malik tərəflərdən biri kimi çıxış etməkdədir. Dinamik inkişafına görə dünya dövlətləri arasında seçilənlər sırasında yer alan Azərbaycanın ümummilli lider tərəfindən müəyyənləşdirilmiş tərəqqi strategiyası öikəmizi beynəlxalq hüququn layiqli müstəqil subyektinə çevirməklə bərabər, əhalinin ümumi rifah halının yüksəlməsinə, qabaqcıl demokratik dəyərlərin ölkədə, eləcə də regionda, təhlükəsizlik və sabitliyin təmin olunmasma özünəməxsus töhfə verməkdədir.

1995-ci ildə qəbul olunmuş Azərbaycan Respublikasının Konstitusiyası dövlət, cəmiyyət və bütün vətəndaşlar tərəfindən müstəqil, suveren dövlətin milli təhlükəsizliyinin təmin edilməsi sahəsində daha mürəkkəb və uzunmüddətli problemlərin həllini qanunvericilik əsasında təsbit etmişdir. Konstitusiyada əks olunmuş milli təhlükəsizlik problemləri siyasi, iqtisadi, hərbi, elmi-texniki, ictimai, ideoloji, ekoloji təhlükəsizlik və dövlətin həyatının digər mühüm istiqamətlərini özündə ehtiva edən məsələlərin geniş spektrini əhatə edir (2).

Ulu öndərin siyasətini uğurla davam etdirən Prezident İlham Əliyev Azərbaycanın müstəqilliyini, ərazi bütövlüyünü, xalqın və ölkənin milli maraqlarını daxili və xarici təhdidlərdən qorumağa yönəlmiş siyasətin məqsəd və prinsiplərinin müəyyən edilməsində həlledici addımlar atmışdır. Bu sahədə dövlət başçısının 2004-cü il 17 sentyabr tarixli sərəncamı xüsusi qeyd olunmalıdır. Məhz həmin sərəncama əsasən



təhlükəsizliyə qarşı risklərin müəyyənləşdirilməsi, onların qabaqlanması və aradan qaldırılması ilə bağlı ölkənin milli təhlükəsizlik siyasətinin hazırlanması sahəsində işçi qrupu yaradılmışdır. Görülən müvafıq işlərdən sonra ölkənin milli təhlükəsizlik konsepsiyası ərsəyə gəlmiş və Prezident İlham Əliyevin 2007-ci il 23 may tarixli sərəncamı ilə təsdiq olunmuşdur.

Konstitusiyasının müddəalarına müvafiq olaraq dövlətimiz son illərdə milli təhlükəsizlik konsepsiyasının həyata keçirilməsi istiqamətində mühüm addımlar atmışdır. Milli təhlükəsizlik konsepsiyası özlüyündə mürəkkəb struktura və quruluşa malik olmaqla, hər bir halda dövlətin, xalqın, ictimai quruluşun, insan huquq və azadlıqlarının qorunması məsələlərini özündə ehtiva edir.

Qeyd etmək lazımdır ki, beynəlxalq huququn müstəqil subyekti olaraq Azərbaycanın da dünyada baş verən sürətli dəyişikliklər, xüsusən terrorçuluq, etnik separatizm və münaqişələr, transmilli mütəşəkkil cinayətkarlığın artması, kütləvi qırğın silahlarının yayılması, təbii ehtiyatların tükənməsi, əhalinin sayının durmadan çoxalması və kütləvi miqrasiyası, ətraf mühitin çirklənməsi, digər belə təhlükələrin мювъудлуьу фонунда аналожи сянядвя консепсийаларын hazırlanması olduqca zəruridir.

Azərbaycan Respublikası suveren dövlət kimi özünün daxili və xarici siyasət vasitələrindən istifadə edərək mövcud təhlükəsizlik mühitində təhdidlərin nəzarət altında saxlanılmasına və aradan qaldırılmasına, ölkənin milli maraqlarının təmin edilməsinə yönəlmiş milli təhlükəsizlik siyasətini formalaşdırır və həyata keçirir.

Azərbaycan Respublikasının milli təhlükəsizlik konsepsiyasına əsasən dövlətin milli təhlükəsizlik siyasətinin əsas istiqamətləri aşağıdakılardan ibarətdir:

- Təhlükəsizliyin xarici siyasət vasitələri ilə təmin edilməsi;

- Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa olunması;
- Avropa və Avratlantik strukturlara inteqrasiya;
- Beynəlxalq təhlükəsizliyə töhfə;
- Beynəlxalq təşkilatlarla əməkdaşlıq;
- Regional əməkdaşlıq və ikitərəfli münasibətlər;
- Region ölkələri ilə əməkdaşlıq;
- Qeyri-region ölkələri ilə əməkdaşlıq;
- Müdafiə qabiliyyətinin möhkəmləndirilməsi;
- Təhlükəsizliyin daxili siyasət vasitələri ilə təmin edilməsi;
- Demokratiyanın möhkəmləndirilməsi;
- Milli və dini tolerantlıq mühitinin qorunması;
- Elm, təhsil, mədəniyyət və mənəviyyatın qorunması;
- İqtisadi və sosial inkişaf;
- Daxili təhlükəsizliyin möhkəmləndirilməsi;
- Miqrasiya siyasəti;
- Enerji təhlükəsizliyi siyasəti;
- Nəqliyyat təhlükəsizliyi siyasəti;
- Fövqəladə idarəetmə, ətraf mühitin və əhalinin sağlamlığının mühafizəsi;
- İnformasiya təhlükəsizliyi siyasəti; (10)

Yuxarıda sadalanan istiqamətlərdən bir neçəsini qısa da olsa şərh etməyi zəruri hesab edirik.

Konsepsiyanın 4.1.1. bəndində deyilir: "Azərbaycan Respublikasının ərazisi vahiddir, toxunulmazdır. Beynəlxalq hüquqda təsbit olunmuş bütün vasitələrdən istifadə etməklə öz ərazi bütövlüyünü bərpa etmək Azərbaycan Respublikasının milli təhlükəsizlik siyasətinin ən ümdə vəzifəsidir.Ərazilərin zəbt edilməsi və etnik təmizləmə ümumbəşəri dəyərlərə, sülh, demokratiya,sabitlik və regional əməkdaşlıq prinsip və ideyalarına ziddir".

Bununla əlaqədar qeyd etməliyik ki, Ermənistanın rəhbərliyi tez-gec başa düşməlidir ki, iki qonşu dövlət arasında düşmənçilik bu qədər davam edə bilməz, dövlətlər arasında



siyasi razılaşma bərpa olunmalıdır.

Sənədin 4.1.2. bəndində göstərildiyi kimi, Azərbaycan Respublikası Avropa və Atlantik məkanda qeyri-sabitliyin, münaqişələrin və təhdidlərin aradan qaldırılmasında NATO ilə birgə işləyir və təhlükəsizliyin bölünməzliyi prinsipinə zidd coğrafi və siyasi ayrı-seçkilik olmadan Avropa və yerləşdiyi regionda vahid təhlükəsizlik sisteminin qurulması yükünü bölüşmək əzmindədir. Buradan məlum olur ki, Azərbaycan "Sülh naminə tərəfdaşlıq" proqramı çərçivəsində NATO ilə mümkün olan tərəfdaşlıq vasitələrindən tam istifadə etməyə hazırdır.

Konsepsiyanın 4.1.3. bəndində qeyd olunur ki, Azərbaycan Respublikası beynəlxalq sülhün və sabitliyin qorunub saxlanmasına yönəlmiş birgə tədbirlərdə iştirak etməklə, beynəlxalq və regional təhlükəsizliyə töhfə vermək üçün davamlı səylər göstərir. Zənnimizcə, dövlətimizin qlobal və regional səviyyədə terrorçuluğa qarşı mübarizə məqsədi ilə qəbul edilmiş bütün konvensiyaların iştirakçısı olması buna canlı sübutdur.

Azərbaycan Respublikasının beynəlxalq təşkilatların işində fəal iştirak etməsi onun təhlükəsizliyi və xarici siyasəti üçün mühüm əhəmiyyət kəsb edir.Azərbaycan 1992-ci ildən BMT və ATƏT-in, 2001-ci ildən Avropa Şurasının, 1997-ci ildən GUAM-ın, 1991-ci ildən İKT-nin üzvüdür və

onlarla sıx əməkdaşlıq edir. Bu məsələyə Konsepsiyanın 4.1.4. bəndində xüsusu diqqət yetirilmişdir.

Konsepsiyanın 4.2. bəndində qeyd olunduğu kimi, Azərbaycan Respublikasının milli müdafiə siyasətinin əsasını aşağıdakılar təşkil edir:

- bütün ölkələrlə dinc yanaşı yaşama;
- digər dövlətlərin suverenliyinə və müstəqilliyinə hörmət və onların daxili işlərinə qarışmamaq;
- mövcud dövlət sərhədlərinin bütövlüyü və onların dəyişməzliyi;

-beynəlxalq təhlükəsizliyin möhkəmləndirilməsi;

- hərbi quruculuqda konkret qüvvələr nisbətini nəzərə almaqla zəruri müdafiə kifayətliyi anlayışının dəstəklənməsi.

Həmçinin konsepsiyada milli təhlükəsizliyin digər istiqamətlərindən olan enerji təhlükəsizliyi, nəqliyyat təhlükəsizliyi, ekolji təhlükəsizlik, informasiya təhlükəsizliyi və digərlərinə dair dövlət siyasətinin mahiyyəti şərh edilmişdir. Təhlükəsizliyin mühüm istiqamətlərindən biri – miqrasiya sahəsində dövlət siyasəti üzərində ətraflı dayanacağıq. Göründüyü kimi, ölkənin milli təhlükəsizlik konsepsiyası olduqca düşünülmüş və hərtərəfli hazırlanmış, bu mühüm sənəddə milli təhlükəsizliyin hər bir istiqaməti üzrə görüləcək işlər konkret şəkildə göstərilmişdir.

Hazırkı dövrdə bəşəriyyəti narahat edən problemlər arasında demoqrafik proseslərdə baş verən dəyişikliklərlə bağlı məsələlər mərkəzi yerlərdən birini tutur.

Məlum olduğu kimi, miqrasiya bəşər tarixinin bütün mərhələlərində mövcud olmuş, insanlar yaxşı, sakit və firəvan həyat yaşamaq naminə bu şəhərdən və ya ölkədən digərinə köç etmişlər. Bugünki qloballaşma və rabitə-nəqliyyat vasitələrinin sürətli inkişafı dövründə belə insanların sayı daha da artmışdır.

Miqrasiya axınının intensivliyi bu dərəcəyə çatmışdır ki, onunla əlaqədar baş verən dəyişiklikləri həqiqi inqilab kimi xarakterizə etmək olar. Belə ki, BMT – nin məlumatına görə hazırda dünyada miqrantların sayı 200 milyondan çoxdur. Əgər nəzərə alsaq ki, hazırda əhalinin ümumdünya illik artımının 97 faizi inkişaf etmiş ölkələrin payına düşür, vəziyyət daha da təhlükəli olur. Beynəlxalq ekspertlərin rəyinə əsasən qeyri-leqal miqrasiyanın nəticələri rəsmi göstəricilərdən 2-3 dəfə çox olmaqla dünyada işləyən əhalinin 7-9% - ni miqrantlar təşkil edir. Beynəlxalq Əmək Təşkilatının hesablamalarına görə, hər il milyonlarla adam öz ölkəsini iş axtarmaq



məqsədilə tərk edir. Bunlar əsasən 20-45 yaş arasında olan şəxslərdir və 40%-i kasıb ölkələrin vətəndaşlarıdır. Bu gün dünyada miqrantların hər il öz ailələrinə göndərdiyi pul vəsaitlərinin həcmi 70-80 milyard manat təşkil edir.Bəzən bu konkret ölkənin turizm və iqtisadi layihələrdən əldə etdiyi mənfəətə bərabər olur (18). Təəccüblü deyil ki, miqrasiya xüsusi aktuallığı ilə seçilən, çətin həll olunan problemə çevrilmişdir. Ona görə də bir sıra ölkələr tərəfindən demoqrafiya və miqrasiya siyasəti ölkənin milli təhlükəsizliyini təmin edən aparıcı prioritetlər səviyyəsinə qaldırılmışdır.

Beynəlxalq miqrasiya özündə aşağıdakı əsas təhlükələri ehtiva edir:

- dövlətin ərazi bütövlüyünə təhlükə;
- ölkələrin parçalanmasının doğurduğu vətəndaş müharibələri təhlükəsi;
- mövcud beynəlxalq münasibətlərin transformasiya təhlükəsi;
- terrorizmin yayılması təhlükəsi;
- xəstəliklərin yayılması təhlükəsi;
- ölkələrdən "beyinlərin axını" təhlükəsi;
- hakimiyyətin idarəetmə vasitələrini itirmək təhlükəsi.

Qloballaşmanın açdığı yeni era miqrasiya sahəsində yeni imkanlarla bərabər həm də bütün dünyada cəmiyyətlər və ölkələr qarşısında yeni problemlər qoymuşdur. Getdikcə daha aydın görünür ki, olduqca geniş miqyas almış miqrasiya axınının qarşısını almaq üçün sərhədlərdə qadağanedici tədbirlərin həyata keçirilməsi kifayət etmir. Ona görə ən çox miqrantlar çıxan kasıb ölkələrin və regionların inkişafı üçün şərait yaradılmalı, təhsil, ailə planlaşdırılması, səhiyyə və informasiya texnologiyalarına daha çox vəsait qoyulmalıdır. (6)

Qeyd edək ki, Azərbaycan bötövlükdə miqrasiya prosesləri ilə təkcə indi rastlaşmır. Hələ 1994-cü ildə Azərbaycanda "Əs-rin müqaviləsi" imzalandıqdan sonra neft layihələrinin gerçək-ləşməsi, yeni neft və qaz kəmərləri çəkilişinə başla-

nılması ərəfəsində ölkəmizə xarici investisiyalarla bərabər əcnəbi mütəxəssislərin və işçi qüvvələrinin miqrasiyasının başlaması iqtisadi böhrandan yenicə qurtarmağa çalışan, işsizliyin baş alıb getdiyi respublikada bir qədər ehtiyatla qarşılanırdı. Məhz həmin dövrdə ümummilli lider Heydər Əliyev öz müdrik uzaqgörənliyi ilə miqrasiya prosesinin mahiyyətini açıqlayaraq, onun təbii proses kimi dünyada bütün ölkələrə, xalqlara aid olduğunu və umumən müsbət xarakter daşıdığını qeyd etmişdir.

Problemin vacibliyi nəzərə alınaraq, 2007-ci ildə qəbul edilmiş Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Konsepsiyasında dövlətin təhlükəsizliyini təmin edən mühüm istiqamətlərdən biri kimi "Miqrasiya siyasəti" ayrıca bölmədə verilmişdir.

Azərbaycan inkişaf etdikcə əcnəbi və vətəndaşlığı olmayan şəxslər üçün daha cəlbedici bir regiona çevrilir, ölkəmizə miqrasiya axını ildən-ilə artır. Bu da öz növbəsində ölkənin inkişafı və təhlükəsizliyinin təmin edilməsi baxımından milli maraqlara uyğun miqrasiya siyasətinin həyata keçirilməsini, onun əsasında miqrasiya proseslərinin tənzimlənməsi sisteminin təkmilləşdirilməsini, dövlət orqanlarının fəaliyyətlərinin əlaqələndirilməsini və bu sahədə beynəlxalq əməkdaşlığı zəruri etmişdir.

Ölkəmizdə dünya təcrübəsinə söykənən vahid miqrasiya siyasətinin formalaşmasında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığı ilə hazırlanan və dövlət başçısının 2004-cü ildə təsdiq etdiyi "Dövlət Miqrasiya Siyasəti Konsepsiyası" çox mühüm rol oynamışdır. Həmin konsepsiyada qarşıya qoyulmuş məqsədlərə nail olmaq üçün hazırlanmış "Azərbaycan Respublikasının 2006-2008-ci illər üçün Dövlət Miqrasiya Proqramı" Prezidentin 25 iyul 2006-cı il tarixli Sərəncamı ilə təsdiq edilmişdir. Proqramda əsas fəaliyyət istiqamətləri olaraq miqrasiya sahəsində idarəetmə müxanizminin təkmilləşdirilməsi, bu sahədə dövlət tərəfindən tənzimlənmənin səmərəliyinin artırılması, aidiyyəti dövlət orqanlarının miqrasiya sahəsində fəaliyyətlərinin əlaqələndirilməsi, mövcud qanunvericilik bazasının təkmilləşdirilməsi, əmək miqrasiyası sahəsində kvotaların tətbiqi, qeyri-qanuni miqrasiyanın qarşısının alınması üzrə kompleks tədbirlərin həyata keçirilməsi, eləcə də digər ölkələrin miqrasiya qurumları və beynəlxalq təşkilatlarla əməkdaşlıq nəzərdə tutulmuşdur (1).



Dövlət Miqrasiya Proqramından irəli gələn vəzifələrin həyata keçirilməsi ölkəmizdə miqrasiya üzrə daha təkmil bir sistemin yaradılmasına yönəlmişdir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 19 mart 2007-ci il tarixdə imzaladığı Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidmətinin yaradılması haqqında Fərmanı isə miqrasiya sahəsində dövlət siyasətinin həyata keçirilməsi, idarəetmə siyasətinin inkişaf etdirilməsi, miqrasiya proseslərinin tənzimlənməsi və proqnozlaşdırılması, bu sahədə müvafiq dövlət orqanlarının fəaliyyətinin əlaqələndirilməsi məqsədinə xidmət etmişdir.

Qarşıda duran prioritet məsələlərin həlli üçün ilk növbədə miqrasiya sahəsində ölkənin qanunvericilik bazası təkmilləşdirilmiş, bir çox qanun və qanunverici aktlara əlavələr və dəyişikliklər edilmişdir.

Miqrasiya proseslərinin idarə edilməsi sahəsində nəzarətin gücləndirilməsi məqsədilə Dövlət Miqrasiya Xidmətinə miqrasiya proseslərinin təhlili, proqnozlaşdırılması və monitorinqin təşkili, vaxtaşırı hesabatların və statistik məlumatların hazırlanması, həmçinin yeni texnologiyaların tətbiqi ilə vahid uçotun təmin edilməsi tapşırılmışdır.

Prezident tərəfindən 6 fevral 2009-cu il tarixdə imzalanmış sərəncama əsasən fəaliyyət göstərən Vahid Miqrasiya Məlumat Sistemi ölkədə baş verən miqrasiya proseslərinin dinamikası barədə təsəvvürün yaradılmasına imkan vermiş, qeyri-qanuni miqrasiya ilə mübarizə və təhlükəsizliyin tə-

min olunması sahəsində müvafiq tədbirlərin görülməsi üçün əlverişli şərait yaratmışdır.

Son illər mövcud qanunvericiliyə digər əlavə və dəyişikliklər də edilmişdir. Belə ki, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin ölkə ərazisində olma müddətləri müəyyən edilmiş, onlara Azərbaycan Respublikasında müvvəqqəti və daimi yaşamaq üçün nəzərdə tutulmuş sənədlər təsdiq edilmiş, əcnəbilərin qeydiyyat sistemi təkmilləşdirilmiş, Azərbaycan Respublikasının vətəndaşlığına qəbul üzrə əlavə meyarlar müəyyən edilmiş, miqrasiya qanunvericiliyinin pozulmasina görə məsuliyyət artırılmışdır.

Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş hallarla bağlı Dövlət Miqrasiya Xidmətinə müraciət edib ölkə ərazisində olma və yaşamalarını qanuniləşdirən əcnəbilərlə yanaşı, qanunvericiliyin tələblərinə riayət etməkdən boyun qaçıranlar da az deyil.

Qeyri-qanuni miqrasiyasının qarşısının alınması respublikamızın milli təhlükəsizliyinin təmini baxımından vacib şərtlərdən biridir. Miqrasiya prosesləri üzrə idarəetmə beynəlxalq öhdəliklərin yerinə yetirilməsini, insan hüquq və azadlıqlarının, dövlətin milli maraqlarının və təhlükəsizliyinin etibarlı qorunmasını tələb edir. Məhz bu tələblər nəzərə alınaraq, ölkəmizdə dövlətlərin müvafiq strukturları və beynəlxalq təşkilatlarla əməkdaşlığın gücləndirilməsi, həmsərhəd dövlətlərlə tərəflərin öhdəliklərini müəyyən edən və məsuliyyət nəzərdə tutan müvafiq sazişlərin bağlanması üzrə tədbirlər görülür.

Ölkədə həyata keçirilən tədbirlər miqrasiya proseslərinin vahid prosedurlar əsasında tənzimlənməsinə, bu sahədə mövcud çətinliklərin tamamilə aradan qaldırılmasına, sənədləşmənin sadələşdirilməsinə xidmət edir. Bu baxımdan dövlət başçısı tərəfindən "Miqrasiya proseslərinin idarə olunmasında "bir pəncərə" prinsipinin tətbiqi haqqında imzalanmış "4 mart 2009-cu il tarixli Fərman" ın tətbiqi ölkə-



də miqrasiya proseslərinin daha çevik və işlək mexanizmlər əsasında idarə edilməsi, bu sahədə operativliyin təmin olunması, bir sıra problemlərin aradan qaldırılmasına səbəb olmuşdur.(7) 2009-cu il iyulun 1-dən "bir pəncərə" prinsipinin işə düşməsi ilə respublikada miqrasiya idarəetmə mexanizmi təkmilləşdirilmiş, Azərbaycan Respublikasına gələn əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin ölkə ərazisində qanuni əsaslarla yaşamaları və əmək fəaliyyəti ilə məşğul olmaları üçün müvafiq icazələr verilmiş, onların yaşayış yeri üzrə qeydiyyata alınması proseduru sadələşdirilmiş, nəticədə bu sahədə şəffaflığın təmin edilməsinə nail olunmuşdur.

Həmin fərmana əsasən əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə Azərbaycan Respublikasının ərazisində müvəqqəti yaşamaq üçün icazələrin verilməsi ilə bağlı vəsatətlərə Dövlət Miqrasiya Xidməti tərəfindən 20 iş günü müddətində baxılır. Miqrasiya proseslərinin idarə olunmasında "bir pəncərə" prinsipi tətbiq edildiyi gündən Azərbaycan Respublikasında müvəqqəti və ya daimi yaşamaq üçün icazə almış əcnəbilər və vətəndaşlığı olmayan şəxslər şəxsiyyətlərini təsdiq edən etibarlı sənədlər və Dövlət Miqrasiya Xidməti tərəfindən verilmiş müvafiq vəsiqələr əsasında ölkəmizə gələ və qayıda bilirlər.

Son dövrdə qanunvericiliyə edilmiş əlavə və dəyişikliklərdən biri də qeyri-qanuni miqrasiyaya qarşı mübarizə tədbirlərinin gücləndirilməsi, Xidmətin fəaliyyətinin təkmilləşdirilməsi məqsədi ilə Prezidentin 8 aprel 2009-cu il tarixdə imzaladığı fərmanla Dövlət Miqrasiya Xidmətinə hüquq-mühafizə orqanı statusunun verilməsidir. Bundan əlavə 4 dekabr 2009-cu il tarixdə Milli Məclis tərəfindən "Miqrasiya orqanlarında qulluq keçmə haqqında Əsasnamə"nin təsdiq edilməsi Dövlət Miqrasiya Xidmətinin bu sahədəki səmərəli və məqsədyönlü fəaliyyətinin təmin edilməsinə, onun iş üsul və vasitələrinin daha da təkmilləşdirilməsinə yönəlmiş tədbirlərdəndir.

Bu illər ərzində miqrasiya proseslərinin tənzimlənməsinə yönəlmiş bir sıra qanun, fərman və qərarlar qəbul edilmiş, normativ-hüquqi sənədlər hazırlanmışdır. Belə ki, "Ölkədən getmək, ölkəyə gəlmək və pasportlar haqqında" Qanun (14.06.1994), "Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquqi vəziyyəti haqqında"Qanun (13.03.1996), "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında " Qanun (04.04.1996), "Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxslərin və əcnəbilərin xüsusi sənədləri haqqında" Qanun (30.12.1997), "Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasının ərazisindən tranzit keçidi qaydaları haqqında Əsasnamənin təsdiq edilməsi barədə" Qanun (27.12.2002), "İmmiqrasiya haqqında" Qanun (22.12.1998), "Əmək miqrasiyası haqqında" Qanun (22.10.1999) və digər mühüm sənədləri misal göstərmək olar (11).

Qeyd olunmalıdır ki, hazırda dövlət miqrasiya siyasəti həyata keşirilərkən beynəlxalq konvensiyalara və onların tələblərindən irəli gələn məsələlərə də xüsusi önəm verilir. Miqrasiya sahəsində beynəlxalq təcrübənin öyrənilməsi, bu sahədə ölkə qanunvericiliyinin təkmilləşdirilməsi məqsədilə Dövlət Miqrasiya Xidməti Birləşmiş Millətlər Təşkilatının Qaçqınlar üzrə Ali Komissarlığı, Beynəlxalq Miqrasiya Təşkilatı, Beynəlxalq Əmək Təşkilatı, Avropa İttifaqı, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı, Miqrasiya Siyasətinin İnkişafı üzrə Beynəlxalq Mərkəz, Müstəqil Dövlətlər Birliyi ilə sıx əməkdaşlıq edir.

Dünya iqtisadiyyatında qloballaşma proseslərinin sürətlənməsi beynəlxalq əmək miqrasiyası axınının artması ilə müşahidə olunur və bu vəziyyət dünyanın demək olar bütün ölkələrini əhatə edir. Dövlət Statistika Komitəsindən aldığımız məlumata görə son 10 ildə daimi yaşamaq üçün ölkəyə gələnlərin sayı 23 min nəfər , gedənlərin sayı 31,5 min nəfər olmuşdur. 2011-ci ildə Azərbaycana gələn əcnəbilərin sayı



2007-ci illə müqayisədə xeyli artmışdır. Onların əsas hissəsini iş axtarmaq məqsədilə gələn əmək miqrantlarıdır. (9)

Rusiya alimi Qalina Skaçkova əcnəbilərlə əmək münasibətləri ilə əlaqədar öz həllini tapmamış bir mühüm problemə toxunur. Qeyd edir ki, Rusiya Federasiyasında xarici işçi qüvvəsinin cəlb olunması və istifadə olunması üçün sənədləşdirilmə proseduru olduqca mürəkkəbdir. Ona görə də bir çox iş verənlər bu rəsmi haldan yan keçərək qeyri-leqal işçilərdən istifadəyə üstünlük verir, miqrantlarla əmək müqaviləsi bağlamır, son məhsulun maya dəyərinin azaldılması hesabına onlara az əmək haqqı ödəyirlər.Beləliklə miqrantların əmək mühafizəsi normalarına əməl olunmur və bir çox hallarda belə işçilər antisanitariya şəraitində yaşayırlar (17). Qeyd edək ki, Azərbaycanda da belə faktlara yol verildiyi barədə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və respublika Həmkarlar İttifaqları Konfederasiyasının mətbuatda gedən məlumatlarında mütəmadi olaraq xəbər verilir. Fikrimizcə, Rusiya Federasiyasında olduğu kimi ölkəmizdə də xarici işçi qüvvəsinin cəlb edilməsi və istifadə olunması ilə bağlı problemlərin meydana çıxması əmək qanunvericiliyindəki bəzi boşluqlarla əlaqədardır.

Göründüyü kimi, əmək miqrasiyası həyatın ayrılmaz hissəsinə şevrilmişdir və gələcəkdə bu proses daha da inkişaf edəcəkdir. 12 mart 2010-cu il tarixdə keçirilən "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" nın icrasının birinci ilinin yekunlarına həsr olunmuş konfransda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev demişdir: "Bu gün biz miqrasiya məsələlərini daha da ciddi şəkildə tənzimləməliyik. İlk növbədə ona görə ki, əmək bazarının tənzimlənməsi məsələləri yüksək səviyyədə həll olunsun. Azərbaycan vətəndaşlarının hüquqları daha da ciddi şəkildə qorunsun. Biz miqrasiyanı tənzimləməklə elə etməliyik ki, əlbəttə xaricdən gələn vətəndaşlar üçün də yaxşı şərait yaradılsın. Ancaq ilk növbədə

Azərbaycan vətəndaşları işlə təmin olunsunlar"(8).

Qeyd etməyi zəruri hesab edirik ki, artıq müstəqil Azərbaycan Respublikasının milli miqrasiya siyasəti və bu siyasəti həyata keçirən dövlət qurumu var. Bu siyasət Prezidentin qəbul etdiyi qərarlarla, imzaladığı fərman və sərəncamlarla, Milli Məclisin qəbul etdiyi qanunlarla daha da təkmilləşdirilir, ölkənin sosial-iqtisadi inkişafına uyğunlaşdırılır.

Dövlət Miqrasiya Xidmətinə müraciət edənlərin rahatlığının təmin edilməsi, onların regionlardan uzaq məsafə qət etməməsi, həmçinin xidmətin fəaliyyətinin genişləmdirilməsi, regionlarda miqrasiya proseslərinin tənzimlənməsi məqsədi ilə qurumun regional idarələrinin təşkili işi uğurla davam etdirilir. Hazırda Xidmətin Şirvan, Yevlax və Lənkəranda regional miqrasiya idarələri fəaliyyət göstərir. Bir sıra digər regionlarda idarə və qanunsuz miqrantların saxlanılma mərkəzlərinin tikintisi davam etdirilir.

Azərbaycan Respublikasının ərazisinə daxil olmuş əcnəbilər və vətəndaşlığı olmayan şəxslər müvəqqəti və daimi yaşamaq, həmçinin haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul olmaları, ölkədə olma müddətlərinin uzadılması, vətəndaşlıq və qaçqın statusunun müəyyənləşdirilməsi və digər məsələlərlə bağlı Bakı şəhərində fəaliyyət göstərən Miqrasiya Məlumat Mərkəzinə müraciət edərək müvafiq məlumatları əldə edə bilirlər.

Bu bir həqiqətdir ki, son illər ərzində Azərbaycan sürətlə inkişaf edir.Yeni-yeni otellər, sərgi salonları, stadionlar, ictimai-iaşə obyektləri, çoxmərtəbəli binalardan ibarət şəhərciklər salınır, istirahət-turizm bazaları istifadəyə verilir. Təəssüflə qeyd etməliyik ki, tikintilərdə işləyənlərin bir qismi əmək müqaviləsi və fərdi iş icazəsi olmayan miqrantlardır ki, bu da nəticədə əməyin istismarı problemini ortaya çıxarır.

Ölkə ərazisində tikinti-abadlıq işlərinin çoxalması yalnız məcburi əməklə məhdudlaşmır, o eyni zamanda qeyri-qanuni miqrasiya hallarının artmasına səbəb olan insan alveri kimi ciddi problem yaradır.



Etiraf edək ki, ölkədə insan alverinə qarşı mübarizə üzrə Fəaliyyət Planının (2009-2013) təsdiqindən sonra insan alverinə qarşı mübarizə sahəsində tədbirlər ötən illərlə müqayisədə daha fəal həyata keçirilir. Bu istiqamətdə görülən işlərə insan alverinə qarşı mübarizənin effektivliyinin artırılması, insan alveri qurbanlarının müdafiəsi və sosial reabilitasiyası, mövcud resursların daha yaxşı koordinasiyası, əməkdaşlığın və cəmiyyətin məlumatlandırılmasının yaxşılaşdırılmasını aid etmək olar.

Azərbaycan hökuməti 2010-cu ildə Avropa Şurasının "İnsan alverinə qarşı mübarizə üzrə Konvensiyası"nı ratifikasiya etmişdir.Nazirlər Kabineti tərəfindən "İnsan alverinin uşaq qurbanlarının qaytarılması, sığınacaqla təmin edilməsi və saxlanılması qaydaları" təsdiq edilmişdir. Həmin qaydalara əsasən insan alveri qurbanlarının reinteqrasiyası üçün atılan müsbət addım kimi onlara ödənilən konpensasiyanın məbləği 33 manatdan 200 manata qədər artırılmış, hökümətin ictimai təşkilatlarla birgə həyata keçirdiyi layihələrin sayı çoxalmışdır. Daxili İşlər Nazirliyinin İnsan Alverinə Qarşı Mübarizə İdarəsi öz işində xeyli dəyişikliklər etmiş bu istiqamətdə fəaliyyət göstərən qeyri-hökümət təşkilatları ilə əməkdaşlığı gücləndirilmişdir (12). Lakin görülən işlərə baxmayaraq hələlik deyə bilmərik ki, insan alverinə qarşı mübarizə sahəsində bütün problemlər öz həllini tapmışdır.

Bu problemlə əlaqədar Beynəlxalq Miqrasiya Təşkilatının hazırladığı sənəddə deyilir: "İnsan alveri qurbanlarının sosial reablitasiyası, onların cəmiyyətə və ailəyə reinteqrasiyası üçün daha effektiv tədbirlərin görülməsi vacibdir. Bu tədbirlərin ən birincisi insan alveri qurbanlarının təhlükəsizliyinin və şəxsi həyatlarının qorunmasını təmin etməkdir (13).

Bütün bunlar bir daha onu təsdiq edir ki, miqrasiya prosesləri həqiqətən dövlətin milli təhlükəsizlik siyasətinin

mühüm tərkib hissələrindən biridir və müvafiq qurumlar və ictimai təşkilatlar bu problemi daim diqqət mərkəzində saxlamalıdır.

Fəlsəfə elmləri doktoru, professor İlham Məmmədzadənin qeyd etdiyi kimi, "bu gün hər bir azərbaycanlı doğma vətənini abad, müasir, inkişaf etmiş etmiş görmək istəyir və bunu milli ideyanın əsas prioritetləri kimi qəbul edir. Ölkənin həqiqi ziyalıları, elm adamları ölkənin bu inkişaf və tərəqqisini böyük qürurla qarşılayırlar" (19)

Hesab edirik ki, Prezident İlham Əliyevin "Azərbaycan 2020: gələcəyə baxış" inkişaf Konsepsiyasının hazırlanması barədə 29 noyabr 2011-ci il tarixli sərəncamı Azərbaycanı müasir və qüdrətli dövlətə çevirmək məqdədini güdən mühüm sənəddir.

## Ədəbiyyat


1.Arzu Rəhimov. Dövlət miqrasiya siyasəti milli maraqların və milli təhlükəsizliyin qorunmasına xidmət edir. "Xalq qəzeti", 19 mart 2010-cu il.

2.Агабаба Рзаев. Конституция Азербайджанской Республики и проблемы националъной безопасности (курс лекций). Баку 1966 г. стр. 2.

3. И.Алешин. Взаимосвязъ националъной и коллективной безопасности государств СНГ: нормотивно-правовые основы. Журнал "Властъ". Москва. 2010. №12, стр 60

4. Rövşən Mustafayev. Azərbaycan dövlətçiliyi: özümüzü və dünyanı dərketmə yolunda. Azərbaycan dövlət nəşriyyatı, Bakı, 1995, səh. 83.

5. Политическая энциклопедия. Москва., Мыслъ, Т.1., 2000. стр.104.

6. М.Гришина. Миграция как угроза международной безопасности , Источник: http://www.politobraz.ru

7. "Azərbaycan" qəzeti, 5 mart 2009-cu il.





8. "Azərbaycan" qəzeti, 13 mart 2010-cu il.

9. Dövlət Statistika Komitəsinin məlumatı. www.azstat.gov.az

10. Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Konsepsiyası. "Azərbaycan"qəzeti. 24 may 2004-cü il.

11. Vətəndaşlıq və miqrasiya haqqında normativ-hüquqi sənədlər toplusu.Bakı.Qanun. 2008. səh 398-401

12. Azərbaycan Miqrasiya Mərkəzi İB-nin "Azərbaycanda insan alverinə qarşı mübarizənin vəziyyəti haqqında" hesabatı. Bakı. 2012. səh 4.

13. İnsan alveri qurbanlarının reablitasiya və reinteqrasiya sahəsində milli tədbirlərin qanunvericilik və praktiki quruluşunun təhlili. BMqT bakı nümayəndəliyi.Bakı. 2010. səh 6.

14. Milli Təhlükəsizlik Nazirliyininin Əsasnaməsi. www.mns.gov.az

15. "Milli Təhlükəsizlik haqqında" Azərbaycan Respublikasının Qanunu. . www.mns.gov.az

16. K.M.Akanova, Ş.Asfana. Dayanıqlı inkişaf Qazaxıstan Respublikasının milli təhlükəsizliyini təmin edən əsas faktor kimi. Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə. Elmi-nəzəri jurnal.Bakı. "Azərbaycan" nəşriyyatı. 2010. № 3(31) səh 147)

17. Г.С. Скачкова. Труд иностранцев в России: правовое регулирование.Москва. 2006. стр 243

18. F.Abdullayev. Müasir Azərbaycan dövlətinin miqrasiya siyasəti və beynəlxalq əməkdaşlıq. Bakı. "Elm və təhsil" 2009. səh 63.

19. İlham Məmmədzadə. "Mütərəqqi idarəetmə strategiyasının davamçısı. "Xalq qəzeti", 14 oktyabr 2012-ci il.

## AZƏRBAYCAN -TÜRKİYƏ MÜNASİBƏTLƏRİ İKİ DÖVLƏTİN XARİCİ SİYASƏT KONTEKSTİNDƏ

Müxtəlif tarixi dövrlərin siyasi cərəyan və proseslərinin araşdırılması hər hansı bir milli problemlərin öyrənilməsi zərurətindən irəli gəlir. Tarixi reallıqların öyrənilməsi və müasir beynəlxalq siyasətdə obyektiv mövqe baxımından Azərbaycan-Türkiyə münasibətlərinin elmi aktuallığı hər iki ölkənin elmi və rəsmi dövlət ictimaiyyəti tərəfindən qiymətləndirilməkdədir. Odur ki, tarixi orta əsrlərin müxtəlif dövrlərinə gedib çıxan və həmçinin XV-XVI yüzilliklərdən bəri əhatəli xarakter almış Azərbaycan-Türkiyə ictimai, iqtisadi, siyasi, mədəni və diplomatik münasibətlərinin öyrənilməsinin aktuallığı inkar olunmaz bir həqiqətə çevrilmişdir. Çünki həmin münasibətlərin obyektiv təhlili və tədqiqi həm də bugünkü Azərbaycan-Türkiyə münasibətlərinin hansı zəmin üzərində yarandığını üzə çıxarır, bu iki tarixi genetik kökə malik olan ölkələr arasında vaxtilə mövcud olmuş müxtəlif əlaqələrin qarşılıqlı maraq və mənafe baxımından inkişaf etdirilməsinə böyük imkan yaradır.

Müstəqil Azərbaycan dövlətinin xarici siyasətinin konseptual əsasları, məqsədi, prinsipləri və əsas xüsusiyyətləri Azərbaycanın 1995-ci il noyabrın 12-də qəbul edilmiş Konstitutsiyasında və Prezident Heydər Əliyevin çıxışlarında öz əksini tapmışdır.

Azərbaycan Respublikasının Konstitutsiyasının 10-cu maddəsində göstərilir ki, Azərbaycan başqa dövlətlərlə və xarici aləmlə əlaqələrini beynəlxalq hüquq normaları və ölkənin maraqlarını nəzərədə tutan prinsiplər əsasında qurur. Azərbaycan Prezidenti 1993-cü il oktyabır ayının 10-da Prezident seçilməsi ilə bağlı keçirilən rəsmi andiçmə mərasimindəki çıxışında qeyd etmişdir ki, "Respublika qarşısında duran əsas vəzifələrdən biri Azərbaycanın mənafeyinin dünya miqyasında müdafiə edə bilən ağıllı, səriştəli xarici siyasətin yeridilməsidir. Qarşıda böyük vəzifələr durur. Bizim xarici siyasətimiz birinci növbədə Azərbaycan dövlət müstəqilliyini təmin etməyə yönəldilməlidir. Vəzifə dünyanın bütün dövlətləri ilə bərabərhüquqlu, qarşılıqlı-faydalı əlaqələr yaratmaq və inkişaf etdirməkdən, bu əlaqələrdən həm Azərbaycan Respublikası beynəlxalq mövqelərini möhkəmləndirmək üçün, həm də Respublikanın iqtisadiyyatını, elmini, mədəniyyətini inkişaf etdirmək üçün səmərəli isdifadə etməkdən ibarətdir" (1).



Ümumiyyətlə, müstəqil Azərbaycan dövlətinin xarici siyasət tarixinə qısa nəzər salsaq, görərik ki, 1991-ci ildə və 1992-ci ilin birinci yarısında Azərbaycan dövlətinini xarici siyasətinin əsasını Rusiya-Azərbaycan əlaqələri və bütövlükdə Rusiyaya meyillilik strategiyası təşkil edirdi. Azərbaycan hökuməti SSRİ-nin dağılması ərəfəsində dünyada SSRİ-də gedən ictimai-siyasi proseslərə, beynəlxalq və regional hadisələrin inkişaf meyillərinə zidd siyasət yeridərək, bütün mümkün vasitələrlə Sovet hökumətini qoruyub saxlamağa çalışanlarla bir sırada dayanır və Respublikanın bu qurum tərkibindən ayrılmasına yol verməməyə səy göstərirdi. Bu məqsədlə, hətta, SSRİ-nin dağılmasına cəmi bir-neçə ay qalmış Sovet ittifaqının saxlanılması haqqında Moskvanın təşkil etdiyi referendumu (mart 1991-ci il) Azərbaycanda keçirərək, səsvermədə iştirak edənlərin guya 93,3%-nin SSRİ-nin saxlanılmasına tərəftar olması haqqında mərkəzə saxta məlumat da vermişdir. Mərkəzi hakimiyyətin əksinə olaraq, Naxçıvan Muxtar Respublikasının Ali Məclisi o zaman SSRİ-nin saxlanılması haqqında referendumun Naxçıvan ərazisində keçrilməsindən imtina edərək, əhalinin müstəqillik əzmini və arzularını nümayiş etdirmişdir.

Əslində xalqın təzyiqi və o zamankı ictimai-siyasi proseslərin təsiri ilə qəbul edilmiş 30 avqust 1991-ci il "Müstəqillik haqqında Bəyənnamə" və 18 oktyabr 1991-ci il

"Müstəqillik haqqında Konstitutsiya Aktı" da SSRİ-nin tam dağılmasını təstiqləyən 8 dekabr 1991-ci il tarixli Belovejsk - sazişinə qədər hüquqi sənəd qüvvəsinə mindirilmədi (2).

Bunu isə Azərbaycan dövlətçilik mənafeyinə cavab verməyən, düşünülməmiş, təhlükəli, ağır və gözlənilməz nəticələr doğuran xarici siyasət xətti kimi qiymətləndirmək olar.

Qeyd olunan dövrdə Azərbaycan hökumətinin xarici siyasətini xarakterizə edən əsas cəhətlərdən biri vahid xətt üzrə aparılan ardıcıl və prinsipial xarici siyasət kursunun olmaması idi. Xarici siyasət və diplomatik missiya qarşısında duran əsas vəzifələri, Azərbaycan dövlətinin strateji mənafelərini, regional və beynəlxalq münasibətlər sahəsində dövlət siyasətinin əsas mahiyyətini müxtəlif səviyyəli dövlət rəhbərləri fərqli şəkildə izah edərək, bir-biri ilə uzlaşmayan addımlar atırdılar.

Türkiyə və Azərbaycan cəmiyyətləri uzun illər boyunca eyni dil, eyni mentalitet tərzində yaşamışlar. Lakin, dövlətləşmə müddətində tarixin müəyyən dövrlərindən etibarən bu iki cəmiyyət fərqli dövlətlər qurmuş, fərqli siyasi hakimiyyətlər altında yaşamağa başlamışlar. Xüsusilə, Osmanlı və Səfəvi dövründə bu iki cəmiyyət arasında ciddi qopuqluq, hətta, ictimai səviyyədə deyilsə də dövlət səviyyəsində qarşıdurma yaşanmışdır. XX əsrin əvvələrindən başlayaraq Osmanlıdan Türkiyə cümhuriyyətinə keçilmiş və Şimali Azərbaycan torpaqlarında Azərbaycan Xalq Respublikası qurulmuşdur. Azərbaycan Xalq Cümhuriyyətinin ömrünün qısa olması səbəbindən bu iki dövlət arasında ciddi bir əlaqə inkişaf edə bilməmişdir. Amma Türkiyə torpaqlarında Azərbaycanlıların ideoloji mənada, Azərbaycan torpaqlarında Türkiyə türklərinin, müstəqilliyin gücləndirilməsinə və torpaq bütünlüyünün təmin edilməsinə qatqı mənasında əhəmiyyətli işləri olmuşdur. Azərbaycanın Sovetlər Birliyinin işğalı altında olduğu müddətdən 1991-ci ilə qədər, Azərbaycan və Türkiyə arasındakı əlaqələr tamamilə qopmasa da,



çox məhdud olmuşdur. Ümumiyyətlə, əlaqənin təməlini həsrət duyğuları və gizli fəaliyyətlər meydana gətirmişdir.

Atatürkün «Eynən Osmanlı, eynən Avstriya-Macarıstan kimi, Sovetlər Birliyi də parçalana bilər» - sözləri XX əsrin son onilliyində həyata keçdi. XX əsrin sonu XXİ əsrin əvvəllərindən başlayaraq dünyanın siyasi xəritəsində ciddi dəyişiklər yaradan cahanşümul hadisə, Sovetlər Birliyinin dağılması: ikiqütblü sistemin bir qütblü ilə əvəz edilməsi, soyuq müharibənin terror və qanlı müharibələrlə əvəz edilməsi, qloballaşma prosesinin sürətlə inkişafı, yeni respublikaların və dövlətlərin yaranması və s. proseslərin inkişafı beynəlxalq münasibətlər sistemində modern nəzəriyyələrin və münasibətlərin yeni formullarını işləyib hazırlamağı labüd etdi.

Müasir tarixin bu hadisəsinin ən mühüm nəticələrindən biri məhz dünya siyasi xəritəsinə bir sıra türk dövlətlərinin, türk respublikalarının yaranması oldu. Avrasiya kimi mühüm məkanda Türkdilli Dövlətlər Ittifaqının formalaşması və Turan ideyasının gerçəkləşməsi barədə səslənən fikirlər, təbii ki, dünyanın qüdrətli dövlətləri tərəfindən birmənalı qarşılanmadı.

Azərbaycan Respublikası öz müstəqilliyini bərpa etdikdən sonra xarici siyasətinin əsas istiqamətlərindən biri türk dövlətləri ilə çoxcəhətli sıx əlaqələrin qurulması olmuşdur. Xüsusən bu dövr ərzində Türkiyə ilə münasibətlər daha da dərinləşmiş və genişlənmişdir. Ümumiyyətlə,Türkiyə rəsmi və işgüzar dairələrində Azərbaycana münasibətdə həmişə xüsusi yanaşma mövcud olmuş,dövlət və hökumət,həmçinin digər müxtəlif səviyyəli görüşlərdə bu münasibət dəfələrlə vurğulanmışdır. Keçmiş Sovetlər birliyi məkanında müstəqillik qazanmış beş türk dövlətindən coğrafi cəhətdən Türkiyəyə ən yaxın olanı və xarici siyasət fəaliyyətində ona daha çox önəm verəni Azərbaycandır. Belə ki,müştərək mədəniyyətimiz,qarşılıqlı anlayış və hörmət iki dövlət arasında xüsusi məna daşıyan xüsusi əlaqələrin təməlini yaratmışdır (3).

Türkiyənin Azərbaycanla siyasətində həm strateji maraqlar (NATO blokunun ümumi strateji maraqları), həm Türkiyənin öz milli mənafeləri, həm etnik (Qafqazda yaşayan türkdilli xalqların dəstəyini qazanmaq), həm dini amillər (regionda islam və xristianlıq missionerliyi) özünü qabarıq şəkildə göstərmişdir.

1990-2008-ci illər arası Türkiyə regionda özünün strateji, Milli təhlükəsizlik və maraqlarını təhlükə altına qoyaraq Azərbaycan və regionun müsəlman xalqlarını qorumaq üçün NATO və Qərb ilə konfliktə getmişdir. Bu səbəbdən də Qərb aşkar surətdə Türkiyənin sərbəst Qafqaz və Orta Asiya siyasətini dəstəkləmədiklərini bildirmiş və bunu öz atdığı addımlarda nümayiş etdirmişlər. Bu gün Türkiyənin Qafqaz regionunda və demək olar ki, Mərkəzi Asiyada mövqeyi əsasən Azərbaycan hesabına təmin olunur. Məhz bu səbəbdən də regionda Azərbaycana qarşı ikili siyasət aparan Rusiya, İran və eyni zamanda düşmən dövlət Ermənistanla maraqları daima toqquşmuşdu.

Türkiyə nəinki Azərbaycanın, eyni zamanda bütün Qafqazın taleyində önəmli rolu olan üç əsas regiondan (Rusiya-İran) biridir. Hələ qədim zamanlardan bu ölkə özünün Qafqaz siyasətinə ciddi əhəmiyyət vermiş və regionda gedən siyasi proseslərdə fəal müdaxiləsi ilə seçilmişdir. XX əsrin sonlarından başlayaraq isə regionda Türkiyə öz maraqları ilə paralel olaraq Qərb dünyasının, NATO üzvü olan ölkələrin də birgə mənafeyini qorumaq missiyasın öz üzərinə götürümşüdür (4).

Türkiyənin hazırda Azərbaycanla siyasəti dörd istiqamətdə qurulub ki, onlar hamısı hərtərəfli düşünülmüş və ölçülüb biçilmişdir:

1. Münasibətlər bərabərhüquqlu, qarşılıqlı-faydalı: hər iki dövlətin siyasi-iqtisadi-mədəni-sosial və təhlükəsizlik və b. maraqlarına cavab verir.

2. İki dövlət arasında münasibətlər müttəfiqlik prinsiplərinə söykənir: Türkiyə və Azərbaycanın digər dövlətləri ilə



əlaqələrinə xələl gətirmir.

3. Türkiyə-Azərbaycan əlaqələri hər ikisinin müstəqil dövlətçiliyinə xələl gətirmir: milli atributlarına və dəyərlərinə qarşılıqlı hörmət saxlanılır.

Beynəlxalq aləmdə bir-birinin təəssübünü çəkməli: təşkilatlar və digər qurumlarda beynəlxalq hüquq normaları çərçivəsində dəstək gözlənilir.(5)

Azərbaycanla Türkiyə arasında siyasi, iqtisadi əlaqələr, elm, təhsil, mədəniyyət və digər sahələrdə əməkdaşlıq yüksələn xətlə inkişaf edir. İki dövlət strateji tərəfdaşdır. Ölkələrimiz arasında iqtisadi sahədə əməkdaşlığın inkişaf etdirilməsi istiqamətində dövlət və hökumət xadimlərinin, iqtisadi məsələlər üzrə aidiyyətli qurumların rəhbərlərinin qarşılıqlı səfərləri, sahələr üzrə idarələrarası qurumların, müştərək komissiyaların iclasları davamlı şəkildə keçirilməkdədir.

Beynəlxalq təşkilatlarda müxtəlif beynəlxalq və regional məsələlər üzrə Azərbaycanla Türkiyənin mövqeləri çox yaxındır və ya üst-üstə düşür, tərəflər regional və beynəlxalq təşkilatlarda məsləhətləşmələr aparır, bir-birinə qarşılıqlı dəstək verir. 9 noyabr 1991-ci ildə Türkiyə Azərbaycanın müstəqilliyini tanımış, diplomatik əlaqələr 14 yanvar 1992-ci ildə yaradılmışdır. Türkiyə Azərbaycanın dövlət müstəqilliyini tanıyan ilk dövlətdir.Türkiyədə Azərbaycanın Səfirliyi 1992-ci ilin avqust ayından, İstanbulda Baş Konsulluq 1993-cü ilin yanvar ayından fəaliyyətə başlamış, 12 aprel 2004-cü ildə Qarsda Baş Konsulluq təsis edilmişdir. Türkiyənin Azərbaycandakı Səfirliyi və Naxçıvandakı Baş Konsulluğu 1992-ci ilin yanvar ayında açılmışdır.

Ümumiyyətlə,Türkiyə rəsmi və işgüzar dairələrində Azərbaycana münasibətdə həmişə xüsusi yanaşma mövcud olmuş, dövlət və hökumət,həmçinin digər müxtəlif səviyyəli görüşlərdə bu münasibət dəfələrlə vurğulanmışdır. Keçmiş Sovetlər birliyi məkanında müstəqillik qazanmış beş türk dövlətindən coğrafi cəhətdən Türkiyəyə ən yaxın olanı və xarici siyasət fəa-

liyyətində ona daha çox önəm verəni Azərbaycandır.

1991-ci ildə Azərbaycanın müstəqilliyinə qovuşması müddətindən etibarən, iki cəmiyyət arasındakı əlaqələr yenidən inkişafa, güclənməyə başlamışdır. Müstəqillik mübarizəsi dövründə Azərbaycanın, ən çox köməyi Türkiyədən gördüyü hər kəs tərəfindən bilinən bir həqiqətdir. Əslində, Türkiyənin heç bir şey etməyib, yalnız dövlət olaraq mövcudluğu belə Azərbaycandakı mübarizə baxımından çox əhəmiyyətli olmuşdur.

İqtisadi əlaqələr baxımından müsbət nümunələr olaraq, Bakı-Tiflis-Ceyhan Neft Boru Xətti, Bakı-Tiflis-Ərzurum (Şahdəniz) təbii qaz boru xətti göstərilməkdədir. Hər iki proyektin olduqca böyük olması və qədərinin yalnız Türkiyə ilə Azərbaycanın əlində olmaması diqqətə alınmaq lazımdır.

Azərbaycan–Türkiyə münasibətlərinin beynəlxalq səviyyədə təmsil olunması və vahid milli maraqların həyata kecirilməsi ümummilli lider Heydər Əliyevin milli birlik, həmrəylik, ümummilli ideyalar ətrafındakı ardıcıl və məqsədyönlü fəaliyyəti hər iki ölkənin dünyaya səpələnmiş nümayəndələrinin qarşısına mühüm vəzifələr qoymuşdur. Bu baxımdan 2001-ci il noyabr ayında Bakıda yüksək səviyyədə Dünya azərbaycanlılarının I Qurultayının kecirilməsi və burada türk diaspor təşkilatlarının geniş miqyasda təmsil olunması cox vacib tarixi hadisə idi. Dilimizin və mədəniyyətimizin, mütərəqqi adət-ənənlərimizin və tariximizin yaşadılması kimi ideyaları ilk dəfə Heydər Əliyev hər iki ölkənin ictimai qurumlarının qarşısında məqsəd kimi qoymuşdur.Bu isə bütün dünyada azərbaycan və türk diasporlarının fəaliyyətində, onların həmrəyliyinin daha da gücləndirilməsində geniş imkanlar acmışdır.

Azərbaycanla Türkiyənin beynəlxalq əməkdaşlığının prinsipləri həm də bu təşkilatlarda ölkələri təmsil edən nümayəndələr tərəfindən həyata keçirilirdi. Ulu Öndər Heydər Əliyev 2000-ci il aprelin 25-də Türkiyənin NATO-dakı daimi nümayəndəsi Onur Öyməni qəbul edərkən demişdir:



«İndi Türkiyənin imkanları var ki, NATO-da xüsusi bir səfir saxlasın. Səfir orada fəaliyyət göstərsin. Türkiyə həm də NATO-nun tam üzvüdür. Biz isə «Sülh naminə tərəfdaşlıq» proqramında iştirak edirik. Ancaq təcrübədə belə oludbur. Azərbaycan öz dövlət müstəqilliyini alandan sonra hansı ölkədə bir diplomatik nümayəndəlik yaratmağa çalışırsa, səfirlik açmaq istəyirsə, birinci növbədə Türkiyənin səfirliyinə gedibdir, Türkiyənin səfirliyində yerləşibdir. Ondan sonra özünə bir yer tapıbdır. Ancaq NATO-da bizim işlərimizi yenə də sizdən xahiş edəcəyik ki, aparasınız. Bilirsiniz ki, bizim oraya vaxtaşırı nümayəndələrimiz də gəlirlər»(6)

*Türkiyənin Dağlıq Qarabağ münaqişəsində maraqları*: 1988-ci ildən başlayaraq ermənilər faktiki olaraq azərbaycanlılara qarşı genosid siyasəti həyata keçirmişlər. Hələ o vaxt SSRİ-nin süqutu ərəfəsində bu prosesə münasibət bildirmək beynəlxalq aləmdə hadisələri düzgün istiqamətdə təbliğ etmək olduqca vacib məsələ idi. Lakin Türkiyənin bu prosesə müdaxilə etməsini SSRİ-nin daxili işinə qarışması kimi qiymətləndirənlərin siyasi məqsədləri onda biruzə vermişdir ki, hətta 1992-ci il Xocalı soyqırımından dərhal sonra «İzvestiya» qəzeti erməni vəhşiliklərinə tuş gəlmiş uşaqların şəkli altında onların milliyyətini yazmadılar. Xocalı qarbanları kimi ictimaiyyətə təqdim olundular. Bu zaman Türkiyə dövləti bu ədalətsizliyə dözməyərək dünya ictimaiyyətinə bəyanatla müraciət etdi. Beynəlxalq aləmdə əslində təklənmiş və heç bir dövlətdə beynəlxalq təşkilatlarda öz haqq işini səsləndirmək imkanı olmayan Azərbaycan Respublikasının Türkiyə ilə əməkdaşlığı və milli maraqlarının qorunmasına böyük ehtiyac vardır. İlk dəfə Türkiyənin də dəstəyi ilə 1994-cü ilin noyabrında Avropa Şurası Parlament Assambleyası Azərbaycan-Ermənistan cəbhəsində atəşkəsin əldə edilməsini məmnunluq hissi ilə qarşılayaraq 1047 saylı qətnamə qəbul etmişdir. Burada göstərilirdi ki, bu münaqişə bütün regiona təhlükə yaradır və milli hüquqları tapdalayır».

Bütün bunlara baxmayaraq beynəlxalq səviyyədə erməni işğalçılığının bu və digər formada müdafiə olunması bəzən Azərbaycan və Türkiyəni ədalətsiz təkliflərlə qarşılaşdırırdı. Məsələn, Avropa Şurası Parlament Assambleyasının Dalğıq Qarabağ münaqişəsinə dair 1994-cü ildə verdiyi 1047 saylı qətnaməsinin 6-cı maddəsində göstərilirdi ki, «müharibə tərəflərini qaçqınların təcili əsasda evlərinə qayıtmasını təşkil etməyə və onun 1201 saylı tövsiyyəsində dəstəkləndiyi kimi azlıqların hüquqlarına hörmət etməyə çağırır və Azərbaycan və Türkiyəni onların Ermənistanla olan kommunikasiya vasitələrinin blokadasına dərhal son qoymağa təkidlə çağırır» (7).

Maraqlıdır ki, əslində milli hüquqlara hörmət etməyən, blokada vəziyyətini yaradan bilavasitə Ermənistan tərəfi idi. Burada Türkiyənin və Azərbaycanın əslində heç bir qeyri normal addımı olmamışdır. Beynəlxalq əməkdaşlıq çərçivəsində Azərbaycan və Türkiyə Parlamentlərarası nümayəndə heyətləri həmçinin ATƏT-in Parlament Assambleyasında və Avropa Şurasının Parlament Şurasında da sıx əməkdaşlıq edirlər. Türkiyə parlamentarilərinin nümayəndə heyətlərinin köməyi ilə başda deputat U.Qurkan olmaqla, Ottavada (1995), Stokholmda (1996) keçirilmiş ATƏT-in Parlament Assambleyasının sessiyasında Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi zəminində Azərbaycanın ədalətli mövqeyini əks etdirən qətnamə qəbul edilmişdir.

1996-cı ilin iyun ayında Avropa Şurası Parlament Assambleyasında Azərbaycanın Milli Məclisinin nümayəndələri xüsusi dəvət olunmuş, status almış, bunun nəticəsində hər iki dövlətin nümayəndə heyətləri bu nüfuzlu beynəlxalq təşkilatla səmələri əməkdaşlıq etmək imkanına malik olmuşdur. 1996-cı ilin yanvar ayında AŞ PA-nin sessiyasında iştirak etdiyi zaman Azərbaycan Respublikası Milli Məclisinin sədri M.Ələsgərov Türkiyənin nümayəndə heyətinin bu təşkilatdakı rəhbəri olan İ.Cemlə görüşmüşdür və onunla ikitərəfli əməkdaşlıq məsələlərini müzakirə etmişdir.(8)



Cənubi Qafqazda, xüsusilə Azərbaycanda maraqları olan Rusiya, İran, ABŞ və Qərbi Avropa dövlətlərindən fərqli olaraq Türkiyə Dağlıq Qarabağ münaqişəsinin ədalətli şəkildə, beynəlxalq hüquq normalarına müvafiq həllinin tərəfdarıdır və öz regional siyasətini həmin istiqamətdə qurur. Türkiyə istər iki tərəfli münasibətlərdə, istərsə də beynəlxalq təşkilatlar çərçivəsində daima Azərbaycanın ədalətli mövqeyini müdafiə edir. Ermənistana konstruktiv mövqe tutmaq üçün siyasi təzyiqlər göstərir, bu dövlətlə rəsmi münasibətlər qurmur və Ermənistanın işğalçılıq siyasətini beynəlxalq aləmdə tənqid edir. Ümumiyyətlə, Türkiyə Dağlıq Qarabağ münaqişəsində digər "güc mərkəzləri"nə nisbətən həmişə birtərəfli, düzgün siyasi mövqe nümayiş etdirir. Türkiyənin Azərbaycanda strateji maraqları Dağlıq Qarabağ münaqişəsinin həllinə müsbət təsir göstərir. Lakin Türkiyə münaqşənin həllində vasitəçi rolu oynamadığından bir qədər kənarda qalmaq məcburiyyətindədir.

Türkiyənin Azərbaycanda strateji maraqlarının təmin edilməsinin Dağlıq Qarabağ münaqişəsinə təsir edən müsbət tərəflərini aşağıdakı şəkildə göstərmək olar:

1.Azərbaycanla Türkiyə arasındakı tarixi dostluq və strateji tərəfdaşlıq münasibətləri Azərbaycan dövlətinin regionda siyasi mövqeyinin möhkəmlənməsinə səbəb olur;

2. Azərbaycanın NATO ilə inteqrasiyasına Türkiyə ilə münasibətləri müsbət təsir edir. Iki dövlət arasında hərbi sahədəki əlaqələr Azərbaycan ordusunun güclənməsinə xidmət edir ki, bu da gələcəkdə Dağlıq Qarabağın işğaldan azad olunması uğrunda başlaya biləcək müharibədə Azərbaycan ordusunun qələbəsinə ümid verir;

3. Türkiyənin Azərbaycanın enerji sektorunda və digər iqtisadi sahələrdəki strateji maraqlarının təmin edilməsi bu dövlətin Azərbaycana olan siyasi diqqətini artırır;

4. Türkiyənin ABŞ və Qərbi Avropa ilə hərbi-siyasi əməkdaşlığı və NATO-da iştirakı Rusiya və İranın Azərbaycana

təzyiqlərini neytrallaşdırır. Bu amil Dağlıq Qarabağ münaqişəsinin həllində Rusiya və İranın birtərəfli siyasətinin dərinləşməsinin qabağını alır;

5. ABŞ-ın xüsusi maraq kəsb etdiyi Azərbaycanın enerji layihələrinin Türkiyə ərazisindən keçməsi və bu layihələrin reallaşmasında Türkiyəyə arxalanması Türkiyənin regiondakı nüfuzunu artırır və bu amil Ermənistanın regionda işğalçılıq siyasətinin qabağını kəsir;

6. Türkiyənin Ermənistanla rəsmi əlaqələrinin qurulmaması, əlaqələrin qurulmasında Türkiyənin Ermənistan önündə Azərbaycan torpaqlarının işğalından çəkinməsi şərtini qoyması Ermənistanın Dağlıq Qarabağ münaqişəsinə dair mövcud qeyri- ədalətli mövqeyini dəyişə bilər;

7. Cənubi Qafqazın mühüm iqtisadi layihələrindən Ermənistanın kənarlaşdırılmasında Azərbaycanla Türkiyənin vahid siyasəti Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasətindən əl çəkməsinə müsbət təsir edə bilər.

Hazırda iki ölkə arasındakı münasibətlər həm ideoloji, həm də şəxsi dostluq münasibətləri əsasında inkişaf edir. Münasibətlərin inkişaf etməsini başlanğıcda qısqanclıqla qarşılayan, bunu öz ideoloji maraqlarına zidd görən təbəqələr belə fikirlərini xeyli dəyişdirmişdir.

Həm Azərbaycanda, həm də Türkiyədə sırf dövlət maraqlarını önə şəkənlər belə, çox vaxt qarşılıqlı olaraq digər ölkəni əsas strateji müttəfiq kimi təqdim edirlər. İki ölkənin ictimaiyyətləri bir birinin problemlərinə və bayramlarına ən yüksək həssaslığı göstərirlər. İctimai rəydə ən yüksək sevgi Azərbaycanda Türkiyəyə, Türkiyədə isə Azərbaycanadır. Hətta müxtəlif dövrlərdə hər iki cəmiyyətdə iki dövlətin konfederasiya təşkil etməsi mövzusu da müzakirə edilmişdir.

İki ölkə də diplomatik səviyyədə digərinin vacib məsələlərinə həssaslıq göstərməyə davam edir. Bakı-Tbilisi-Ceyhan neft kəməri, Bakı-Tbilisi-Ərzurum qaz kəməri, Bakı-Tbilisi-Qars dəmiryol xətti və digər qlobal miqyaslı layihələr iq-



tisadi əlaqələrin yüksəkliyinin nümunələrindəndir. Türkiyə tərəfinin Azərbaycan (o cümlədən digər Türk respublikalarının) vətəndaşlarına tətbiq etdiyi vizanı ləğv etməsi atılan son müsbət addımlardan biri oldu.

Ancaq münasibətlərin mövcud səviyyəsi ilə əlaqədar tənqidi məqamlar da az deyil. Ölkə rəsmiləri, bir-birlərinin problemlərinə cəmiyyətlər qədər həssas deyil. Qarşılıqlı olaraq qoyulan sərmayələr münasibətlərin potensialının altındadır. Azərbaycan hələ də Türkiyə vətəndaşlarına viza tətbiq edir. Azərbaycan-Türkiyə hərbi münasibətləri nə Ermənistanın, nə də Gürcüstanın öz yaxın müttəfiqləri ilə sahib olduqları hərbi münasibətlərlə müqayisə oluna bilməz.

## Ədəbiyyat

1. Azərbaycan beynəlxalq aləmdə - Prezident Kitabxanası www.files.preslib.az/projects/azerbaijan/gl9.pdf

2. Xarici siyasətin əsas vəzifələri və prinsiplərihttp://referat.day.az/v23364-xarc-syastn-sas

3. Abdullayev M.İ. Azərbaycan-Türkiyə əlaqələri. Bakı,1998, s. 21

4. Həsənov Ə.M. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Dərslik-Bakı, Azərbaycan, 2005, 752s, s.562-563

5. Türkiyenin diş siyaseti- www.mfa.gov.tr

6. Azərbaycan Respublikası XİN məlumatı- www.mfa.gov.az

7. Azərbaycan Prezidenti Heydər Əliyev Türkiyənin NATO-da daimi nümayəndəsini qəbul etmişdir. «Azərbaycan» qəzeti, 26 aprel 2000-ci il, №108).

8. Avropa Şurası Parlamet Assambleyası Dağlıq Qarabağ münaqişəsinə dair qətnamə 1047 (1994) Avropa Şurası və Azərbaycan Bakı-2001 səh, 204. 239 səh.).

## AZƏRBAYCANIN RUSİYA İLƏ SOSİAL-SİYASİ VƏ İQTİSADİ MÜNASİBƏTLƏRİNDƏ YENİ MƏRHƏLƏ

Azərbaycan və Rusiya arasındakı hazırkı konstruktiv dialoqun əsası Rusiya prezidenti V.Putinin ötən ilin əvvəllərində Bakıya səfəri zamanı qoyulub. Onu da unutmaq olmaz ki, bundan əvvəl Azərbaycan tərəfi xoş məramlı səyinə baxmayaraq ikitərəfli münasibətlər daha çox problemli məqamlarla müşayiət olunurdu. Bu məqamların sırasında Xəzərin hüquqi statusu, Bakı-Tbilisi-Ceyhan neft kəmərinin tikintisi, TRASEKA proqramı çərçivəsində həyata keçiriləcək Avropa-Asiya nəqliyyat dəhlizinin yaradılması, regional təhlükəsizlik problemlərinə fərqli yanaşmalar, habelə rəsmi Moskvanın Dağlıq Qarabağ probleminin həlli prosesində konstruktivlikdən uzaq mövqe tutması qeyd edilə bilər. Ədalət naminə deyək ki, eks-prezident B.Yeltsin adminsitrasiyası və hərbi-siyasi dairələrdən qaynaqlanan problemlər Vladimir Putinin hakimiyyətinin ilk anlarından etibarən neytrallaşdırıldı. Bunu cənab Heydər Əliyevin Rusiya liderinin Bakı səfərinin nəticələrinə aid fikirləri bir daha təsdiqlədi. Yəni «Biz Vladimir Putinlə MDB-nin tərkibində MDB-nin Dövlət Başçıları Şurasında birgə işimiz və görüşlərimiz zamanı kifayət qədər yaxşı tanış olmuşuq və bütün məsələlərdə çox böyük qarşılıqlı anlaşmaya gəlmişik... İndi biz hər şeydən əvvəl ikitərəfli münasibətlərimizdən, bu münasibətlərin bütün istiqamətlərdə daha da inkişaf etdirməyin zəruriliyindən danışdıq. Biz müzakirə etdiyimiz bütün məsələlərdə ümumən qarşılıqlı razılığa gəldik» - deyən prezident Heydər Əliyev Vladimir Putinin səfəri zamanı söylədiyi bu sözlər artıq ikitərəfli münasibətlərdə yeni mərhələnin başlandığını razılıqla danışıb (1, s.4-7).

Məsələni analitik təhlil edərkən belə bir nəticə çıxır ki,



yeni dövrə qədər mövcud problemlər bir neçə qrupda cəmləşir və təbii ki, ön sırada yeni reallıqlarla bağlı kompleks narazılıqlar durur. Yəni ilk növbədə o baxımdan ki, Rusiya hakimiyyəti və bəzən də ictimaiyyəti müstəqil Azərbaycan amilini, onun suveren dövlətçiliyini qəbul etməkdə çətinlik çəkirdi. Təbii olaraq 2000-ci ilə qədər ki dövrdə cəmiyyətlərin, mədəniyyətlərin, tarixin və digər amillərin zəncirvarı şəkildə bağlılığı vəziyyətindən yeni bir formaya düşməsi həmin dairələrin reaksiyasına səbəb olmalı idi. Lakin fərəhləndirici haldır ki, Vladimir Putin və Heydər Əliyevin səyi nəticəsində bu problemin həllini konstruktiv dioloq formatına yönəltmişdir.

İkinci əsas məqamlardan biri isə Xəzərin statusu ilə bağlıdır ki, V.Putin bu məsələdə öz sələflərindən fərqli mövqe nümayiş etdirdi. Beləliklə, bu da öz növbəsində ciddi irəliləyişə səbəb oldu. Azərbaycan Prezidentinin 2002-ci ilin sentyabr ayında Rusiyaya səfəri ərəfəsində sənədlərin imzalanmasına münbit şərait yarandı.

Növbəti strateji məqamlardan, yəni Azərbaycan və bütövlükdə region üçün əsas problemlərdən biri Dağlıq Qarabağ münaqişənin həlli prosesidir ki, təbii olaraq ərazidə ən böyük dövlət kimi Rusiyanın bəlkə də xüsusi maraqları var. Bu baxımdan Moskvasız konfliktin həlli mümkünsüzdür. Analitik təhlil onu göstərir ki, Vladimir Putinə qədər Rusiyanın problemə yanaşmasını imperiya ambisiyaları müəyyənləşdirirdi. İndi isə Rusiyanın dövlət rəsmiləri dəfələrlə bəyan etmişlər ki, onlar regionda möhkəm sülh və sabitlikdə maraqlıdırlar və tərəflərin nail olduqları istənilən razılaşmasının reallaşmasına kömək edə bilərlər.

Rusiya-Azərbaycan münasibətlərini daha geniş aspektdə təhlil etmək mümkündür. Lakin sadalanan problemlərin müsbət həllinə yönələn siyasət kursunun müəyyənləşdirilməsi qeyd etdiyimiz kimi hər iki dövlətin prezidentləri tərəfindən qəbul olunan variantdır və digər mövcud problemlər

də öz müsbət həllini tapacaqdır. Bu inam Rusiya prezidentinin dəvəti ilə Moskvaya səfər etmiş Azərbaycan Respublikasının prezidenti cənab Heydər Əliyevin bəyanatında ək olunub.

Həqiqətən də həmin görüşdə imzalanmış mühüm sənədlər nəinki Azərbaycan və Rusiya, eləcə də bütün region dövlətlər üçün mühüm əhəmiyyət kəsb edir. İmzalanan sənədlər içərisində Xəzərin statusu ilə bağlı müqavilə isə daha önəmlidir. Çünki Xəzər dənizinin statusu, onun sektorlara bölünməsi məsələsi artıq bir neçə müddətdir ki, gündəlikdədir və dəfələrlə müzakirə olunmuşdur.

Azərbaycan ekspertləri də həmin sənəd üzərində uzun müddət işləmişlər və nəticədə üç Xəzəryanı dövlətin mövqeyini yaxşılaşdırmaq mümkün olmuşdur. Bu yəqin ki, digər sahilyanı ölkələr üçündə nümunə olacaqdır. Doğrudan da başqa yol yoxdur. Çünki Xəzəryanı dövlətlər uzun illərdir ki, böyük bir problemə çevrilən həmin məsələnin həlli ilə məşğul olmuşlar və müxtəlif variantlar irəli sürmüşdür. Lakin çox vaxt həmin variantlar da ayrı-ayrı dövlətlərin yalnız öz maraqlarına xidmət etmiş, ya da digər tərəfin mənafeyinə uyğun gəlmədiyi üçün qəbul olunmamışdır. Etiraf etmək lazımdır ki, Azərbaycan və Rusiya arasında imzalanan sənəd beynəlxalq hüquq normalarına, orta xətt prinsipinə və digər parametrlərinə görə dünyada qəbul olunmuş standartlara uyğundur.

Məsələyə kompleks yanaşdıqda o da məlum olur ki, Azərbaycan-Rusiya münasibətlərində iqtisadi əməkdaşlıq sahəsində də müəyyən irəliləyişlər əldə olunmuşdur. Düzdür, hər iki tərəfin dövlət rəsmiləri ikitərəfli görüşlərdə iqtisadi əməkdaşlıqda daha böyük uğurlar qazanmağın mümkünlüyü fikrini vurğulasalar da, əminliklə bilirlər ki. cari ilin ilk aylarında əmtəə dövriyyəsinin xeyli artdığı müşahidə olunur və digər sahələrdə də həmin proses yüksələn xətt üzrə inkişaf edir (2).



Məsələn, keçən il Rusiya ərazisindən 2,3 milyon ton Azərbaycan nefti nəql edilmişdir. Cari ildə bu 2,5 milyona çatdırılacaqdır. 2003-cü il üçün isə neft nəqlinin müvafiq həcmi müəyyənləşdirilir və danışıqların gedişi onu göstərir ki, həm Rusiya tərəfi, həm də Azərbaycan uzun müddətli saziş imzalamaq məsələsini diqqətlə araşdırırlar.

Azərbaycan-Rusiya münasibətləri arasında iqtisadi əməkdaşlıqlardan danışarkən statistik rəqəmlərə diqqət yetirməyi də vacib hesab edirik. Təkcə 2001-ci ildə Azərbaycan-Moskva ticarət dövriyyəsi 28,7 milyon dollar təşkil etmişdir. Bu altı ay ərzində qarşılıqlı surətdə 14,5 milyon dollarlıq mal yola salmışdır.

Qeyd olunmalıdır ki, iki ölkə arasında qurulmuş xarici əlaqələr sosial-siyasi baxımdan beynəlxalq təcrübəyə əsaslanır və yüksələn xətt üzrə inkişaf edir. Bu fikir dövlət rəsmilərinin Azərbaycan-Rusiya münasibətlərinin geniş spektri üzrə ətraflı fikir mübadiləsi apardıqları qarşılıqlı maraq doğuran aktual beynəlxalq və regional problemlərin müzakirə edildiyi görüşlərə aid sənədlərin araşdırılması zamanı özünün bir daha təsdiqini tapdı. Yəni, V.Putinin hakimiyyəti dövründən başlayaraq Azərbaycan-Rusiya xarici əlaqələrində sosial-siyasi münasibətlərin tərəqqiyə doğru müsbət mənada inkişafı ölkə başçılarının 2002-ci ilin yanvar ayının 24-26-da keçirilən Moskva görüşündəki birgə bəyanatlarda da ətraflı şəkildə vurğulanır. Zənnimcə, həmin bəyanatı şərh etməklə aşağıdakı müddəalarda əksini tapmış fikirləri nəticə kimi də qəbul etmək olar (3):

— Azərbaycan Respublikasının və Rusiya Federasiyasının prezidentləri 3 iyul 1997-ci il tarixli "Azərbaycan Respublikası və Rusiya Federasiyasının Bakı Bəyannaməsi" ndə qeyd olunmuş prinsiplər əsasında ikitərəfli münasibətləri genişləndirmək və dərinləşdirmək qətiyyətində olduqlarını təsdiq edirlər. Onlar Rusiya Federasiyasının prezidenti V.V. Putinin 9-10 yanvar 2001-ci ildə Azərbaycan Respublikasına

rəsmi səfərindən sonra Azərbaycan-Rusiya əməkdaşlığının inkişafında nail olunmuş müsbət dinamikanı məmnunluqla vurğuladılar.

— Tərəflər yüksək səviyyədə Azərbaycan-Rusiya konstruktiv dialoqun müstəsna əhəmiyyətini qeyd etdilər. Onlar bununla əlaqədar iki dost dövlət arasında hərtərəfli əməkdaşlığın daha da möhkəmləndirilməsi üçün Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin Rusiya Federasiyasına dövlət səfərinin vaxtında həyata keçirildiyini və əhəmiyyətini qeyd etdilər.

— Tərəflər 11 sentyabr 2001-ci ildə ABŞ-ın ərazisində törədilmiş misli görünməmiş terror aktını qətiyyətlə pisləyərək, beynəlxalq terrorizm, ekstremizm edərək, bu təzahürlərin beynəlxalq münasibətlərdə təhlükəsizliyə və sabitliyə artmaqda olan hədə olduğunu qeyd edirlər, bu ümumbəşəri bəlanı tam şəkildə aradan qaldırılması məsələlərində ikitərəfli və çoxtərəfli əməli əməkdaşlığı inkişaf etdirmək niyyətlərini təsdiq etdilər.

— Prezident qarşılıqlı maraq doğuran məsələlər üzrə müxtəlif səviyyələrdə xarici siyasət sahəsində ikitərəfli məsləhətləşmələr praktikasının faydalı olduğunu təsdiq etdilər və onun davam etdirilməsinə tərəfdar olduqlarını bildirirlər.

— İki ölkənin rəhbərləri Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin Rusiya Federasiyasına dövlət səfəri zamanı imzalanmış ikitərəfli sənədlərin dövlətlərarası münasibətlərin daha da tammiqyaslı genişləndirilməsi və möhkəmləndirilməsi üçün etibarlı əsas olduğunu və mövcud müqavilə-hüquq bazasına yeni məzmunla tamamlayacağını qeyd etdilər.

— Azərbaycan Respublikası və Rusiya Federasiyası ikitərəfli ticarət iqtisadi əməkdaşlığın nəticələrindən məmnun olduqlarını bildirirlər, habelə bu sahədə böyük potensialını mövcudluğunu və bununla əlaqədar olaraq qarşılıqlı surətdə faydalı iqtisadi əməkdaşlığın dərinləşdirilməsinin ticarət



dövriyyəsi həmçinin artırılmasının, energetika sahəsi daxil olmaqla, iqtisadiyyatın müxtəlif sahələrində kooperasiyanın inkişafının zəruriliyini qeyd etdilər.

Onlar bununla iqtisadiyyat sahəsində ikitərəfli razılaşmanın həyata keçirilməsində İqtisadi Əməkdaşlıq üzrə Azərbaycan-Rusiya Hökumətlərarası Komissiyasının xüsusi rolunu bir daha qeyd etdilər, səfər zamanı imzalanmış "Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında 2010-cu ilədək olan dövrdə uzunmüddətli iqtisadi əməkdaşlıq haqqında müqavilə"nin mühüm əhəmiyyətini təsdiq etdilər.

Tərəflər səfər zamanı imzalanmış "Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında Qəbələ Radiolokasiya Stansiyasının ("Dəryal RLS") statusu, istifadəsinin prinsipləri və şərtləri haqqında saziş"in vacibliyini qeyd etdilər.

– Azərbaycan və Rusiyanın liderləri qarşılıqlı surətdə faydalı çoxplanlı ikitərəfli əməkdaşlığın mühüm tərkib hissələrindən biri olan parlamentlərarası əlaqələrin inkişafını məmnunluqla qeyd etdilər.

– Prezidentlər habelə "Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında Rusiya Federasiyası ərazisində daimi yaşayan Azərbaycan Respublikası vətəndaşlarının və Azərbaycan Respublikasının ərazisində daimi yaşayan Rusiya Federasiyası vətəndaşlarının hüquq statusu haqqında müqavilə"nin imzalanmasının vacibliyini qeyd etdilər.

Dövlət başçıları iki ölkə xalqlarının hərtərəfli şəkildə daha yaxınlaşmasını, mədəniyyət, elm və təhsil, informasiya, turizm və idman sahələrində əməkdaşlığın genişləndirilməsinin, habelə Azərbaycan və Rusiya xalqları arasında ənənəvi dostluq və etimad tellərinin möhkəmləndirilməsi üçün bu sahələrdə hərtərəfli mübadilənin zəruriliyinə diqqət yetirdilər.

– Prezidentlər demokratik proseslərin möhkəmləndiril-məsini, insan hüquqları və əsas azadlıqlarına riayət olunmasını hər iki ölkədə siyasi, iqtisadi, sosial və humanitar

sahələrdə həyata keçirilən islahatların dönməzliyinin mühüm şərti kimi qeyd etdilər.

– Azərbaycan və Rusiyanın rəhbərləri Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında dövlət sərhədlərinin delimitasiyası üzrə işləri müsbət qiymətləndirdilər və dövlət komissiyalarının işinin davam etdirilməsinin zəruriliyini təsdiq etdilər.

– Azərbaycan Respublikasının və Rusiya Federasiyasının prezidentləri Xəzəryanı dövlətlər arasında mehriban qonşuluğun və qarşılıqlı anlaşmanın möhkəmləndirilməsinə, onların suveren hüquqlarını nəzərə almaqla, aralarında ikitərəfli və çoxtərəfli əsasda əməkdaşlığın inkişaf etdirilməsinə hərtərəfli kömək etmək niyyətindədirlər. Onlar bununla əlaqədar beş Xəzəryanı dövlət başçılarının Türkmənistanda keçirilməsi nəzərdə tutulan görüşünə son dərəcə böyük əhəmiyyət verirlər.

Prezidentlər bütün Xəzəryanı dövlətlərin ümumi razılığı əsasında Xəzər dənizinin yeni hüquqi statusunun tezliklə müəyyən edilməsinə öz ölkələrinin səy göstərməsini bir daha təsdiq etdilər. Onlar Xəzər dənizinin hüquqi statusu haqqında məsələdə iki dövlətin 9 yanvar 2001-ci il tarixli "Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında Xəzər dənizində əməkdaşlığın prinsipləri haqqında birgə bəyannamə"də öz əksini tapmış mövqelərin yaxınlığını məmnunluqla vurğuladılar.

Azərbaycan Respublikası və Rusiya Federasiyası Xəzərin problemlərinə dair, o cümlədən Xəzəryanı dövlətlərin xarici işlər nazirlərinin müavinləri səviyyəsində xüsusi işçi qrupu formatında danışıqlar prosesinin davam etdirilməsinə tərəfdardırlar.

Prezidentlər Xəzərin hüquqi statusuna dair Xəzəryanı dövlətlərin mövqelərinin yaxınlaşması məsələsində daha bir müsbət addım olan 29 noyabr 2001-ci ildə imzalanmış "Azərbaycan Respublikası və Qazaxıstan Respublikası arasında Xəzər dənizinin dibinin bölünməsi haqqında Azərbaycan Respublikası və Qazaxıstan Respublikası arasında saziş"in vacibliyini qeyd etdilər.



– Azərbaycan Respublikasının və Rusiya Federasiyasının prezidentləri regiondakı vəziyyətə dair fikir mübadiləsi edərək, Qafqazda təhlükəsizliyin təmin olunması məsələlərində əməkdaşlığın və qarşılıqlı fəaliyyətin möhkəmləndirilməsinin zəruriliyini bir daha sübut etdilər. Onlar Qafqazda vəziyyətin normallaşdırılması, sülhün və sabitliyin bərpası, habelə münaqişələrin tezliklə sülh yolu ilə həll olunması sahəsində təsirli tədbirlər görülməsinin zəruriliyini qeyd etdilər.

Onlar bununla Azərbaycan Respublikası, Ermənistan Respublikası, Gürcüstan və Rusiya Federasiyası rəhbərlərinin müntəzəm görüşlərinin davam etdirilməsinə tərəfdar olduqlarının bildirdilər və bu görüşlərin səmərəliliyinin artırılmasının zəruriliyini qeyd etdilər.

Dövlət başçıları Azərbaycan, Ermənistan, Gürcüstan və Rusiya parlamentləri rəhbərlərinin regionda münaqişələrin həll olunmasına kömək etməyə yönəldilmiş görüşlərinin əhəmiyyətini qeyd etdilər.

– Azərbaycan Respublikası və Rusiya Federasiyası regiona münaqişələrin beynəlxalq hüququn hami tərəfindən qəbul edilmiş normalarına uyğun olaraq və ilk növbədə dövlətlərin suverenliyinin, ərazi bütövlüyünün və beynəlxalq tanınmış sərhədlərinin toxunulmazlığına riayət olunması və təmin edilməsi əsasında həllinə kömək qətiyyətini bir daha təsdiq etdilər.

Bundan çıxış edərək, iki ölkənin prezidentləri Dağlıq Qarabağ münaqişəsinin tezliklə siyasi həllinə BMT TŞ-nin müvafiq qətnamələrinin və ATƏT-in bu məsələ üzrə qərarlarının yerinə yetirilməsinə tərəfdardırlar.

Rusiya Federasiyası prezidenti Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında yüksək səviyyədə da-

vam edən birbaşa dialoqa dəstək verdiyini təsdiq etdi və bu dialoqun Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə, Azərbaycanla Ermənistan arasında sülhün bərpasına kömək edəcəyinə ümidvar olduğunu bildirdi.

Azərbaycan Respublikasının prezidenti Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə kömək etmək üçün ATƏT-in Minsk qrupunun həmsədrləri, o cümlədən Rusiya Federasiyası tərəfindən əlavə səylər göstərilməsinin zəruriliyini bildirdi.

Azərbaycan Respublikası və Rusiya Federasiyası Qafqazdakı münaqişələr nəticəsində qaçqınların və köçkün düşmüş şəxslərin tezliklə könüllü və təhlükəsiz şəkildə doğma yerlərinə qayıtmalarına kömək etməyə hazır olduqlarını bəyan edirlər. İki ölkənin prezidentləri regionla beynəlxalq nəqliyyat yollarının inkişafının mühüm əhəmiyyətini qeyd etdilər və bununla əlaqədar çoxtərəfli əməkdaşlıq üçün geniş imkanlar açan, o cümlədən quru və su yollarından istifadə etməklə Şimal-Cənub nəqliyyat dəhlizinə Azərbaycanın və Avropa-Qafqaz-Asiya (TRASEKA) nəqliyyat dəhlizinə Rusiyanın tezliklə qoşulmasına kömək etməyə qarşılıqlı şəkildə hazır olduqlarını təsdiq etdilər.

— Dövlət başçıları BMT Nizamnaməsinin məqsəd və prinsiplərinə və beynəlxalq hüququn hamı tərəfindən qəbul edilmiş digər normalarına tərəfdar olduqlarını təsdiq etdilər. Onlar strateji sabitliyin möhkəmləndirilməsi, silahlanma və tərk silaha nəzarət sahəsində mövcud müqavilələr sisteminin saxlanılması, kütləvi qırğın silahlarının və bunları daşıma vasitələrinin yayılmaması prosesinin irəli aparılması, istinasız olaraq bütün dövlətlərin təhlükəsizliyinin təmini üçün səylərin dəstəklənməsi bir daha bəyan etdilər.

— Azərbaycan Respublikasının və Rusiya Federasiyasının prezidentləri BMT, ATƏT, Avropa Şurası, MDB, digər təşkilatlar, universal və regional xarakterli formalar çərçivəsində konstruktiv qarşılıqlı fəaliyyətin genişləndirilməsinə



tərəfdar olduqlarını bildirdilər və bu əməkdaşlığın davam etdirilməsi barədə razılığa gəldilər.

— Prezidentlər iştirakçı dövlətlər arasında inteqrasiya və əməkdaşlığa inkişafı, qarşılıqlı maraq doğuran məsələlərə dair geniş fikir mübadilələri üçün Müstəqil Dövlətlər Birliyinin əhəmiyyətini qeyd etdilər.

— Dövlət başçıları aparılmış konstruktiv danışıqların qarşılıqlı etimad, dostluq və mehriban qonşuluq ruhunda ikitərəfli əməkdaşlığın dərinləşdirilməsinə müsbət töhfə verdiyini vurğuladılar.

Yuxarıda qeyd olunan müddəalara əsasən demək olar ki, Azərbaycan-Rusiya münasibətlərində yeni mərhələ uğurla inkişaf edir və buna aid deyilənləri təsdiq edən çoxsaylı nümunələr gətirmək olar. Hesab edirik ki, Rusiya-Azərbaycan münasibətlərinin inkişafında yeni mərhələnin başlanması cənab V.Putin hakimiyyətə gəldikdən sonra ikitərəfli münasibətlərdə əlverişli mühitin yaranması və Azərbaycanın Ümummilli lideri cənab H.Əliyevin siyasi uzaqgörənliyi, dövlətçilik təcrübəsi ilə birbaşa əlaqədardır.

İnanırıq ki, Azərbaycan-Rusiya münasibətlərində yeni eranın başlanğıcı xoş məramlı olduğu kimi, gələcəyi də uğurlu olacaqdır.

Prosesin ötən illərdəki inkişafının təhlili əsasında qeyd etmək istərdik ki, Rusiya Xəzərdə tarixən nüfuza malik olub. Bu mənada Qərb şirkətlərinin bu hövzəyə gəlməsini, xüsusilə ABŞ-ın regiona təsir imkanlarını azaltmaq bir məqsəd kimi Rusiya xarici siyasətinin qarşısına qoyulub. Lakin artıq dünyanın aparıcı neft şirkətləri ilə Azərbaycan hökümətinin çoxtərəfli əməkdaşlığı və bu əməkdaşlığın ən yüksək səviyyədə həyata keçirilməsi 2002-ci ildə bir daha göstərdi ki, indi Xəzərdə söz sahibi təkcə Rusiya deyil, onun sərvətlərindən dövrün tələblərinə uyğun, səmərəli şəkildə, sülh və əməkdaşlıq şəraitində istifadə edilməsini qarşıya qoyan Azərbaycan tərəfi də vardır. İkinci bir tərəfdən Xəzərdə Qərb ölkələri

ilə bu əməkdaşlıq elə bir həddə çatmışdır ki, nəinki Rusiya, hətta sahilyanı İran, Türkmənistan ölkələri də bu əməkdaşlıqda ölkələrin təmsil olunması və qarşılıqlı şəkildə iş aparılmasına can atır. Bu sahədə bü ölkələr tərəfindən missiya daha da gücləndirilmişdir. Bunun nəticəsi idi ki, Xəzərin sektorial bölgüsü ideyası artıq yeni minilliyin əvvəlində reallaşmağa başlayırdı. Azərbaycan isə bu prosesdə aparıcı mövqedə idi. Digər tərəfdən, Rusiyanın Xəzərdəki hərbi təlimləri nə Azərbaycanın, nə də Qazaxıstanın maraqlarına zərbə deyil. Çünki artıq hər üç ölkə öz sektorunun müəyyənləşməsi istiqamətində ciddi addım ataraq su hövzəsində donanma saxlamaq, hərbi təlimlər keçirmək səlahiyyətlərini özündə saxlayır. O ki qaldı Xəzərdə müharibə təhlükəsinə, Azərbaycan prezidenti Heydər Əliyev dəfələrlə bəyan etmişdir ki, Xəzərdən heç kim güc mənbəyi kimi istifadə etməməli, bu dəniz sülh və əməkdaşlıq dənizi olmalıdır. (4,s.29) Bu, bütün ölkələr üçün əhəmiyyətlidir. Ən əsası isə beynəlxalq münasibətlərin indiki mərhələsi Xəzərdə güc tətbiq etməyə yol vermir. Hesab edirik ki, bu sahədə Azərbaycan-Rusiya münasibətlərində heç bir qeyri-normal hadisə yoxdur, hər iki ölkə bu məsələdə tam anlaşmaya nail olubdur. Bunun da təsdiqi sentyabr ayı-nın 23-də Moskvaya Azərbaycan prezidentinin rəsmi səfəri zamanı iki ölkə arasında imzalanmış rəsmi sənəddə öz əksini tapdı. Xəzərin dibinin milli sektorlara bölünməsi haqqında iki ölkənin bağladığı saziş bu problemin qarşılıqlı məqbul həllinə gətirib-çıxarması yolunda mühüm addım olmuşdur. Hətta Rusiya Azərbaycan neftinin öz ərazisindən keçməsi təklifini də gündəmə çıxarmış, bu işin əhəmiyyətini vurğulamışdır. Bu da Azərbaycanla əməkdaşlığa artan meyllərin nəticəsidir. Təbii ki, Moskvada imzalanmış sazişi də analitiklər təhlil edərək müxtəlif qənaətə gəlmişlər. Bəzi mənbələr qeyd edirdi ki, bu saziş Azərbaycanı Türkmənistan və İran qarşısında tək qoydu və Rusiya öz su sektorunu müəyyənləşdirərək yaxasını kənara çəkdi. Sektorial



bölgü isə çoxdan Rusiyaya sərf edirmiş və onun hissəsində çoxlu karbohidrogen yataqları vardır. Hətta bir qədər əvvəl imzalanmış su səthinin 10 millik iqtisadi zonasından sonra ümumi istifadədə qalan və beynəlxalq su adlanması haqqında olan müqavilə də Rusiyanın xeyrinədir. Bu saziş uzun müddət eyni fikirdə olan üç ölkə- Azərbayjan, Qazaxıstan və Rusiyanın qarşılıqlı fəaliyyətinin möhkəm hüquqi bazasını yaratmış, Xəzərin statusunun beştərəfli həllinin sürətlənməsinə tezliklə nail olmağa kömək etmişdir. Bu mənada razılaşma Xəzərdəki üç dövlətin alyansını yaratdı. Həmçinin sektorlar boyu coğrafi koordinatlar müəyyənləşdirildi k, bu da siyasi jəhətdən bir neçə mübahisələrə son qoydu, İran və Türkmənistanı tutduğu mövqeyə dəyişiklik etməyə çağırdı. Sentyabrın axırında Tehran Universitetinin professoru Yines Moulai geniş məzmunlu çıxışında hazırkı vəziyyətdə İranın Xəzər məsələsndə artıq gücsüz olduğunu, hətta bu məsələdə uzun müddət yanlış yol tutduğunu xüsusi vurğuladı. Əlbəttə, bu fikrin söylənilməsi iranlı alimin hadisələrin gedişatına obyektiv baxışlarından irəli gəlirdi. Azərbaycan, Qazaxıstan və Rusiyanın isə uzun sürən müzakirələrdən sonra Xəzərin statusuna dair vahid konsepsiyası qarşı tərəfi fakt qarşısında qoymaya bilməzdi (5,s.110).

Beləliklə, son iki il ərzində Azərbaycan və Rusiya rəhbərləri bir neçə qarşılıqlı səfərlər həyata keçirmişlər. Səfərlər zamanı hər iki ölkə üçün maraq doğuran məsələlər üzrə fikir mübadiləsi aparılıb, mövcüd problemlərin həlli istiqamətində əməli fəaliyyət görülüb. Daha diqqətəlayiq hal odur ki, Xəzərin hüquqi statusunun müəyyənləşməsi yönündə aparılan diskussiyalar iki qonşu dövlətin ciddi fikir ayrılığına son qoymuş, sülh şəraitində əməkdaşlığa meyl güclənmişdir. Bax, budur reallıq. Həmin münasibətlərin və yeni eranın diqtə etdiyi əməli işlərin, gerçəkliklərin memarları cənab Heydər Əliyev və Vladimir Putindir. Aparılmış bütün işlər və qurulmuş münasibətlər öz-özlüyündə gələcəkdə böyük

perspektivlərə ümid yaradır. Bu, müstəqil Azərbaycan dövlətinin dünya birliyində özünütəsdiqinin, layiqli yerini tutmaq uğrunda apardığı məqsədyönlü siyasətin nəticəsidir.

Keçən əsrin 90-cı illərindən sonra Azərbaycan-Rusiya münasibətlərindəki strateji əməkdaşlıq və bu əməkdaşlığın yüksələn xətt üzrə həyata keçirilməsi bilavasitə Azərbaycanın xarici siyasətinin məqsədyönlü istiqamətlərindən biri kimi qarşıya qoyulmuşdur. Lakin müxtəlif illərdə iki ölkə arasında yaranmış gərginlik, eləcə də mövcud fikir ayrılıqları da istisna deyildir. Bu, əsasən, regionda sülhə təhlükə mənbəyi kimi Dağlıq Qarabağ münaqişəsinin həllində və tarixdə analoqu olmayan Xəzər kimi su hövzəsinin statusunun müəyyənləşdirilməsində Rusiya dövlətinin soyuq münasibətinin nəticəsindən irəli gəlirdi. Bu baxımdan Rusiya dövlətinin Azərbaycanla əməkdaşlığı 2001-ci ilədək müxtəlif illərdə müxtəlif səviyyədə olmuşdur. (6)

Vladimir Putinin Rusiya prezidentliyinə seçildiyi ilk vaxtlardan isə iki ölkə arasında çoxtərəfli münasibətlərin qurulması intensiv xarakter almışdır. Daha önəmlisi isə Xəzər regionu ölkələrinin milli maraqlarının kəsişdiyi bir məkanda Rusiya dövləti vahid siyasi konsepsiyaya malik olmuş öz mövqeyini Azərbaycanın mövqeyinə nisbətən üyğunlaşdırmışdır. Əlbəttə, bu sahədə 1994-cü ildən indiyədək aparılan danışıqlar çox gərgin keçmişdir. Hətta bəzi müşahidəçilər Xəzəryanı ölkələrin bu cür mövqe ayrılığının müharibə ilə nəticələnəcəyi qənaətinə gəlirdilər. Lakin Azərbaycan respublikası keçən on il ərzində beynəlxalq hüquq normalarını və region ölkələrinin milli maraqlarını nəzərə almış, ən optimal variant kimi Xəzərin sektorlara bölünməsi prinsipini indiyadək məharətlə müdafiə etmişdir.

Ancaq yeni bir problem olaraq hətta bir çox ölkələr bu hövzənin necə bölünməsinə hazır deyildilər və ilk vaxtlar proses kortəbii şəkildə getmişdir. Ümumuyyətlə, Xəzər tarixin müxtəlif dövrlərində onu əhatə edən dövlətlərin, xalqların həyatında çox böyük əhəmiyyətə malik olub. Elə bu səbəbdən də buradakı əməkdaşlığın xarakterinin qurulma prinsipi dövlətlərin qarşısında duran ən vacib məsələlərdən idi. Elə Rusiya da bu regionda nüfuz dairəsinin Xəzərin statusunun necə həll olunacağı ilə bağlılığını əsas tutaraq özünün xarıcı siyasətinda məsələni önəmli hesab edirdi.

Bəs, uzun illər Xəzərin statusu problemində Azərbaycanın irəli sürdüyü prinsiplərlə razılaşmayan və Xəzərə dəniz statusu verməklə onu ümumu istifadədə sazlamağa can atan Rusiya dövlətinin yeni minilliyin başlanğıcında siyasətində hansı dəyişikliklər mövcuddur. (7, s.41)

Maraqlıdır ki, bu dövrdə ölkələr arasında iqtisadi-siyasi münasibətlər daha da genişlənmiş, regional problemlərin həllində dövlətlər diplomatik vasitələrə üstünlük vermiş, masa arxasında danışıqların əhəmiyyəti daha da artmışdır. Xəzərin statusunun həllində ölkələrin milli maraqları və qeyri-obyektiv mövqeləri problemin həllində ciddi maneəyə çevrilsə də, bu proses də Rusiya artıq konstruktiv mövqe tutmağa başladı. İlk belə mövqeni isə hələ 2001-ci il yanvar ayının 9-da Azərbaycana səfər etmiş Rusiyanın prezidenti Vladimir Putin öz ölkəsinin rəsmi mövqeyi kimi nümayiş etdirdi. Azərbaycana səfər etmiş ilk Rusiya prezidenti kimi tarixə düşmüş Vladimir Putin digər məsələlərlə yanaşı, Xəzərin statusunun həlli haqqında geniş müzakirələr aparmış, qeyri obyektiv mövqeyindən Rusiya artıq özü uzaqlaşmağa başlamış və konkret qərqürın qəbul olunmasına ən yüksək səviyyədə cəhd göstərmişdir. Həmin mövqe "Bakı Bəyənnaməsində" öz əksini tapmaqla yanaşı Rusiya ilk dəfə olaraq Xəzərin sektorlara bölünməsini etiraf etdi. Bu da problemin həlli istiqamətində xüsusi bir mərhələ kimi qiymətləndirilməlidir. Digər tərəfdən Azərbaycanın neçə illər apardığı mübarizənin nəticəsi öz bəhrəsini vermişdir.Burada əldə edilmiş razılığa əsasən Xəzərin dibinin milli sektorlara bölünməsi və su səthinin ticarət və qarşılıqlı əməkdaşlıq baxımından

ümumi istifadədə qalması qərarı sektorlara bölünmə ideyasının gercəkləşməsinin əsasını qoyan ilk sənəd idi. Həmin dövrdən Rusiya-Azərbaycan münasibətlərində Xəzərlə bağlı yaranmış gərginlik azalmış, mövqe yaxınlığı get-gedə artmışdır. Təbii ki, bu problemdə beş Xəzəryanı ölkədən ücünün (Rusiya, Azərbaycan, Qazaxıstan) eyni mövqe nümayiş etdirməsi hadisələrin gələcək inkişafına öz həlledici təsirini göstərməyə bilməzdi. Bunun nəticəsi idi ki, ötən iki il ərzində Xəzəryanı ölkələr "status" haqqında qərarın qəbul olunması ücün ikitərəfli danışıqları daha da artırmış, problemi xırda detallarınadək müzakirəyə cıxarmışlar. Doğrudur öz milli maraqları cərcivəsində hələ də qeyri konstruktiv mövqedə dayanan İran və Türkmənistan döv-lətlərinin günahı ucbatından məsələnin həlli ləngimiş, kecirilmiş coxsaylı görüşlərdə qəti qərar qəbul etmək mümkün olmamışdır.

Bu mənada 2002-cü il yanvarın 23-də Moskvada beş Xəzəryanı dövlətlərin işci qruplarının statusun müəyyənləşdirilməsi məqsədilə kecirdikləri görüş də nəticəsiz qalmışdır. Lakin hadisələrin gedişatında İran öz mövqeyinin məqbul sayılmadığını dərk edir, ancaq bütün görüşlərdə Xəzərin 20% lik hissəsinə edilən iddia, o cümlədən Azərbaycanın sektorundakı bir necə yatağı mübahisəli sayan İran tərəfinin rəsmi nümayəndəsi Xarici İşlər Naziri Xərrazi Moskvaya səfər edərkən, daha'sonra isə Bakıda olarkən məhz bu istiqamətdə danışıqlar aparmağa calışmışdır. Lakin Moskva tərəfi bu ideyanı dəstəkləməmiş və ümumiyyətlə bu ideyanı dəstəkləməmişdir. Aprelin 22-23-də Aşqabadda kecirilən tarixi toplantıda da Rusiya dövləti Azərbaycanla eyni mövqe nümayış etdirmişdir. Ölkəmizin mövqeyinui yığcam, eyni zamanda konkret ifadə edən Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan nümayəndə heyəti cox ağır iş aparmışdır. Sammitdə yekun qərar olmasa də Vladimir Putinin bildirdiyi kimi, dövlət başcıları Xəzər regionunda qarşılıqlı fəaliyyətin bütün cəhətlərini tarixdə ilk dəfə olaraq təfərrüatı ilə mü-



zakirəyə cıxartdılar. Burada da Rusiya və Azərbaycan məsələnin müzakirəsində dəyişməz mövqe nümayiş etdirmiş və artıq Rusiya öz sektoru cərcivəsində hərtərəfli işlərin həyata kecirilməsini vacib məsələ kimi gündəmə gətirməyə başlamışdır. Buna görə də ölkə artıq Xəzərdə avqust ayından başlayaraq hərbi təlimlər kecirməyə başlamışdır. Avqustun 1-2 də Rusiyanın öz sektorunda kecirdiyi hərbi təlim SSRİ dağılandan sonra Xəzərdə kecirilən ən iri həcmli təlim idi. Burada 10 minə yaxın hərbici, 60 gəmi və karter, 30 hərbi təyyarə, o cümlədən Şimali Qafqaz Hərbi Dairəsi, Federal Sərhəd Xidmətinin Regional İdarəsi də iştirak etmişdir. Təlimin kecirilməsinə Aşqabad görüşündən az sonra Rusiya prezidenti tərəfindən verilmiş göstəriş əsasında başlanılmışdır. Doğrudur, siyasi müşahidəcilər bunu da Rusiyanın Xəzər hövzəsində ciddi təsir imkanlarının artması ilə izah edirdilər. Hətta bəzi analitiklər hesab edirdilər ki, Rusiya öz gücünü bu dənizdə hegemon rol oynaya biləcəyin Qərb ölkələrinə əyani şəkildə göstərməyə calışır (8, s.166).

В первые годы после развала СССР и образования независимых государств, отношения Азербайджана и России не имели развития, находились в стадии трения и недоверия, составляя, таким образом, конфликтные проблемы, такие, как: транзит центральноазиатских энергоносителей, строительство газопровода «Набуко», использование газопровода Баку-Тбилиси-Эрзерум, использование газопровода «Южный поток», поставки азербайджанского газа в Россию, транзит электроэнергии из России в Турцию через Азербайджан и другие.

Когда Гейдар Алиев вернулся к власти в Азербайджане, благодаря его прогностическому уму и дипломатическим способностям, ситуация начала меняться: обе страны были задействованы в общих проектах, усилилось энергетическое партнерство путем заключения прямых долгосрочных контрактов до 10 лет на взаимо-

выгодных условиях, активизировалось межрегиональное и приграничное сотрудничество регионов России и Азербайджана; российские компании вовлеклись в перспективный проект «Азери – Чыраг – Гюнешли»; стал наблюдаться рост экспорта азербайджанской нефти по нефтепроводу Баку – Новороссийск; и т.д.

Приведенная нами таблица: «Сравнительные показатели объема внешней торговли Азербайджана с Российской Федерацией, демонстрирует стабильный рост товарооборота между нашими странами. Правда доля России в общем товарообороте Азербайджана, имеет колебательный характер. Причиной этого, как видим из таблицы, активизация торгово-экономического сотрудничества Азербайджана с другими странами. По прогнозам специалистов к 2015 г. экспорт и импорт Азербайджана с Россией соответственно составит по первому варианту 590 и 1190 млн. долларов. По отношению к 2000 г. это больше на 456 и 1054 млн.долларов. По второму варианту экспорт и импорт составят 440 и 1600 млн.долларов, что на 306 и 1464 млн.долларов выше данных 2000 г.

***Таблица***

Сравнительные показатели объема внешней торговли Азербайджана с Российской Федерацией, млн.долл.

| Годы | Со всеми странами | | | В том числе с Россией, % | | | Доля России в товарообороте, % |
|---|---|---|---|---|---|---|---|
| | экс-порт | Им-порт | товаро-оборот | экс-порт | Им-порт | товаро-оборот | |
| 2000 | 1745 | 1172 | 2917 | 134 | 136 | 270 | 9.3 |
| 2001 | 2314 | 1431 | 3745 | 81 | 133 | 214 | 5.7 |
| 2002 | 2167 | 1666 | 3833 | 86 | 277 | 363 | 9.5 |
| 2003 | 2590 | 2626 | 5216 | 93 | 409 | 502 | 9.6 |
| 2004 | 3615 | 3516 | 7131 | 136 | 621 | 757 | 10.6 |
| 2005 | 4347 | 4211 | 8558 | 206 | 858 | 1064 | 12.4 |
| 2006 | 6372 | 5268 | 11640 | 259 | 1375 | 1634 | 14.0 |
| 2007 | 6058 | 5714 | 11772 | 328 | 1395 | 1723 | 14.6 |
| 2008 | 47756 | 7167 | 54923 | 411 | 1988 | 2399 | 4.4 |
| 2009 | 14699 | 6121 | 20820 | 311 | 1469 | 1780 | 8.5 |
| 2010 | 21324 | 6599 | 27923 | 386 | 1562 | 1948 | 7.0 |
| Прогноз на 2015 (I вар.) | 30000 | 10500 | 40500 | 590 | 1990 | 2580 | 6.4 |
| Прогноз на 2015 (II вар.) | 22500 | 8000 | 30500 | 440 | 1600 | 2040 | 6.7 |



## Ədəbiyyat

1. Azərbaycanın iqtisadi icmalı. "İqtisadiyyat və həyat" Bakı-1999 № 3-6, s.4-7

2. Azərbaycan-Beynəlxalq təşkilatlar bölümünə aid tarixi arayışlar) internet.

3. Emir-İlyasova E. Dünya iqtisadiyyatına inteqrasiya və beynəlxalq münasibətlər. "Dircəliş-XXI əsr" Bakı-2004, №10-11, (70-74)

4. Xəzər dənizinin bölünməsi haqqında konvensiya layihəsinin müzakirəsi. "Diplomatiya aləmi" jurnalı. Bakı-2003, iyul-sentyabr, №4, s.29-34.

5. Məmmədov R. Postsovet dövründə Xəzər dənizinin statusunun təkamülü. "Dircəliş XXI", 2001 may (s 110-127)

6. Совместное коммюнике передставителей прикаспийских государств от 04 октября 1992 года. Архив МИД Азербайджанской республики.)

7. Həsənov S. Dövlətlərarası münasibətlərdə Xəzərin sta-

tusu məsələsi. Bakı-Elm, 2002, səh.41- 66. 176 səh.

8. Heydər Əliyevin neft strategiyası. Azərbaycanın müstəqilliyi və rifahı naminə. II hissə. Bakı, Nurol, 2001, 482 s. (166)

9. Ərdəbill X.K. Sülh və siyasətin əsası kimi. Xəzər dənizinin hüquqi rejiminə bir baxış. «Amu-Dərya» jurnalı. Tehran, 2002, səh.. 4-8

10. Роберт Е. Берлс. Qafqazdan və Mərkəzi Asiyadan keçən Qərb-Şərq dəhlizi. «Dirçəliş - XXI əsr» jurnalı, 1998, № 8-9, səh.. 48-49



## MÜASİR AZƏRBAYCAN-İRAN MÜNASİBƏTLƏRİ

Müasir Azərbaycan-İran münasibətləri beynəlxalq münasibətlər və xarici siyasət kontekstində ən önəmli rola malik xüsusi fəaliyyət sahəsini ifadə edərək mühüm eyni tarixi köklərə bağlı zəruri ehtiyaclardan doğmuşdur. Hər şeydən əvvəl xarici siyasət dövlətlərin funksiyalarından biri olmaqla xalqın və ayrı-ayrı qrupların mənafelərinə xidmət göstərmək üçün zəruri xarici şəraitin yaradılmasını təşkil edir. Xarici siyasət yeridən iri dövlətlərin çoxəsrlik təcrübəsindən, beynəlxalq siyasətin humanistləşməsi, xarici siyasət, metod və siyasət təbliğatının yeni şəraitə uyğun olaraq dəyişməsi, siyasi maraqların siyasi əxlaqa söykənməsinə daha çox önəm verməsi səylərindən bacarıqla istifadə etmək kimi mühüm vəzifələri qarşıya qoyur. İndi xarici siyasət təbliğatı maşını qarşıdurma yaratmaq, müharibə və güc təbliğ etmək əvəzinə daha çox dövlətlər arasında qarşılıqlı inam və etimad təbliğ etmək, mehriban qonşuluq əlaqələrinin güclənməsinə xidmət göstərmək məqsədi daşıyır. Müasir dövrdə beynəlxalq informasiya fəaliyyətinin demokratikləşməsi vəzifəsi aktual problem kimi qarşıda durur. Bir sıra ölkələr yeni dünya informasiya qaydaları haqqında xüsusi konsepsiyalar, nəzəriyyələr irəli sürmüş və aydın şəkildə dərk etməyə başlamışlar ki, müasir demokratik beynəlxalq münasibətlər sisteminin yaradılması, beynəlxalq sabitliyin təmin edilməsi xeyli dərəcədə xalqlar və dövlətlər, onların mədəniyyətləri, məişəti, siyasətləri haqqında obyektiv, düzgün informasiya verilməyindən asılıdır. Bütün bu deyilənlərlə sıx əlaqəli Azərbaycan-İran münasibətlərinin inkişafına dair mövcud sanballı fikirləri sadalamaq və onları əsaslandırmaq hazırkı işin ümdə vəzifələrindəndir.

70 illik hökmranlığından sonra nəhayət ki, iqtisadi cə-

hətdən dayaqları laxlanmış SSRİ dövləti dağılmağa başladı. Bu dağılma labüd idi. Çünki 15 müttəfiq, 26-dan çox muxtar respublika və muxtar vilayəti, mahalları bu qapalı totalitar dövlətin tərkibində bundan artıq saxlamaq mümkün deyildi. Bu müstəqillik bizə asan başa gəlməsə də, hər halda onun çətinliklərindən yaxa qurtarmaqda köməyimizə çatan son ümid yerimiz Ümummilli Lider Heydər Əliyev şəxsiyyəti oldu. 1993-cu ildən etibarən, Azərbaycanın müstəqilliyini, totalitar rejimin "yaralarından" və "nostalji" təsirlərdən qurtararaq o, qərbyönümlü siyasi kurs yeritdi və dövlətimizi beynəlxalq arenada tanıtdıra bildi. Bu, onun Azərbaycan xalqı qarşısındakı ən böyük xidmətlərindən biri oldu. H.Əliyevin dövlətin möhkəmləndirilməsində əsas siyasi xətti qonşularla xüsusən İranla dövlət səviyyəsində yüksək əməkdaşlıq, iqtisadi, mədəni, sosial-siyasi əlaqələri genişləndirmək, bütün sərhədboyu yerləşən digər qonşu dövlətlərlə də mehriban sülh şəraitində yaşamaqla ülfət bağlamaq, dostluq, qardaşlıq ənənələri ilə bağlı mənəvi dəyərlərimizi inkişaf etdirmək məqsədləri güdürdü. Dövlətimizin öncül siyasətlərindən başlıcası 3 minillik tarixə malik olan iranlı qardaşlarımızla birgə ortaq bağlılığa malik olmağımızı dəyərləndirməkdir.

Bu qırılmaz birliyə malik bütöv bir müsəlman xalqının daxilinə "rəxnə" (nifaq) salmaq heç kimə lazım olmasa da aranı qızışdıran bəzi millət düşmənlərinə xeyirlidir. Onlar şeytan zümrəsi kimi həmişə xalqlar arasında çaxnaşmanın, münaqişələrin olmasından feyz alanlardır. İranlılarla azərbaycanlılar eyni məmləkət daxilində, eyni sosial-iqtisadi, siyasi-mədəni şərtlər daxilində yaşamış, necə deyərlər "bir qazanda qaynayıb qarışmışlar". Bu gün onların birini digərindən fərqləndirmək qeyri-mümkündür. Buraya qarşılıqlı nikahları da əlavə etmiş olsaq, onda bu yaxınlığın dərəcəsi daha da aydınlaşar.İşimizin əsas məqsədi də Azərbaycan-İran münasibətlərində insanlığa, bəşəriyyətə xeyirxahlıq, dostluq, əməkdaşlıqla xidmət etməyin bariz nümunələrini



açıb göstərmək, xalqlar arasında sülhü, əmin-amanlığı, qardaşlıq münasibətləri islam dəyərləri müstəvisində, yaxud adi rəftar, əhval-ruhiyyəmizdə və davranışımızda təbliğ, həm də təşviq etməkdir.

Azərbaycan müstəqillik əldə etdikdən sonra dünyanın demək olar ki, əksər müsəlman dövlətləri ilə əməkdaşlıq etməyə başladı. Bu bir həqiqətdir ki, gənc Azərbaycan Respublikasının beynəlxalq aləmdə tanınmasında müsəlman ölkələrinin, xüsusən Türkiyə, İran və Pakistan kimi respublikaların əvəzsiz rolu olmuş, həm də Azərbaycanı ilk tanıyan bu qəbil ölkələr ondan mənəvi və maddi yardımı da əsirgəməmişlər. İran İslam Respublikası SSRİ imperiyasından qopub ayrılan, öz müstəqil suveren dövlətini yaradan Azərbaycanı rəsmi surətdə tanıması haqqında bəyanat yaydı. O gündən etibarən İran Azərbaycanın qardaş və dost ölkəsinə çevrildi. Hələ müstəqillikdən bir qədər əvvəl, 1989-cu ildə İranın Rəşt, Rudbar və Məncil şəhərlərində baş vermiş yeraltı təkanlardan zərər çəkmiş insanların harayına ilk yetişən müsəlman azərbaycanlı qardaşlar oldu. O vaxt imperiya daxilində müttəfiq respublika olsa da, Azərbaycan öz maddi və mənəvi köməyini göstərəndə İran xalqının gözündə daha da ucalmış, böyük İran dövləti səviyyəsində bu yardım hörmətlə qarşılanmışdır. İran dünya müsəlman ölkələri içərisində özünün siyasi-iqtisadi potensialına görə sayılıb-seçilən ölkələrdən biridir. Təkcə bu günü ilə deyil, tarixi keçmişi ilə də öyünə bilən çox qədim məmləkətlərdən biri kimi İranda insanlar məskunlaşmış, burada ilk dövlət qurumları və dövlətlər yaranmışdır. Azərbaycanın Cənubi Asiyanın aparıcı dövlətlərindən sayılan, yaxın qonşu və qardaş ölkə İranın qarşılıqlı faydalı əlaqələrinə daim böyük önəm verməsi müstəqilliyimizin əbədi yaşaması, dövlətimizin iqtisadi qüdrəti üçün çox vacib və mühüm əhəmiyyət kəsb edir. Qarabağ uğrunda döyüşlərdə əsgərlərimizə kömək edən, düşmənə qarşı könüllü vuruşanların sırasında xeyli iranlı soydaşlarımız da

olmuşdur. Onların çoxu dəvət gözləmədən sadəcə vicdanlarının səsinə görə bizimkilərlə çiyin-çiyinə dayanaraq işğalçı ermənilərə qarşı cəbhədə vuruşmuşlar. Heydər Əliyev 1993-cü ildə hakimiyyətə qayıtdıqdan sonra iki qardaş ölkə arasında möhkəm əməkdaşlıq, qarşılıqlı münasibətlər genişlənməyə başladı. Başqa cür də ola bilməzdi.

Tarixçilər, həmçinin hər iki ölkənin ziyalıları gözəl başa düşürlər ki, böyük rus tufanından həmişə xalqların başı çəkmiş, rus intriqaları İranda gedən bütün dövlət islahatlarının üstünə qələm çəkmiş, ölkənin daxili işlərinə daim qarışmışlar. Bu qabaqcıl mütərəqqi fikirlər vaxtında səslənməsəydi kim bilir iri dövlətlərin zərbəsindən ziyan çəkənlər nələrə daha məruz qalmayacaqdı. Azərbaycan xalqının görkəmli mütəfəkkirləri M.Rəsulzadə və Y.Çəmənzəminli İran və Azərbaycan məsələsi ilə bağlı hər iki ölkə xalqlarının mənafeyinə uyğun qabaqcıl ideyalar irəli sürmüş, xalqların, dövlətlərin tərəqqisinə çalışmışlar. Y.Çəmənzəminli "İran və biz" məqaləsində yazırdı: "Təbriz müctəhidlərinin asılması, Məşhəddə İmam Rza qəbri-şərifinin təhqir olunması hamının yadındadır. Biçarə İran rus zərbəsindən göz aça bilmirdi ki, ölkənin rahat tərəqqisinə çalışsın. Rus yıxıldı. Rusla İran arasında Azərbaycan dövləti təşkil etdi. Rus qorxusuna qarşı Qafqaz dövlətləri döşlərini sipər edərək durdular və duracaqlardır. İran da asudə nəfəs almağa başladı. Bundan sonra bu iki qonşu və islam dövlətləri arasında dostluq hüsula gəlməlidir". [2.səh.55]

Müstəqillik qazanmış Azərbaycan üçün İran tərəfindən heç bir təhlükə ola bilməz. Çünki İran da artıq şahənşah rejimindən yaxasını qurtarmış, ayrıca müstəqil İslam Respublikası qurmuşdur. İran öz müstəqilliyinə nail olduğu 1979-cu il fevral inqilabı ilə bütün bəşəriyyətə sübut etdi ki, onun siyasi kursunda birinci növbədə qonşularla tarixi, mədəni, sosial-siyasi əlaqələrinin möhkəmləndirilməsi, sonra ölkənin daxili iqtisadiyyatını yüksəltmək, enerji istehsalı və satışını



sistemə salmaq, nəhayət öz müdafiə qüdrətini möhkəmləndirmək kimi vəzifələr durur. İran bu vəzifələrin öhdəsindən qətiyyətlə gəlməyi bacarmış, dövlətin iqtisadi cəhətdən qüdrətli bir ölkəyə çevrilməsində az əmək sərf etməmişdir. Azərbaycanın müstəqilliyə nail olduğu ilk gündən, 20 yanvar faciəsi zamanı və bu faciəli gündən dərhal sonra, həmçinin bugünkü günə qədər İran həmişə öz qapılarını Azərbaycanla sərhəd olduğu münasib əlverişli yerlərdən Azərbaycan xalqının üzünə açmış, onları xalqın tələb və təkliflərinə uyğun ərzaq və yüngül sənaye məmulatları ilə, həm də ən ucuz qiymətlərlə təmin etmişdir.

İndiki münasibətlərdən həm Azərbaycan, həm İran dövləti tam əminliklə inanırlar ki, xalqlar arasında tarixi ortaq bağlılıq onların adət-ənənələrindən, eyni dini mənsubiyyətindən, eyni tarixi kökə malik olmasından irəli gəlir. Hələ XX əsrin əvvəllərindən İranın bugünkü yüksək iqtisadi qüdrətini qabaqcadan duyub, düzgün proqnozlaşdıran Y.Çəmənzəminli yazmışdır: "İqtisadca tərəqqi etmiş İranın alıcıları artar və biz də oraya artıq mal yeritməyə müvəffəq olarıq. Müstəqil yaşayan İranın əminik ki, yolları çoxlaşacaq, nəqliyyat vasitələri gözəlləşəcək, insanların asayişi təmin olunacaq və bunların sayəsində də bizimlə İran arasında alış-veriş yüngüllük ilə yola gedəcək. Bundan da hər iki tərəf fayda görəcəkdir. Hansı nöqteyi-nəzərdən baxsaq İranın müstəqil və məsud yaşaması bizə əlverişlidir". [2.5.56]

Artıq Yusif Vəzirin gələcək üçün proqnozlaşdırdığı ideyalar gerçəkliyə çevrilmiş, İranda və Azərbaycanda xalqların bir-birinə yaxınlığı, doğmalığı daha da artmış, maddi, bəşəri və mənəvi dəyərlərin inkişafı üçün daha böyük səylər göstərilməkdədir. XIX və XX əsrin maarifçi mütəfəkkirləri, ziyalıları, şair və yazıçıları yaşadıqları dövrün ziddiyyətlərini təhlil edərkən Azərbaycan-İran münasibətləri ilə bağlı çox dəyərli ideyaları ilə ictimai-siyasi fikir tariximizdə müəyyən rol oynamış, regionda yaşayan xalqların tarixi, mədəni və dini kökləri arasında bağlı-

lıq müştərəkliklərini xüsusi qeyd etmişlər. İran mədəniyyətinə qırılmaz tellərlə calanmış azərbaycanlıların tarixi, mədəni və dini köklərini aradan qaldırmaq üçün Çar Rusiyası və sovetlər rejimi genişmiqyaslı səylər göstərsələr də bir nəticə vermədi. Elə ortaq adət-ənənələrimiz mövcuddur ki, bunların üstünə heç bir qüvvə, heç bir müqavimət yeridilə bilməz, çünki bu, elə möhkəm bağlardan hörülüb ki, yad təsirlərin şiddətlərinə həm dözümlü olması, həm də sinə gərib əks təsir göstərmək gücünə malik olmuşdur.

Azərbaycan və İran ortaq mədəniyyətlərin tarixi və dini köklərinə zərbə vurmaq, onları xalqların qan yaddaşından tamamilə silmək kimi zorakı siyasət mərhələ-mərhələ, ardıcıllıqla yeridilmiş, bu təbliğatın önündə gedənlər içərisində çox təəssüf ki, bəzi ateizm ruhunda çıxış edən "sapı bizdən olan baltalar" da az deyildi. XX əsrin əvvəlindən başlamış, Xalq Cümhuriyyətinin yaşadığı dövr (1918-1920) istisna edilməklə, 70 illik totalitar sovet imperiyasının siyasətində hər iki xalqın adət-ənənələrini buxovlayan ideyalar, təbliğatlar gücləndirilirdi. Lakin xalqın çoxminlik yaddaşlarında silinməz izlər buraxan azadlıq, müstəqillik uğrunda şəhid olmuş fədailəri yadırğalamaq mümkün deyildir. Dini təəssübkeşliyimizə, İmam Hüseyn və tərəfdarlarının sosial haqq-ədalət uğrunda gedən döyüşlərdə şəhidliklərinə dair keçirilən hər il əzadarlıq ənənələrinin üstünə qələm çəkmək xalqda bir tərəfdən qəzəb, hiddət doğursa da, digər tərəfdən gələcək mübarizə üçün əzmkarlıq, yetkinlik və mütəşəkkillik səylərinə təkan verirdi.

İctimai qanun və adətlərin hakimlik etdiyi hər iki dövlətin: Azərbaycan və İranın ortaq mədəniyyətləri bir-birindən təcrid oluna bilməz. Azərbaycanlılar daim ədəbiyyatda, folklorda, iclas və çıxışlarında hökumət tərəfindən edilən təzyiqlərə baxmayaraq, yeri gəldikcə bu milli və mədəni müştərəklikləri dəyərləndirirdilər. 70 illik sovet rejiminin təzyiqlərinə məruz qalsalar belə Azərbaycan müsəlmanları hər il Ramazan və Qurban bayramlarını, Novruz kimi el şənliklərini cənublu qardaşları ilə eyni vaxtlarda keçirmiş, eyni günlərdə qeyd etmişlər. Bu Azərbaycan xalqına əvvəllər yasaq edilsə də, illər keçdikcə xalqlar üçün, xüsusən bütün Yaxın və Orta Şərq üçün təbii sayılan bayramlar kimi qeyd edilmiş, bəzən gizli, bəzən açıq şəkildə özünü göstərməyə başlamışdı. Hələ Çar Rusiyası zamanı bu qırılmaz bağlılıq Arazın iki sahilində məskunlaşmış insanların gediş-gəlişini məhdudlaşdırsa da ciddi əngəl yaratmırdı. Avropaya yaxın olduğuna görə neft mənbələrinin kəşf olunması ilə Qafqaz ticarət və iş mərkəzinə çevrildiyi üçün, habelə təhsil almaqdan ötrü əlverişli və münasib yer olduğuna görə iranlılar, xüsusilə də İran azərbaycanlıları buralara gəlmiş və Quzey əhalisi ilə ticarət etmək, müqəddəs yerlərin ziyarəti; ya dini təhsil almaq, yaxud qohumlarını görmək üçün tez-tez sərhədi keçməli olmuşlar. Etiraf edilməlidir ki, sərhəd və pasport kimi bəzi zahiri amillər də buna mane ola bilmirdi.

Azərbaycanla İranın bir-birinə yaxın olmasının ən mühüm amillərindən biri də iki ölkədə Novruz bayramının təntənəli şəkildə qeyd olunmasıdır. Bu tarixi və təntənəli bayram Azərbaycan və İran məmləkətindən başqa bütün Mərkəzi Asiya və Çinin qərbində yerləşən Linkyanq vilayətində də qeyd olunur. Türkmənlər, özbəklər, qazaxlar, qırğızlar, azərbaycanlılar, Şimali Qafqaz türkləri, o cümlədən Dağıstanda yaşayan Dərbənd türkləri, əfqanlar, taciklər, Türkiyə, İraq və Suriya kürdləri, tatlar, talışlar, Mərkəzi Asiya və Qafqaz bəlucları, ləzgilər, lahıclar, Anadolu türkləri – bir sözlə hamı bu bayramın müqəddəsliyinə inanır və onun keçirilməsində şərikdirlər. Qazaxlar "novruz miri" mərasimi ilə, kürdlər özünəməxsus mərasimləri ilə, bütün bu geniş ərazidə yaşayan xalqlar səməni cücərtmək və sair mərasimlərlə qədim novruzu, təbiətin oyanışını qarşılamaqla bir-birinə qarışır və yeniləşirlər.

Y.V.Çəmənzəminli "Azərbaycan nağıllarının əhvali-ruhiy-

yəsi" adlı məqaləsində zərdüştiliyin xalq ədəbiyyatında nə qədər əsaslı bir mövqe tutduğunu qeyd etmişdir. Yusif Vəzir "Bürhani-qate"də deyilən: "Cənab həqq aləmi və Adəmi ol gündə (Novruz günü) xəlq elədi" fikri ilə razılaşmır. Çünki qədim Azərbaycan və İran Tövrat fəlsəfəsinə tamamilə yabançı olmuşlar. Hətta İran müəlliflərinin də "Novruz"u Cəmşid şaha mənsub elədikləri tarixi həqiqətdən uzaq görünür. Yusif Vəzirə görə Firdovsinin qeyd etdiyi əksər adlar tarixi adlar gərək olmasınlar. Yunani-qədim müvərrixlərində başqa-başqa adlar göstərilir və İran abidə və kitabələrinin son tədqiqi yunanların haqlı olduqlarını meydana çıxartdı. "Novruz"un Azərbaycan mədəniyyəti məhsulu olduğuna qaneyəm. Buna "Bürhani-qate"də işarə eləyir. İran mədəniyyətini Midiya və bilxassə Azərbaycan yaratmış və Midiya səltənəti zərdüştlüklə bərabər İrana keçmiş və əsrlərcə fars səltənəti ilə yan-yana azərilər (muğlar), məmləkətin ruhani və mədəni həyatını idarə eləmişlər". "Novruz" və başqa adətlərimiz də o zamanlardan qalmadır" [4.səh.82-85].

Bu tarixi faktlar bir daha təsdiq edir ki, Azərbaycan və İran üçün tam ortaq mədəniyyətlərin beşiyi "Avesta" ilə, daha dəqiq desək "Novruz"un zərdüştilik məfkurəsi ilə bağlılığındadır.

Bütün bunlarla yanaşı Nizami Gəncəvidən başlamış Şirvanlı Xəqaniyə qədər, Firdovsidən tutmuş Mövlana Cəlaləddin Rumiyə qədər, şirin sözlü Hafizdən tutmuş çağdaş dünyamıza qədərki olan sənətkarların yazıb yaratdıqları fars dilindən keçmə sözlər, çoxlu sayda coğrafi adların Azərbaycan dövlət dilində vətəndaşlıq hüququ qazanması, atalar sözləri, çalışqan və səmimi insanların davranışları, düşüncə tərzləri – bütün bunlar Azərbaycanla İranın dərin və tarixi-mədəni bağlılığına sübutdur.

Azərbaycanla İran arasında digər qədim bağlılıqların davamı "Şahnamə" ilə əlaqədardır. Böyük mütəfəkkir Şeyx Əbülqasım Firdovsinin səyi və bacarığı və Sultan Mahmud



Qəznəvinin müəyyən şərtləri əsasında yazılmış "Şahnamə" kimi məşhur mənzum roman XI əsrdən başlayaraq tarixə əks-səda ilə daxil oldu. Milliyyətindən asılı olmayaraq bütün müsəlman xalqların həyatında, məişətində, xüsusən Azərbaycan və İrandilli xalqların sevilə-sevilə, güclü həvəslə oxuduqları bu əsərin nüfuzu Azərbaycanda, xüsusən Bakıda yeni bir heyranedici mərhələyə qədəm qoydu və Azərbaycanı ayağa qaldırdı.

İran tədqiqatçısı Davudi Təqi Əli Reza "Şahnamə"dən azərbaycanlıların bəhrələndikləri barədə məqaləsində yazır ki, "Şahnamə onların dərdlərinə dərman idi və zövqlərini oxşadı, beləliklə Həkim Əbülqasım Firdovsinin ilhamverici və ürəkaçan bu əsəri onların (azərbaycanlıların) qədim milli ədəbiyyatına qarışdı"...

"Şahnamə" dastanlarında Firdovsişünaslıq ruhu təkcə zadəganların arasında yayılmamışdı və adi camaat da çayxanalarda və mehmanxanalarda onun təsiri altına düşmüşdü. Əlbəttə, bu mərasimlər Azərbaycanda olduğu kimi İranda da yayılmışdı. Bu mərasimlər uzun qış gecələrində eşq əhlinin munisi idi. Təəccüblüsü budur ki, azərbaycanlı "Şahnamə" oxuyanlar öz hekayələrini "Rüstəmnamə" kitabından seçirdilər. Buna görə də uzun müddət Bakıda "Şahnamə" əsəri "Rüstəmnamə" adı ilə tanınırdı... [5.səh.249]

Bütün bunlarla yanaşı ən əsası xalqların öz milli mənşəyinin haradan başlaması, "milli kimlik" sualına cavabların tapılması da müəyyən mənada "Şahnamə"nin kütləvi şəkildə oxunması və oradakı qədim xalqların adlarının çəkilməsinə böyük marağın yaranması ilə bağlı olmuşdur. İstər azərbaycanlıların, istər İrandilli və Qafqazdilli xalqların yaddaşlarına yeni biliklər, yeni məlumatlar daxil oldu. Bunların da əsas qismi "İran və Turan" məsələsinin daha dəqiq, daha müfəssəl öyrənilməsi və bunlara münasibətin bildirilməsi oldu. Əgər turançılıq başdan-başa türk xalqlarının köklü şəkildə bir-birinə yaxınlığı və doğmalılığı ehtiva edirsə, irançılıq haqqında

düşünərkən bunu bir qədər ayrı şəkildə təhlil etmək və bu məsələyə aydınlıq gətirmək lazımdır. Bir tərəfdən İrançılıq fars və farsdilli xalqların (mənşəcə fars dilinə yaxın danışan xalqların), digər tərəfdən türkdilli xalqların (türk dilinə yaxın danışan xalqların) yaşadıqları məkan, yaxud kompakt halda fəaliyyətdə olan bir ölkənin ərazisinə aiddir. Uzun illərin təcrübəsi göstərir ki, irançılıq məfkurəsi adı altında yaşayan xalqların bir-birinə dərin tellərlə bağlanmalarının, sıx münasibət bəsləmələrinin səbəbləri aydındır. Bir tərəfdən insanların birgə yaşayışında qədim adət-ənənələr, digər tərəfdən din amili olduqca böyük rola malikdir və bu doğmalığı yaradan müdrik insanların güclü səyləri, təbliğat və təşviqləri sayəsində mümkün olmuşdur. Bütün bunlar istər Azərbaycan, istərsə də İran dövlətini hər cəhətdən qane edir.

Müasir Azərbaycan Respublikasının ümdə vəzifəsi birinci növbədə öz qonşusu qardaş İran İslam Respublikası ilə ortaq tarixi, mədəni bağlılıqdan çıxış etməklə onunla sosial-siyasi əlaqələri mümkün qədər nəinki yaxşılaşdırmaq, hətta sabit saxlamaq, qarşılıqlı əməkdaşlığa günün ən vacib məsələlərindən biri kimi yanaşmaqdır. Bunu dövlətimizin rəhbəri Prezident İlham Əliyevin dövlət sərəncamlarından, məruzə, nitqlərindən aydın hiss etmək olur və bu da xalqımızın arzu və istəklərini, onun ümumbəşəri və mənəvi dəyərlərə önəm vermək hisslərindən xəbər verir.

Müasir Azərbaycan Respublikasının xarici siyasətində və beynəlxalq əlaqələr sistemində İran İslam Respublikası ilə hərtərəfli münasibətlərin yaradılması və bunun daha da inkişaf etdirilməsi prioritet məsələlərdən biridir. İki ölkə arasında münasibətlər özünün məzmunu və mahiyyətinə görə Azərbaycanın digər xarici ölkələrlə qarşılıqlı əməkdaşlıqla bağlı diplomatik-siyasi əlaqələrindən bir sıra özünəməxsus xüsusiyyətləri ilə seçilir və fərqlənir. Bu fərqli cəhətlər və şeçilmə doğmalıqdan irəli gəldiyindən iki ölkə arasında əlaqələr möhkəm əsaslar üzərində qurularaq inkişaf edir,



zaman baxımından məhdudlaşmır. Belə bir cəhəti xüsusilə qeyd etmək istərdik ki, Azərbaycan-İran münasibətlərində qarşılıqlı əməkdaşlığa önəm verilmə-si və bunun inkişaf etdirilməsində Ümummilli Lider Heydər Əliyevin xidmətləri danılmazdır.

Qloballaşan əsrimizdə müxtəlif ölkələrin milli bazarları daha çox qonşuluqdakı ölkələrlə sıx inteqrasiya olunurlar. Təbiidir ki, ölkəmizin iqtisadi əlaqələrindən söhbət gedəndə birinci növbədə Rusiya və Türkiyə və sonra ərazisinin böyük bir hissəsinin yerləşdiyi Azərbaycanın cənub qonşusu İrandan danışılır. Azərbaycanla İran arasında qarşılıqlı münasibətləri (əlaqələr) "incə mətləblər" kateqoriyasına daxil etmək olar. Lakin iki ölkə arasında qarşılıqlı əlverişli iqtisadi əlaqələrin inkişafının zəruriliyi siyasi nüanslardan bəzən də yuxarıda dayanır. Qeyd etmək olar ki, son illərin iqtisadi əməkdaşlığı iki ölkə arasında yüksələn xətlə inkişafa bir sübutdur. 2003-cü ildə Bakıda İranın işgüzar dairələrinin iştirakı ilə növbəti sərgi keçirilmiş, bundan sonra nəqliyyat sahəsində qənaətbəxş sayılan əməkdaşlıq perspektivləri zühur eləməyə başlamışdır. Belə ki, Azərbaycan Dövlət Dəmiryolu (ADDY) Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizi çərçivəsində Azərbaycan və İran Astarası arasında dəmiryol sahəsi quruculuğu layihəsinin texniki və maliyyə tərəflərini nəzərdən keçirmiş, 7 km-lik dəmiryolu çəkmək işi Azərbaycan tərəfinin "Trend"-in öhdəsinə düşdü. Tədricən bu dəmiryolu İranın Ənzəli şəhəri ilə birləşərək ölkəmiz üçün böyük əhəmiyyət kəsb edəcəkdir. Azərbaycan Dövlət Dəmiryol idarəsinin rəis müavini Musa Pənahovun dediyi kimi indiki zamanda İran tərəfi artıq Qəzvin-Rəşt-Ənzəli istiqamətində öz dəmiryol sahələrinin tikintisinə başlayıblar. Hələ birinci başlanğıc mərhələdə Rusiya tərəfi İran tərəfinə birinci olaraq yük göndərmək şərti ilə bir para işin icrasından ötrü maliyyə xərci çəkməyə hazır olduğunu öhdəsinə götürmüş, lakin ADDYİ bu işi özünün xüsusi gücü ilə görməyi qərara

almışdır. [14.səh.165]

Azərbaycan və İran energetikləri arasında hələ bundan da uğurlu əməkdaşlıq müşahidə olundu. Belə ki, Bakıda İran ekspertləri özlərinin kollegiyaları ilə elektrik enerjisi sferasında iki tərəfli əməkdaşlığın genişlənməsi və dərinləşdirilməsi məsələlərini müzakirə etdilər. Bu məqsədlə Azərbaycan Respublikasının paytaxtında İranın "Tavanir" və "Gilan" enerji şirkətinin nümayəndəsi Cənab Fərzani və AR energetika şirkətinin dispetçer departamenti "Azərenerji"nin rəisi Nurəli Yusifov qarşılıqlı marağa yönələn bir sıra məsələləri birgə nəzərdən keçirtdilər. Yuxarıda qeyd edilən 3 inzibati məkanda Astara(Azərbaycan) – Astara (İran), İmişli-Parsabad, Culfa-İran və digər layihələr üzrə müzakirələr keçirildi. Danışıqların yekunu üzrə protokolların imzalanmasından sonra bu da əlavə edilmişdir ki, tərəfimizdən qeyd olunan sahələr iki ölkə arasındakı əməkdaşlığa dair nöqteyi-nəzərləri hələ tamamilə əhatə etmir" [14.səh.165]

Qeyd edilməlidir ki, Azərbaycan və İran energetikləri arasında əməkdaşlığın nümunəsi bu gün daha uğurludur. O mənada ki, Azərenerji şirkətinin mütəxəssisləri planauyğun rejimlə Azərbaycanın başqa sahələrindən Azərbaycan Astarası və İran Astarası boyunca yüksək gərginlikli xətlər üzrə inşaat işlərini davam etdirirlər. Layihənin prinsip etibarilə yetərli mühüm şərti bundan ibarətdir ki, İran tərəfindən ayrılmış kredit vasitələri hesabına müəyyənləşdirilmiş işlər həyata keçiriləcəkdir. "Azərenerji"nin dövlət qarantiyasına ehtiyac duymadan ödənmə şərtləri adəti üzrə pulla yox, İran üçün adətən difisit sayılan Azərbaycanda isə yay vaxtlarında çoxalması müşahidə edilən elektrik enerjisinin ekvivalent həcmi ilə təmin olunacaqdır. Beləliklə, Azərbaycan və İran tərəflərinin qarşılıqlı əlverişli əməkdaşlığını yoluna qoymaq üçün yetərli qədər öz ərazilərində təmas nöqtələri vardır. Bu bir faktdır ki, 9 mart 2004-cü il tarixdə İran İslam Respublikasının Şərqi Azərbaycan əyalətinin Culfa şəhərində avtomobil yük və sərnişin terminalı istifadəyə



verilib. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbovun başçılığı ilə Azərbaycan nümayəndə heyəti açılışda iştirak edərək terminalın dünya standartları səviyyəsində tikilməsi ilə tanış oldular. Nümayəndə heyətinə bu yeni xidmət obyektinin fəaliyyəti və maddi-texniki bazası haqqında müfəssəl məlumat verildi. Mərasimdə çıxış edən Vasif Talıbov dedi ki, İran şəhəri olan Culfada belə bir Terminalın yaradılması bizim ölkələr arasında bundan sonrakı əlaqələrin inkişafında əlverişli rol oynayacaqdır. Azərbaycan-İran münasibətlərinə xüsusi diqqətin verilməsi barədə Ümummilli Lider Heydər Əliyevin sözlərini xatırlayaraq Ali Məclisin sədri qeyd etdi ki, Naxçıvan Muxtar Respublikası və Şərqi Azərbaycan İran əyalətinin mədəniyyət müəssisələri və universitetləri arasında sıx dostluq əlaqələri formalaşmışdır. Şərqi Azərbaycan İran əyalətlərinin dövlət orqanları, Azərbaycan və İran səfirləri, Naxçıvanda qonşu ölkələrin ali konsulluqları bu əlaqələrin səmərəli fəaliyyətini yüksək qiymətləndirirlər, Talıbov daha sonra demişdir: "Bizim əlaqələrimiz nəinki iqtisadi münasibətlərin, həmçinin ənənəvi, tarixi, dini dəyərlərin inkişafının mühüm göstəriciləri kimi təşəkkül tapacaqdır" [16.səh.3].

Qarşılıqlı faydalı əlaqələrin inkişafı ilə bağlı 6 avqust 2004-cü il tarixində Azərbaycanın Daxili İşlər Naziri Ramil Usubov, İran Daxili İşlər Naziri Seyid Əbdülvahid Müsavi-Larininin başçılıq etdiyi nümayəndə heyətini qəbul edərək xalqlarımız arasında çoxəsrlik əlaqələrin mövcudluğu haqqında danışmış və bildirmişdir ki, ölkəmizin müstəqillik qazanmasından sonra yaranmış sıx dostluq və mehriban qonşuluq münasibətlərinin əsası bizim Ümummilli Liderimiz Heydər Əliyevin 2002-ci ildə İran İslam Respublikasına rəsmi görüşü zamanı qoyulmuş, ölkələrin başçısı İlham Əliyev və Məhəmməd Xatəmi tərəfindən daha da genişləndirilmişdir. Qeyd edilmişdir ki, bizim ölkələr arasında inteqrasiya proseslərin nəticələri özünü bir çox sahələr üzrə göstərməkdə və doğrultmaqdadır. Belə bir şəraitdə hüquqmühafizə

orqanları, xüsusən daxili işlər orqanlarının ictimai təhlükəsizliyi təmin etmək baxımından öhdəsinə böyük məsuliyyət düşür. Nazir R.Usubov buna ümid etdiyini bildirdi ki, "bu görüş tamamilə bizim ölkələrimizin inteqrasiya proseslərinə, dostluq münasibətlərinə uyğundur və əməkdaşlıq bundan sonra daha da genişlənəcəkdir". [17.səh.4]

Respublikamızda dövlət müstəqilliyinin, demokratik prinsiplərinin möhkəmləndirilməsi, bazar münasibətlərinin inkişafı, genişmiqyaslı iqtisadi islahatların aparılması, ictimai münasibətlərin hüquqi nizamlanması mexanizminin təkmilləşdirilməsi kimi məsələlər sadalanmış və qeyd olunmuşdur ki, hüquqmühafizə strukturları mütəşəkkil cinayətkarlığa, beynəlxalq terrorçuluğa, ekstremistlərə, separatçılara, qanunsuz silah dövriyyəsi və narkotik vasitələrə qarşı sıx qarşılıqlı əlaqədə kompleks tədbirlər həyata keçirirlər. Daxili İşləri Naziri ümid etdiyini bildirdi ki, qarşılıqlı faydalı əlaqələr ölkələrimizin, beynəlxalq təhlükəsizliyin təmini işinə xidmət edəcəkdir.

İran İslam Respublikasının Daxili İşlər Naziri Musavi Lari çıxışında belə bir inam ifadə etdi ki, bu cür görüşlər və imzalanmış sazişin tezislərinin yerinə yetirilməsi əslində ölkələrimizin maraqlarına tamamilə uyğundur və əlaqələrimizin sonrakı inkişafına kömək edəcəkdir. Bütün bu görüşlərdən əldə edilən nəticələr xalqlarımızın hazırkı və gələcək inkişafını daha da sürətləndirən, əhəmiyyətini dönə-dönə artıran vasitələrdir. Bu xüsusda əsas istiqamət xəttini müəyyənləşdirən Azərbaycan üçün başqa yol ola bilməz. Ölkəmiz bu yolun İran üçün də sabit, dəyişilməz olaraq qalacağına inanır. [17.səh.4]

Noyabr 2005-ci ildə İran Xarici İşlər Nazirinin başçısı Manuçehr Mottəki ilə Azərbaycan Prezidenti İlham Əliyevin, parlamentin spikeri və nazir Elmar Məmmədyarovun arasında olan ikigünlük rəsmi görüşdə qaz və nəqliyyat, həmçinin bir sıra beynəlxalq problemlərlə bağlı əməkdaşlıq məsələləri müzakirə edildi.



İran nümayəndə heyəti ilə görüş olduqca məzmunlu və səmərəli mahiyyət daşımış, Mottəkinin Azərbaycana gəlişindən sonra iki ölkə üçün çox zəruri sayılan iqtisadi layihələr iqtisadi əməkdaşlıqla əlaqədar hökumətlərarası komissiya iclaslarının keçirilməsi haqqında bağlanılan saziş əsasında müzakirə edilmişdir. Xüsusilə Azərbaycan-İran danışıqlarında əsas diqqət Azərbaycan üçün çox da hakim rol oynamayan Şimal-Cənub nəqliyyat koridorunun inkişafı üzrə işlərin intensivliyinə yönəldildi. Azərbaycan Xarici İşlər Nazirliyində Azərbaycan vətəndaşları üçün İran ölkəsi tərəfindən viza rejiminin asanlaşdırılması üzrə danışıqların nəticələri müsbət qiymətləndirildi. Həmçinin Naxçıvan Muxtar Respublikasına yanacaq, elektrik problemlərinin həllində, Azərbaycanı İranla birləşdirən və onun Fars körfəzinə birbaşa çıxışını təmin edən dəmiryol quruculuğu üzrə məsələlər də bəyənildi. Maraqlı və əhəmiyyətlisi budur ki, Azərbaycan xalqı bütünlükdə onlar üçün ayrılan təmas nöqtəsində, məsələn Astara, Biləsuvar, İmişli və Naxçıvandan İrana müxtəlif zəruri ehtiyaclarına görə gedir, bu azad sərbəst gedişlərə görə hər iki ölkənin prezidentlərinə, dövlət xadimlərinə təşəkkürlərini bildirirlər. Elektrik enerjisi və qaz sahəsində Azərbaycanla İran arasında gedən danışıqlarda başqa bir əhəmiyyətli nöqtə də mövcuddur. Əgər Rusiyadan aldığımız qazın qiymətində bahalıq müşahidə edilsə, bunu bizə daha ucuz başa gələn İran qazı ilə reallaşdırmaq planlaşdırılmışdır. Bu, 20 dekabr 2005-ci il tarixində Naxçıvan Muxtar Respublikasında Azərbaycan prezidenti İlham Əliyevin dəvəti ilə İran prezidenti Mahmud Əhməd Nicatın Naxçıvandakı görüşlərində onunla aparılan söhbətlərindən məlum olmuşdur. Elektrik enerji sahəsində qarşılıqlı faydalı əməkdaşlığın Azərbaycan və İran arasında daha da genişləndirilməsi günün ən zəruri məsələlərindən biri kimi dəyərləndirilir.

Enerji təsisatının (idarəsinin) iş prinsipi qışda Azərbaycan tərəfinin İrandan enerji alması, yayda isə İranda enerji sistemində güc defisiti müşahidə edildiyindən Azərbaycan tərəfinin eyni həcmdə ona elektrik enerjisi qaytarması ilə razılaşdırılmışdır.

İran energetikləri ilə qarşılıqlı münasibətlərin dərinləşdirilməsi üzrə birgə layihələrin reallaşdırılması vasitəsi və elektrik enerjisinin beynəlxalq sistemli xətlərdən daşıma qabiliyyətinin artması Azərbaycan dövlətinin prioritetidir və prezident İlham Əliyevin regionların sosial iqtisadi dövlət proqramlarının təsdiqində öz əksini tapmışdır.

Bu istiqamətlərin prioritetliyinə, respublikada enerji problemlərinin həllinə dair dövlət diqqətinin olmasına daha bir sübut Azərbaycan-İran qarşılıqlı faydalı işgüzar kontaktların inkişafı və onun genişləndirilməsidir.

Azərbaycan prezidenti İlham Əliyev tərəfindən təsdiq olunmuş «Azərenerji»nin iqtisadi ticarət məsələsi və humanitar sahə üzrə Azərbaycan-İran dövlət komissiyasının Azərbaycan nümayəndəliyi yeni tərkiblə işə başlamağı planlaşdırmışdır. Layihələrin və digər sənədlərin ixtisasçı energetiklərin iştirakı, ekspertlərin rəyinə əsasən birgə hazırlanmasında iki qonşu və qardaş ölkə arasında elektrik enerji əlaqələrinin genişləndirilməsi mühüm proqramların reallaşmasının müsbət təzahürüdür.

Qarşılıqlı əməkdaşlığı təkcə bir neçə sahə ilə məhdudlaşdırmaq olmaz. İki qonşu və qardaş ölkənin maddi və mənəvi yaxınlığını şərtləndirən çox şeylər mövcuddur. Ölkələrin tərəqqisi, inkişafı həm də onların təhlükəsizliyinin, əmin-amanlığının təminində başlıca rol oynayır. Ölkələrdə siyasətin humanistləşdirilməsi, əxlaqa söykənən siyasətə daha çox meyliliyin yaranmasında xalqların istək və arzularının nəzərə alınması tədrici təkamülü bir prosesə bağlıdır. Bu sahədə ölkəmizdə saysız-hesabsız işlər tədbirlər həyata keçirilsə də mövcud vəziyyətlə barışmayan, hər iki ölkədə



neqativ işlərin ardınca gedən qüvvələr çox təəssüf ki, var və bunlar dünyanın bütün ölkələrində təbii olaraq mövcuddur. İki qonşu və qardaş ölkənin səmimi münasibətlərinə xələl gətirmək bu cür qüvvələrin əlində bir əyləncə kimidir. Ən çətin, ən ağır mübarizə anlarında belə biz öz xalqımızın sağlam təfəkkürlü vətəndaşlarını iqtisadi, mədəni, dinc quruculuq münasibətləri ilə bir-birinə həyan olmağa alışan qonşularımızla daim sülh, əmin-amanlıq, birgə qarşılıqlı faydalı əməkdaşlıq şəraitində yaşamağın ənənəvi yolları ilə maarifləndirməli, qonşularımızın, xüsusən İranla dostluq, qardaşlıq münasibətlərimizi qoruyub saxlamalıyıq.

2012-ci ilin martın ortalarında Azərbaycan Respublikası İranla münasibətlərində bir daha mehriban qonşuluq və dostluq siyasətinə tərəfdar olduğunu nümayiş etdirdi. Regionda stabilliyin qorunması naminə Azərbaycan İran hərbi əməkdaşlığının genişlənməsinin zəruriliyi barədə Azərbaycan Respublikasının müdafiə naziri, general - polkovnik Səfər Əbiyev Nazirliyin mətbuat xidmətində İranın müdafiə naziri general-mayor Əhməd Vahidi ilə hələ görüşünün ərəfəsində öz fıkrini bildirmiş və demişdir: «Azərbaycan və İran arasında münasibətlərin böyük tarixi vardır. Biz yalnız qonşu və dost ölkə olmamışıq. Bizim xalqları ümumi tarixi, dini, mədəni dəyərlər birləşdirir. Azərbaycan və İran rəhbərliyinin siyasi iradəsi sahəsində ölkələrimizin arasında əlaqələrin inkişafı üçün yaxşı imkanlara nail olmuşuq. Prezident İlham Əliyev və Mahmud Əhməd Nicat arasında dostluq münasibətləri, iki ölkə arasında hərtərəfli əməkdaşlığın inkişafında xüsusi töhfədir».[21.səh.6]

Azərbaycan və İran İslam Respublikası arasında diplomatik münasibətlərin qurulmasının 20 illiyinə toxunaraq Səfər Əliyev qeyd etdi ki, "20 il ərzində mövqelərimizdə birlik və əməkdaşlıq müşahidə edilmiş, bunlar beynəlxalq təşkilatlar, istərsə də ikitərəfli münasibətlərin çərçivəsində qarşılıqlı maraqlara cavab vermişdir. İran tərəfindən dövlət-

lərimizin ərazi toxunulmazlığının müdafiəsi böyük əhəmiyyətə malikdir". [21.səh.6]

Dağlıq Qarabağ probleminin həlli yollarının optimal variantları üzərinə kölgə salanlar da az deyil. Azərbaycan ərazisinin 20%-ni işğal edərək, problemin sülhlə nizama salınmasının cəhdlərinə ciddi maneə yaradan Ermənistanın işğalçılıq siyasəti Azərbaycana qarşı ciddi təhlükədir. Bunun əsas səbəbini beynəlxalq ictimaiyyətin Ermənistanı təcavüzkar kimi tanımaması, habelə işğalçıya iqtisadi və hərbi yardım edilməsi ilə əsaslandıran Müdafiə naziri bütün yaranmış təhlükələrə görə Azərbaycan Ordusunun müvəffəqiyyətli inkişafını zəruri hesab etmişdir. "Biz öz torpaqlarımızı hərbi yolla azad etməyə qadirik, şübhə ola bilməz ki, işğaldan bu ərazilər azad ediləcəkdir. Buna nail olmaq üçün region dövlətləri qarşılıqlı əsaslar, bərabərlik prinsiplərini təmin etməli, səylərimizin bu istiqamətə yönəlməsinə cəhd göstərməlidir". [21.səh.6]

Səfər Əbiyevin iki ölkə arasındakı tarixi dostluq ənənələri ilə bağlı çıxışları bir daha sübut edir ki, ədalətsizliyi daim qamçılayan, ona qarşı daim etirazları bildirməyə hazır olan İran kimi nəhəng dövlət Azərbaycanın əzəli və əbədi dostu, qardaşı, mehriban qonşusudur. Bir birinə tarixi məlum bilgilərlə bağlı Azərbaycan - İran münasibətlərinə, onların arasında hərtərəfli əməkdaşlığın inkişafına və tərəqqisinə stimul yaradan mütəmadi əlaqələrimizin genişləndirilməsi zəruridir. İranla xeyirxah qonşuluq və dostluq siyasətin əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş və İlham Əliyevin müvəffəqiyyətlə davam etdirdiyi, İran dövlət başçısı Mahmud Əhmədnicatın ikitərəfli münasibətlərin möhkəmləndirilməsində göstərdiyi səylərə daha bir sanballı töhfədir. Azərbaycan-İran münasibətləri böyük potensiala malikdir; bunu inkişaf etdirmək ölkələrimizin Milli maraqlarının tərkib hissəsidir.

Ümumiyyətlə, araşdırılan məsələlərdən belə bir nəticə



çıxarmaq olar ki, son 10 il ərzində Azərbaycan-İran münasibətləri bəzən mürəkkəb, bəzən mülayim, bəzən də tərəfləri razı salan istiqamətdə inkişaf etmişdir. İki ölkə arasında münasibətlərin inkişafı üçün çoxsaylı sənədlərin imzalanması ilə əsaslı hüquqi zəmin yaradılmışdır. Hələ Sovet dövründə 1980-ci ildən başlamış Qafqaz və Mərkəzi Asiyadakı dövlətlərin müstəqilliyinin 1997-ci ilinə kimi İran Xarici işlər naziri işləmiş Əkbər Vilayətinin sözlərinə görə İran İslam Respublikası əmin olmuşdur ki, regional əməkdaşlığı regionda təhlükəsizlik, sabitlik və sülhün yeganə qarantı kimi əsas tutaraq məhz bu istiqamətdə Qafqaz və Mərkəzi Asiya dövlətləri arasında iki və çoxtərəfli münasibətləri inkişaf etdirmək vacibdir. Bu tarixi faktlara sığınmaqla Azərbaycan İranla 1997-ci ildən tam bu günə kimi münasibətlərdəki əməkdaşlığı tənzimləyən çoxsaylı müqavilə, saziş, protokol və layihələr imzalamışdır. Hər iki dövlətin əsas vəzifəsi bu sənədlərdə təsbit olunan vəzifə və öhdəliklərin yerinə yetirilməsinə vicdanla yanaşmaq, onları vaxtında və yüksək səviyyədə icra etməkdir. Sənədlərin yerinə yetirilməsində beynəlxalq hüququn normalarına uyğun prinsiplərə riayət etmək hər iki ölkənin milli mənafeyi və dövlət maraqlarından doğur. Azərbaycan İran xalqlarının Milli mənafeyi bu dövlətlərin münasibətlərinin bərabərlik və qarşılıqlı hörmət prinsipləri üzərində daim yüksələn xətt boyu inkişafını irəli sürür. Bundan ötrü hər iki tərəfin kifayət qədər imkanları vardır. Aparılan təhlil göstərir ki, dövlət rəsmilərinin səfərləri qarşılıqlı faydalı əməkdaşlığın bütün sahələri ilə bağlı münasibətlərdə və onların inkişaf etdirilməsində mühüm rol oynayır və bunların davam etdirilməsi vacibdir.

## Ədəbiyyat

1. Qurani-Kərim. Azərnəşr, 1992, 710 səh.
2. Y. V. Çəmənzəminli Müstəqilliyimizi istəyiriksə...Bakı,

Gənclik, 1994, səh.55

3. Mürtəza Mütəhhəri "İslam dünyagörüşü, 4-6-ci cild, 2000-ci il, Məhdiyyə nəşriyyatı

4. Y.V.Çəmənzəminli, əsərləri, 3 cilddə, üçüncü cild, "Elm" nəşriyyatı, Bakı, 1997, 326 səhifə.

5. Davudi Təqi Əli Rıza. İran və Azərbaycan arasında bağlılıq müştərəklikləri. Azərbaycan MEA Fəlsəfə və Siyasi hüquqi tədqiqatlar İnstitutu. Sosial-siyasi problemlər. № 3(16), Bakı-2007

6. Həsən Şirəliyev Əli Əhmədov. Politologiya Dərslik "Təbib" 1997, 4/6 səhifə,340-350; 351-352

7. Əlikram Tağıyev. Siyasətdən müntəxəbat. "Təknur", 2011, 150 səh.

8. Əlikram Tağıyev. Siyasət və Zaman. "Səda", Bakı, 2009, 117 səh.

9. Sosial – siyasi problemlər. Elmi-nəzəri jurnal, №1(18), Bakı-2008.

10. Sosial – siyasi problemlər XII buraxılış, Bakı – 2004.

11. Sosial- siyasi problemlər Elmi-nəzəri jurnal. № 3 (16), Bakı – 2007.

**Rus dilində jurnallar və qəzetlər**

12. Центральная Азия и Кавказ, журнал , 220 стр. стр 108-115.

13. Россия и мусульманский мир,журнал, 2003-9 (135), Москва 2003, 172. Азербайджан. Взаимовыгодное сотрудничество с Ираном стр 153-158.

14. Россия и мусульманский мир 2009-3 (141), Москва, Экономические связи Азербайджана с Ираном. Стр.163-166.

15. «Зеркало» газета, № 221, суббота, 03 декабрь, 2002, Горевать да меру не мешает знать… Синдром помпезности на свадебных и траурных церемониях; реальность, истина и выход из положения.



16. Бакинский рабочий, газета, 11 марта, 2004 года, Связи Азербайджана и Ирана развивается.

17. Бакинский рабочий, 7 августа, 2004 года, взаимовыгодные связи правоохранительных органов Азербайджана и Ирана служат интересам наших стран.

18. Независимая, среда, 30 ноября, 2005 года. Ирано-Азербайджанский обмен любезностями.

19. Независимая, 21 декабря, 2005 года, Иранская страховка для Ильхама Алиева.

20. Бакинский рабочий, 29 июля. 2006 года, Азербайджан и Иран напрашивают взаимовыгодное сотрудничества в электроэнергетическое сфере.

21. Бакинский рабочий, 14 марта, 2012 года Сафар Абиев; «Расширения азербайджано-иранского военного сотрудничества послужит восстановлению стабильности в регионе».

22. Рамин Мехманпараст: «Тегеран продолжает тесное сотридничество с региональными и соседними государствами».

## Nəticə

Politologiya və siyasi sosiologiyanin aktual problemlərinin bir sıra istiqamətlərinin araşdlırılmasından məlum olur ki, bu elmlər qarşılıqlı mühakimənin, qlobal dəyərlərin harmoniyasında cəmiyyətdəki prosesləri vahid bir sistem kimi əlaqələndirməyə və öyrənməyə öz töhvəsini verir. Azərbaycanda və dünyada sosiallaşmanın və cəmiyyətin siyasi konfiqurasiyasının elə mərhələsi gündəlik həyata daxil olmuşdur ki, burada baş verən proseslərə daha həssas və operativ yanaşmaq iradəsi və intellkti formalaşmalıdır. Bu isə sanballı tədqiqatların, fundamental elmi əsərlərin qarşısına qoyulan tələb olaraq qalmaqdadır. Odur ki, siyasi elmlərin, habelə politologiya və siyasi sosiologiyanın qarşıya qoyduğu problem-

lərin elmi əsaslandırılması həm də cəmiyyətin siyasi sosiallaşma problemlərinin müasir şəxsiyyətin formalaşmasının, demokratik dəyərlərin və habelə ölkəmizdə inzibati siyasi elitanın formalaşması məsələsinn dərindən öyrənilməsi zərurətini ortaya qoymuşdur. Araşdırmalar vahid istiqamətə yönəldilərək bunlar hər ikisi bir-biri ilə qarşılıqlı şəkildə təhlil edilir. Topluda bu istiqamətdə gəlinmiş qənaətlər və ortaya qoyulmiş mülahizəlıər əsaslı nəticələrlə xarakterizə edilmişdir. Müasir geosiyasi proseslərin təhlili də bu baxımdan diqqətcəkəndir. Bu proseslər cəmiyyətin hətta dövlətin iqtisadi, sosial-siyasi həyatına təsirsiz deyildir. Cəmiyyətdə baş verən hər bir sosial dəyişiklik və müasir qlobal dəyərlərə münasibət siyasi münasibətlərin xarakterindən və mahiyyətindən daha cox asılıdır, ya da əksinə. Bu baxımdan topluda ölkəmizin digər ölkələrlə münasibətlərinin yeni mərhələdə xarici siyasət kontekstində və münasibətlərdəki sosial-siyasi amillərin rolunun geniş təhlil edilməsinin və nəticələrinin araşdırılması tədqiqatçılarımızın baxışlarının müsbət tərəflərindəndir.



## AMEA FƏLSƏFƏ, SOSİOLOGİYA VƏ HÜQUQ İNSTİTUTU "POLİTOLOGİYA VƏ SİYASİ SOSİOLOGİYA" ŞÖBƏSİ

Şöbə 2003-cü ilin sentyabrından fəaliyyət göstərir. Şöbə bütövlükdə dünyada və xüsusilə Azərbaycanda baş verən siyasi proseslərin tədqiqinin aktuallaşması, eləcə də keçid dövrü şəraitində insanların müstəqil siyasi fəaliyyətə cəlb olunması siyasi proseslərin araşdırılmasının formalaşması zəruriliyi ilə şərtlənirdi. Odur ki, bütün bunları nəzərə alaraq İnstitutda "Politologiya" şöbəsi yaradıldı və fəaliyyətə başladı.

2003-2011-ci illərdə şöbəyə fəlsəfə elmlər doktoru, professor Əlikram Tağıyev rəhbərlik etmişdir.

Hazırda şöbəyə fəlsəfə elmləri doktoru Rəna Mirzəzadə rəhbərlik edir.

Şöbə əməkdaşları yaxın perspektivdə aşağıdakı istiqamətlərdə: retropolitoloji problemlərin öyrənilməsi, komperativ politologiya, etnopolitologiya, hərbi-siyasi politologiya problemləri, geopolitologiya, siyasi mədəniyyət və siyasi şüur, konfliktologiya, siyasi lider və siyasi ideologiya, siyasi maraqlar və mənafelər, siyasi sistemlər və siyasi hakimiyyət, siyasi inkişaf və siyasi modernizasiya, demokratiya və legitimlik, siyasi informasiya və proqnozlaşdırma məsələləri, siyasi institutlar, seçkilər, insan hüquqları, siyasi inkişaf və siyasi modernizasiya və s. elmi-tədqiqat işlərinin realizə olunmasında fəal iştirak edir.

"Politologiya və siyasi sosiologiya" şöbəsində hazırda 26 əməkdaş fəaliyyət göstərir. Şöbə əməkdaşları sırasında 5 elmlər doktoru, 9 fəlsəfə doktoru vardır. Əməkdaşlardan 1-i doktorluq dissertasiyasını artıq müdafiə etmişdir, 10 nəfəri isə namizədlik dissertasiyası üzərində çalışır. Onların əksəriyyəti müzakirəyə təqdim olunmuşdur.

Fəaliyyəti dövründə şöbədə 3 doktorluq, 20-dən çox

namizədlik dissertasiyası müzakirə olunaraq müdafiəyə təqdim edilmişdir. Onlardan 1 doktorluq, 6 namizədlik dissertasiyası artıq müdafiə olunmuş, qalanları isə müdafiə ərəfəsindədir. Bu illər ərzində 30-a yaxın monoqrafiya, "Sosial-siyasi problemlər" adlı 12 məqalələr toplusu, politologiyanın aktual problemlərinə həsr olunmuş bir çox elmi məqalə və lüğətlər çap olunmuş, onlarla seminar və konfranslar keçirilmişdir.

**Ünvan:** **H.Cavid 31.**
**AMEA Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutu (4-cü mərtəbə)**

**Əlaqə tel:(012) 537 22 79**



Təknur

Çapa imzalanmışdır: 22.07.2013.
Formatı: 60x84 1/16. Həcmi: 12 ç.v.
Sifariş 44. Tiraj 100.
«Təknur» MMC-nin mətbəəsində hazır elektron variantdan ofset üsulu ilə çap olunmuşdur.

Mətbəə kitabın məzmununa, yazı üslubuna, orfoqrafiya və qrammatikasına görə heç bir cavabdehlik daşımır.

**Mətbəənin direktoru:** Ələkbər Məmmədov

**Ünvan:** Bakı ş., Qanlı Gölün Qərb sahili, 125.
Telefon: 408-86-23.